YUSİF BALASAQUNLU

# QUTADQU BİLİK

*(poema)*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Bakı – 2003

84(5Ty-4)
Az
B 23 2

Tərcümə edəni və ön sözün müəllifi **XƏLİL RZA ULUTÜRK**
Nəşrə hazırlayanı **"Araz"** ali ədəbi, Xəlil Rza Ulutürk və akademik Yusif Məmmədəliyev mükafatları laureatı
**Firəngiz xanım Ulutürk**

Elmi redaktoru və ön sözün müəllifi
filologiya elmləri doktoru, professor
*Kamil Vəli Nərimanoğlu*

Redaktoru **Zülfüqar Şahsevənli**

**Balasaqunlu Y.**
**B 23** Qutadqu bilik (poema). B., Gənclik, 2003. səh. 404.

Əziz oxucu, türk dünyasının böyük oğlu, görkəmli xalq şairi Xəlil Rza Ulutürkün tərcüməsində sizə təqdim etdiyimiz bu kitab türkdilli xalqların möhtəşəm abidəsidir. XI əsrin yadigarı – Yusif Balasaqunlunun "Qutadqu bilik" (Sadət gətirən elm) kitabında ayrı-ayrı sinif, təbəqə və zümrələrin əxlaqı, dünyagörüşü, borcu, məsuliyyət dərəcəsi, imtiyazları, Allah və bəndə qarşısında başlıca vəzifələrinin nədən ibarət olduğu poetik dillə verilmişdir.

Hər bir türk qızı üçün ər evinə cehiz kimi aparılan bu kitab ən böyük, ən müqəddəs hədiyyədir. Ən ali əxlaqi dəyərləri əks etdirən "Qutadqu biliy"i türk dünyasının möhtəşəm Əxlaqi kodeksi də adlandırmaq olar.

B $\frac{4703030200}{M\ 653(07)-98}$ – 98 Az

ISBN 5-8020-1315-X

© Gənclik, 1998
© Firəngiz xanım Ulutürk, 2003.

## DÖVLƏTÇİLİK HAQQINDA, BÖYÜK KİTABIN POETİK TƏRCÜMƏSİ HAQQINDA SÖZ

*Qarşımda təxminən 20 ç.v. həcmində əlyazma var. Bu əlyazma Yusif Balasaqunlunun "Qutadqu bilik" poemasının poetik tərcüməcidir. Bu qiymətli əlyazmanı oxuduqca beynimdə iki axarda fikirlər, düşüncələr toplanır. Bu fikir və düşüncələri oxucu ilə bölüşmək istəyi qarşısıalınmaz bir həvəsə çevrilir. Həmin fikirlərin bir axarı "Qutadqu bilik" dünyası ilə, o biri axarı isə Xəlil Rza dünyası ilə bağlıdır. Bir-birini tamamlayan bu axarlar biri dənizə, biri ümmana axıb, elə orda da bir-birinə əbədi qovuşur. Böyük ümmanın adı Türklük, ulu dünyanın adı Türk Dünyasıdır.*

*Hələ qələm dostum Ramiz Əsgərlə 1980-ci illərdən çevirməyə başladığımız və dostumuz Azər Mustafazadənin yaxından köməyi ilə 1994-cü ildə işıq üzü görən "Qutadqu biliy"in* filoloji tərcüməsi bizi Yusif Balasaqunlunun sənət dünyası ilə həmişəlik bağlamışdı. Və bu bağlılığı Xəlil Rzanın poetik tərcüməsində bir daha duyduq, bir daha gördük.*

*Eşitmişdik ki, mübariz şair "Qutadqu bilik"lə çox maraqlanır. Bu bizi çox sevindirdi. Çünki Azərbaycanda yalnız məhdud elmi dairədə tanınan bu ölməz poema hər kəsin oxuması, bilməsi zəruri olan əsərdir. Bunun üçün filoloji tərcümədən daha çox poetik tərcüməyə ehtiyac duyulurdu. Vaxtı ilə Nizaminin əsərlərini də biz öncə hərfi tərcümədə, sonra poetik tərcümədə oxumuşuq.*

*Həmin tərcümələr içərisində mərhum Mir Cəlalın öz poetikliyi ilə şer tərcüməsindən geri qalmayan çevirmələrini xatırlayıram. Bəlkə də təfərrüat və elmi dəqiqlik üçün filoloji tərcümə gərəklidir, ancaq kütləvilik, yaşarılıq üçün bədii poetik tərcümənin gördüyü işi heç nə görə bilməz.*

*Bu mənada Xəlil Rza ədəbiyyat tariximiz, mənəviyyatımız üçün, bugünkü dövlət müstəqilliyi üçün əvəzedilməz bir iş görmüş, "türk "Şahnaməsi"ni Azərbaycan türkcəsinə çevirmişdir.*

* * *

*...Bir dəfə Türkiyədə mənə "Qutadqu biliy"in son tərcümələrindən birini bağışlamışdılar. Və mən əlimdə kitab dayandığım zaman böyük türk*

* *Yusif Balasaqunlu. "Qutadqu bilik" – "Xoşbəxtliyə aparan elm" (Türkiyə türkcəsindən və özbək türkcəsindən istifadə etməklə Xaqaniyyə türkcəsindən çevirənlər, ön söz və qeydlərin müəllifləri prof. Kamil Vəliyev və Ramiz Əsgər), Azərnəşr, Bakı, 1994.*

*alimi mərhum Bahəddin Ögəl əlimdəki kitabın adını soruşdu. Mən dedim: "Qutadqu bilik" – "Xoşbəxtliyə aparan kitab". O gülümsəyib:*

*– Yox, oğlum, o kitabın adı "Dövlət kitabı"dır, "Dövlətnamə"dir. Türk dövləti fəlsəfəsi, düşüncəsi haqqında ən böyük söz də bu kitabdadır. Azərbaycanın bu kitaba ehtiyacı çoxdur.*

*Müdrik alimin sözlərindəki həqiqəti inkar etmək mümkün deyil.*

*Türk xalqlarının xilqətindəki inanış islamda qanunauyğun inikasını tapdığı üçün türk və islam mədəniyyəti VII–VIII yüzilliklərdən sonra türk – islam mədəniyyəti kimi dünya tarixinə daxil oldu. Bu böyük prosesi əks etdirən yüzlərcə, minlərcə örnəklər arasında "Qutadqu bilik" başda gəlir.*

*Qut – türkrə səadət, xoşbəxtlik, uğurlu tale deməkdir. "Qutadqu bilik" – xoşbəxtliyə, səadətə aparan elm, bilik deməkdir (qut–xoşbəxt, ad–etmək mənalı adlardan fel düzəldən şəkilçi, –qu–feldən ad düzəldən şəkilçidir; bil(mək) felin kökü, –ik–feldən ad düzəldən şəkilçidir).*

*Bu möhtəşəm abidənin müəllifi türk-islam ədəbiyyatının ilk böyük sənətkarı Yusif Xas Hacibdir (1017–1077).*

*İstər Yusif Balasaqunlunu, istərsə də onun müasiri, "Divani lüğət-it-türk"ün müəllifi Mahmud Kaşğarini yetirən tarixi şərait və mühit bizim üçün maraqsız ola bilməz. Qaraxanlılar sülaləsinin islamı ilk qəbul edən və Kaşqarda ilk türk islam dövləti yaradan Əbdülkərim Satuq Buğra Qaraxan Soğdi dili və mədəniyyəti yerinə türk dili və mədəniyyətinin əsasını qoydu. Balasaqun şəhəri Türküstanın qədim şəhərlərindən biri kimi Kubalıq (Gözəl şəhər), Qara Ordu, Quz-Ordu, Uluş, Balıq adları ilə adlanmış və Mahmud Kaşğarinin "Divan"ında verilən xəritədə tam mərkəzdə göstərilmişdir. Kaşqar (Ordukənd) paytaxt olsa da, Balasaqun şəhəri Qaraxanlıların çox böyük şəxsiyyətlərindən biri olan Harun tərəfindən ikinci böyük iqtisadi və mədəni mərkəzə çevrilmişdi. Samanilərin zəifləməsi, Qaraxanlıların İslama dönüşü Qərbi Türküstanda yeni və qüdrətli dövlətçilik sisteminin yarandığını göstərirdi. Təsadüfi deyil ki, uzun müddət yaşamasa da, türk ədəbi dilinin və mədəniyyətinin formalaşmasında mühüm rol oynayan Qaraxanlılar daha möhtəşəm Türk İslam dövləti olan səlcuqların sələfi rolunu layaqətlə oynamışdır.*

*Haciblik – "Qutadqu bilik" əsərində bir növ hökmdarın ideoloji istiqamətlər üzrə müşaviri kimi "xidmətlərin ən incəsi" tək qiymətləndirilir. "Hacib olmaq və irəli keçib insanlara yol göstərmək" üçün əsaslı şərtlər qoyulur. Bu şərəfli vəzifə üçün ağıl, zəka, tədbir, bilikdən savayı boy-buxun, səliqə-səhman, nurani sifət də tələb olunur. Saray həyatının beyni kimi fəaliyyət göstərməli olan Hacib üçün gərəkli şərtlərə həsr olunmuş 90 beyt bunu sübut edir. Əlbəttə, Yusifin bu xüsusiyyətləri bir növ canlı örnək idi. Dövrünün mütəfəkkir sənətkarı, dövlət xadimi olan Yusif Xas Hacib türk islam tarixini, mədəniyyətini dərindən mənimsəmiş ideoloq idi. Əsərin başdan-başa türkcə yazılması, gəlmə sözlərin azlığı, qədim adətləri, etnoqrafik xüsusiyyətləri gözəl bilməsi, Quran, islam fəlsəfəsini dərindən*



*mənimsəməsi Yusif Balasaqunlunu yalnız bir sənətkar kimi deyil, həm də türk dövlətçilik tarixinin qüdrətli fikir-məfkurə simalarından biri kimi tanıdır. Təsadüfi deyil ki, "Qutadqu biliy"in zəngin materialı əsasında dini, əxlaqi, didaktik, hüquqi, sosial-siyasi, estetik, pedaqoji, psixoloji baxışlar sistemi üzərində ayrı-ayrılıqda kitablar, əsərlər yazmaq mümkündür.*

*Məlumdur ki, türk fəlsəfəsi və dövlətçilik tarixi islama qədər böyük bir inkişaf mərhələsi keçmişdir. Türklərin tarixdə özünəməxsus yer tutması yalnız hərbi müvəffəqiyyətlə bağlı deyildir. Türklük aləmini dünyaya və insana fəlsəfi baxış, hüquq və dövlət dünyabaxışından ayrı təsəvvür etmək olmaz. Qədim türklərdə törü (törə) adlanan şifahi ədliyyə sisteminin, adət və ənənələrdə öz əksini tapmış hüquqi baxışlar toplusunun böyük əhəmiyyəti olmuşdur. Yusif Balasaqunlu islam fəlsəfəsi ilə qədim türklərin törələrdən, tanrıçılıqdan, həyat və düşüncə tərzindən gələn fəlsəfəsini üzvi şəkildə birləşdirərkən təbii ictimai-sosial fəlsəfi baxışları ifadə etmişdir. Bu mənada, əsər "Türklərin mənəvi tərəfini, siyasi və idarəçilik görüşlərini ortaya qoymaqla Türk dövlətinin ictimai-siyasi bünövrəsini tanıtmağı bacarmışdır"*.*

*"Qutadqu biliy"in dünyada tanınmasında böyük zəhməti olan Rəşid Rəhməti Aratın dediyi aşağıdakı sözlərə əlavə etmək çox çətindir: "Yusif bu əsəri ilə insan həyatının mənasını təhlil etmiş, onun cəmiyyət və eyni zamanda dövlət içindəki vəzifəsini təyin edən bir fəlsəfi – həyat fəlsəfəsi sistemi formalaşdırmışdır"**. Şübhəsiz ki, bu baxışlar sistemini Yusif Xas Hacib özü yaratmamışdır, mövcud haqq, ədalət, dövlət, hüquq, ədliyyə, əxlaq anlayışlarını gözəl bir üslubda canlandırmış mütəfəkkir – ideoloq səriştəsi ilə sistemləşdirmişdir. İslamı qəbul etmiş türklərin milli həyat fəlsəfəsi vətəndaş və dövlət baxışı, bilavasitə milli dövlətin müqəddəsliyi prinsipi bu gün üçün də müasirdir. Molla və ya axund məscidə layiq olmaya bilər, amma Allah evi olan məscid müqəddəsdir. Seçilmiş, təyin edilmiş və yaxud irsi olaraq başına tac qoyulmuş hökmdar uğursuz və ləyaqətsiz ola bilər, ancaq milli dövlət müqqəddəsdir. Bu müqəddəslik bilinmədikcə və tanınmadıqca, ata, qana çökməyincə, beyinlərə hopmayınca o dövlətin yaşamaq haqqı şübhəli olacaq. Dövlətin qanunları da, ona əsasən, ordusu və idarə sistemi də o zaman möhtəşəm və qüdrətlidir ki, hər bir vətən övladı, özünü vətəndaş sayan şəxs həmin dövləti öz ailəsi qədər sevir və müqəddəs tutur. Vətəndaşın dövlətçilik hissini və milli dövlətə məhəbbətini ifadə etmək baxımından "Qutadqu bilik" örnək əsərlərdən biri kimi tariximizə daxil olub.*

*Bu fikirlər bəlkə də milli dövlətə müasir baxışdır və haradasa subyektiv yozumdur. Və şübhəsiz ki, marksizm-leninizmin dövlət konsepsiyasına uyğun deyil. Etirazımız yoxdur. Ancaq bizim iddiamız metod konsepsiyası deyil, milli dövlətə tariximizdən, törələrimizdən, kökdən, bünövrədən gələn*

---

** İ. Qafesoğlu. "Qutadqu bilik" və Kültür tariximizdəki yeri, İstanbul, 1980, s. 4.*

*** R.R. Arat "Qutadqu bilik" – Mətn, Ankara, 1979, s. XXV.*

baxışları açıqlamaqdır. Həmin baxışların açıqlanması gəncliyimizdə milli dövlət əqidəsini formalaşdırmaq, dövlətçilik namusunu, qeyrətini aşılamaq üçün zəruridir. Müasir dünyanın mürəkkəb siyasət əlifbasında dövlətçilik və demokratiya prinsiplərini əqidə, amal səviyyəsində dərk etmədən heç bir azadlıqdan və müstəqillikdən söhbət gedə bilməz. Azərbaycanın azadlıq və müstəqilliyini köklü şəkildə dərk etməsi üçün ədəbi və tarixi qaynaqlarımızın müasir gözlə oxunması, şərh edilməsi, tədris və təbliği çox vacibdir. Bu baxımdan da "Qutadqu biliy"in sətirləri içərisində yatan həqiqətlərin aşkar edilməsinə böyük ehtiyacımız var.

"Qutadqu biliy"in tədqiq və nəşr tarixi geniş bir mövzudur və məqsədimiz təfərrüatı ilə bu mövzunu əhatə etmək olmasa da, əsas araşdırmaları vurğulamağa ehtiyac var.

Klassik türkologiyanın H. Vamberi, V. Radlov, A.Z. Validov, S.Y. Malov, R.R. Arat kimi nümayəndələrinin nəşr, tərcümə baxımından xidmətləri çox böyükdür. Onlarla birlikdə V.V. Bartold, Z.V. Toğan, P.K. Juze, A.N. Kononov, İ. Qafesoğlu kimi araşdırıcılar tədqiqatları ilə "Qutadqu biliy"in dünya elmi səviyyəsinə çıxmasında ciddi rol oynamışlar*.

"Qutadqu biliy"in nəşrləri içərisində üç nəşri biz xüsusilə qeyd etmək istərdik. Birincisi görkəmli Türkiyə alimi Rəşid Rəhməti Aratın 1947 və 1979-cu il nəşrləridir, ikincisi görkəmli özbək alimi K. Kərimovun Daşkənd nəşridir, üçüncüsü görkəmli rus türkoloqu S.N. İvanovun abidənin rus dilinə tərcuməsidir**. Araşdırmaların içərisində "Qutadqu biliy"in tarixi, bədii – poetik, dil xüsusiyyətlərinə həsr olunmuş çoxlu dəyərli əsərlər vardır. Yuxarıda adları çəkilən araşdırıcılardan başqa A. Baskakov, A.M. Şerbak, X. Koroğlu, M.N. Xıdırov, E. Fazilov, Ə. Tennişev, İ.V. Stebleva, S.Q. Klyaştornı, Q.F. Blaqova, N.S. Banarlı, A.S. Lavənd, L. Banelli, O. Alberti, M. Aran, A. Bombaçi, F. Rəhməti, M. Xartman, S. Cağatay, Ə. İnan, İ. Nəcmi, A. Rüstəmova, A. Valitova və b. tədqiqatçıların onlarca əsərlərinin üzərində dayanmaq üçün geniş imkan yoxdur. Bu araşdırmaların içərisində A. Dilaçarın, İ.V. Steblevanın, S. Başerin adlarını çəkdiyimiz əsərlərini, eləcə də, 900 illiyi münasibətilə "Sovetskaya tyurkoloqiya" jurnalının bütöv bir nömrəsini (1970, № 4) başdan-başa (cəmi 13 məqalə) "Qutadqu biliy"ə həsr olunmasını ayrıca qeyd etməyi özümüzə borc bilirik.

"Qutaqdu bilik"dəki insan konsepsiyası, ağıl anlayışı, hikmət fəlsəfəsi qut və törə kimi anlayışların çoxsəpkili təhlili ilə üzə çıxa bilər. Ümumiyyətlə,

---

* Bax: А.З. Валидов. Восточные рукописи в Ферганской области. З.В. О. т. XX, 1914. С.Е. Малов. Памятники древне-тюркской письменности, М. Л., 1951. В.В. Бартольд. Двенадцать лекций по истории турецких народов Средней Азии. Сочинения, т. V. А.Н. Кононов. Поэма Юсифа Баласагунского "Благадатное знание", М., 1983.

** R.R. Arat. Göst. əsəri. "Kutadğu bilih" (saodatqaiullovçib bilim) nəşri hazırlayan K.Karimov. Daşkənd, 1971. Юсиф Баласагунский "Благодатное знание". Издание подготовил С.Н. Иванов. М., 1983.



əsərdə sosial-fəlsəfi, etik problemlərin qoyuluşunun bütöv bir sistem daşıdığı şübhəsizdir. "Fənalıq cahillikdən doğar, xəstəliklər, pisliklər bir nöqsandan irəli gəlir. Müalicə ilə xəstəliklər sağaldıla bilər, tərbiyə ilə pisləri yaxşı etmək olar, oxumaq yolu ilə biliksizlərə bilik verilmiş olar". "Hökmdar millətini, ailə başçısı ailə üzvlərini oxutmağa və tərbiyə etməyə məcburdur", "İqtisadi baxımdan cəmiyyətdə üç ayrı sinif vardır: zənginlər, orta sinfi təşkil edən ordu və məmurlar, füqərə sinif olan xalq... Fəqət himayə və təşviqlə qara camaat (qara budun) deyilən xalq orta sinif dərəcəsinə qalxa bilər. Orta sinif də get-gedə zənginlərlə birləşər. Beləliklə, cəmiyyətdə yoxsul və zülm görmüş bir sinif qalmaz"... kimi onlarca, yüzlərcə fikir yalnız ideal cəmiyyətin modeli haqqında düşüncələr deyil, həm də Orta Asiyanın müsəlman Türk dövlətinin ideoloji bünövrəsidir.

"Fərdin xoşbəxtliyi zəhmətin xoşbəxtliyinə bağlıdır. Fərdlər cəmiyyətin və cəmiyyətin başı olan hökmdarın yaxşılığı üçün çalışsalar, qısası, hökmdar ədalətli olsa, millət xoşbəxt olar" fikri, qanun haqqında düşüncələri Yusif Xas Hacibin dövlətçilik baxışlarını açıqlayan örnəklərdən biridir.

"Qutadqu biliy"in dili, poetikası haqqında çox danışmaq olar. Əsər xan dili deyə adlandırılan Kaşqar–Xaqaniyyə ləhcəsində yazılmışdır. Qaraxanın dövlət dili kimi sabitləşməyə başlayan ədəbi dilin kamil örnəyi kimi "Qutadqu bilik" diqqət çəkir. Bu yeni Orta Asiya türk ədəbi dili qrammatik sabitliyi və normativliyi ilə, lüğət tərkibinin dolğunluğu, zənginliyi ilə ortaya çıxır. Bu epik əsər türk dilinin şüurlu münasibətlə seçilən əsərlərindən biridir. Əsərdə doğma dilə, dövlət dilinə o qədər böyük bir sevgi var ki, heyrətlənməyə bilmirsən və istər-istəməz anlayırsan ki, dövlət və Vətən sevgisi elə ana dilindən başlayır. Və ana dilinə dövlət ölçüləri ilə yanaşma, dəyərləndirmə milli təfəkkürün başında gəlir.

"Şahnameyi-türk" adlanan "Qutadqu bilik" çox maraqlı poetik quruluşa malikdir. Əsər məsnəvi formasında epik mənzumədir. 6645 beytdən ibarət bu əsərdə 124 beyt həcmində üç parça və 173 də dördlük var. Kitaba sonda əlavə edilən 77 beytdən ibarət mənzum müqəddimə də var. Bəzən əsərin heca vəznində yazıldığı iddia edilsə də, bu böyük epik mənzumə əruz vəznində – kasik (qısa) mütəqarib vəznində yazılmışdır. Fa'ülün Fa'ülün Fa'ülün Fa'ül təfiləsi "Şahnamə" vəzni kimi şərqdə məşhurdur.

Əsərin lüğət tərkibi əsasən türk mənşəli sözlərdən ibarətdir. Türk dilinin fenoloji quruluşuna çox uyğun olmayan bu vəzndə klassik əsər yazan Yusif Xas Hacib böyük sənətkarlıq nümayiş etdirmişdir. Bu ənənə türk xalqlarının ana dili klassik poeziyasında, xüsusən, Əhməd Yuqnəki, Əhməd Yasəvi, Yunis İmrə, Nəsimi, Rəbquzi, Əlişir Nəvai, Zahirəddin Babur, Qazi Bürhanəddin, Xətai, Sultan Vələd, Aşıq Paşa, Füzuli... yaradıcılığı üçün məhək rolunu oynamışdır.

Bayatı, mani qoxulu dördlüklər türk dilinin öz təbii axarını əks etdirmək baxımından maraqlıdır.

Əsərin çox zəngin qafiyə sistemi vardır. Alliterasiya, anafora, epifora,

*zənginliyi türk şer dilinin potensialını reallaşdırmaq baxımından diqqəti çəkir. Ümumən, əsərdə türk dilləri üçün, xüsusən poetik dil üçün səciyyəvi olan təkrarlar sistemi mühüm rol oynayır.*

*Əsərin məcazlar sistemi daha çox türkcədir. Və ərəb-fars ədəbiyyatının güclü təsirinə nisbətən az uğrayır. Dialoji üslub, didaktik deyim tərzi, yeri gəldikcə rəsmi-publisist boyalar əsərin bədii poetik siqlətini zəiflətməmiş, əksinə, onu daha da zənginləşdirmişdir. İstifadə olunan frazeoloji birləşmələr, atalar sözləri və zərb-məsəllər əsərin dilində xəlqiliyi gücləndirmişdir.*

*"Qutadqu bilik" türk ger sənətinin ilk böyük qalalarından biridir ki, bu qalasız zəngin türk klassik poeziyasını təsəvvür etmək qeyri mümkündür*.*

* * *

*Türk dünyasının milli-azadlıq hərəkatı dövrünün böyük mücahidi və görkəmli söz ustası Xəlil Rzanın "Qutadqu biliy"ə müraciəti qətiyyən təsadüfi deyil. Bu yola Xəlil bəyi əqidəsi, qan yaddaşı, inamı və imkanı gətirmişdi. Hələ özbək – Azərbaycan ədəbi-mədəni əlaqələr tarixini öyrənərkən X. Rzanın qədim qaynaqlarla üzləşməsi, onları öyrənməsi, araşdırması alim-sənətkar ürəyinin tələbi kimi ortaya çıxmışdır. Tərcüməyə yazdığı ön sözdə alim-şairin böyük zəhməti aydınca hiss olunur.*

*X.Rza bu əsəri müəyyən mənada sərbəst çevirsə də, kanonik mətnə saygı ilə yanaşmış, istər orijinalın R.R. Arat çapını, istərsə də özbək alimi K.Kərimovun çapını gərəyincə öyrənmiş, çağdaş türk dillərini və rus dilini (S.N. İvanovun poetik tərcüməsi) ustalıqla incələmişdir.*

*Nəticədə dünyaya həm "Qumadqu bilik" böyüklüyünü, həm də X.Rza üslubunu layiqincə təmsil edən orijinal bir tərcümə gəlmişdir.*

*Əsərin vəznini, qafiyə sistemini, ümumən türk nəfəsini ustalıqla saxlayan tərcüməçi müasir ritmi və konteksti də unutmamışdır. Kiçik ixtisarla və sərbəst tərcümə məqamlarını şair təxəyyülünün qanunları ilə dəyərləndirmək olar. Hər ciddi tərcümə əsəri bir yaradıcılıqdır, bir dünyagörüşün ifadəsi və təsdiqidir. Bu mənada "Qutadqu biliy"in gələcəkdə də poetik və filoloji tərcümələri ola bilər. Hər nəsil öz keçmişinə, yaddaşına öz səsi, öz nəfəsi ilə qayıdır. Bizə elə gəlir ki, nə qədər tərcümələr olursa-olsun bir tərcümə həyata həmişəlik vəsiqə alıb. Bu xalq şairi, milli mücahid Xəlil Rzanın "Qutadqu bilik" tərcüməsidir.*

*Allah Xəlil Rzaya, onun şəhid oğlu, qəhrəman Təbrizə rəhmət eləsin!*
*"Qutadqu bilik" qalası uca olsun!*
*Tanrı türkü qorusun!*
*Amin.*

*Kamil Vəli NƏRİMANOĞLU*
*professor*

* *Bu barədə ətraflı bax: И.В. Севлева. Развитие тюркских по счетких форм в XI веке. M., 1971.*





## İLK MÖHTƏŞƏM ABİDƏMİZ

*XI əsr yadigarı "Qutadqu bilik" türkdilli xalqların ilk poeması, onların dil xüsusiyyətlərini, bədii təfəkkür gücünü öz aynasında göstərən birinci möhtəşəm ədəbi abidəsidir. Bir xalq deyil, bütün türkdilli ulusların ortaq sərvətidir və çox güman ki, həmin dövrdə, yəni Qaraxanlılar deyilən Türk sülaləsinin əzəmətli bir dövlət gibi çiçəkləndiyi çağlarda həmin dövlətin himayəsində yaşayanların və ədəbi dili bilənlərin hamısı üçün anlaşıqlı olmuşdur.*

*Poemanın yazıldığı dövrdə Qaraxanlılar dövləti Yuxarı Çindən tutmuş Xəzər sahillərinəcən olduqca geniş bir ərazini əhatə edən möhtəşəm bir məmləkətin başında dururdu və dastanın ruhundan bəlli olur ki, özünün renesans çaqlarını yaşayırmış. Başqa sözlə desək, həmin Türk dövlətinin, Türk ruhunun çiçəklənməsi üçün belə bir əsərin yaranması zəruri imiş. Dövlət quruluşu, dövlət başçısı necə olmalıdır, dövlət başçısı ilə raiyyət, cəmiyyət ilə fərd arasındakı münasibətlər necə qurulmalıdır? Ayrı-ayrı sinif, təbəqə və zümrələrin əxlaqı, dünyagörüşü, borcu, məsuliyyət dərəcəsi, imtiyazları, allah və bəndə qarşısında başlıca vəzifəsi nədən ibarətdir? Poema bu gibi sorğulara cavab vermək üçün yazılmışdır. Dövlət başçısı və raiyyət necə davranmalıdır ki, bu möhtəşəm Türk dövləti daha da çiçəklənsin, düşmən qarşısında sarsılmasın, öz milli istiqlalını, ərazi böyüklüyünü axıradək qoruyub saxlaya bilsin, ayrı-ayrı tayfalar, xanlar, dərəbəylər arasındakı didişmələrə son qoysun, onları düşmənə qarşı vahid bir cəbhədə birləşdirə bilsin – poema yaradıcısı bu gibi məqsədləri də aydınca izləyir, ən tutarlı, ən dürüst cavablarını verməyə çalışır.*

*Əzəmətli Kaşqar şəhərini (Ordukəndi) özünə paytaxt seçmiş Qaraxanlılar dövləti şimalda Balasaqun, qərbdə Səmərqənd, ortalıqda Özkənd Herat gibi böyük elm, sənət, ticarət, mədəniyyət, mərifət mərkəzlərinə malikdi. Yaradılan elmi, bədii əsərlərin çoxu ərəbcə, farsca idi, lakin tarixi gedişat, xalqın təfəkkür tərzi, mənəvi ehtiyacı məhz ana dilli doğma ədəbiyyatın yaradılmasını tələb edirdi. Poema yaradıcısı Yusif Xas Hacib Balasaqunlunun dahiliyi bundan ibarətdi ki, həmən ehtiyacı hamıdan öncə duymuş, böyük idrak gücünü, aşıb-daşan ilhamını doqmalıq üstündə kökləmiş və demək olar ki, öz*

*dövrünün ensiklopedisi adlana biləcək möhtəşəm bir abidə yaratmışdır. Poemanın dil saflığı, arılığı, ərəb-fars sözlərinin, yabançı kəlmələrin çox nadir hallarda, yalnız zərurət məqamlarında işlədilməsi göstərir ki, Balasaqunlu Yusif bəy Türkcənin incə bilicisi, təəssübkeşi, cəfakeşi və mətin qoruyucusudur. Poemadan bəlli olur ki, o, öz dövrünün bütün elmlərindən xəbərdardır. Tarixi, coqrafiyanı, ulduzşünaslığı, ilahiyyatı, Quranı, fiqhi kamil bilir, ən başlıcası adı böyük hərflər ilə yazılmağa layiq insandır, müsəlmandır, haramı yaxın qoymayan, halallığa güvənən, öz gündəlik ruzusunu, səadətini daşdan çıxaran zəhmət xadimidir, hər iki dünya qarışsında üzüağdır.*

*Balasaqunda anadan olmuş Yusif Xas Hacib bu əsəri 50 yaşına əlvida dediyi çağlarda, 462-ci ildə (miladi hesabla 1069-1070) on səkkiz aya tamamlamışdır. Öz dövründə böyük nüfuz və şöhrət qazanmış dastanı çinlilər "məmləkətin ədəb aynası", maçınlılar "Zəkalar zinəti", iranlılar "Türkün şahnaməsi", şərq uluslarından bir çoxu "Ölkənin öyüdnaməsi", Türklər "Qutadqu bilik" (səadət gətirən elm) adlandırmışlar. Müəllif heratda bitirdiyi əsəri Kaşğara, Xaqan dərgahına, Tavğac Uluğ Buğra Qaraxan hüzuruna ərməğan aparmış, təşəkkür və minnətdarlıq ifadəsi olaraq hacıblik (vəzirlik) rütbəsi qazanmışdır.*

*"Qutadqu bilik" yalnız öz müəllifinin deyil, ümumən Türkcənin, Türk bədii təfəkkürünün əbədi və əvəzsiz heykəlidir. Aradan keçən doqquz əsr ərzində nə qədər şəhərlər, səltənətlər, imperiyalar, sultanlar xəritədən və tarixdən silinmiş, yerlə-yeksan olmuş, bu möhtəşəm abidə isə öz təravətini itirməmiş, bircə qönçəsinin də solmasına, tufanlara düşməsinə yol verməmişdir.*

*Poemadakı dörd qəhrəman müəllif idealını təcəssüm etdirir. Gündoğdu – ədalətin, Aydoldu (bədrlənmiş Ay) – bəxtin və dövlətin, Ögdülmüş (əqlə yetmiş) – əqlin, zəkanın, Özğurmuş (oyanmış) – qənaətin timsalıdır. Bu dörd surətin arasındakı suallar, cavablar Qaraxanlılar səltənətinin başçısından, hakimindən tutmuş rəiyyətədək bütün təbəqələrin, zümrələrin, fərdlərin əxlaqını, ədəb qaydalarını, hərəkət, fəaliyyət xətlərini müəyyən edir. Buna görə poema öyüd, nəsihət, təlim-tərbiyə ruhu ilə doludur.*

*Əsərin varlığı XIX əsrin birinci yarısında bəlli olmuş, poemanın hicri 843-də (miladi 1439-da) Heratda Həsən Qara Sayil Şəms tərəfindən uyğur yazısı ilə köçürülmüş nüsxəsi Türkiyənin Toqat şəhərinə göndərilmiş, buradan isə hicri 879-da (miladi 1474-də) Əbdürrəzzaq Şeyxzadəyə ərməğan verilmək üçün Fənəri oğlu Qədi Əli*



*tərəfindən İstanbula gətirilmişdir. Məşhur tarixçi və şərqşünas Xammer Purqştal onu satın almış, Vena saray kitabxanasına yetirmişdir. Bundan sonra əsər barədə birinci xəbər 1823-cü ildə fransız şərqşünası Jaubert Amedes tərəfindən jurnal məqaləsi biçimində yayınlanmışdır.*

*1870-ci ildə məşhur macar alimi Vamberi "Qutadqu biliy"in ən mühüm hissələrini "Uyğur dili abidələri və "Qutadqu bilik" adı altında almancaya çevirisi ilə birlikdə nəşr etmişdir.*

*1890-cı ildən etibarən məşhur rus şərqşünas alimi Radlov əsərin araşdırılması işinə girişmişdir. 1896-cı ildə kitabın ərəb əlifbası ilə köçürülməsi – ikinci nüsxəsi Qahirədə tapılmışdır. Onun dörd cilddən ibarət fotosurəti hazırda Özbəkistan Elmlər Akademiyasının şərqşünaslıq institutunda saxlanmaqdadır.*

*1913-cü ildə şərqşünas alim Vəlizadə Fərqanə ekspedisiyası zamanı Məhəmmədhacı Eşan Laləreşin şəxsi kitabxanasında "Qutadqu biliy"in ərəb əlifbası ilə yazılan nüsxəsi olduğunu elm aləminə xəbər vermişdir. Məşhur özbək alimi Fitrət bundan, – əsərin Nəməngən nüsxəsindən soraq tutunca 1924-də Məhəmmədhacı Eşan Laləreşdən nüsxəni almağa, Daşkənd kitabxanasına gətirməyə nail olmuşdur. Çox keçmədən "Maarif və oxucu" dərgisində Fitrətin Nəməngən nüsxəsinə dair məqaləsi basılmış, daha sonra poemanın ayrı-ayrı parçaları nəşr edilmişdir (1928).*

*Bundan sonra adlı-sanlı şərqşünas Malovun araşdırmalarında həmən nüsxənin ayrı-ayrı parçalarını, tərcüməsini, izahlarını, üç nüsxənin müqayisəli təhlilini görürük (1929).*

*"Qutadqu biliy"in öyrənilməsində Valitovanın xidmətlərini qeyd etmədən keçinmək olmaz. Şərq mədəniyyətini, Qaraxanlılar dövlətinin tarixini, bu tarixin öyrənilməsində "Qutadqu bilik" əsərinin rolunu, mövqeyini dürüst müəyyənləşdirməkdə Valitova türkologiya elminə böyük hədiyyə vermişdir. Bu gibi uğurlara baxmayaraq "Qutadqu bilik" ilə bağlı öyrənilməmiş cəhətlər hələ az deyil. Xüsusilə əsərin dilinə dair fikirlər hələ tam durulmamış, sabitləşməmişdir. Uyğur dili, altay dili, türk dili, "Qutadqu bilik" dili, Qaraxanlılar dili, Buğraxan dili gibi anlayışlar bu sahədə ən çox işlənən terminlərdir. Burası şəksizdir ki, kitabın dili o dövrdə yaşamış bütün türk qəbilələri üçün anlaşıqlı olmuş, onların hamısını eyni ədəbi dil ətrafında birləşdirmişdir. Əsərin ilk nüsxəsi hansı əlifba ilə yazılıb? S. E. Malov bunu ərəb yazısı adlandırır. Uyğur yazısı ilə köçürülmüş Vena nüsxəsi XV əsrin yadigarıdır.*

*Hələlik burası da cavabsız qalır ki, əsərin ön sözü və mündəricatı kim tərəfindən yazılıb? H. İ. İlminski ön sözün müəllif tərəfindən deyil, başqasının qələmilə yazıldığını iddia edir. Fitrət və başqa Avropa alimləri də bu fikirdədirlər. S. E. Malov isə bizi bu fikirdən sakındırır, böylə hesab edir ki, "Qutadqu bilik", "Türkün şəcərəsi", "Qisasül ənbiya", "Hibətül həqayiq" gibi əsərlərin ön sözü müəlliflərə məxsusdur, kitabı tərənnüm, vəsf məqsədilə yazmışlar.*

*Əsər hansı vəzndə yazılıb – bu sorğuya verilən cavablar türlüdür. Həcib Asim, A. Sədi gibi alimlər böylə hesab edirlər ki, poema Türk şeri üçün doğma vəzndədir, onbirlik hecanın əsasən 6-5 bölgüsü əsasında qələmə alınmışdır. Məşhur Türk alimi Mehmet Fuad Köprülü, özbək dahisi Fitrət isə iddia edirlər ki, "Qutadqu bilik" böyük İran şairi Firdovsiyə məhəbbətlə, əruzun "Şahnamə" vəznində yazılmışdır. Buradakı vəzn qüsurlarını isə o zamankı Türk əruzunun hələ tam büllurlaşmaması ilə izah etmək olar.*

*Bizim fikrimiz böylədir ki, "Qutadqu bilik"dən həm onbirlik hecaya, həm də əruza uyar bol-bol misallar gətirmək olar. Çox güman ki, əsər doğrudan da "Şahnamə" əruzunda nəzərdə tutulmuş, ancaq işin gedişində Türk təfəkkür tərzinin öz xüsusiyyətləri, öz tələbləri bu qəlibi dağıtmış, necə deyərlər doğmalıq ögeylik ilə çulğaşmışdır.*

*"Qutadqu biliy"in başlıca pafosu ideal cəmiyyətin, ideal insanın tərənnümündən ibarətdir. O, mövcud ictimai quruluşu rədd edir, damğalayır, mərdlərin, qəhrəmanların bu gün olmadığını, keçmişdə qaldıqlarını bəyan edir, ah çəkir, fəryad qoparır. Həyatda yeganə təsəllini elmi, həyatı, müxtəlif bilik, idrak sahələrini öyrənib mənimsəməkdə və allaha sığınmaqda, ibadətdə görür. Bu baxımdan əsərin adı diqqətəlayiqdir: "Qutadqu bilik" – səadət gətirən elm deməkdir. Deməli, insan həyatına yalnız elm, yalnız idrak gücü səadət gətirə bilər. Yusif Xas Hacibin dünyagörüşündə Fərabi, Əbu Əli ibn Sina gibi dahilərin fəlsəfi qənaətləri ilə səsləşən cəhətlər çoxdur. Hiss olunur ki, o, öz sələflərinin yaradıcılığını mükəmməl öyrənmiş, mənimsəmişdir. Yusifə görə maddi aləm ruhun qüvvəti əsasında yaradılsa da, öz qanunauyğunluqları ilə inkişaf edir, irəliləyir. O, daim yürüş, yeniləşmə halındadır. Canlı-cansız bütün mövcudat, o cümlədən yeddi səyyarə, on iki bürc allah tərəfindən yaradıldığı halda, yuxarıda, aşağıda yer tutur və qarşıdurma qanunları əsasında hərəkət edirlər. Alimlər, təbiblər, ulduzçular, ziyalılar Yusif qələmində əlçatmaz yüksəkliyə qaldırılır, əzizlənir, böyük ilhamla tərənnüm olunurlar. Şair onların qədrini bilməyə, qiymətini verməyə çağırır. Yusif Xas Hacibin coşğun insansevərliyi, humanizmi kəndçilər, tacirlər, çarvadarlar, sənətkarlar, əkinçilər və başqa ixtisas sahibləri üstünə qoşduğu misralarda xüsusi bir qüvvətlə meydana çıxır.*

*Yalnız "Qutadqu biliy"in deyil, həmçinin Orxan-Yenisey abidələri, Turan yadigarları, uyğur əlyazmaları, "Divanü lüğətid türk", "Hibətül həqayiq", "Məhəbbətnamə", "Oğuznamə", "Təfsir", "Qisasül ənbiya" gibi möhtəşəm əsərlərin öyrənilməsində xüsusi xidmətləri olan P. M. Melioranski, V. V. Radlov, V. Tomsen, E. E. Bertels, Fitrət, Mehmet Fuad Köprülü, S. E. Malov, H. A. Baskakov, İ. A. Batmanov, V. M. Nasilov, A. K. Borovkov, A. M. Şerbak, E. N. Nəcib, S. M. Mütəllibov, Q. Vamberi, Q. Kərimov, A. A. Valitova, N. İ. İlminski, Q. A. Əbdürəhmanov, A. P. Qəyyumov, H. S. Süleymanov, E. İ. Fazilov, Ş. Şükürov, Q. Mahmudov, İ. Qoşqartayev gibi alimlərin böyük xidmətlərini qiymətləndirmədən keçinmək olmaz.*

*Ayrı-ayrı millətlərə məxsus türlü alimlər qələmindən çıxmış bu rəngarəng araşdırmaları vahid bir məhvər ətrafında birləşdirən sonuc bundan ibarətdir ki, olduqca qədim tarixə və zəngin ədəbi gələnəklərə malik Türk ədəbiyyatı böyük, universal bəşər mədəniyyətinin üzvü bir hissəsidir. Tamı və hissəni layiqincə öyrənmək və aralarındakı dialektik əlaqələri açmaq borcumuzdur. Bu zərurəti aydın dərk etdiyim üçün "Qutadqu biliy"i çağdaş Azərbaycan Türkcəsinə uyğunlaşdırmağı lazım bildim.*

*Bakı, 22 may 1994.*

*MƏRHƏMƏTLİ, MEHRİBAN TANRININ ADI İLƏ*

Həmdü səna, şükürlər və alqışlar olsun ən əziz, ən ulu Tanrıya ki, böyüklük sahibi, ən qüvvətli padşahdır, yeri-göyü yaradandır, bütün nəfəs alanlara ruzu verəndir. O nə istəsə qılar, nəyi istəsə yerinə yetirər, yafəlü ma yaşay və yahkəmu ma yurid (Yəni nəyə istəsə qəsd edər, nəyə ixtiyar qılsa hökm edər). Beləliklə, adamlar arasında əzəmətlə ucalmış Tanrının rəsuluna sansız salamlar olsun. Rəsulun sofdaşları olmuş əziz və qiymətli səhabələr üzrə, rizvan allahu əleyhüm əcməinə (yəni onların hamısının üstünə Tanrının razılığı saçılmışdır).

Bu kitab olduqca əzizdir. Çin alimlərinin məsəllərilə yaradılıb. Maçin şairlərinin şerləri ilə bəzənmiş bu kitabı oxuyan, bu beytlərin mənasını anlayan kişi kitabdan da əzizdir. Maçin alimləri, şairləri bu qərara gəldilər ki, Gündoğan vilayətində, Türküstan ellərində Buğraxan dilində bircə kimsə bu kitabdan yaxşı kitab yaza bilməz. Bu kitab hansı padşahlığa, yaxud hansı iqlimə yetsə, hədsiz yaxşılığından, son dərəcə cazibəli olduğundan həmin ellərin alimləri qəbul edib hər birinə müxtəlif ad, ləqəb verdilər. Çinlilər "ədəblər mülkü" dedilər. Maçin məlikinin nədimləri "Məmləkətin aynası" adlandırdılar. Gündoğanlılar "Zinətül ümərə", İranlılar "Türkün şahnaməsi" adı verdilər. Bu yolla bəziləri bu kitabı "Məmləkətin nəsihətnaməsi", turanlılar isə "Qutadqu bilik" (səadət gətirən elm) adlandırıblar. Kitabın tərtibçisi Balasaqunda doğulan, pəhriz sahibi (yəni dözümlü, səbrli, qənaətcil bir kişidir). Kitabı Kaşğarda bitirib Gündoğan məliki Tavğaçxan dərgahına gətirmişdir. Məlik onu əzizləyib, dəyərləndirib öz sarayında Xas Hacib etmişdir. Buna görə Yusif ulu Xas Hacib adı məşhur olub dünyaya yayılmışdır. Kitab bu fəzilətlərilə qiymətlidir. Biri – ədl, ikincisi – dövlət, üçüncüsü – əql, dördüncüsü – qənaət. Yəni bunların hər birinə Türkcə bir ad verilib. Yazar ədlə Gündoğdu adı qoyub ki, padşahdır, dövlətə Aydoldu adı verib ki, vəzirdir, əql üçün Ögdülmüş adını seçib ki, vəzirin oğludur, qənaətə Özğurmuş adı qoyub ki, Ögdülmüşün qardaşıdır. Böyləliklə onların arasındakı hekayəni sual-cavab şəklində qurmuşdur. Qoy oxucunun könlü açılsın, müsənnifi özgü dualar ilə yad qılsın, inşallah.



1 Hamıdan, hər kəsdən üstündür xuda,
Tək ona yaraşır dua-səna da.

2 Böyüklük sahibi zülcəlal odur,
Yaradan, törədən, pürkəmal odur.

3 Odur yerin-göyün, xəlqin yiyəsi,
Nuş elə sənindir min bir töhfəsi.

4 Ondan ruzu alar aləmdə hər kəs,
Hamını yedirər, tək özü yeməz.

5 Yedirər, içirər, ac qoymaz heç vaxt,
Hər nəfəs sahibi onunla xoşbəxt.

6 O kimi istəsə şan-şöhrət verər,
Ləyaqət, əzəmət, şücaət verər.

7 Seçmə rəsulunun minnətdarıyam,
Dörd böyük kimsəyə salam, ehtiram.

8 Məhəmməd peyğəmbər xilqətin başı,
Göz-qaşı, varlığı, can çırpınışı.

9 Bu kitab nə qədər müqəddəs, əziz,
Biliklər dənizi, ən təmiz dəniz.

10 Ondadır bərəkət, hər qədri qiymət,
Ülviyyət, səadət, şükrü qənaət.

11 Gör necə düzülüb alimlər sözü,
İnci sandığıdır, zəka güzgüsü.

12 Məşriq məlikləri, Maçin bəyləri
Seçib bircə-bircə dürrü, gövhəri.

13 Kitabmı, sal qaya, yoxsa xəzinə?
Dürdanə taparsan, düşsən izinə.

14 Alimdən alimə irsdi, nə yaxşı,
Min dəfə oxuya, anlamaz naşı.

15 Al oxu, bərq vursun ovcunda almaz,
Heyif, bəzi türklər vecinə almaz.

16 Kitabdan feyz alan – özgə bir cahan!
Bu həddə bəlkə də ucalmaz yazan.

17 Bu kitab göz nurun, könül çırağın,
Hər iki dünyada arxan, dayağın.

18 Maçin alimləri, Çin həkimləri,
Onun heyranıdır haçandan bəri.

19 Dolaş Türküstanı, Məşriqi çox-çox,
Cahanda bu qədər ülvi kitab yox.

20 Kitabın qədrini bilənlər bilər,
Hardandır nadanda o cürə hünər?

21 Ey dost, hər naşıya vermə kitabı,
Vermə, yoxsa onda eşq inqilabı.

22 Onu biliksizlər dərk edə bilməz,
Əzizlər, oxşayar zəka saçan kəs.

23 Buğraxan dövründən alıb sürünü,
Xan dili, xan ruhu, xan ölçüsünü.

24 Bu cür kitabı heç olubmu yazan?
Kimdə var bu ilham, bu ruh, bu lisan?

25 Kimin bal saçılıb qaymaq dilindən,
Əyilib öpərəm onun əlindən.

26 Başda bir ad verib ona hər şəhər,
Yerdəki, göydəki ariflər, ərlər.

27 Hər elin, hər yurdun biliciləri,
Alıb sapa düzmüş bu inciləri.

28 Çinlilər ad verib "Mülkün ədəbi"
Maçunlı "Ənisul məmalik" deyib.

29 Şərqdə heyranları görün nə qədər,
"Zinətül ümara" demiş çinlilər.

30 "Şahnamə" söylədi İranlı ona,
"Qutadqu bilik"dir şöhrət Turana.

31 Dildə, təfəkkürdə min-min möcüzə,
Gəlib bu kitabda çıxmışdır üzə.

32 Zor imiş kitaba ad verən ustad,
Tanrısı yar olsun, açsın qol-qanad.

33 Türkenin qüdrəti, cürəti, əzmi,
Bu gözəl kitabın bayramı, bəzmi.

34 Bu kitab hər kəsin dərdinə qara,
Dayaqdır illah ki, hökmdarlara.



35 Mülk alan sultanlar daim qayğılı,
Nə cür oturmalı, nə cür durmalı?

36 Dövləti qurmağı öyrənməlidir,
Ona nələr məchul, nələr bəllidir.

37 Qalxır, abad olur, sökür də dövlət,
Tərəqqi, tənəzzül ən böyük heyrət!

38 Nə cür qanad tapır qəhrəman ordu
Nə cür xilas edir əzilən yurdu?

39 Açıb bu kitabda yerin dibini,
Vermişəm hər şeyin öz tərtibini.

40 Dövləti ucaltmaq istəyən kişi,
Yalnız müdriklərə tapşırar işi.

41 Gərəkli, ürəkli, səxavətli ər,
Min-min şüa saçan qəmərə bənzər.

42 Qüdrətli şahlarda xalqın haqqı var,
Xalqı ucaldanlar daim ucalar.

43 Şaha qüdrət versin rəiyyət gərək,
Şah xəlqi qorusun göz bəbəyitək.

44 Döyüşə mərdanə qılınc tutmağı,
Ordunu qaldırıb cəngə atmağı

45 Nə cür darmadağın edib atmağı,
Əzməyi öyrətdim, başa düş məni.

46 Göstərdim kitabda hər bir tədbiri,
Xalqı xilas edən hərbi tədbiri.

47 Qüdrətli sultanı çox sevər ellər,
Üzünü görməyi təbərrik bilər.

48 Şah gərək ucaltsın xidmət əhlini,
Dərgahdan qovlasın illət əhlini.

49 Tanısın dürüstü, nadürüstü də,
Alov boğulmasın küldə, tüstüdə.

50 Burda yırtıcı da, baş kəsən də var.
Canını verməyə tələsən də var.

51 Cəsur, vəkalətli, qəhrəman ürək,
Nə umar: dağ boyda xəzinə gərək.

52 Şahın rəiyyətə varsa rəğbəti,
Gedər əziyyəti, olmaz möhnəti.



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

53 Sultan, ucuz tutma nəsihətimi,
Dua qıl, alqışla bu adətimi.

54 Nəzər sal, anla ki, kitab yazan ər,
Ən böyük sərvərdi, ən böyük hünər.

55 Şah bəxtiyar olar, gedər irəli,
Dərk etsə öydüyüm fəzilətləri.

56 Anlayar cahanda nədir kişilik,
Mərdlik, pakizəlik, əndişə, bilik.

57 Əslimdən, nəslimdən söz açır dilim,
Nə cür çiçəkləndi vətənim, elim.

58 Öz doğma elimdən çıxandan bəri,
Yazdım, tamamladım bu şah əsəri.

59 Yetirdim kəmala Kaşğar elində,
Verdim hər vəsfini ana dilində.

60 Xanlar xanı Tavğac Qara Buğranın,
Önündə səsləndi şerim, dastanım.

61 Verdi qələm haqqı, ənam mükafat,
Məni əzizlədi o qüdrətli zat.

62 Mənə xas haciblik ünvanı verdi,
Yaxınlıq, doğmalıq imkanı verdi.

63 Yusif xas hacibi əzizlədilər,
Sayıldı hünərvər, müdrik, mötəbər.

64 Bu kitab – şairin müqəddəs yükü,
Xəlqə nişan verir dörd təbərrükü.

65 Birinci ədalət – haqqın əsası,
İkinci dövlətdir – iqbal arxası.

66 Üçüncü – idrakdır insana şöhrət,
Dördüncü – qənaət, məğzində səhhət.

67 Mənəm nişan verən nadir səadət –
Ədalət, qənaət, təfəkkür, dövlət.

68 Verdim ədalətə Gündoğdu adı,
Şahlıq, sultanlıqdır onun muradı.

69 Vəzirlik mövqeyi tutan Aydoldu,
Doğrudan dövlətin dayağı oldu.

70 İdraka vermişəm Ögdülmüş adı
Vəzirin oğludur, əqlin ustadı.



71 Ozğurmuş adını aldı qənaət,
Yaxındır vəzirə bu ülvi xilqət.

72 Kitabın məğzidir bu dörd fəzilət,
Yazıb bitirmişəm, qanımda qeyrət.

73 Ərəbcə, tacikcə bu cür kitab çox,
Bizim dilimizdə heyhat misli yox.

74 Bunun qiymətini bilənlər bilir,
Bu cür zəkalara arif deyilir.

75 Türkcə təranələr qoşmuşam sənə,
Oxu da, unutma, dua qıl mənə.

76 Mən ötdüm aləmdən, sən eşit özün,
İbrət al, qüdrət ol, açılsın gözün.

77 İlahi, aləmdə hər kəsə yar ol,
Mömini ruzu ver, ilk pərəstar ol.

## FƏSİLLƏR SADALIĞI:

1 Kitabın başlanğıcı, yeddi planet, on iki bürc.
2 İnsanın qədri, qiymәti.
3 Dilin xislәtlәri, faydası, zәrәrlәri.
4 Kitab yazarı öz üzrünü bildirir.
5 Öyüdünü, nәsihәtini söylәyir.
6 Bilik, oxu fәzilәtlәrini, faydasını anladır.
7 Kitabın düzülüşünü, yazarın yaşını aytır.
8 Qılıq, әhval pozuqluğunun zәrәrlәrini aytır.
9 Kitabın başı, Gündoğdu, әdalәt üstünә söz.
10 Aydoldu Gündoğdu hüzuruna gәlmiş.
11 Aydoldunun Gündoğdu xaqanla görüşü.
12 Aydoldu dövlәt xadimi olduğunu bildirir.
13 Yenә dövlәtin sifәtlәrini, fәzilәtlәrini aytır.
14 Dövlәtin vәfasızlıqı, gәldi-gedәr olması.
15 Gündoğdu Aydolduya özünü tanıtdırır.
16 Gündoğdu әdl sifәtini biliyilә nişan verir.
17 Aydoldunun Əlik bәyә sualı.
18 Əlik bәyin Aydolduya cavabı.
19 Danışmaq yaxşımı, yoxsa susmaq?
20 Qutun ağmalığını, dövlәtin vәfasızlığını aytır.
21 Aydoldunun oğluna nәsihәti.
22 Aydoldunun Əlik xaqana öyüd kitabı.
23 Əlik xaqanın Ögdülmüşü öz hüzuruna çağırması.
24 Əlik xaqanın Ögdülmüşә sualı.
25 Ögdülmüşün Əlik xaqana cavabı.
26 Oxunun (mütaliәnin) yeri.
27 Bәylәr necә olmalıdır.
28 Vәzirlәr necә olmalıdır.
29 Qoşun başçıları necә olmalıdır.
30 Haciblәr necә olmalıdır.
31 Pәrdәdәrlәr necә olmalıdır.
32 Elçilәr necә olmalıdır.
33 Baş katib – yazıçı necә olmalıdır.
34 Xәzinәdar necә olmalıdır.
35 Dәstirxançılar necә olmalıdır.
36 Şәrabçılar necә olmalıdır.
37 Bәylәrin xidmәtkarlara borcu.
38 Əlik bәyin Ögdülmüşә sualı.
39 Gündoğdunun Ozğurmuşa mәktub göndәrmәsi.
40 Ögdülmüşün Ozğurmuş ilә konuşması.
41 Dünyanın fәzilәtlәri, faydası, zәrәrlәri.
42 Dünyanın qüsurları, eyiblәri.
43 Fani dünyada baqiliyi qazanmaq yolları.
44 Əlik mәktubunun cavabını göndәrir.
45 Əlikin Ögdülmüşü Ozğurmuşun yanına ikinci gәz göndәrmәsi.
46 İkinci konuşmanın bәyanı.
47 Bәylәr xidmәtinin qanun-qaydaları.
48 Saraydakı qapıçılar ilә rәftar.
49 Evlәnmә, oğul-qız tәrbiyәsi necә olmalıdır.
50 Rәiyyәtlәr ilә rәftar.
51 Qonaqlığa getmәk, getmәmәk haqqında.
52 Süfrә başında әdәb qaydaları.
53 Yığıncağa dәvәt qaydaları.
54 Fani alәmdәn üz döndәrib baqiliyә can atma.
55 Qafillikdәn oyanmağın bәyanı.
56 Əlik Ögdülmüşü ziyarәt üçün adam göndәrir.
57 Ozğurmuşun Əlik hüzuruna gәlişi.
58 Ozğurmuşun Əlik bәyә öyüdü.
59 El abadanlığının mәnfәәtlәri.
60 Ögdülmüşün vaysınıb tövbәyә dayanışı.
61 Yaxşılığa yaxşılıq.
62 Ozğurmuş xәstәlәnir. Ögdülmüşü çağırtdırır.
63 Ozğurmuşun yuxu görmәsi.
64 Ögdülmüşün qardaşına sarı getmәsi.
65 Fani dünyaya vurulub yaşayışı zay etmәk haqqında.
66 Dövranın gәldi-gedәrliyi, dostların cәfası.

## MƏRHƏMƏTLİ, MEHRİBAN TANRININ ADI İLƏ

1 Yüz min alqış sənə, ey pərvərdigar,
Vahid, ulu Tanrı, fənadan kənar.

2 Sehrinlə yaratdın ənginlikləri
Ərzi, al günəşi, ayı, ülkəri.

3 Qadirsən, "Ol" dedin, oldu bu dünya,
Yer-göy, varlıq, hər şey hökmünlə əhya.

4 Bütün varlıqların dərdi var ikən,
Dərdsiz və şəriksiz yalnız özünsən.

5 Ey qadir, ey azad, əbədi ustad,
Səndən özgəsinə yaraşmır bu ad.

6 Böyüklük, qadirlik yalnız sənə xas,
Vahidsən, ölməzsən, mislin tapılmaz.

7 Varmı tayın, mislin? Yox... yeganəsən,
Əzəllər əzəli, sonsuzsan, əhsən.

8 Sıqmır təsəvvürə yeganəliyin,
Hər kəsə pay verir azadəliyin.

9 Şəksiz yeganəsən, ey ölməz ata
Nə təftişə sığdın, nə kainata.

10 İç sirri, dış sirri göstərən mayak,
Könlümə yaxınsan, gözümdən uzaq.

11 Ay və Günəş gibi işıq saçırsan,
Varmı varlığını dərk edən insan?

12 Şeyxlər yığını yox, vahidsən ey pir,
Özün yaratmısan, hər şey sənindir.

13 Hər şey gəldi-gedər... sənsə daim sağ,
Yaradan, yaşadan özünsən ancaq.

14 Hər bir yaranmışın yanında şahid,
Özün şahidsizsən, ey ulu vahid.



15 Tanrının əxşarı, tayı, misli yox,
Hansı idrak onu qavramış az-çox?

16 Nə gəzər, nə yatar... daim oyaqdır,
Misli, bənzəri yox... olmayacaqdır.

17 Nə sağda, nə solda, nə əvvəldədir,
Nə altda, nə üstdə... yersizmi o pir?

18 Məkanı yaratdı... öz məkanı yox,
Onsuz heç bir kəsin bir imkanı yox.

19 Ey hər sirrə yaxın, hər qəlbə əziz,
Surətlər, şəkillər səndədi şəksiz.

20 Sənin yaratdığın dağlar, dənizlər,
Ucalar, çökəklər, çöllər nə qədər!..

21 Sənindir göy səma, min-min Ay, ülkər,
Qaranlıq gecələr, aydın gündüzlər.

22 Uçanlar, gəzənlər, nəfəs alanlar,
Səndən ruzu tapıb oldu bərqərar.

23 Ərşdən başlamış nəm torpağacan,
Atam, sən vermisən hər canlıya can.

24 İmanı kamil tut, ey haqqa tapan,
Bir olan Tanrıya elm ilə inan.

25 Sən soruşma onun necəliyini,
"Amin!" de, dərk elə incəliyini.

26 Hardadır, nə cürdür, sorma maraqla,
Yerdəmi, göydəmi, özünü saxla.

27 Əfv et suçlarımı ey ucam-ulum,
Sən dərdsiz ağamsan, mən dərdli qulun.

28 Sənə sığınmışam, sənsən pənahım,
Darda əlimdən tut, ey qibləgahım.

29 Yetirsin peyğəmbər mənə özünü,
Yapışsın qolumdan qiyamət günü.

30 Salam, dörd eşinə, yüz min salamlar,
Onlara həmişə məhəbbətim var.

31 Göstər qiyamətdə o pak üzləri,
Bizə yol göstərsin müdrik sözləri.

32 Vəsfinə acizəm, ey canım-gözüm,
Həmdini özün qıl, tükənir sözüm.

## PEYĞƏMBƏR ƏLEYHİSSƏLAMIN FƏZİLƏTLƏRİ

33 Tanrı elçisiydi Həzrət peyğəmbər,
Xəlq içrə mötəbər, kişilikdə ər.

34 Məşələ çevirdi zülmət gecəni,
Hüsnünün nuruna qərq etdi səni.

35 O xəbər gətirdi pərvərdigardan,
Doqru yola çıxdın, sən ey qəhrəman.

36 Ata-anasını fəda qıldı o,
Yalnız ümmət üçün açdı doğru yol.

37 Nə gündüzlər yedi, nə gecə yatdı,
Tək səni tanrıdan sordu, ucaltdı.

38 O sənin uğrunda çox çəkdi nalə,
Sən ona həmd qıl, səadət dilə.

39 Bütün qayğıları ümmət üçündü,
Ümmətin uğrunda, məşələ döndü.

40 Atadan, anadan yaxın, mehriban,
Ümməti sorardı yalnız Tanrıdan.

41 O el səadəti, allah zəhməti,
Tanrı vergisiydi xülqü, xilqəti.

42 İpək təbiətli, əliaçıq, mərd,
Qılıqlı, mehriban Həzrət Məhəmməd!

43 Hanı yerdə, göydə o qədər əziz?
Tanrı qarşısında hörməti hədsiz.

44 Bütün başçılara bir göz işığı,
Bütün peyğəmbərlər ondan aşaqı.

45 Mən onun yoluna könül bağladım,
Qövmünü, hökmünü bərk qucaqladım.

46 Özün ehtiyat tut mənim könlümü,
Onunla oyanım qiyamət günü.

47 İlahi, əlimdən özün yapış gəl,
Bədirlənmiş Ay tək gördüm üzünü.



## PEYĞƏMBƏR SƏHABƏLƏRİNİN, RİZVANALLAHİ ƏLEYHİM FƏZLLƏRİ

48 Alqışa layiqdir onun dörd eşi –
Məsləhət məbədi, ülfət günəşi.

49 İki qaynatası, iki damadı,
Xəlqin sevimlisi, qolu, qanadı.

50 Hamıdan birinci, öndəydi Atiq,
Gözü-könlü doğru, Tanrıya sadiq.

51 Malım da, canım da qurbandır! – dedi,
Yalnız rəsuluna sevinc dilərdi.

52 Hələ xalq əsilli Faruq adlı ər –
Dilində yaşardı qəlbindəkilər.

53 Xəlqə şəriəti nişan verərək,
Qaldırdı pərdəni, göstərdi örnək.

54 Sonra Osman gəldi, o ülvi xilqət,
Kişilər kişisi, əliaçıq, mərd.

55 Cüt qızını verdi peyğəmbər ona,
Əsa canını da öz rəsuluna.

56 Hələ həzrət Əli – mərdlik məşəli,
Əqlinə təslimdi qılınclı əli.

57 Cömərd, əliaçıq, himməti uca,
Bilikli, tədbirli, gənc ikən qoca.

58 Dinin, şəriətin dayağıdılar,
Onlara zülm etdi kafər o ki var.

59 Bu dörd eş mənimçin dörd mizac gibi,
Verdilər qəlbimi, diriliyimi.

60 Üzümü tutmuşam pərvərdigara,
Min salam yetirir məndən onlara.

61 Onlara səadət, sevinc verim mən,
Qiyamət günündə tutun əlimdən.

## ŞÖVKƏTLİ, ZƏFƏRLİ, MƏDƏDLİ, HƏQİQƏT VƏ DİN DAYAQI TAVĞAÇ ULU BUĞRA QARA XAN ƏBA ƏLİ HƏSƏN BİNNİ ARSLAN XAN RƏHMƏTULLAHİ ƏLEYHİM ŞƏNİNƏ

62 Öncə Şərqdən əsdi bahar yelləri,
Sonra ətir saçdı cənnət gülləri.

63 Deyəsən bir azca boz idi dünya,
Əlvan rənglər ilə bəzəndi dünya.

64 Çəkdi dövlət yayı səfalı bahar,
Qışa hökm elədi: – kənar ol, kənar.

65 Günəş şölə çəkdi, qayıtdı yenə,
Balıq quyruğundan Quru bürcünə.

66 Necə ətir saçdı ağaclar, ləklər,
Al, sarı, qırmızı, yaşılca rənglər.

67 Yaşıllıq pərdəsi tutdu hər yanı,
Tavğac yola saldı Çin karvanını.

68 Necə zənginləşdi dərələr, dağlar,
Al, yaşıl geyindi bağçalar, bağlar.

69 Güldü, qah-qah çəkdi türlü çiçəklər,
İpar, kafur ətri dənizlər qədər.

70 Qərənfil nəfəsli səba küləyi,
Daqıtdı aləmə mişk, ipar iyi.

71 Tutmuş yeri-göyü qırqovul, ağquş,
Qaz, ördək sədası nə xoş olurmuş.

72 Göydə cəh-cəh vurur duma qatarı,
Dəvə karvanımı nazlı uçarı?

73 Eşini çağırır ilarquş yalqız,
Yoxsa sevdiyini haraylayır qız?

74 Kəklik qəhqəhəsi düşür dağlara,
Ağzı qan gibidir, qaşı qapqara.

75 Göydə qağıldayan qara qarğalar,
Yerdə qəmzə satan qızamı oxşar?

76 Gülşəndə sonalar-bülbüllər ötər,
İbrani surunu çalar sərasər.

77 Əliklər, cüyürlər çəmən nəfəsli,
İnəklər, buğalar ülfət nəfəsli.



78 Göylər göz yaşıyla dedi sözünü,
Güllər qah-qah çəkib açdı üzünü.

79 Mənə tənə vurdu dünya gülnəfəs,
– Xaqanın üzünü görmədinmi bəs?

80 Bəlkə yuxlayırsan, dur, aç gözünü,
Bəlkə eşitmirsən, eşit sözümü.

81 Neçə ildən bəri məyus, dul idim,
Atdım dul donumu, ağ libas geydim.

82 Ulu xaqan oldu bəyim... bəzəndim,
Uğrunda canım da qurbandır, dedim.

83 Bulud gumbuldadı, davul döyərək,
Xaqan qılıncıtək bərk vurdu şimşək.

84 Qılınc yıldırımlar sıyırdı qından,
Dağlar silkələndi qışqırığından.

85 Aləmi fəth etdi Tavğac Buğraxan,
Ona peşkəş olsun qoy iki cahan.

86 Ey dinin şövkəti, haqqın qılıncı,
Dövlətin dayağı, millətin tacı!

87 Bayat hasil etdi diləklərini,
Bayat mədədkarın hifz etsin səni.

88 Ey dünya cəmalı, dövlət dayağı,
Arslan tərpənişli haqqın bayrağı!

89 Bəxt sənə əl verdi, fələk qılınc – qın,
Bəxtini, təxtini Tanrı saxlasın.

90 Aləm aram tapdı xaqanı görcək,
Rəng-rəng ərməğanlar göndərdi fələk.

91 Çıxdı od yuvadan aləm quş təki,
Rumun qeysərləri, hindin rajlakı.

92 Mədh edib, şad olub qucaqlaşdılar,
Sevinc taxta çıxdı, aşıb-daşdılar.

93 Bürüdü aləmi nə qədər çiçək,
Dağ-dərə, çöl-çəmən çiçəkdən göyçək.

94 Xoşdur qönçə-qönçə ətir saçanlar,
Yaşıla ağ üzlə qapı açanlar.

95 Çiçək var – alovlu qəlyan çəkmədə,
Çiçək var, göbəyi mişg tökmədə.

96 Şərqdən ərmağanlar daşıyan da var,
Qərbdən xidmət üçün gələn can da var.

97 Bəxt gəlib qapıya xidmət etməyə,
Qapılar açılır, hörmət etməyə.

98 Yazın xidmətilə fəxr etdi topraq,
Düşmən boyun əydi, təslim olaraq.

99 Xaqan davulları kükrədi, daşdı,
Görməyən gözlərin uyğusu qaçdı.

100 Aləm aram tapdı, yol açdı bəxtə,
Xaqan ədaləti çıxardı təxtə.

101 Səxavət üzünə tamarzı qalan,
Qoy gəlib xaqanı görsün yaxından.

102 Cəfasız, vəfalı kişi istəsən,
Onun gözlərinə diqqət yetir sən.

103 Nəf umsan, düşmədən borca, ziyana,
Bəri gəl, xidmət qıl, könül ver ona.

104 Xoşrəftar, mülayim, mehriban, adil,
Aqil ər özüdür, özgəsi deyil.

105 Ey gözəl xilqətli, müqəddəs uruğ,
Var olun, qalmasın aləm qupquru.

106 Ey Türklərin bəxti, şükr etmək gərək,
Sənə dövlət verdi, çin verdi fələk.

107 Atalar sözündə bir təbir də var:
Atanın köhləni övlada qalar.

108 Min hədiyyə vermiş sənə bu aləm,
"Qutadqu bilik"dir mənim hədiyyəm.

109 Növ-növ ərmağanlar keçəri, əbəs,
Mənim ərmağanım əbədi, ölməz.

110 Mal-dövlət tükənir axar su gibi,
Söz əbədi qalır, gəzir aləmi.

111 Yazıldı kitaba xaqanın adı,
Demək, kitabla bir əbədi qaldı.

112 Ya rəbb, mədədkar ol hər işdə ona,
Daim dövlət quşu qonsun başına.

113 Dostunu uca tut, düşmənini yıx,
Sevinci bol olsun, dərdi azacıq.



114 Qoy yağsın yağışlar, güllər açılsın,
Bağlar yaşıllansın, ətir saçılsın.

115 O tapsın bəxtini, sınmasın qaşı,
Əyilsin önündə düşmənin başı.

116 Boz yer olmayınca mis gibi qızıl,
Ovcu lalə-lalə, bağrı yamyaşıl.

117 Türk təxti, türk bəxti yaşasın, gülsün,
Onu görməyənin gözü tökülsün.

118 Gözündə qalmasın bir dilək, arzu,
Ucaltsın başını mədədkar özü.

119 Xalqına fəxr ilə həmdəm kəsilsin,
Bir Loğman ömrünü yaşaya bilsin.

## YEDDİ SƏYYARƏ VƏ ON İKİ BÜRC

120 Yaradan, boy verən, əfv edən ağam,
Mübarək adınla sözə başlaram.

121 Könlüncə yaratdın sonsuz aləmi,
Günəş, Ay – işıqlı cüt salxım gibi.

122 Yaratdın fələyi – dolanar, dönər,
Ulduzu gah yanar, gah lapdan sönər.

123 Özünsən xəlq edən min-min ülkəri,
Zülmət gecələri, ağ gündüzləri.

124 Bu mavi səmada ulduzlar rəng-rəng,
Biri yolgöstərən, biri bərbəzək.

125 Biri bəşər üçün yaranmış ancaq,
Biri yol itəndə olur şam-çıraq.

126 Biri lap zirvədə, biri aşağı,
Biri od, birinin kəmdir işığı.

127 Hamsından ucada Zühəl-Sekantir,
Bir bürcdə iki il səkkiz ay gəzir.

128 İkinci ulduzun adı Onaydır[1],
Bir bürcdə duruşu on iki aydır.

[1] *Onay* – Müştəri.

129 Üçüncü adlanır Körüd-Mərrix, Mars,
Hara baxsa görər yaşıl, göy, ətlaz.

130 Dördüncü adlanır Yaşıq, ya da Şəms,
Gözü qamaşdıran, özü müqəddəs.

131 Beşinci Nahiddir, ya Zöhrə, Sevit,
Sevib baxsa, şad ol, özünü ovut.

132 Yanında dörd tarid – Arzu ulduzu,
Kimə yaxınlaşsa bənd olur özü.

133 Altında Ay gəzər – ilk adı Yalçıq,
Günəşi görəndə tapar aydınlıq.

134 On iki bürc də var, hərəsi bir zər,
İki xanəlilər, tək xanəlilər.

135 Quru – Yaz ulduzu, Ud da çırağban,
Erəndız – Jevzadır, Kürük – Səratan,

136 Sünbülə Arslana – Şirə həmnəfəs,
Ülgü – Mizan, Çazan – Əqrəb, Yay da Qövs.

137 Oqlaq-Jadiy, Qonaq-Dəvə, Balıq-Hut,
Doğarkən görünməz saf göydə bulud.

138 Üçü-yaz ulduzu, üçü yayınkı,
Üçü-payızınkı, üçü qışınkı.

139 Üçü-od, üçü su, üçü-havadır,
Üçü topraq oldu, dərdə şəfadır.

140 Bir-birinə yağı ulduzlar da var.
Gah hücum çəkdilər, gah barışdılar.

141 Qarışmaz, yarışmaz yağı ulduzlar,
Görüşməz... yadların qisas hissi var.

142 Gör yaradan Tanrım necə yaratdı,
Aləm yaraşıqlı... əlvan həyatlı.

143 Yetər... izn verin insandan deyim,
İnsanın sambalı – idrak və elm.

## İNSANIN QƏDRİ ELMİ İLƏ BİLİNİR

144 Mükəmməl yaratdı insanı Tanrım,
Ona bəxş elədi hünər, bilik, fəhm.



145 Ona könül verdi, bir də rəvan dil,
Əndişə, xülq, həm də gözəl qılıq, fel.

146 İnsan tilsimləri sındırsın deyə,
Ona fəhm, bilik verdi hədiyyə.

147 Bayat kimə verdi əql, idrak, bilik,
Çıxdı ürcahına min-min gözəllik.

148 Biliyi qudrət say, fəhmi də ulu,
Ən böyük insana döndərir qulu.

149 Mən isbat edirəm, diqqət kəsil sən,
Dinlə nə deyirəm, söz götür məndən.

150 Zəka kimdədirsə ulu da odur,
Bilikli bəşərin böyük oğludur.

151 Elminə, fəhminə söykənir deyə,
İnsan çata bilir min-min diləyə.

152 Bilikli kişidən bəla uzaqdır,
Heç vaxt dar ayaqda qalmayacaqdır.

153 Elmsiz kişini tez haqlayır dərd,
Ölür, yox olmursa dərd, ələm, illət.

154 Gəl-gəl, ey biliksiz, öz çarəni bil,
Elmsiz alçaqsan, elmli – aqil.

155 Elm – barlı bağdır... ona yetiş sən,
Çatarsan nə qədər mətləbinə sən.

156 Qalxır, zəka əhli ucalır qat-qat,
Elmilə sayılır ən əziz ustad.

157 Bəylər nə cür aldı dövranı ələ –
Yalnız zəka ilə, yalnız elm ilə.

## DİLİN FƏZİLƏTİ, FAYDASI VƏ ZƏRƏRİ ÜSTÜNƏ

158 Elmin, təfəkkürün dilmancıdır dil,
Kişini bəxtinə dil çatdırır, bil.

159 Kişini əzizlər, ucaldar da dil,
Yarar ər başını, qocaldar da dil.

160 Ağız qəfəsində dil bir ac arslan,
Özünü parçalar uçsan, buraxsan.

161 Dilindən dad çəkən görün və deyir:
Dilini qısmayan taparmı xeyir?

162 Çox bəlaya saldı öz dilim məni,
Başım kəsilməmiş kəsin dilimi.

163 Sözünə sərhəd qoy, batmasın başın,
Dilini dişlə ki, sınmasın dişin.

164 Sakin el dilindən... budur çətini,
Fitnəkar paxıllar çeynər ətini.

165 Tanrı cila verdi dilə, ağıla,
Mərd ol, dil yiyəsi, başını saxla.

166 Özünə rahatlıq, dinclik diləsən,
Dilindən silahsız söz çıxarma sən.

167 Elmli kişilər elmin güzgüsü,
Öz başını yeyər nadanın sözü.

168 Sözün çoxluğunda məna görmədim,
Gəvəzə natiqə xeyirsiz dedim.

169 Sözü çox çeynəmə... az çığır-bağır,
Yüz söz tilsimini bircə sözlə qır.

170 Söz deyənin başı göylərə dəyər,
İfrayt söz insanı alçaldar, əyər.

171 Eldə hörmətsizdi boş danışanlar,
Fəqət "lal" deyilən bir damğa da var.

172 İndi ki, böylədir... sözdə dürüst ol,
Nitqin yığcam olsun, zəka gücün bol.

173 Dilini saxlayan başını saxlar,
Qısa söz deyənin uzun ömrü var.

174 Dil nəfi başqadır, artıq üyütmə,
Məddah dili də var, arif dili də.

175 Çalış, bircə sözün min qəlbə girsin,
Qaranlıq qözlərə işıq gətirsin.

176 Biliksiz insanlar kordu şübhəsiz,
Elmdən qüvvət al, ey nadan, aciz.

177 Gələn bir gün gedir... parlaq yaşa sən,
Sözü öldürməsən, özün ölməzsən.

178 Kişini iki şey şux saxlar düzü:
Biri – ər xilqəti, biri – ər sözü.



179 İnsan gəldi-gedər... sözdü məbədi,
Ölməz söz insanı saxlar əbədi.

180 Özünə əbədi həyat istəsən,
Felindən, sözündən imdad istə sən.

181 Dili mədh elədim, yamanladım da,
Bunlar səninçindir, qalsın yadında.

182 Yüz-yüz, min-min kəlam idraka sığmaz,
Gərəkli sözlərin sayı azdır, az.

183 Böyükdür danışan, oğlum, səninlə,
Məndən aşaqıda əqlini dinlə.

184 Ən əziz sözümü sənə söylərəm,
Ata nəsihəti bütöv bir aləm.

185 Sənə qızıl qalsa miras, qulaq as:
Ata sözü qədər dəyəri olmaz.

186 Xərcləsən, tükənər xəznənin yüzü,
Xəzinə gətirər atalar sözü.

187 Atanın övlada ilk mirası – söz,
Dinləsə qazanar oğul birə yüz.

188 Söz deyə bildimmi? Oğlum çəkmə qəm,
Əgər peşman olub üzr istəsən.

## KİTAB YAZARI ÜZR İSTƏYİR

189 Diləyim söz idi, ey ulu alim,
Gələcək nəsl üçün beş-üç söz dedim.

190 Ağlına gələni dərhal demə sən,
Sözün yanlış olsa bəla görərsən.

191 El dili yamandır, heç bilsən neynər?
Xəbislər, paxıllar əlini çeynər.

192 Dərd ağır gələndə dil sussun gərək,
Sözlə yox, mərdliklə dərdi əridək.

193 Sorğular soruşar qırpınan gözün,
Bütün sorğulara cavabsan özün.

195 İnsan olan yerdə yanılmaq da var,
Məgər yanılmayan bir insan olar?

196 Elm əhli seyrəkdir, elmsizlər çox,
Nadan tutub yeri, alimə yer yox.

197 Başsızlar başlıya düşmən kəsilib,
Ədavət ülfəti ortadan silib.

198 Kişinin kişidən xeyli fərqi var,
Yalnız elmdədir bu fərq, bu meyar.

199 Mən sözü deyirəm yalnız alimə,
Gözü bağlanmışa sən insan demə.

200 Hadana, nakəsə heç bir sözüm yox,
Ey alim, özüməm xidmətçin az-çox.

201 Sənə öz sözümü yavaş deyirəm,
Səndən utanıram, üzr istəyirəm.

202 Söz deyən yanılar, yoldan azar da,
Dinləyən düzəldər səhvi arada.

203 Söz cilovlu gərək dəvə burnu tək,
Hansı səmtə çəksən ora gedəcək.

204 Biliban danışan ürfan əhli var,
Mənim gözlərimin işığıdırlar.

205 Bütün yaxşılıqlar elmdən doğar,
Göylərə yol açır alim adlı nur.

206 Bütün sözlərini elm ilə söylə,
Yalnız alim üzü saçmada şölə.

207 Söz endi torpağa mavi səmadan,
Sözlə qanadlandı, ucaldı insan.

208 Dibsiz dəniz gibi sonsuzdur insan,
O dibdə bilikdir ləl ilə mərcan.

209 Dənizdən incini sən çıxarmasan,
Onu bir çay daşı, caylaq daşı san.

210 Boz yerin altında qızıl layı var,
Qazıb çıxarılsa başda tac olar.

211 Alim öz elmini dilləndirməsə,
Yoxdur o elmdən fayda heç kəsə.

212 Elm ilə təfəkkür qanaddır qoşa,
Bacarsan qanadlan, yüksəl günəşə.

213 Eşit, nələr söylər bu kəndin bəyi,
O da bayraq edib yalnız biliyi.



214 Cahanı tutmağa zəkavət gərək,
Xalqı ram etməyə fərasət, ürək.

215 Aləmi əql ilə tutdu cahangir,
Xəlqi ram eləyən elmin sehridir.

216 Yarandığı gündən yoldadır bəşər,
Udur bu yürüşü yalnız aqillər.

217 Hər hansı dövrdə rütbə, xəzinə,
Kimə şölə saçıb? Alim üzünə.

218 Kişinin eybini nə silər? İdrak,
Elmin bulağıdır, onu qılan pak.

219 Elm, zəka sənə verməsə murad,
Yalnız bundan sonra qılınca əl at.

220 Xalqa başçı olur bilimdən bəylər,
Qılınc çalır yalnız kor dərəbəylər.

221 Aləmi tutmağa zəkavət gərək,
Xalgı ram etməyə fərasət, ürək.

222 Elm ilə fərasət, biliklə qeyrət,
Kişiyə bəxş edir eşsiz səltənət.

223 Tutmaq istəyirsən iki cahanı,
Soruş öz könlündən: bəs elmin hanı?

224 Özünə yaxşılıq istəsən əgər,
Yaxşılıq yolunu tut, ey hünərvər.

225 Adı qala bilər, insan özü yox,
Batırsan adını təyuqsan, təyuq.

226 Ad qalır, dünyadan tez köçür insan,
Adın yaşayırsa, sən də yaşarsan.

## YAXŞILARA QATILMAQ

227 Yaxşılıq fürsəti keçibsə ələ,
Həm sözdə, həm işdə yaxşılıq eylə.

228 Sovuşar igidlik, sönər həyat da,
Bir gün uyuyarsan torpağın altda.

229 Ömrü qənimət bil, yaxşılıq et ki,
Odur qazandıran eşqi, ülfəti.

230 Heç kəs bu dünyada ölümsüz deyil,
Mərdin yaxşılığı baş tacıdır, bil.

231 Cahanda dağ boyda ərlər doğuldu,
Axırda torpağın qisməti oldu.

232 Yaxşı da, yaman da, bəy də, kölə də,
Ölür... adı qalır yalnız ölkədə.

233 Gəlmiş, sənə çatmış indi də növbət,
Yalnız yaxşılıq et, ad-san qoyub get.

234 Şah olsa da bir gün döşənir yerə,
Alqış ad-san qoyub, can verənlərə.

235 Yalnız iki adı yaşadır həyat:
Biri yaxşı addır, biri yaman ad.

236 Seç götür... yaman ad dərhal sökülür,
Yaxşı addan ərzə işıq tökülür.

237 Yaxşı ad çıxartsan layiqsən eşqə,
Yaman ad çıxartsan, yalnız söyüşə.

238 Zöhhakın cəmdəyi lənət qazandı,
Fəridun hələ də bəşərin andı.

239 Biri yaxşı idi öydülər onu,
Biri yaman idi, söydülər onu.

240 Yamanmı xoş gəlir, ya sənə yaxşı,
Xalqın lənətimi, yoxsa alqışı?

241 Yamanlıq yaxşılıq rəmzidir insan,
Seç, götür birini, hansını umsan.

242 Hamını sınaqdan çıxarır zaman,
İşıqla zülmətdir, yaxşıyla yaman.

243 Mərdlər ad çıxarır, alğış qazanır,
Əclaflıq edənlər qarğış qazanır.

244 Min dəfə sınadım zövqü iflici,
Daim geri getdi, üzüldü gücü.

245 Haçan, hansı yerdə görüb bir kişi,
Bəhrə-bar yetirə şərin gərdişi?

246 Pislik – cəhənnəmdir, yalnız yandırar,
Salamat qoyduğu bircə daşmı var?

247 Fikir ver, nə qədər sələflərin var:
Avamlar, aləmi basıb alanlar...

248 Hansının könlündə yanıbsa işıq,
Verib bu aləmə zinət, yaraşıq.

249 Bəşər bəylərindən kimdə fəzilət,
Olubsa qətirmiş xalqa səadət.

250 Bu gün də yaşayır yaxşı kişilər,
Ən vacib işlərə başçı kişilər.

251 Elmin məbədinə hakimsə hər kim,
Arifi, alimi irəli çəkir.

252 Bir cüt əl – insanın əmək aləti,
Elm ilə saxlayır bəşəriyyəti.

253 Gör hansı eşq ilə çırpınmış ürək:
Acı, yoxsulu da zənginləşdirmək.

254 Bəşərin fəxridir səxavətlilər,
Onu yaşarı bil, ölübsə əgər.

255 Bilib ölməyini hazırlıq yapan,
Bir daş məktub yazır bizə məzardan.

256 Hər kim oxuyursa məzar daşını,
Dərk edir həyatın çağlayışını.

257 Elmdən qədrli cahanda nə var?
Nadanın öyüdü – həqarət, qubar.

258 Ürfan nuru saçan aq saçlı kişi,
Necə təsvir edir görün gərdişi:

259 Yuxarı başdaca yer tutdu nadan,
Aşağıya döndü həmən yer olan.

260 Alim yer tutursa aşağı başda,
Orda lələ dönür adicə daş da.

261 Əyləş aşağıda, ya yuxarı qalx,
Hörmətini elmin göstərər ancaq.

262 Yüzündən seçilir yalnız iki ər!
Biri bəy, o biri alim hünərvər.

263 Qalanlar miyanə... dəyişir donu,
İstəsən bunu seç, istəsən onu.

264 Sən indi hansısan, tapmacanı aç,
İkisindən biri... üçüncüdən qaç.

265 Qılınc alıb-satan təhlükə saçar,
Qələm alıb-satan elmə yol açar.

266 Alim töhfəsidir gözəl qanunlar,
Sürünəni ərşə qaldırır onlar.

267 Ölünün diriyə mirasıdır söz,
Atalar sözünün nəfi birə yüz.

268 Elmsiz adamlar kor gibidir, kor,
Nur istə elmdən, ey zavallı, nur.

269 Gözəl söz – dodaqda reyhan, qızılgül,
Cəsur natiqləri vəsf et, ey könül.

270 Ariflər içində Türkcə məsəl var,
Qoy deyim, sabaha qalsın yadigar.

271 Dilin kürkü sözdür, əqlin kürkü söz,
Mərdin kürkü üzdür, üzün kürkü göz.

272 Yaxşı sözlər deyər mərd ömrü boyu,
Daim üzündədir üzünün suyu.

273 Sən bax, diqqətlə bax Türk boylərinə,
Yaxşılıq biçilib əyinlərinə.

274 Türk boyləri içrə ən şöhrətli ər,
Alp Ər Tonqa idi – daim səfərbər.

275 El-oba içində adlı-sanlı, mərd,
Elmli, zəkalı, ən cəsur xilqət.

276 Əfrəsiyab derdi taciklər ona,
Xalqı birləşdirib yığdı başına.

277 Kimlər dolandırar bəşəriyyəti?
O kəs ki, güclüdür elmi, sənəti.

278 Taciklər kitabda yazıblar bunu.
Kitab – aşıb-daşan əqlin yekunu.

279 Ən sərt düyünləri kim aça bilər –
Ağızlı kişilər, alim kişilər.

280 Qulanı basmağa nər arslan gərək,
Cahanı tutmağa hünərli erkək.

281 Zülməti boğmağa, işıq olmağa,
Elm ilə yol açır Cahangir ağa.

282 Düşmənin boynunu qılıncla vuran,
Adil siyasətlə olur qəhrəman.



## ELM, ZƏKA – İDRAK FƏRQLƏRİNİN NƏFLƏRİNİ BİLDİRİR

283 Bilirsən qəsdimi, ey ulu alim,
Elmdən, zəkadan – idrakdan deyim.

284 Zülmət bir gecədə məşəldir zəka.
Elmdir nur salan kor qaranlığa.

285 Elm ilə, idrakla yüksəlir insan,
Qədr-qiymətini elminlə qazan.

286 Yad et zəka tacı Nuşirəvanı,
Necə işıqlatdı əqli cahanı.

287 Elmi sayəsində (mən eşitmişəm)
Qaçmış cəhənnəmdən əhli-cəhənnəm.

288 Səadət gətirdi xaqan millətə,
Adını həkk etdi əbədiyyətə.

289 Çocuq ki, hələlik yüzütmür qələm,
Kamala, idraka dolmayıb, nə qəm.

290 Qələm də dincəlir zəka sönəndə,
Qoca əldən düşüb dağdan enəndə.

291 Əgər ölsə dəli, ona ölüm yox,
Öldümü, qaldımı, nə bilsin yazıq?

292 Ağılsız, kamalsız yüngül kişilər
Arsızdır bəhrəsiz ağaclar qədər.

293 Elmdir yaradan qədri-qiyməti,
Savadsız adamın nə mərifəti?

294 Zəkalı kişilər nə bəxtiyarmış,
Deməli, əsli də, nəsli də varmış.

295 İdrakı olanın nəcabəti var,
İdrakı olanlar bəylik qazanar.

296 Üzüb qara yerdən əlini insan,
Saçdı kainata elm ilə ürfan.

297 Zəkadan saçılır aləmə şölə,
Bəylər xalq işini görür əql ilə.

298 Dünyada nə qədər gözəl sənət var,
İdrak sayəsində yaranmış onlar.

299 Nə böyük matahdır demə təfəkkür,
Hələ zərrəsinin hökmü böyükdür.

300 Alim nə deyirsə dinləmək gərək,
Dörd şeyi yadında saxlasın ürək.
301 Biri – od-alovdur, biri-xəstəlik,
Biri – qan düşmən, o da üstəlik.
302 Dördüncü – elmdir, ömürdən baha,
Sən bu dördcə şeyi ucuz tutma ha!
303 Bunlardan hər biri alim kimidir,
Yəni həm faydalı, həm zərərlidir.
304 Elm kimya kimi həmişə cəmdir,
Təfəkkür cövhəri, qəlbə məlhəmdir.
305 Elm gül suyuna bənzəyir bir az,
Nə elmi, nə ətri gizlətmək olmaz.
306 Gülabı gizlətsən, gələcək ətri,
Dilə od vuracaq elmin hər sətri.
307 Elm sənin öylə sərvətindi ki,
Darta, çala bilməz bir oğru-əyri.
308 Elm ayağında qandaldır... əhsən!
Yararsız işlərə gedə bilməzsən.
309 Elmin qüdrətilə əldumu rəhbər,
Uca, pak adini ər zəncirləyər.
310 Qandala saldığın canavarı sən,
İstədiyin səmtə yönəldəcəksən.
311 Zəka sənin üçün ən müqəddəs and,
Elm sənin üçün mehriban ustad.
312 Bildiyin düşməndir, biliksiz ərə,
Yetər bu düşmənlik onu öldürə.
313 Türkcə bir məsəl var buna bənzəyən,
Oxu və həkk elə öz beyninə sən.
314 Zəkalıya eşdir zəkası, ağlı,
Nadana ləkədir öz nadanlığı.
315 Qarnını, əynini görürsə elmin,
Yavuz qoldaşındır biliksizliyin.
316 Qəzəbi özündən iraq tut, iraq,
Uyma qəhr etməyə heç vədə, heç vaxt.
317 Qəzəblə, qəhr ilə iş görmə, sakın,
Yoxsa puça çıxar ömrün, varlığın.



318 Sonradan vaysınar qəzəbli kişi,
Dürüst görə bilməz ən adi işi.
319 Müdrik kişilərə sər-sambal gərək,
Ay və Günəş kimi nur camal gərək.
320 Kişi – xoşqılıqlı, mülayim, mətin,
Çırağı olmalı mədəniyyətin.
321 Kişi zəki gərək – iş görə bilsin,
Elmini ellərə pay verə bilsin.
322 Seçsin gərəklini, gərəksizləri,
Görsün yararlını, yararsızları.
323 Nur ilə zülmətin fərqini bilsin,
Özünün dərdini, sərini bilsin.
324 Hər sözü bişirən kamil kişilər,
Çiy yeməz, əti də bişirib yeyər.
325 Yetər mətləbinə bu cür adamlar,
Hər iki dünyada məğrur adamlar.
326 Kişiyə düşməndir qəhri, qəzəbi,
Daim çılğın yaşar, daim əsəbi.
327 Bu sözə əməl et, ey üzü nurlu,
Yaşa ər qürurlu, alim qürurlu.
328 Qəhr edən adamlar biliksiz olur,
Qəzəbin içində zəka boğulur.
329 Cəhalət kişiyə düşməndi, düşmən,
Alçaqlıq yaranır kindən, qəzəbdən.
330 Elmli kişilər sözünün əri,
Sözü – ürək hökmü, can bərabəri.
331 İnsanın içəri düşmənləri var,
Qəlbi sökür-tökür, dağıdır onlar.
332 Düşməndir – yalana öyrəşən dilin,
Vədə xilaflığın – başqa qatilin.
333 İçki düşgünlüyü – başqa düşmənin.
Düşmən təhlükədir, başa düş məni.
334 İfratçılıq özü – düşmən – nataraz,
İfrat kimsələrin sevinci olmaz.
335 Xülqün, xasiyyətin alçaqlığı da,
Zəhərli ilana bənzəyir qında.

336 Yaman dil, acı dil – ən yava duyğu,
Adamı öldürən zəhər tuluğu.
337 Bu cür qusurların ikisi, üçü,
Birləşsə, tükənməz insanın gücü.
338 Xəbisin, kinlinin gicələr başı,
Heyhat, ətəyindən o tökməz daşı.
339 Gəl, ey yaxşı kişi, yaxşı ol yenə,
Yaxşı çıraq tutur öz ölkəsinə.
340 Eşit nə cür olur mətin, mötəbər,
Xalqa əl uzadan müdrik kişilər.
341 Yaxşılıq yaşayır, ölmür heç vədə,
Yamanlıq gəbərir, ozizlənsə də.
342 Yaman tez qocalır, ömrü beş-üç gün,
Yaxşı məşəlidir uzun bir ömrün.
343 Yaxşı hər gün tapır bir diləyini,
Yaman daim yeyir öz ürəyini.

## KİTABA AD VERMƏYİM VƏ QOCALIĞIM

344 Kitaba ad verdim "Qutadqu bilik",
Tapsın oxuyanlar ağ gün, xoşbəxtlik.
345 Bitirdim kitabı. Sizə tanışdır,
O, iki dünyanı qucaqlamışdır.
346 Mərd iki dünyanın səadətini,
Tapırsa qazanır öz qismətini.
347 Sözümün əvvəli Əlik Gündoğdu,
Öncə deməliyəm ad hardan doğdu.
348 Aydoldu barədə konuşdum sonra,
Saldı şöləsini bəxtli çağlara.
349 Gündoğdu dediyim çin ədalətdir,
Aydoldu dediyim bəxt, səadətdir.
350 Ögdülmüş haqqında söz dedim sonra,
Əqli aldı bizi ucalıqlara.
351 Onların yanında Ozğurmuş durur,
Afiyət deyirəm, afiyət odur.



352 Dörd nəsnə üstündə yürütdüm sözü,
Oxuyub düşünsən açılar gözün.
353 Sevinclə yürüyən ey məğrur igid,
Sözüm ucuz tutma, könlünlə eşit.
354 Möhkəm ol, ayrılma haqqın yolundan,
Vermə gəncliyini əbəs... faydalan.
355 Gənclik gəldi-gedər... tut qədrini bil.
Nə qədər bərk tutsan... daimi deyil.
356 İkilik gücü var səndə... min olsun,
İtaət, ibadət adətin olsun.
357 Gənclik əldən çıxdı... vaysınıram mən,
Kəsirəm... fayda yox ahdan, nalədən.
358 Arxada qalıbsa kimin qırx yaşı,
Gəncliyi onunla gedir yanaşı.
359 Salam, gəlib çatdın, ey əlli yaşım,
Ağ quzğun gibidir ağaran başım.
360 Nə çöylər əlli yaş? Ölüm bir oğru,
Hər halda gedirəm ecələ doqru.
361 Kim əlvida desə altmış yaşına,
Yaz gedir... yanaşır ömrün qışına.
362 Otuz nə verdisə əlli yaş aldı,
Altmış gəlsə çatsa, daha nə qaldı?
363 Sənə neyləmişəm, ey əlli yaşım,
Qisas istəyənim, bəlkə baş daşım!
364 Şirin gəncliyimdi çıxan qarşıma,
Kimlər zəhər qatdı mənim aşıma?
365 İndi yaydı qəddim, o zamanlar – ox,
Onda da, indi də arzularım çox.
366 Mənə nə verdisə qaynar gəncliyim,
Kayb etdi qocalıq... hanı dincliyim?
367 Al məni yanına, ey alәmpənah
Ömrümə ad vurur çəkdiyim hər ah.
368 Ayaqlar sürünür... ayaqlar ağır.
Yorğun gözlərimi qaranlıq basır.
369 Getdi ağız dadı, könül atəşi,
Hanı gəncliyimin uçar köhləni?

370 Dur, yığış, ey qoca, şələni bağla,
Ötən günlərinə hönkürüb ağla.

371 Bütöv bir həyatı vermisən yelə,
Qalan günlər üçün bir üzür dilə.

372 Ey mənim ölməzim, hara can atdın,
Bunca ölərini neçin yaratdın?

373 Duaçınam, hər şey öz əlindədir,
Yaşımın üstünə bir az yaş gəlir.

374 Səndən qüvvət alıb başladım sözə.
Bir gün tamamlaram, versən icazə.

375 Ey dilim, vəsf elə ulu Tanrını,
Qurd-quşdan arıtdı könül tarlamı.

376 Qəlblərə nur saldı, seçdi, yaratdı,
Doğru yol göstərib dadıma çatdı.

377 Tulladı zülmətdən məni işığa,
Qərq oldum günəşə, yar-yaraşığa.

378 Azıb batmış idim, yol göstərdi, yol,
Oddan çıxarmasa, kül olardım, kül.

379 Sevdi, əzizlədi, məni ucaltdı,
Xətalar yolundan dartdı, çıxartdı.

380 Könlümü doldurdu səadət ilə,
Dilimə can verdi şəhadət ilə.

381 İdrakım, qayəmdir peyğəmbər sözü.
Yapışsın qolumdan peyğəmbər özü.

382 Mən nəydim? Taqətsiz, yolsuz bir kölə,
İlahi, yetişdim sənin fəzlinlə.

383 Necə şükr edim ki, eşitsin Tanrım?
Çatsın imdadıma ağ sabahlarım.

384 İlahi, bilirsən acizliyimi,
Tək sənə bəllidir qəlbimin qəmi.

385 Sənə şükr etməyə gücüm çatarmı?
Sən özün şükr elə özünə, Tanrım!

386 İmkan vermə çıxım haqqın yolundan,
Sönməsin könlümdə bu din, bu iman.

387 Canım çıxan zaman üstümə tələs,
Axır nəfəsimi şəhadətlə kəs.



388 Alanda qoynuna yeraltı məni,
Yağdır məzarıma öz rəhmətini.

389 Taqətsiz qulunam, ey ulu yəzdan,
Özün fəzlin ilə keç günahımdan.

390 Bütün möminlərə həyansan, həyan,
Bu gün bir nişan ver baqi dünyadan.

## GÜNDOĞDU ELBAŞI ÜSTÜNƏ SÖZ

391 Fəhm fəhm eləyir, bilik bildirir,
Vəfasız dünyanı bizə güldürür.

392 Qartımış qarıdır, mələk cildi var,
Bir qız camalında görünən kaftar.

393 Özünə cəzb edər o şux gulnəfəs,
Fəqət əl uzatsan əlini verməz.

394 Sevməz sevənləri, ceyran tək qaçar,
Ondan qaçanların ayağın qucar.

395 Bəzən görərsən ki, bəzənib gedər,
Bəzən baxar yerə, nazlanıb gedər.

396 Gahdan azxasını çevirər sənə,
Tutmaq istəyorsən, əl verməz, dönər.

397 Neçə boy qarıtdı, qarımaz özü.
Neçə boy kiritdi, cəh-cəhdir sözü.

398 Cahanda mərd, cəsur bir bəy də vardı,
Aləm sayəsində bir laləzardı.

399 Dövləti bərqərar, adı Gündoğdu.
Bəxtinin günəşi vaxtında doğdu.

400 Əmri, feli dürüst, gözü-könlü tox,
Dili baldan şirin, yalan sözü yox.

401 Hüşyar, zəka əhli, savadı əla,
Düşmənə amansız, od-alov, bəla.

402 Qüdrətli, qürurlu el bahadırı...
Onu tez yüksəltdi mərd addımları.

403 Hümmətlə yürüdüb siyasətini,
Çox uca tutardı ləyaqətini.

404 Buna uyar gəlir şairin sözü,
Oxuyub anlasan açılar gözün.

405 Kişinin hüsnüdür hümmət, mürüvvət,
Hər bir alçaqlığa alovlu nifrət.

406 Mərdin öz hümməti, öz mürüvvəti,
Artırır ondakı qədri-qiyməti.

407 Gündoğdu xilqəti örnəkdir bizə,
Günəş və Ay kimi nur saçdı ərzə.

408 Hər kim ağıllısa çəkdi yanına,
Ucaltdı özünün kəhkəşanına.

409 Yığdı ətrafına seçmə bəyləri –
Zəkalı, qeyrətli min hünərvəri.

410 Xalqa can yandırdı, yaratdı, qurdu,
Müdrik kişilərin üstündə durdu.

411 Təki yardım etsin hər başı uca,
O da nəfəs dərib dincəlsin azca.

412 Bir gün qayğılanıb dedi: – Şübhə yox,
Bu bəylik işləri əzablıdır çox.

413 Hər işin nə qədər baş ağrısı var,
İşlər türlü-türlü, vaxt az, macal dar.

414 Təkcə nasıl görüm bu qədər işi,
Mənə yardım gərək, iş görən kişi.

415 Yetsin imdadıma bir ərən, bir ər,
Qeyrətli, bilikli, cəsur, hünərvər.

416 Dili düz, qəlbi düz, işlə qol-boyun,
Mehriban, imanlı, haqsevər olsun.

417 Sirrimi, əhdimi bildirim ona,
Bütün işlərimi qoysun yoluna.

418 Müdrik, dünya görmüş, sınanmış kişi,
Başından keçirib bütün gərdişi.

419 Mənə köməkçilər, yardımcılar ver
Elmli, qeyrətli, hər işə qadir.

420 Yardımçılar gərək qeyrətli, işcil,
Yalnız iş görənlər həyata qabil.

421 Yardımçı çox olsa məşəqqət olmaz.
Bəylər bəy işini görər, keyfi saz.

422 Yardımçı – bəyliyin qanadı, qolu,
Onsuz hansı tədbir yerini tutdu?

423 Gündoğdu yardımçı tapa bilmədi,
– Nə qəm, bir cüt əlim sağ olsun! – dedi.

424 Hər gün tab elədi yüz məşəqqətə,
Dincəlsə, dinclik də döndü zəhmətə.

425 Yaxşı ki müqəddəs bəxtin yiyəsi,
Bu haqda bəxş edib bir söz töhfəsi.

426 Bir sevinc umursan, yüz kədər gəlir,
Məşəqqət kökündə qayalar dəlir.

427 Börkü də böyüyür, böyüdükcə baş,
Baş ağrısıyla da gəl indi tutaş.

428 Əlik bütün elə göz-qulaq oldu.
Açıldı qapılar, qara ağ oldu.

429 Boğdu öz əlilə yaramazları,
Atdı yamanları eldən dışarı.

430 Bu cür təmizlədi eli-elatı,
Şöhrəti yüksəldi, dövləti artdı.

431 Burda şair dili söz demiş gözəl,
Olmuş ağızlarda, dillərdə məsəl:

432 Qafillik ucundan çoxları öldü,
Ayıqlıq həmişə imdada gəldi.

433 Sakın, qafilliyi özünə ar bil,
Hər iki dünyada misgindi qafil.

434 Yurdu basıb gəlsə düşmən qəfildən,
Öncə qafil olur gəbərən, köpən.

435 Daim ayıq-sayıq, hüşyar olmasan,
Yırtıcı düşməni nə cür yıxarsan?

436 Ölkədə ayıq ol, ey başçı qüdrət,
Bunu tələb edir həm də şəriət.

437 Vaxtı öldürənlər ən böyük axmaq,
Hələ ki qadirsən, qafil olma, qalx!

438 Ayıq başçılardan quvvət alır kənd,
Bürüyür ölkəni xeyir – bərəkət.

439 Elbaşı ayıqsa çiçəklənər yurd,
Eyni sudan içər həm qoyun, həm qurd.

440 Sevənlər eşq ilə onu öydülər,
Yağılar eşidib boyun əydilər.

441 Pənah istədilər çoxları ondan,
Çoxları öpdülər astanasından.

442 Könlü ayıqların fikri, mətləbi,
Əlvandır səhrada çiçəklər gibi:

443 Bəylik – ayıqlıqdır, haqq yoluna çıx,
Ey kamalı günəş, çöhrəsi açıq.

444 Bəylik – siyasətdir, ey elsevər bəy,
Onu doğru-düzgün yürütmək gərək.

445 Bəxtiyar yaşayar ellər, əmin ol,
Bəyləri tutsalar doğru – dürüst yol.

446 Yaxşı ad – mərd üçün necə səadət!
Ölməzlik, ülviyyət, ən ulvi qismət.

447 Bəy bayraq eləsə insaniyyəti,
Bütün yaxşılıqlar olar qisməti.

448 Elbaşı ucaltdı eli-obanı,
Bürüdü cahanı şöhrəti, şanı.

449 Alqışlar, dualar onu ucaltdı,
Ad-sanı, dövləti günbəgün artdı.

450 Oldu cahan xalqı ona aşina,
Yığıldı hər yandan ellər başına.

## AYDOLDU GÜNDOĞDUNUN XİDMƏTİNƏ GƏLDİYİNİ BİLDİRİR

451 Aydoldu adlanan sərvər, hünərvər,
Eşitdi avazı, oldu səforbər.

452 Cavanmərd iyiddi, rəftarı ipək,
Zəkalı, elmli, qeyrətli, zirək.

453 Üzünün nurundan göz qamaşardı,
Dilində doğruluq qaymağı vardı.

454 Kamil öyrənmişdi neçə sənəti,
Gəzərdi, cismində sənət qüdrəti.

455 Düşündü: – Nə üçün xalqdan ayrılım?
Necə sənətimlə boş-bekar qalım?



456 Qoy gedim Elbaşı hüzuruna mən,
Ona xidmət edim candan, könüldən.

457 Şad olsun Elbaşı, getsin təşvişim
Ona qanad versin sənətim, işim.

458 Zəkalı, bilikli, incə rəftarlı
Sənətli-hünərli bəymiş – vüqarlı.

459 Burda yada düşür şairin sözü,
Həyatı əks edən ilham güzgüsü.

460 Zəkalı qədrini bilər zəkalı,
Alim bilik satsa, alim də alı...

461 Axmaq hardan bilsin qədrini elmin,
Elmin xiridarı alim deyilmi?

462 Arifin adını ariflər bilər,
Nadan hardan bilsin nədir elm, hünər?

463 Elmin dəyərini bilər xiridar,
Gövhərin qədrini gövhərşünaslar.

464 Aydoldu atlandı, belində yaraq,

465 Bahadır çiynində alim vüqarı,
Yönəltdi köhləni Elbaşı sarı.

466 Dedi: – Müqəddəs bir səfər edirəm,
Elin xidmətinə özüm gedirəm.

467 Hər şey qürbət eldə gərəkdir, gərək:
Xurcun, qaynanmış su, geyim, duz-çörək...

468 Yaxşı ki, qızılım, gümüşüm də var,
Qızılım tükənsə, rəngim saralar.

469 Sözünü sir tutan müdrik bir kişi,
Görün nə söyləyir, anıb gərdişi:

470 Saray xidmətinə gedən kimsənə
İki şey gərəkdir, qoy deyim sənə:

471 Bunun birincisi – sağ bədən, sağ can
Ta ki iş görəsən sən axıracan.

472 İkinci – saf altun, saf qızıl gərək,
Yoxsa köhlənin də yemlənməyəcək.

470 Açılar üzünə onda qapılar,
Sənə qapı açan adam tapılar.

474 Göz qoydu aldığı qızıl-gümüşə:
"Gərəyim olacaq hər vaxt, həmişə".

475 Elbaşı mülkünə sarı yönəldi,
Çapdı köhlənini, hərdən dincəldi.

476 Axır ki, toxtadı, çatdı mənzilə,
Ağıl arzulara yol açır hələ.

477 Aradı şəhərdə bir yer – düşərgə,
Tapmadı... dar imiş yer üzü bəlkə.

478 Qəm yedi... üz qoydu qonaq evinə,
Gecə orda yatdı... səbr edib yenə.

479 İşbilən, sözbilən alim kimdi, kim?
Eşit, məsləkindən bir misra deyim!

480 Dolanmaq çətindir hicra bir yerdə –
Tanışsız-bilişsiz gəzib şəhərdə.

481 Yoxsa bir həmdəmi neyləsin qərib,
Dolaşar şəhəri qəmgin, müztərib.

482 Tanışsız adamlar gözsüzə oxşar,
Söymə aldansalar, döymə azsalar.

483 Kişi məkan seçsə yabancı eli,
İsmətli gəlin tək lal olur dili.

484 Ey yerli biləgən, sənindir bu yer,
Əziz tut qəribi, yemək-içmək ver.

485 Yadı doğma bilsən, nurlanar gözü,
Aqzında bal dadar söhbəti-sözü.

486 Tanış-biliş gərək bizə hər yerdə,
İllah ki, qəribə yad bir şəhərdə.

487 Aydoldu pərişan gəzdi aləmi,
Saraltdı üzünü qəriblik qəmi.

488 Bir gün yaxınlaşdı adamlar ilə,
Hücrə tutdu... döndü bir qızılgülə.

489 Yar-dost çoxaldı, qəlbinə girdi,
Böyüyə-kiçiyə xoş üz göstərdi.

490 Özünə dost tutdu mərd bir tanışı,
Adı Kosamışdı, işləri yaxşı.

491 Aydoldu söylədi kim olduğunu,
Tamam agah etdi qəsdindən onu.



492 Nə cür gəlib çıxmış – dedi – bu yurda,
Bilib gördükləri nələrdi burda.

493 Hökmdə, fərmanda Elbaşıya tən,
Xas Hacib Ersiqi tanıyın lütfən.

494 Onun hüzuruna getdi Kosamış,
İcazə istədi, sözə susamış.

495 Onu diqqət ilə dinlədi Hacib,
Bildi ki, vacibdi məqsədi, vacib.

496 Kosamış bildirdi kim olduğunu,
Bura hansı dilək gətirmiş onu.

497 – Gəlsin hüzuruma Aydoldu özü,
Görüşək, konuşaq. O, məni görsün.

498 Elbaşı düşünər sözlərinizi,
Görüş təyin edər, dinləyər sizi.

499 Kosamış ovcunda dərdini boğdu,
– Aydoldu, qünaydın, günəşin doğdü.

500 Toləs, get, tanış ol Hacib ilə sən,
Yəqin başa gələr, hər nə diləsən.

501 Öz dilinlə söylə, nə mətləbin var,
Utanma, qoy səni eşitsin aşkar.

502 Çatdırdım, bəllidir ona hər sözün,
Daha dürüst olar, söyləsən özün,

503 Dili də, könlü də düzgün olanlar,
Müdrik kəlamları qoymuş yadigar.

504 Yoldaşın nə qədər yaxın olsa da,
Özündən yaxını yoxdu dünyada.

505 Dost işi görməyin hüsnü başqadır,
Amma özün görsən daha yaxşıdır.

506 Əgər özün üçün mehriban umsan,
Özündən mehriban tapılmaz, inan.

507 Aydoldu geyindi, qalxdı yerindən,
Kosamışla birgə yürüdülər tən.

508 Elbaşı çıxanda evdən eyvana,
Rast gəldi Hacibin xidmətkarına.

509 Kosamış içəri girdi, qayıtdı,
Mehri, söz-söhbəti ülfət yaratdı.

510 Aydoldu çay gibi bir çağlayışda,
Hacib yer göstərdi yuxarı başda.

511 Saçıldı dilindən bal gibi sözlər,
– Gəlib hara düşdün, atın nə təhər?

512 Varmı yar-yoldaşın, dostun, tanışın,
İçməyə şərbətin, yeməyə aşın?

513 Nə ilə məşğulsan, nədir mətləbin?
Nə gərək, dolumu, boşmudur cibin?

514 – Ey bəxtiyar Hacib – dedi Aydoldu –
Könlümə Elbaşı sevgisi doldu.

515 Uzagdan tanıdım onun səsini,
Elmini, əqlini, iradəsini.

516 Ona xidmət etmək – könlümdə məram,
Onun dərgahını arzulamışam.

517 Görürsən nələrdir könlümdən keçən,
Xidmətçi olaram son günüməcən.

518 Hacib Aydoldunu bəyəndi yaman,
Onu vəsf elədi ürəkdən, candan.

519 Üzü nurlu idi, rəftarı ipək.
Özü yaxşılqlar təcəssümü tək.

520 Özünü sevdirən mərdi sal yada,
Fəzilət sayılır nöqsanları da.

521 Hər kim sevilməsə sanki bayılır,
Ədəb-əxlaqı da nöqsan sayılır.

522 Bəlkə sözlərimə isbat umursan,
Buyur, dinlə məni, ey əziz insan.

523 Sevsən, gəlin olur qoca qarı da,
Dönür qızılgülə tikanları da.

524 Sevsən, qusüru da sevimli olur,
Saxsını sayırsan mirvari, büllur,

525 Hacib Aydoldunu əzizlədi ki,
Tələsmə, nəfəs dər, gözüm giləsi!

526 Təyin etməlidir elbaşı öncə,
Harda görüşməli, nə zaman, necə?

527 Sözünü eşitsin, üzünü görsün,
Ucuz tutmasın da, qədrini bilsin.



528 Bir azca səbr elə... nə dərd çək, nə qəm,
Bütün işlərini özüm görəcəm.

529 – Bütün çarələrin məndədir – dedi,
Ən yaxşı sözləri seçdi, xərclədi.

530 İnsan yaxşılığı bax bu cür olur,
Ağrıdan yaraya məlhəm qoyulur.

531 Eşit nə cür olur xalqına rəhbər,
Bütün işlərini dürüst görənlər.

532 Kimin ki, başından aşır dövləti,
O, gərək yürütsün xalq siyasəti.

533 İstəsə xalqını dolandıra bəy,
Xilqəti xoş gərək, rəftarı ipək.

534 Xalqa öz ömrünü həsr etsə hər kim,
Dili şəkər gərək, özü mülayim.

535 Dünya vəfasızdır, cütlər qalır tək,
Bu gün tikan olur dünənki çiçək.

536 Ağ gün ötəridir, inanma ona,
Bu gün sənə qismət, sabah qonşuna.

537 Ey ağ baxta çatan, inanma baxta,
Bugün var, sabah yox... mədarı saxta.

538 Varsa var-dövlətin, yaxşılıq qazan,
Əlindən çıxacaq inan bir zaman.

539 Sonə qismət olsa bəylik rütbəsi,
Kiçik tut özünü, ey bəxt yiyəsi.

540 Səadət kəməri bağladın, şad ol,
Hacib çox danışdı, sən sözləri bəl.

541 Tələsmə, dürüst ol iş görəndə sən,
Bağlı qapılar da açılar hökmən.

542 Alim bu barədə söz deyib qəşəng,
Onu yağ-bal gibi nuş etmək gərək.

543 Gərək iş görəndə dürüst görəsən,
Yambızına döyər daim tələsən.

544 Gərək tələsməsin işə canfəda,
Hər şey başa gəlir öz məqamında.

545 Aydoldu dinlədi deyilənləri,
Dedi: – Səbr edirəm haçandan bəri:

546 Hacib məni gördü, məni dinlədi,
Özü təyin etsin vaxtı, fürsəti.

547 Haçan istəsəniz o dəm gələrəm,
Dürüst, doğru sözdən nur alır aləm.

548 Aydoldu yerindən qalxdı, qayıtdı,
Evinə gec çatdı, bir azca yatdı.

549 Xülqü-xilqəti saf, ruhu – xəzinə.
Aydoldu Hacibin yatdı könlünə.

550 Dedi: – Görməmişəm böylə ər kişi,
Bilikli, zəkalı, hünərvər kişi.

551 Bu cür bahadırlar hələ seyrəkdir,
Elbaşıya gərək – xalqa gərəkdir.

552 Qız tək həyalıdır böylə kişilər,
Adı da qız adı... əbəsmi məgər?

553 Qızismət kişilər nə qədər əziz,
Ən böyük sərvətdir, tapa bilsəniz.

554 Neçə sənət bilir Aydoldu ərən,
Yalnız sənətinlə əhdə yetərsən.

555 Hacib, Elbaşıya, dedi fikrini:
Oqul tapılarmı Aydoldu kimi?

556 Xülqü-xilqəti saf, rəftarı ipək,
Biliyi, zəkası bir xəzinə tək.

557 – Tap, gətir, görüşək... hardadır, yeri?
Görmək istəyirəm o hünərvəri.

558 Çoxdan izləyirəm o cür ərləri –
Boyliyə yarayan dilavərləri.

559 Çatmışam əhdimə, ay canım-gözüm,
Böylə kişilərə müştağam özüm.

560 Tələs, hüzuruma, get, onu çağır,
Xidmətə hazır et, ey mərd bahadır!

561 Çıxdı darvazaya Hacib fərəhli,
Tapdı bir oğlanı, "qaç, tələs!" – dedi.

562 Oğlan xəbər verdi... Aydoldu fövrən,
Geyindi, atlandı hal-əhvalı şən.

563 Tərpədib köhləni, saraya gəldi,
Hacibi görüncə kefi düzəldi.



564 Yuxarı başdaca yer verdi Hacib,
Əyləşdi Aydoldu, ədəbi vacib.

565 – Çağır hüzuruma! – dedi Elbaşı,
Əyləşək, konuşaq bir az yanaşı.

## AYDOLDUNUN ELBAŞI İLƏ GÖRÜŞÜ

566 Hacib! – Bəxt kəmərin bağlandı artıq,
Aydoldu, qalx! – dedi. – O mərd əli sıx.

567 Aydoldu təzimlə öndə göründü,
Elbaşı nurlandı, açıldı könlü.

568 Şirin bir dil ilə sözə başlayan,
Aydoldu başçını qoymuşdu heyran.

569 – Kimsən, adın nədir, hardan gəlirsən?
Qəriblik çəkirsən nədən ötrü sən?

570 Aydoldu dinlədi onu diqqətlə,
Fikrini bildirdi bir fəsahətlə.

571 İki cizgisi var zəka əhlinin,
Biri şirin dildi, o biri təmkin.

572 Şair buna uyğun misralar demiş:
Tələsmə, səbr ilə başa gəlir iş.

573 Hər işdə diqqətli, ehtiyatlı ol,
Tələsik işlərdən kar aşmaz, oğul.

574 Bütün işlərini əgər səbr ilə,
Görsə, bəy qatına yüksələr kölə.

575 – Ey bəxtiyar ustad, şad etdin məni,
Xidmətlə süslənir qulluq köhləni.

576 Mənim köhlənim – qul, yerimiz həyət,
Felim – insaniyyət, işim də – xidmət.

577 Sənin dərgahına gəldim əhd ilə,
Bu gün əhdim dönür bir qızılgülə.

578 Sən məni yaxın tut öz xidmətinə,
Qaytarma, dözərəm cəbrə, çətinə.

579 Elbaşı şad oldu, dinlədi bir də,
Göydə gəzdiyini tapmışdı yerdə.

580 Məni məftun etdin, Aydoldu bu gün,
Tanrı vergisiymiş xilqətin, hüsnün.

581 Sidq ilə xidmət qıl mənim qapımda,
Saray – bir məbəddir, ona tapın da.

582 Səndən yaxşı xidmət, məndən mükafat,
Xidmət dürüst olsa açılacaq baxt.

583 Burda xidmət elə, zəhmətini çək,
Zəhmət haqqını da ödəyəcək bəy.

584 Yer öpdü Aydoldu, dedi: – Elbaşı,
Gözucu nur saçsa, var aşıb-daşı...

585 Sənə xidmət üçün çıxmışam evdən,
Bu uzun yollarda son demişəm mən.

586 Sənə xidmət üçün güc versin xuda,
Sənə xidmət üçün atmasın oda.

587 Sevinib, şad olub eşiyə çıxdı,
Yanar məşəl gibi eyni açıqdı.

588 Bəxti yeyin kişi nə söylər, eşit!
Bəxti sal qayanı ortadan deşir.

589 Bəy gülüb baxarsa mərdə gözucu,
Mərdin aşıb-daşar eşqi, sevinci.

590 Xoş sifət göstərsə bəylər adama,
Adam daş da olsa gələr ilhama.

591 Kimə yaxın tutsa bəylər özünü,
Gecədən çıxarar ağ gündüzünü.

592 Bəylik – səadəti. Kim səadətə,
Yaxınsa yol açar ülvi qismətə.

593 Aydoldu başladı o gün xidmətə,
Daim elbaşıdan oyandı ertə.

594 Gündüz pasibandı, gecə keşikçi,
Yalnız xidmətində tapdı sevinci.

595 Elbaşı yanına girib çıxanda,
İsti bir baxışı duydu bir anda.

596 Günbəgün artırdı öz xidmətini,
Elbaşı da ona məhəbbətini.

597 Bəylər əzizləyər mərdi işilə,
İşlə zor kişiyə çevrilər kölə.



598 Xidmət et, xidmətlə bəylik tapır qul,
Xidmətsiz yüksəlmiş de hansı oğul?

599 İndi də gəl dinlə alim sözünü,
Şairə bənzədir o da özünü.

600 Dəyərsiz xidmətlə çatır dəyərə,
Yersiz qanadlanır ən yüksək yerə.

601 Gərək büdrəmədən edəsən xidmət,
Xidmətə bağlıdır ən ülvi qismət.

602 Aydoldu xidmətdə coşur, çırpınır,
Elbaşı hörmətlə açır qapını.

603 Rütbəçi boy atdı rütbə başında,
Güldü könlü-gözü sevinc yaşında.

604 Aydoldu xidmətdə Ay-Günəş oldu,
Elbaşı dövləti birə beş oldu.

605 Sınadı Elbaşı onu yüz işdə,
Gördü quzu deyil, qoçdu döyüşdə.

## AYDOLDU ÖZÜ DÖVLƏT OLDUĞUNU BİLDİRİR

606 Elbaşı bir səhər oturmuşdu tək,
Çağırdı, Aydoldu gəldi sevincək.

607 Durdu qarşısında, üzündə təmkin,
İncə bir işarə dedi: – Əyləşin.

608 Aydoldu cibindən bir top çıxardı,
Əyləşdi, o topa söykəndi ardı.

609 Neçə sual verdi ona Elbaşı,
Aldı cavabını... çox gözəl, yaxşı.

610 Açıldı çöhrəsi, şənləndi könlü,
Bəs niyə Aydoldu yumdu gözünü.

611 Elbaşı toxtadı, nitq saçmadı,
Aydoldu gözünü yumdu, açmadı.

612 Elbaşı dillənib söz soruşanda,
Aydoldu turşutdu üzün bir anda.

613 Elbaşı düşündü: bu əsrar nədir –
Zehni, zəkavəti öz yerindədir...

614 Baxdı iltifatla, Aydoldu gördü,
Bəs niyə üzünü ondan çevirdi?

615 Elbaşı qəzəbli. Qəzəbi almaz.
– Təkəbbür kişiyə əsla yaraşmaz.

616 Sənə inanmaqla yanılmışam çox,
İndi nasıl deyim səhvim-suçum yox?

617 Alim kəlamını dinlə, nə deyir:
Tələsik işlərdən gəlməz bir xeyir.

618 Tez-tələsik bişən aşı yeyəndə,
Xəstə düşməz məgər yenidən bəndə?

619 Tələsmək daima bəla gətirər,
Ehtiyatlı olur mətinlər, mərdlər.

620 Mənim səhvim bu ki, (gəlim lənətə)
Sizi tanımadan aldım xidmətə.

621 Bəy gərək qulunu işlətsin əvvəl,
Ondan sonra desin: – Buyur gəl, yüksəl!

622 Qul gərək sınansın, dözsün zillətə,
Zillətdən yol açsın ada, şöhrətə.

623 Aydoldu söylədi: – Xoşbəxt Elbaşı,
Neçin qəzəblisən, çatılıb qaşın?!

624 Nədir səhvim-suçum, bilmirəm özüm,
Bəlkə deyəsiniz, açılsın gözüm.

625 Varsa səhvim-suçum, ərk elə, qına,
Yoxsa... üz-gözünü turşutma mana.

626 Şair buna uyğun nə demiş, dinlə,
Gözəl söz saçmada aləmə şölə.

627 Xidmətçi yanılsa harayla onu,
Öyrən hansı yerdə səhv olduğunu.

628 Varsa səhvi-suçu, ver cəzasını,
Yoxsa... mükafatın tər-təzəsini.

629 Elbaşı kükrədi, qəzəb saçaraq:
– Ey ağıldan azan, ey nadan axmaq!

630 Sən hara, mən hara? Səfehin biri,
Sən kimdən almısan fəzilətləri?

631 Mənə xidmətinmi? Hanı xidmətin?
Bəlkə xeyrin dəyib? Dəyibmi? Çətin.



632 Mən iltifat qıldım xidmət görmədən,
Ayaqaltı etdin məni bəs nədən?

633 Altına top qoyub dərhal oturdun,
Oturmaq yeridir bu yer? Cavab ver.

634 Mən sənə söz dedim, səndən söz aldım,
Yumdun gözlərini, heyrətdə qaldım.

635 Səni əfv edəlim, söz dedim min bir,
Niyə üz çevirdin? Mənə cavab ver.

636 Neçin eşitmədin bu sözü, oğul!
– Bəyə yaxın olsan, ehtiyatlı ol!

637 Atan demədimi məgər: – Unutma,
Ay bala, özünü bəyə tay tutma!

638 Məgər demədimi tayfa rəhbəri:
– Çəkmə ayağından bəy hünərvərin?!

639 Getmə, yaxınlaşma. Alovdu bəylər,
Yaxlaşsan yandırıb kül edəcəklər.

640 Cəhənnəm odundan betər əddu bəy,
Hər kim yaxınlaşsa zəqqum yeyəcək.

641 Alovdu, atəşdi bəyin arşını,
Əgər onu bassan, üzər başını.

642 Bəylər – qorxu, ürkü, vahimə, dəhşət,
Qorxmasan, qorxudan dəyənək, qüvvət.

## AYDOLDU ELBAŞIYA DÖVLƏTİN SİFƏTLƏRİNİ GÖSTƏRİR

643 Aydoldu, gözündə nur təbəssümü,
Dedi: – Sən konuşdun, eşit sözümü.

644 Sən hər nə dedinsə düşündüm asan,
Gərək sən də işdən agah olasan.

645 Bura neçin gəldim, öyrən, rəhbərim:
Mənim şakərimdir göstərdiklərim.

646 Mənə yer göstərdin, mən əyləşmədim,
– Yoxdu yerim mənim, bunu bil – dedim.

647 Topu yerə qoyub fikr elədim ki,
Nəyə bənzəyirəm – biləsən təki.

648 Top kimi qərarsız, yersiz-yuvasız,
Top kimi səyyaram, top kimi yalqız.
649 Sən baxdın lütf ilə... mənsə göz yumdum,
Sənə göstərdim ki, nə küs, nə də it.
650 Dövlətim, köç kimi yalqız, biaram,
Kim mənə ilişsə bərk yapışaram.
651 Sən suallar verdin... mən də söz dedim,
Sən baxdın lütf ilə... mən üz gizlədim.
652 Dedim: – bəlli olsun qılığım sənə,
Cəfakeş, dönükəm, inanma mənə.
653 Bu Türkcə məsəli eşit, nə söylər,
Ağsaqqal, pipani, dünya görmüş ər!
654 Ər kişi? İnanma bəxtə, dövlətə,
Bəxt deyib özünü salma qəflətə.
655 Axar su, rəvan dil, var-dövlət, ağ gün,
Bir yerdə dayanmaz, gəzər yer üzün.
656 İnan vəfasızdır dövlət, səadət,
Ayağı sürüşkən, özü kəmfürsət.
657 Elbaşı söylədi: – Aydındır sözün,
Səni xilas etdi məntiqli üzrün.
658 Qiymətli sözlərin məni əylədi,
Sənətin-hünərin hansı yerdədir?
659 Aydoldu söylədi: – Çoxdu sənətim,
Çatır insanlara nəfim, dövlətim.
660 Bütün böyüklərdən üzr istər dilim,
Yaşım az olsa da dürüstdü felim.
661 Üzüm nuranidir, xilqətim gözəl,
Əhdimə çatdırıb məni bir cüt əl.
662 Özüm harda olsam, min-min diləklər,
Mənə peyvənd olub, mənimlə gəzər.
663 Daim mənimlədir sevinc, fərağət,
Məndən qaçaq düşüb əzab, məşəqqət.
664 Kim mənlə dartışsa tez gedər bada,
Kim mənə baş əysə çatar murada.
665 Məndən tez vurular vurmaq istəyən,
Məndən tez basılar, "basacam!" deyən.

666 Qoy deyim bir söz də qalsın yadigar,
Oxusun, öyrənsin arif adamlar.
667 Harda dövlət olsa, təzim et, görüş,
Çatsan səadətə, dərd-qəmlə döyüş,
668 Qovuşsan ağ günə, olsan bəxtiyar,
Çarpış, varlığında min-min arzular.
669 – Sənətin, hünərin gözəldi... Lakin,
Bəs səhvin, qüsurun yoxmudur sənin?
670 – Mənim ziyan verən səhvim-suçum yox,
Fəqət mərdlər məndən gileylidir çox.
671 Yamanlıq damğası taxıb çiynimə,
Çoxları vəfasız deyirlər mənə.
672 Mənə qüsur deyil biqərarlığım,
Yeni sifət tapır mənim varlığım.
673 Bütün köhnə şeylər saralır, solur,
Çoxu qeyzimizin hədəfi olur.
674 Köhnə çoxlu gərək təzə çıxanda,
Göy çəmən kötüyü küncə sıxanda?!
675 Görsən yenidədir ləzzət, həlavət,
Ləzzət tələb edir bil ki, məşəqqət.
676 Vəfasız dedilər bununçun mənə,
Yüz ləkə vurdular dönüklüyümə.
677 Görün bu barədə nə demiş ozan,
Böyük gerçəkləri bir sözlə yozan.
678 Qaydadır: gül solur, hər gələn gedir,
Hər şey yaradanın öz əlindədir.
679 Həyat dedikləri ağ yelə bənzər,
Əsdimi, kim tapar ondan bir əsər?
680 İnanma gərdişə, çox şey hədərdi,
Ağ gün də, sərvət də gəldi-gedərdi.
681 Dövlət olmasaydı bunca vəfasız,
Səadət içində yaşardıq yalnız.
682 Dövlət gəldi-gedər olmasaydı gər,
Məgər qaralardı bizim ağ günlər?
683 Elbaşı söylədi: – Üz çevirməyin,
Nifrətin aydındı. Rəmzidi çərxin.

684 Aydoldu söylədi: – Başqadı təqdir,
Xilqətim vaz atan ceyran gibidir.

685 Tapa bilərmi heç məni sevənlər?
Tapsa da saxlaya bilərmi məgər?

686 Məni tapan kişi saxlarsa möhkəm,
Əlindən sivişib çıxa bilmərəm.

687 Səni bərk tutmağın nədir meyarı,
Say görək bunları, öyrənək barı.

688 Səni bərk tutmağın tərzi var yəqin,
Nədir əlaməti bu mətanətin?

689 – Məni bərk tutmağın bölgüləri var,
Qoy deyim, dostundan qalsın yadigar.

690 Məni bərk tutanın dili bal gərək,
Özü saf, mülayim, xilqəti ipək.

691 Ehtiyat gözləsin, məğrurlanmasın,
Yaramaz işlərə yaxın durmasın.

692 Bilsin ölçüsünü varın-dövlətin,
Xilqətinə uyğun haqq yolu seçsin.

693 Özündən böyüyə təzim eyləsin,
Özündən kiçiyə bal sözlər desin.

694 Şüarı: böyüyə hörmət, etina,
Kiçiyi salmasın ayaq altına.

695 İçkiyə, qumara məhəl qoymasın,
Faydasız işlərə pul sovurmasın.

696 Əli pak, dili bal, özü mərd, mətin,
Şüatək düz olsun xülqün, xilqətin.

697 Vəfasız olmasın neyləsin dövlət,
Görün tələb edir necə fəzilət.

698 Burda yada düşür şairin sözü –
Bizim Türkcəmizin şəkəri, duzu:

699 Dövlət ələ keçsə, cilovla, tələs.
Vaz atan ceyrandır, qalmağa doymaz.

700 Möhkəm tutan üçün dövlət bagidir,
Getsə bir də gəlməz, biryolluq gedir.

701 Elbaşı söylədi: – Sevmişəm səni,
Bəs niyə cövr edib atırsan məni?



702 Bir vaxt nə vəfasız, nə biqərardın,
Xoşbəxt gəlişinlə sanki bahardın.

703 Bu gün biqərarsan, həm də bivəfa,
Vəfanı vəd edib qılırsan cəfa.

704 Atadan, anadan mehriban olub,
Ovcunda tutursan, lütf ilə dolub.

705 Bəs niyə dönüksən, daşmıdır üzün,
Hanı o dünənki qılıncın, sözün?

706 Dövləti gah yığar, gah da səpərsən,
Bütün qapıları birdən qaparsan.

707 Aydoldu söylədi: – Xoşbəxt kimsənə,
Sənətim, səhvim də bəllidir sənə.

708 Açdım, bir-bir dedim işin sirrini –
Məni bərk tutanın hər tədbirini.

709 Kəməndə salmasa məni tutan ər,
Ceyran tək qaçaram, kim əsir edər?

710 Eşit, nələr deyir aqil bir insan,
Sözünün mayası təcrübə, ad-san:

711 Saxlaya bilməsən gəlir, gedir bəxt,
Sən yeməsən, yeyir bir özgə xoşbəxt.

712 Vəfasız dövlətə yetişsən bərk tut,
Tutmasan, gedəcək, olsa da yaqut.

713 – Sağ ol, bələd oldum fəzilətinə,
Bəs Aydoldu adı nə deməkdi, nə?

714 Kim vermiş bu adı, nədir dəyəri?
Öyrənək, açılsın məğzi, cövhəri.

715 – Aya bənzədiblər mənim adımı,
Mənim xilqətimi, mənim zatımı.

716 Doğanda dünyaya Ay kiçik gəlir.
Sonra yavaş-yavaş artır, yekəlir.

717 Aləmə nur saçır bədirlənəndə,
Gəzir kainatı işıq selində.

718 Tamam bədirlənib qalxdımı övcə,
Kiçilir, kiçilir, solur getdikcə.

719 İtir parlaqlığı, sanki məhv olur,
Gedir, bir də gəlir, çöhrəsində nur.

720 Elə mən özüm də Ay gibi açam,
Gah peyda oluram, gah məhv oluram.

721 Üz tutsam zəifə, qüvvət verirəm,
Əzəmət, ləyaqət, şöhrət verirəm.

722 Bir lüt zənginləşər dünyalar boyu,
Mən getsəm, tökülər üzünün suyu.

732 Hər nə yığmışdısa, məhv olub gedər,
Xülqü, xasiyyəti, ad-sanı itər.

724 Buna uyar gələn söz deyib şair,
O söz gözsüz üçün göz bəbəyidir.

725 Kişiyə var-dövlət, şöhrət gəldimi,
Nur saçar, parlayar yeni Ay kimi.

726 Dövlət vəfasızdır, can vermə hədər,
Dolğun Ay kimidir, incəlib gedər.

727 Yenə bir mənanı qoy deyim sənə,
Dinləyib fəhm elə, inan da mənə.

728 Gəzəri mənzildir Ayın məkanı,
Daim dəyişmədə... məkanı hanı?

729 Ay bürcü Sratan dönər, dolanar,
Evrilər, çevrilər, sönər, nurlanar.

730 Girsə hansı bürcə, qalmaz, çıxar Ay,
Qonduğu mənzili sanki yıxar Ay.

731 Elə mən özüm də Aya bənzərəm,
Batmaq bir aləmdir, çıxmaq bir aləm.

732 Gəlirəm, gedirəm... Yürüşüm soyuq,
Gəzirəm aləmi, yurdum-yuvam yox.

733 Alim necə görüb istedadımı,
Bununçün Aydoldu qoymuş adımı.

734 Hər bir qüsurumu, fəzilətimi,
Budur, dedim sizə bir dövlət kimi.

735 Hər şeyi söylədim açıq-arxayın,
İstər rədd eləyin, istər saxlayın.

736 Dinlədim. Sözlərin nur salır qəlbə,
Özün də, sözün də – böyük qələbə.

737 Sən kimi sərdarı, ey məğrur adam,
Göydə axtarmışam, yerdə tapmışam.



738 Bayat kimə versə gül açan dilək,
Ona cavabımız şükr olsun gərək.

739 Bu gündən belə mən ta məzaradək,
Ulu yəzdanıma şükr edən gərək.

740 Gör nədir alimin bizə xitabı,
Özü köçüb getmiş, qalmış kitabı:

741 Ey nemət sahibi, şükr et, kama çat,
Şükr etsən, rizqini çoxaldar bayat.

742 Heyf, unudur özün nemət sahibi,
Şükr etsə, Tanrının smarmı qəlbi?

743 Azca kərəm üçün çox-çox şükr qıl,
Nemət nəsib olsa, sən qədrini bil.

744 Şükr edənin rizqi birə beş olar,
Evi aşıb-daşar, nemətlə dolar.

745 Alqışlar söylədi elbaşı ona,
Dedi: – Gecə-gündüz yaxın ol mana.

746 Vəsf etdi dostunu, gözündə şəfqət,
Verdi qızıl-gümüş, var-dövlət, xələt.

747 Nə işlər görəcək – anlatdı ona,
İşdə zəka umdu, zəhmətdə mənə.

748 Yetişdi Aydoldu qədrə-qiymətə,
Tapındı iş adlı ulu məbədə.

749 Elbaşı düşündü: – Ey dili-qafil,
Hamıdan kamilmiş Aydoldu, kamil.

## ELBAŞI GÜNDOĞDU AYDOLDUYA ƏDL SİFƏTİNİN NECƏ OLDUĞUNU BİLDİRİR

750 Bir gün oturmuşdu Gündoğdu yalqız,
Sıxıldı boş evdə yarsız-yoldaşsız.

751 Çağırdı dostunu, yol verdi ona,
Dost içəri gircək əl verdi ona.

752 Önündə Aydoldu dayandı məğrur,
Elbaşı söz demir, bir müddət susur.

753 – Əyləşin, söylədi işarətilə,
Dopdolu nəzakət, məhəbbətilə.

754 Əyləşdi Aydoldu ahəstə, yavaş,
Canında sıxıntı, bir az da təlaş.

755 Baxdı Elbaşıya gözucu, xəlvət,
Elbaşı turşsifət, qaşqabaqlı, pərt.

756 Əyləşib, altında gümüş kürsüsü,
Üç ayaq üstündə durur bu kürsü.

757 Əlində bir bıçaq, özü bir az sərt,
Solunda dərman var, sağında sərvət.

758 Onu görən kimi qorxdu Aydoldu,
Dərin nəfəs aldı, rəngi saraldı.

759 Başını qaldırıb dedi Elbaşı:
– Bir tərpət dilini, bir söz de yaxşı.

760 Lalmısan, karmısan, bir söz demirsən,
Yalqızmı görmüsən məni burda sən?

761 Aydoldu söylədi: – Xoşbəxt elbaşı,
Sözdə cürətsizəm, nitqdə naşı.

762 Bu cür xülqün özgə, felin də özgə,
Bununçün eymənib durmuşam gendə.

763 Bu gün öyüd vermiş bizi öyrədən:
Yaxın durma bəyə qəzəblənirkən.

764 Bu sözü demişlər göz necə gerçək:
Od və zəhər olur qəzəblənən bəy.

765 Bəylər qəzəb saçsa, qəhr ilə sərxoş,
Yaxın durma ona, ey xilqəti xoş!

766 Bəylər qəhrə dolub saçırkən hiddət,
Onlardan uzaq ol, ey bəşəriyyət.

767 Bir cüt misra deyim, yaramı bağla,
Onu sal qəlbinə, özünü saxla.

768 Qəzəbli vaxtında yanaşma bəyə,
Yanaşsan, ürcahsan qədrsizliyə.

769 Bəylər buz ürəkli arslana bənzər,
Qəzəblənsə, kükrər, başını üzər.

770 Elbaşı söylədi: – Gözdən söz aldın,
Niyə təəccübdə, heyrətdə qaldın?

771 – Heyrət içindəyəm, bəli, ey dədə,
Neçin əyləşmisən gümüş kürsüdə?

772 Bu necə oturuş, bu necə kürsü?
Cavab ver, ayıraq əyridən düzü.

773 Nədir əlindəki o uzun bıçaq?
Şərh et, mənasını anlayaq, açaq.

774 Solunda dərman var, sağında şərbət,
Bizə nələr deyir bu bal işarət?

775 Sərt qəzəb içində qaşqabaqlı bəy,
İtirdim ağlımı bu halı görcək.

776 Dinib-danışmadım, elə bil laldım,
Təəccüb içində, heyrətdə qaldım.

777 Elbaşı söylədi: – Anladım səni,
Dinlə, mən də deyim başdan keçəni.

778 Mən dünən çağırdım. Sən gəldin, hələ,
Sənə yer göstərdim ehtiram ilə.

779 Felini, fəndini məndən gizlədib,
Əcayib işindən bəhs açan rəqib.

780 Mən qəzəb saçanda qorxudan əsdin,
Sənə qəhr qıldım, sözünü kəsdin.

781 Sonra nələr dedin: – Mən bəxtəm, tanı,
Anla hər işdəki məğzi, mənanı.

782 Verdin yozumunu, hər felin nədir?
Mən açdım, oxudum onları bir-bir.

783 Qandım, qəbul etdim sənin üzrünü,
Səni əzizlədim, ay ömrüm-günüm.

784 Mən də göstərirəm indi gün kimi,
Aydın işlərimi, sənətlərimi.

785 Budur, diqqət elə, rəmzlər rövşən,
Adil siyasətin məkanıyam mən.

786 Qurduğum kürsü üçayaqlıdır,
Dirənib torpağa, ərzə bağlıdır.

787 Büdrəmir, sarsılmır üçayaqlılar,
Çünki bərk dayanan üç dayağı var.

788 Titrəsə, büdrəsə üçündən biri,
Gedər bu kürsümün dizinin kiri.

789 Yerə bərk dirənir üçayaqlılar,
Dörd olsa, bəlkə də əyri, ləng olar.

790 Göz yetir, düz şeylər uzun olurlar,
Uzun olanların düz qaməti var.

791 Əyrilik rəmzidir hər gödək olan,
Bütün əyrilərin toxumu yaman.

792 Hansı düz büdrəsə qalmaz, yıxılar,
Düzlər düz dayansa, həmişə yaşar.

793 Mənim işdəklərim düzgündür ox tək,
Ədalət hökmünü görəsən gərək.

794 İşdə hökmüm qəti, ədalətim çox,
Bəymidir, qulmudur, mənə dəxli yox.

795 Əlimdə tutduğum bıçaqdırsa, bax,
Biçmək, kəsmək üçün yaranmış, ancaq.

796 Cinayət işini uzatmaram çox,
Baçaqtək kəsərəm, bıçağım bir ox.

797 Zillət çəkənlərə verirəm şərbət,
Gəlib dərgahıma tapsa ədalət.

798 Şərbəti içdimi, şad olub gedər,
Sevinci, şadlığı dünyalar qədər.

799 Dərmanı verirəm o kimsəyə ki,
Özü qəddar ola, əməli əyri.

800 Bal yox, zəhər-zəqqum verirəm ona,
Bu zəqqum cavabdır zalımlığına.

801 Mənim qaş-qabağım, üz turşutmağım,
Zalıma güzəştdir cavabdır, sakin.

802 İstər yaxın olsun, istərsə uzaq,
İstər çaxmaq gibi çaxan bir qonaq...

803 Ya öz ciyərparam... mənə dəxli yox, –
Hökmüm adil olur, beynim də soyuq.

804 Bəyliyin özülü düzgünlükdü, bil,
Bəylər adil olsa, çiçəklənər el.

805 Aqillər söz demiş bu fikrə bənzər,
Aqillər sözünü tutan yüksələr.

806 Bəyliyin təməli düzlükdü düzlük,
Canı, şah damarı düzlük, təmizlik.

807 Bəy tutsa doğru yol, adil siyasət,
Hər bir mətləbinə yetişər əlbət.



808 – Gündoğdu, ey mənim bağrımın başı,
Adında mənə var, aç yaxşı-yaxşı.

809 – Duymuş xilqətimi o tarix yazan,
Ən dürüst ad seçib mənimçün ozan.

810 Kiçilməz, qaralmaz, al Günəşə bax,
Həmişə yetkindir, həmişə parlaq.

811 Mənim də xilqətim Günəşə bənzər,
Safam, müqəddəsəm al Günəş qədər.

812 Gün doğar, aləmi nura qərq edər,
Nur saçar, işığı hər kəsə yetər.

813 Mən də Günəş kimi yox olmam, varam,
Hamıya eyni cür işıq saçaram.

814 Gün çıxsa, aləmə istilik verər,
Gül açar minlərcə güllər, bitkilər.

815 Mənim ədalətim hansı elata,
Çatsa, çiçək açar sal qayası da.

816 Yaxşıya, yamana Günəş fərq qoymaz,
Hamsına nur saçar, özü azalmaz.

817 Eyni biçimdədir mənim də felim,
Məndən bəhrələnir min obam, elim.

818 Günəş bürcü sabit... daim bərqərar,
Dəyişməm... Günəşə bənzəyişim var.

819 Gün bürcü Arslandır – heç vaxt tərpənməz,
Bürcü sarsı bilməz, azalmaz, enməz.

820 Böyləyəm, dəyişməz məğzim, adətim,
Nur saçmaqdan savay yoxdur halətim.

## AYDOLDUNUN ELBAŞIYA SORĞUSU

821 Aydoldu söylədi: – Xoşbəxt Elbaşı,
İşığa qərq elə hər yaranmışı.

822 Uzun yollar keçib, çəkib min zillət,
Sənin dərgahına çatdım nəhayət.

823 Feyzin, fəzilətin bol olduğundan,
Gəldim dərgahına, ey xoşbəxt adam!

824 Nasıl xidmət edim söylə mən sənə,
Səadət günəşi gülsün üzünə?!

825 Ər xidməti bəyi salmasa razı,
Yüz məşəqqət çəkə, varmı mənası?

826 Eşidin, nə demiş bir ər oğlu ər,
Xidməti naminə qalxan bəxtəvər.

827 Əgər xidmət etsə bəyə xidmətkar,
Bəyi şad etməkdir ən dürüst meyar.

828 Öylə xidmət et ki, razı qalsın bəy,
Razıdır, qapılar açılır, demək.

829 Xidmət etdiyini bilsə xidmətkar,
Ən yuxarı başda şərəf yeri var.

830 Bəyi şad eləsə xidmət əhli qul,
Açılar önündə ən işıqlı yol.

## ELBAŞININ AYDOLDUYA CAVABI

831 – Aydoldu, dinlədim səni həvəslə,
Mənə sevinc dilə, özünü gözlə.

832 Mən sənə bəhs açım yararsızlardan,
Yararsız hər şeydən uzaqlaş olan.

833 Biri yalançılıq – ən böyük mərəz,
Biri zorakılıq – yırtıcı bir nəfs.

834 Gözümün düşməni saydım onları –
Ar və həya bilməz küt məlunları.

835 Qurumsaq gədələr, gərəksiz, bifər,
Alçaqlar, saxtalar, əliəyrilər.

836 Qatillər, mitillər qan düşmənimdir,
Ləyaqət, şərafət, şan düşmənimdir.

837 Sənin də düşmənin nakəslərdisə,
Demək, səngərdaşıq, verək səs-səsə.

838 Demək, nəfəsdaşım, qan qardaşımsan.
Fəxrim, iftixarım, uca başımsan.



## AYDOLDUNUN ELBAŞIYA SUALI

839 Aydoldu söylədi: – Dinlədim səni,
Yenə bir sözüm var, agah et məni.

840 Kimdir yaxşı kişi cahanda səncə,
Gözəl qılıqları yetişir necə?

## ELBAŞININ AYDOLDUYA CAVABI

841 Ər kişi, nər kişi odur ki, dədə,
Xalqına faydası dəysin ölkədə.

842 Xalqa xidmətini eləsin peşə,
Mükafat ummasın gördüyü işə.

843 Yurda fayda versin, minnət qoymadan,
Özü özgəsindən faydalanmadan.

## AYDOLDUNUN ELBAŞIYA SUALI

844 Aydoldu söylədi: – Anladım səni,
Qəlbimdə əhdim var, agah et məni.

845 Doğruluqdan danış. Nədir doğruluq?
Bəlkə ondan savay işıq yolu yox?!

846 Nədir bu dünyada doğruluq yolu,
Təməli, cövhəri, qanadı, qolu?

## ELBAŞININ AYDOLDUYA CAVABI

847 – Başqadır doğrunun əvsunu, sirri –
Qəlbi də, dili də, sözü də birdi.

848 Məşələ bənzəsin kişinin könlü –
Bir olsun hər zaman içiylə çölü.

849 Qəlbini ovcuna alıb yürüsə,
Məğrur baxa bilsin kəsə, nakəsə.

850 Doğruluq mərd üçün səadətlə tən,
İnsanlıq deməkdir başdan, binədən.

851 İnsan yox, insanlıq qiymətlidir, bil,
Doğruluq azalmış, adam az deyil.

852 Buna uyar demiş sözünü şair,
Bəxş edib sözünün duzunu şair.

853 Deyənlər, gülənlər ərzə sığmazdır,
Ər kişi, mərd kişi bəs neçin azdır.

854 Adam yox, kişilik üstündü, qafil,
Yalnız ər kişini bəyənir aqil.

## AYDOLDUNUN ELBAŞIYA SUALI

855 Aydoldu söylədi: – Xoşbəxt Elbaşı,
Bu sözü mənimçün aç yaxşı-yaxşı.

856 Yaxşı mümkünmüdür yamana dönsün,
Yamanlar dəyişsin, yaxşı görünsün?

## ELBAŞININ AYDOLDUYA CAVABI

857 Yaxşılar dünyada növ-növ, cürbəcür,
Doğru yol tutanlar haqq körpüsüdür.

858 Mərd, anadangəlmə yaxşılar da var,
Daşı, qayanı da yarar, yol açar.

859 Köçəri, ötəri yaxşılar var ki,
Qoşulsa yamana kirlənər beyni.

860 Yamanlar dünyada azı iki cür –
Fitri yamanların qəlbi ölüdür.

861 Paxıl var, xəbis var – cəmdəyi məraz,
Yusan, dəryalar da pak edə bilməz.

862 Köçəri, ötəri yamanlar da var,
Qoşulsa doğruya bəlkə doğrular.

863 Fitri yaxşılardan yaxşılar törər,
Onlardan insanlıq mənfəət görər.

864 Fitri yamanların dərmanımı var?
Aləmə bəladır, xalqa zəhrimar.

865 Türkcə bir məsəl var, qoy deyim bunu,
Kamil yaşamağın öyrən yolunu.

866 Qəbrəcən dəyişmir, yaşayır qılıq –
Halal süddən gələn saflıq, yaxşılıq.



867 Ölməzdir insanın fitri xilqəti,
Əcəl pozmayınca dəyişməz qəti.

868 Süd ilə, sümüklə gələn bir adət,
Yerin altında da yaşayar əlbət.

869 Yaxşının yoldaşı olarsa yaman,
Özünü itirər o da anbaan.

870 Yaxşıya qoşulan yaman da bir nur –
O da yaxşılığın qurtuluşudur.

871 Vurulsa, bənd olsa yaxşıya yaman,
Bəlkə tapa iman eşq ucbatından.

872 Ulus qanadlanar, yaxşısa bəyi,
Xülqü gözəl olar, rəftarı eyi.

873 Bəylər yaxşılara versələr dəyər,
Yamanlar da işi yaxşı görərlər.

874 Aldatsa bəyləri yaman quzğunlar,
Xalqa divan tutar əli uzunlar.

875 Yaman baş qaldırsa, yaxşılar ölər,
Yaxşı dağa dönsə, yaman kiçilər.

876 Əgər yaxşı olsa bəxtiyar bəylər,
Ellər də gül açıb, gül dərəcəklər.

877 Bəylər də pozulub yamanlaşsalar,
Bir gün çırtıq çalıb yamanlar oynar.

878 Siyasət yeritdi bəy – böyük insan:
Yamanın yeridir qəfəs, ya zindan.

879 Əgər yaxşıdırsa xalq elçiləri,
Tamam yaxşı olar xidmətçiləri.

880 Əgər yaxşı olsa bəylər özləri,
Səadət gülləri bəzəyər yeri.

## AYDOLDUNUN ELBAŞIYA SUALI

881 Aydoldu söylədi: – Nur üstünə nur,
Elbaşı, dediyin sözlər doğrudur.

882 Yaxşıdır, əlbəttə, yaxşılıq bilən,
Faydalı işləri tez görməlisən.

883 Bütün xalq istəyir varı-dövləti,
Nə cür başa gəlir bəs bu niyyəti?

884 Elbaşı söylədi: – Əsl kişilər,
Əsl yaxşılığı daima dilər.

885 Əsl şey cahanda daim baş olur,
Əsil əməllərə mərdlər qoşulur.

886 Alçaqlardı görən yaman işləri,
Gərək sındırılsın qanlı dişləri.

887 Ucuz yatıb qalır qayada, daşda,
İpək əzizlənir yuxarı başda.

888 Yaxşı tez yüksəlir, tək qiymətlidir,
Yaman dibə çökür, xılt adətlidir.

889 Burda əsl sözü zəkalar demiş,
Zəka töhfəsidir ən dadlı yemiş.

890 Yaxşılıq – zirvədir. Lakin hər kişi,
Məgər görə bilir bu yüksək işi?

891 Lap yaxşı olsa da xilqətdə bir kəs,
Elmsiz, savadsız yüksələ bilməz.

892 Aydoldu söylədi: – Xoşbəxt Elbaşı,
Nə qədər vəsflər qazanıb yaxşı.

893 Bəs onun yoxmudur bircə nöqsanı,
Barı bircəsini göstərin... hanı?

## ELBAŞININ AYDOLDUYA CAVABI

894 – Yaxşı təriflənir, bələdi qayda,
Yaxşı xislətləri vəsf olunmada.

895 Ömründə yaxşılıq bilməyən alçaq,
Mərdlərə həmişə mane olacaq.

896 Yamanlar çox zaman yaxşı yaşayır,
Yaxşılar qolunda qandal daşıyır.

897 Kim yaxşılıq etsə yaxşılıq tapar,
Darda da özünü sanar bəxtiyar.

898 Bir günlük sevinci fürsət bilənlər,
Yaman bir iş tutsa axırda inlər.

899 Yaxşılıq istəyən kimdir? Bil, ey yar,
Yaxşı iş görməyi kəsbi sayanlar.

900 Yamanlıq görsə də yaxşı qalanlar,
Sizə dünyalarca məhəbbətim var.

901 Söylə, ey yaxşılıq, səndən kim doyar?
Gəl bəri, qoy deyim, qalsın yadigar.

902 Bircə günmü gərək yaxşılıq sənə?
Xeyr, şölə salar bütün ömrünə.

903 Sənə bu dünyada aldığın ləzzət,
Verər o dünyada zillət, məşəqqət.

904 Yamanlıq, yaxşılıq sol və sağ cəhət,
Solunda cəhənnəm, sağında cənnət.

905 Yaman bu dünyada bəlkə də rahat,
Çəkər o dünyada zilləti yüz qat.

906 Yaxşı bu dünyada sitəm çəksə də,
Yaşar o dünyada ülvi zirvədə.

907 Yaxşı ad-san qoyub dünyadan getsən,
Ərzin ən xoşbəxti özünü bil sən.

908 Gör nə gözəl demiş, köksündə hünər,
Düz sözü ən böyük sərvət bilənlər:

909 Yamanlıq önündə yaxşı iş görən,
Heç bilsən, nə qədər əzəmətlisən.

910 Ey yaxşı, de görüm, kim doyar səndən?
Acmışam, həmişə möhtacınam mən.

911 Yaxşılar görsə də min qeylü-qalı,
Razıyam, yanında qul kimi qalım.

912 Bəylik əgər mənə yamanlıq etsə,
Atıram, en, götür, ardınca get sən.

913 Adamların xülqü çox zaman bir ox,
Həlavəti azdır, təəssüfü çox.

914 Buna uyar demiş sözünü şair,
Məğzini anlasan, tökərsən tədbir.

915 Yaxşı vaysınarmı görsə yaxşı iş?
Yamanlar çox zaman peşmanlıq çəkmiş.

916 Təəssüf gətirir yamanlıq sonda,
Yamana qarşı da yaxşı ol onda.

917 Yamanı mədh etmək mümkünmü məgər?
Yamanı mədh edən gözdən tez düşər.

918 Gədalıq, alçaqlıq, allahsızlıq da,
Yamanlıq rəmzidir gidi dünyada.

919 Bəla da, möhnət də çapsın atını –
Yamanlar götürsün mükafatını.

920 Gözəl insanlara vurulub da sən,
Nə cür yaxşıları vəsf etməyəsən,

921 İnsanlıq, səxavət, mənfəət nədir –
Yaxşı kişilərdən gələn töhfədir.

922 Yaxşılar cahanda nədir, düşün nə –
Yaxşı adamlardan qalan xəzinə.

923 Dostun yaxşıdırsa, nə istəsə et,
Getsə buz qütbünə buzlağacan get.

924 Sevinc, arzu, nemət, var-dövlət, yatır –
Yalnız yaxşıların mükafatıdır.

925 Dərk et bu sözləri, cənab Aydoldu,
Sorduğun suala cavabım oldu.

926 Aydoldu yer öpdü, təzim edərək:
– Yaxşı siyasətli ey təbərrik bəy.

927 Cahana hökm etdin, yüz illər yaşa,
Yalnız fərağətlə ömrü vur başa.

928 Bəylər ayrılmasın böyüklüyündən.
Səadət əyilib öpsün üzündən.

929 Ellərə hökm elə öz qüdrətinlə,
Bəylik möhkəmlənsin əzəmətinlə.

930 Axar sular gibi arzun çağlasın,
Var-dövlət qapını açsın, bağlasın.

931 Başından tökülsün sevinc, səadət,
Gəbərsin düşmənin, gözündə həsrət.

932 Dinlə, nələr deyir xidmətçi kişi,
Xidmət sayəsində doğub Günəşi.

933 Tapınma, tapınsan, mərdlərə tapın.
Mərdlər yerdə qoymaz haqlının haqqın.

934 Yalnız səxalının xidmətini qıl,
Evini zər, gümüş, daş-qaş kanı bil.



935 Xəsisə, acgözə xidmət qılma heç,
Sonra vaysınanda gec olacaq, gec.

936 Xəsis özündən də ruzu əsirgər,
Özgəyə zərrə də qıyarmı məgər?

937 Bitirib sözünü getdi Aydoldu,
Üz qoydu evinə, kefi duruldu.

938 Keçdi ömrü-günü bir keşməkeşdə –
Gecələr uyğuda, gündüzlər işdə.

939 Çəkdi Elbaşını onun qüdrəti –
Sonsuz sədaqəti, böyük xidməti.

940 Günlər gəldi-keçdi... günlər vəfasız,
Aydoldu üzüağ çalışdı yalnız.

## DANIŞMAQMI YAXŞIDIR, YOXSA SUSMAQ?

941 Elbaşı dostunu çağırdı bir gün,
Görcək yer göstərdi əyləşmək üçün.

942 Əyləşdi, gözünü dikərək yerə,
Susdu, dinməməyə söz verə-verə.

943 – Nə üçün susursan, nədir bu sükut?
Dilini dişinlə tutmusanmı, tut.

944 – Qəzəb heykəlisən, a bəylər bəyi,
Sizi görənlərin gedər ürəyi.

945 Elbaşı dindirib söz soruşmamış
Necə ağız açım mən başı batmış?

946 Söz soruş, cavab al... böylədi qayda.
Başqa müamilə yoxdur dünyada.

947 Kimsə bir kimsəni çağırtdırıbsa,
Yeridir, ilk dəfə özü dil açsa.

948 Söz soruşulmamış üyüdən kəsə,
Ya naqqal söylənər, ya da gəvəzə.

949 Kimlər sayılmada axmaq, ya dəli –
Bəy söz soruşmamış dil açan dilli.

450 Qocalar yanında sus, hələ gəncsən,
Sağ qalmaq istəsən, kəs dilini sən.

951 Dilini dişləri altında sıxan
Farağat yaşayan nə söylər, aman:
952 Qara baş yağısı uzun dildi, dil,
Gör neçə baş yemiş bu xırda qatil.
953 Dilini saxla ki, batmasın başın,
Yoxsa baş yeyəcək sözlü fərraşın.
954 Elbaşı söylədi: – Anladım, dədə,
Çətindir dillinin sükunəti də.
955 Sükut gözləməli iki kimsə var:
Birisi nadanlar, o biri lallar.
956 Lalın dili batmış, özü fağır kəs,
Nadan öz dilini dinc qoya bilməz.
957 Qıfıllı olmalı nadanın dili,
Alim azadlığı – dünyanın dili.
958 Alim sözü gərək yerə su kimi,
Suyu olan çöllər gülşən deyilmi?
959 Zəka nəhənginin səsi kəm olmaz,
Zülal bulağıdır, çağlar, azalmaz.
960 Alim gül bitirən səhraya oxşar,
Qazsan harasını, orda su çağlar.
961 Yanar çöl kimidir nadanın könlü –
Dərya gətirsən də bitməz bir gülü.
962 Aydoldu söylədi: – Düz anladın ki,
Heç kim saxlayamaz dil yıxan kəsi.
963 Müdrük kişilərə yaraşır avaz,
Gərəkli sözləri dəfn etmək olmaz.
964 Gərəkli kəslərdən söz almaq gərək,
Söz soruşmasalar sirri hifz edək.
965 Söz sormaq – erkəklik, cavab – zəifə;
Gərək cavab verib baxasan kefə.
966 Görsün zəifəni gərək erkək ər,
Bu şirin vüsaldan cüt oğul törər.

## ELBAŞININ AYDOLDUYA SUALI

967 – Anladım, sözlərin doğrudur tamam,
Yenə soruşmalı bir söz soruram.



968 Söylədin nələrdi dilin zərəri,
Bəs onun dəyəri, barı, bəhəri?
969 Dilin bəlasından qorxsaydın özün,
İtərdi, batardı məhsuldar sözün.

## AYDOLDUNUN ELBAŞIYA CAVABI

970 Sözün faydasını anlamaq gərək,
Dili vəsf etməyə qadirmi ürək?
971 Yava sözlər çıxar nadan dilindən,
O asılsın gərək heyvan dilindən.
972 Yava söz, yava dil öz düşmənindir,
Öz başını yeyən dilin sənindir.
973 Yava söz evinə yas gətirir, yas,
Söz söylə, ovcunda bərq vursun almaz.
974 Doysa cahil qarnı, yatar öküztək,
Yava sözlər deyib... qoy köpsün gərək.
975 Yesə, doysa, yatsa bəsidir, bəsi,
Nəfsinin köləsi, boğaz köləsi.
976 Cism, can yaşayır qoşa, bərabər,
Alim cismindən çox canını gözlər.
977 Qulaqdan girən söz can payıdır, can,
Cismin cism payı keçir boğazdan.
978 Biliyin ikicə əlaməti var,
Kim onu qavrasa üzüağ yaşar.
979 Biri dil, o biri boğaz, yəni nəfs,
Arifdi bunları fəhm eləyən kəs.
980 Nəfsinə, dilinə sahib olmalı,
Xoşbəxtdir yaşayan bu cür mənalı.

## ELBAŞININ AYDOLDUYA SUALI

981 – Sağ ol, dərk elədim verdiyin dərsi –
Nəymiş sözün əsli, sözün bəhrəsi.
982 Bəs söz hardan gəlir, hayana gedir?
Gəl aç bunları da, ey sözü qadir.
983 Harda susmaq gərək, harda söz demək –
Gəl aç bunları da ey zəkalı bəy.

### AYDOLDUNUN ELBAŞIYA CAVABI

984 Sirdi mənim üçün, başdan-başa sir –
Səsləniş – bir hissə, söz – on hissədir.

985 Doqquzu deyilir, biri səslənir,
Deyilmişin məğzi canda bəslənir.

### ELBAŞININ AYDOLDUYA SUALI

986 – Sən mənə de sözün nəticəsini –
Faydanın, zərərin dərəcəsini.

### AYDOLDUNUN ELBAŞIYA CAVABI

987 – Sözü dürüst desən çox faydası var,
Sahibini yerdən ərşə qaldırar.

988 Söz səni qaldırar topraqdan ərşə –
Quyunun dibindən qızıl Günəşə.

989 Nitq edə bilməyən dil dönər nəyə –
Endirər insanı dağdan dərəyə.

### ELBAŞININ AYDOLDUYA SUALI

990 – Sözün çoxu nədir, sözün azı nə?
Açıb bu əsrarı mənə desənə!

### AYDOLDUNUN ELBAŞIYA CAVABI

991 Ürəyə çatıbsa deyilməyən söz,
Odur sözün canı, ey bəxti gündüz.

992 Bəs sözün azı nə? Soruşana sən
Sorğusu boydaca cavab verəsən.

993 Bu felə bənzətdi sözünü şair,
Nur saçdı, ağ etdi üzünü şair.

994 Soruşana söylə sözünü yığcam,
Düşün-daşın söylə, göstər ehtiram.



995 Çox dinlə, az danış. Artıq söz demə,
Meydan vermə sözə. Meydan ver elmə.

### ELBAŞININ AYDOLDUYA SUALI

996 Elbaşı söylədi: – Anladım səni,
Yenə bir sözüm var, agah et məni.

997 Çin sözü, mərd sözü kimdən eşidək?
Sözü kimə deyək, bunu aç görək.

### AYDOLDUNUN ELBAŞIYA CAVABI

998 Sözü dinlə, qoru ən böyük səylə,
Alimdən eşidib nadana söylə.

999 Böyüklərdən eşit ürəkli sözü,
Ötür kiçiklərə gərəkli sözü.

1000 Sözü çox-çox dinlə, fəqət az-az de,
Dəniz canda gərək, damla dilində.

1001 Alim ola bilməz çox danışanlar,
Amma çox dinləyən alim də olar.

1002 Elmdən uzaqdır füzul, gəvəzə,
Az sözlü alimlər şöhrətdir bizə.

### ELBAŞININ AYDOLDUYA SUALI

1003 – Anladım fikrinin doğruluğunu,
Yenə bir sorğum var, şərh elə bunu:

1004 Sözü açmaq gərək, yoxsa gizlətmək?
Dilə erk, azadlıq, ya dustaq etmək?

### AYDOLDUNUN ELBAŞIYA CAVABI

1005 Aydoldu söylədi: – Dostum, qulaq as,
Dil söz işlətməsə elm aşkar olmaz.

1006 Hər vəsfin, söyüşün öz məqamı var,
Nitqi söymək olar, öymək də olar.

1007 Tək, vahid Tanrının mövcudluğundan
Dililə bəhs açır bu qədər insan.

1008 Bayat xəlq eləmiş yüz min həyatı,
Yüz min də vəsf edir bir tək bayatı.

1009 Canında can olan hər bir fərd üçün,
Bir dil, bir də ki, könül əsasdır.

1010 Can dili yaratdı, dil isə sözü,
Sözü əyrilərin sönür gündüzü.

1011 Sözü sərrast desən, oddur kəsəri,
Sözü əyri desən, öl, ey öləri.

1012 Sözün doğrudursa, danış eşq ilə,
Sözün yalandırsa, gizlət, dəfn elə.

1013 Nitqin batsa sənə lal deyərlər, lal,
Çox danışsan – yanşaq, gəvəzə, naqqal.

1014 Bəşərin düşməni gəvəzələrdir,
Saxalı kişilər çox şeyə qadir.

1015 Elbaşı şadlandı qulaq asdıqca:
– Yardım et, ey Tanrı, ey başı uca!

1016 Əziz, mehribansan, ey ulu ağam,
Sənin duaçınam, nə qədər sağam.

1017 Mənə səndən yetdi min-min yaxşılıq,
Günahkar qulunam, ibadətim yox.

1018 Məni qovuşdurdun səadətimə,
Bu rahat dünyama, var-dövlətimə...

1019 Necə şükr edim ki, acizdir dilim,
Şükrünü özün et, olsun təsəllim.

1020 Elbaşı açaraq xəzinəsini,
Verdi hər möhtacın öz töhfəsini.

1021 Elbaşı dostunu əzizləyərək,
Neçə ənam verdi, alqış deyərək.

1022 Ona bəxş elədi vəzirlik. Əla –
Bayrağı, damğası, nağarasıyla.

1023 Onu bütün yurda hökmran etdi,
Düşməni diz çökdü, yabanı getdi.

1024 Bu yeni dövrandan gül dərə-dərə,
Aydoldu baş oldu bütün işlərə.

1025 Elbaşıya min-min dua qılaraq,
Gül açdı, bar verdi, zənginləşdi xalq.



1026 Sardı bəxtiyarlıq eli-ulusu,
Bir yerdə dolaşdı qurd ilə quzu.

1027 Quruldu mükəmməl, adil siyasət,
Çoxaldı var-dövlət, getdi məşəqqət.

1028 Keçdi günlər, aylar bu minval ilə,
Abadlıq yar oldu ölkəyə, elə.

1029 Yeni vilayətlər, kəndlər yarandı,
Xəzinə qızıldan alışdı, yandı.

1030 Elbaşı sevindi, tapdı həlavət,
Cahanda avazı hamıdan bülənd.

## BƏXTİN VƏ DÖVLƏTİN VƏFASIZLIĞI

1031 Hələ dünənədək o ağbəxt idi,
İtirdi təxtini, qarıdı bəxti.

1032 Alim nələr deyir bu felə dair:
Nemət bol olanda, qismət tükənir.

1033 Çağırır bu dəmdə kimsə bayatı:
Nemət aşıb-daşır, çatır köç vaxtı.

1034 Burda hökm vermiş zəka kürsüsü:
Nadana göz olar alimin sözü.

1035 Yıxılan yüksəldi, ucalan endi,
Yürüyən dayandı, nurlanan söndü.

1036 Ehtiyat vaxtıdır, ayıq ol, ey bəy,
Tükənən tükənib, dərin gedəcək.

1037 Aydoldu xoşbəxtdi haçandan bəri,
Heyhat, gəldi çatdı vida dəmləri.

1038 Bədrlənmiş Ayı incəldi, söndü,
Barlı yaydan sonra qışmı göründü?

1039 Yarışan məzaclar qat-qarış oldu,
Birisi dirçəldi, beşi heç oldu.

1040 Yeməklər iştaha bəla kəsildi,
Xəstəlik könlündən hər zövqü sildi.

1041 Pozuldu məzacı, getdi taqəti,
Büküldü, alçaldı sərv qaməti.

1042 Pəhləvan boyunu xəstəlik bükdü,
Yıxıldı yatağa, göz yaşı tökdü.

1043 Yığışdı həkimlər, qanad gərdilər,
Nədir bu xəstəlik – sual verdilər.

1044 Dedi bəziləri: – Qan tutub onu,
Gəl hacəmət qoyaq, azaldaq qanı.

1045 Dedi bəziləri: – Şərbət içirdək,
Quruyub... ciyəri yumşaltsın gərək.

1046 – Xeyr! Gülab verək! – dedi birisi –
Azalıb canında şəhdi-şirəsi.

1047 Neçə dava-dərman, məlhəm aldılar.
Hər nə gərəkdirsə işə saldılar.

1048 Heç biri, heç biri vermədi fayda,
Kəsildi mədarı, söndü huşu da.

1049 Dinlə, nələr demiş tədbirli insan,
Sən tədbir əhlini hamıdan baş san.

1050 İstər şəlisa[1] tap, istər Mitridus[2],
İstər çurni[3], ugit[4], istər təzyak[5], buz.

1051 İstər duaxan tut, istərsə təbib,
Hansı gedən şəxsi saxlaya bilib?

1052 Ey salamat gəzən, qafil olma sən,
Bu gün sağ olsan da, sabah ölüsən.

1053 Elbaşı eşitdi dostu bərk yatır,
Xəstəlik az qala can almaqdadır.

1054 Getdi, Aydoldunu gözüylə gördü.
Nəbzini dinlədi, halını sordu.

1055 Xətrin nə istəyir, necədir könlün?
Yatmısan... deyəsən, yaxşısan bu gün.

1056 Aydoldu söylədi: – Bir az toxta, dur,
Məni bir dərd tutub – dərmanı yoxdur.

1057 Mənim düz işlərim əyildi birdən,
Gözlərim açılmır qəmdən-qəhərdən.

1058 Şadlıq gətirərdi hər doğan günüm,
İndi zülmətdəyəm, başına dönüm.

1059 Güvəncim, sevincim tükənib daha,
Məndən üz döndərdi vəfasız dünya.

1, 2, 3, 4, 5 – dərman, məlhəm adları.



1060 Şadlıq, arzu, nemət arxada qaldı,
Ələm, qayğı, möhnət canımı aldı.

1061 Səndən ayrılıram, gözlərimdə qəm,
Həsrətlə, möhnətlə ölüb gedirəm.

1062 Xalqın başbiləni, mərdlərin mərdi,
Bu gün sağ olsaydı nələr deyərdi:

1063 Necə yaxşı olar: günlər ötməyə,
Gələ bəxtiyarlıq, bir də getməyə.

1064 Gör necə yaraşır qızıl tağ bəyə,
Sağ-salamat qala, adam ölməyə!

1065 Gənclik illərində günəşdik, aydıq,
Ey kaş ömür boyu qocalmayaydıq.

## ELBAŞIYA AYDOLDUNUN CAVABI

1066 – Burax bu sözləri! – dedi Elbaşı –
Böylə çiy danışma, ey bağrım başı!

1067 Adam sağalar da, xəstələnər də,
Məgər təkcə bizik düşən bu dərdə?

1068 Hardandı dilində bu sönük sözlər?
Adam öz könlünü pozarmı məgər?

1069 Mən sənə güvənib iş görmüşəm... sən
İnşallah, sağalıb düzələcəksən.

1070 Bağrıma od salma, danışma bu cür,
Bayat şəfa verər, ona min şükür.

## AYDOLDUNUN ELBAŞIYA CAVABI

1071 – Bəxtiyar Elbaşı, bir dayan, bir dur,
Bu dərdin çarəsi, dərmanı yoxdur.

1072 Hər gələn, əlbəttə, bir gün gedəcək.
Göyərən solacaq, qalxan enəcək.

1073 Dağ başı dərənin dibi möhtacı,
Sevinc qəm gətirir, şirin də acı.

1074 Dəyişdi sözümün, ağzımın dadı,
Bədənim ruhuma vəfa qılmadı.

1975 Bunu bildirmişəm hey dönə-dönə,
Könlü rahatlığın gərəkdir mənə.

1076 Desələr yox ölüm... buna inanma,
Əlbəttə, ölürəm... şübhəli sanma.

1077 Buraxıb gedirsə dünya əlini,
Qınama, inamsız sayaraq məni.

1078 Cəfa çəkmişəmsə man tutma bu gün,
Daha cəfalıdır dünya sən üçün.

1079 Sən də öləcəksən məndən sonra, bil,
İnanma dünyaya, ey dili qafil.

1080 Məni xidmətsiz də əzizləmisən,
Heyif, xidmətimi görmədin heç sən.

1081 Bilirəm könlüncə deyil bu işim,
Təkrarlanmayacaq gediş-gəlişim.

1082 Ölürəm, ərkliyə həsrət, tamarzı,
Qaçmağa bir yer yox, dalmağa arzu.

1083 Yox idim, yaratdı, xəlq etdi məni,
Südəmər balaydım, böyütdü məni.

1084 Tər-təmiz üzümdə saqqal göründü,
Qara quzğun idim, ağ quşa döndüm.

1085 Ox gibi qamətim necə əyildi,
Həyatım tükəndi, əcəlim gəldi.

1086 Alim gözəl demiş qəmli, qürurlu,
Eşit bu kəlamı, ey üzü nurlu.

1087 Ağ quş məqamına gəlib çatanlar,
Ağappaq işığa dönsə, yeri var.

1088 Kimin ki, əyildi çinar qaməti,
Gərək safa çıxsın, bulsun fürsəti.

1089 Ağ saçın, saqqalın əbəsdir demə,
Hazır olmalısan, vaxtdır ölümə.

1090 Anmış bu məqamı, söz demiş şair,
Bunu sən də qavra, ey qoca, ey pir!

1091 Ölümdən soraqdır ağaran saçlar,
Ayıq ol, əlində son fürsətin var.

1092 Ye, nuş et dünyanın nemətlərini,
Sabah ölüm gəlib yeyəcək səni.

1093 – Tələsmə, səbr qıl, dostum Aydoldu,
Səhvinin səbəbi kəsəllik oldu.

1094 Hər xəstə köçsəydi dünyadan əgər,
Dünyada qalmazdı ruzu yeyənlər.

1095 Bayat bu dərdinə şəfa verəcək,
Ruhunu dinc saxla, könlünü ipək.

1096 – Ey Rəbbim, sən özün ver şəfa! – deyə,
Qaldırdı əlini Elbaşı göyə.

1097 Ələmlə, kədərlə qalxdı yerindən,
Yönəldi saraya məyus, pəjmürdə.

1098 Mal-davar payladı yetim-yesirə,
Umud var, bu səxa gəlir gətirə.

1099 Ölümü öldürə bilərmi gümüş?
Ərlər can yolunda xəzinə tökmüş.

1100 Var-dövlət ölümü yubatsaydı gər,
Varlılar dünyada heç ölməzdilər.

1101 Aydoldu sarsıldı, qızıldı ümid,
Qoydu əllərini qoynuna sakit.

1102 – Ey misilsiz ömrüm! – gəldi fəryada,
Gözəl gəncliyimi vermişəm bada.

1103 Eşsiz həyatımı qafil keçirdim,
İgidlik çağımı fənaya verdim.

1104 Bir ildırım gibi tez ötdü ömrüm,
İndi əcəl çatıb, ay ömrüm-günüm!

1105 Yığdım acgözlüklə dövləti, malı,
Özüm məhv oluram, dünyalar qalır.

1106 Əlimi, dilimi uzun etmişəm,
İndi çatmış əcəl, nəfəsim də kəm.

1107 Deyindi, vaysındı, xeyli ağladı,
Min əfsus, ölümə çarə bulmadı.

1108 İnsan nə qədər ki, çatmayıb kama,
Bəzən həsrət qalır eşqə, ilhama.

1109 Əhdinə çatırsan, demək, həyat var,
Çox zaman həyatda sönür arzular.

1110 Var-dövlət insanın örtür gözünü,
Göydən üstün tutur bəzən özünü.

1111 Azca yüksəldimi, məğrur dayanır,
Yalnız əcəl vaxtı qalxır, oyanır.

1112 Yesə, içsə, doysa, "mənəm, mən!" deyər,
Acsa, zəhrimar da, zəqqum da yeyər.

1113 Bezər külfətindən, əziyyət çəkər,
Tapsa sevdiyini yenə dərd çəkər.

1114 Vaysındı Aydoldu, çəkdi dərin ah:
– Mən sənin yolunu itirdim, Allah!

1115 Qızılı, gümüşü yığdım bir yerə,
Neçin paylamadım yetim-yesirə?

1116 Vaxtında bölmədim dövləti-varı,
Söydüm də, döydüm də günahsızları.

1117 Xeyirli işləri görmək gərək,
Onda nur saçardım barlı ağactək.

1118 Bu gün vaysınmağın nə mənası var?
Gəlib başım üstə dayanıb kaftar.

1119 İnsana mehriban, doğru sözlü ər,
Gözün nələr demiş, eşitsin bəşər.

1120 Ölümə açıqdır bütün qapılar,
Qapıdan girməyən məgər tapılar?

1121 Söylə ölüm nədir, yaşayış nədir?
Mən hardan gəlirəm, yol hara gedir?

1122 Təkrar ölməyəmi, neçin doğuldum?
Yoxsa, ağlaşmaya səbəbkar oldum.

1123 Dünyada ölümdən amansız nə var?
Mənim də üstümdən əsdi bu rüzgar.

1124 Görmüş bu məqamı, söz demiş şair,
Gözü açılanlar onu dinləyir.

1125 Dünyada ölümdən amansız nə var?
Balı zəhrimara çevirən rüzgar!

1126 Ölüm bir qaranlıq uçurumdu ki,
Görünmür, əslində heç yoxdur dibi.

1127 Daim öz sözünü udan saxtakar,
Bu gün vəsiyyətin nə mənası var?

1128 Uyub nemətlərə, ey qafil yatan,
Əcəl gözlərini açdımı bir an?



1129 Sərvətdən, şöhrətdən doymayan acgöz,
İndi əcəl gəlib... buyur söz de, söz.

1130 Pul üçün min donə girən fitnəkar,
Qara yer altında bağrın çatlayar.

1131 Bu xalqa gülmüsən ömrün boyunca,
İndi əcəl gəlib... ağla doyunca.

1132 Dinlə, nələr demiş alim sənətkar.
Xəlqə xeyir verən xoşbəxtlik tapar.

1133 Kim ki, önəm verir yaxşı bir ada,
Yamanlıq etməsin iki dünyada.

1134 Sənin ki, xilqətin gözəldi bunca,
Sözün də, özün də uca ol, uca.

1135 Aydoldu ağladı, gəldi fəryada,
Heyhat, fəryadları vermədi fayda.

1136 Qardaşlar üstünə zər saça-saça,
Qızıl-gümüş verdi aca-möhtaca.

1137 Göylərə göz dikdi: – Ey ulu ağam,
Sənə, yalnız sənə tapınacağam.

1138 Məni Sən yaratdın, verdin pərvəriş,
Ömrüm feyzin imiş, səxavətinmiş.

1139 İbadət qılardım sənə o ki var.
Kəsir nəfəsimi əcəb – bu kaftar.

1140 Ölümdən qaçış yox... düşünmək çətin,
Mənə nəsib olsun sənin rəhmətin.

1141 Yaman işlər gördüm bir zaman, dinlə,
Əfv elə, rəhm elə mərhəmətinlə.

1142 Yavanlıqda keçdi həyatım, əfsus,
Bəyliyim uğursuz, dövrüm uğursuz.

1143 Kəsdi sözlərini, büküldü boynu.
Axıtdı göz yaşı, görcək oğlunu.

## AYDOLDU OĞLU ÖGDÜLMÜŞƏ ÖYÜD VERİR

1144 Bircə oğlu vardı – mehriban, kiçik –
Bağçada yenicə gülən qönçəcik.

1145 Əsli təzə bahar, adı Ögdülmüş,
Üzü Günəş gibi, fel-ətvarı xoş.

1146 Çağırdı yanına ata oğlunu,
Göz yaşı axıdıb oxşadı onu.

1147 – Mən ölüb gedirəm.. can bala, dinlə!
Bütün varım-yoxum qalır tək sənə.

1148 Mənim göz işığım, bircə balamsan,
Mən vidalaşıram, esən qal, esən.

1149 Türkün türk kolamı könül sazıdır,
Hər kəsin göz nuru oğlu-qızıdır.

1150 Ağ üzü saraldar oğul-qız qəmi,
Dibsizdir sonsuz bir uçurum kimi.

1151 Kimin oğlu-qızı, xatını varsa,
Əcəli çatanda batmazmı yasa?

1152 Ata övlad üçün can yandırar, can.
Övlad tez çıxarar atanı yaddan.

1153 Qulaq as, can bala, ey dolmuş bulud,
Unutma sözümü, mənə könül tut.

1154 Mən ata olmuşam bir ömür sənə,
Adım Aydoldu, bax, nəzər sal mənə.

1155 Ömrümün badəsi çırpılır daşa,
Mən ölüb gedirəm... təki sən yaşa.

1156 Yaşamaq şirindir, ölüm çox acı,
Yoxdur qaçış yolu, çarəm, əlacım.

1157 Heyran könül verdim mən bu dünyaya,
Məndən qaçıb döndü o, bivəfaya.

1158 Səslədi yanına, aldatdı məni,
Mən könül verəndə, o atdı məni.

1159 Dünya cəfa qıldı, qarıdı bəxtim,
Barı sən aldanma, ey tacü-təxtim!

1160 Gərəkli işləri bir yana atdım,
Gərəksiz işlərlə başımı qatdım.

1161 Bir əsim yel gibi sovuşdu ömrüm,
Aləmi görməmiş ölümü gördüm.

1162 Malım-mülküm qalır. Qalsın da, qəm yox,
Heyhat, əldən tutan bir kimsənəm yox.



1163 Nə demiş ölümü düşünən insan,
Düşünüb bir azca üşünən insan.

1164 Ölümü görəndə məhv oldu getdi,
Şairin ilhamı, alimin elmi.

1165 Ölümün caynağı necə amansız,
Bağrı parçalayır qansız, imansız.

1166 Ölüm – ən əzazil, yırtıcı cəllad,
Dağı dərə etdin, abadı bərbad.

1167 Anmış bu əhvalı bir böyük şair,
Ən dürüst, ən dəqiq sözlər demişdir:

1168 Söyləyin aləmdə kim var – hiyləsiz?
O hansı hiylədir, olsun çarəsiz?

1169 Hiylə, tədbir, çarə hər şey üçün var,
Yalnız hiyləsizdir ölüm – o kaftar.

1170 Oğul qulaq asdı öz atasına,
Dil açdı, yetişsin söz atasına.

1171 – Ata, oylağındır bu səma, bu yer,
Sənə bir söz deyim, mənə cavab ver.

1172 Bu gidi dünyada çox yaşadın sən,
Sənət, elm öyrənən zəka əhlisən.

1173 Çox şeyi öyrənb sınamısan da,
Ömür keçirmisən böyük cahanda.

1174 Ey elmin, idrakın yaxın sirdaşı,
Səndə çarə varmı ölümə qarşı?

1175 Yoxsa başqa çarə, xəzinən ki, var –
Qızılın, gümüşün, pulun bərqərar.

1176 Payla xəzinəni, təki özün qal,
Sonradan tapılar altun, cah-cəlal.

1177 Dinlə, nələr demiş gözü tox kişi,
Duz-çörək sahibi, səxa günəşi:

1178 Yedir insanları, peşkəş ver hər gün,
Vaz keç, qızılından bahadır ömrün.

1179 Var-dövlət tapılar, can sağlığı yox,
Quşa həyat gərək, dən olur az-çox.

1180 Can-baş salamatsa, gül açar dilək,
Qızıl da, daş-qaş da gedib, gələcək.

## AYDOLDUNUN ÖGDÜLMÜŞƏ CAVABI

1181 Oğlum, canım-gözüm, yaxşı qulaq as,
Sən bu cür işlərdən umudunu kəs.

1182 Qızıldan ölümə bir çarə yoxdur,
Elm də xox gəlir, xox elə xoxdur.

1183 Qızıl dada çatsa... nə dərdi vardı –
Sultan, bəylərbəyi min il yaşardı.

1184 Məgər xilas etdi hikmət, həkimi?
Qolundan tutdumu alimin elmi?

1185 Ölümün çarəsi de gilasdımı,
Həkimlər əbədi yaşamazdımı?

1186 Xətir-hörmət bilsə ölüm tez, ya gec,
Təbərrik peyğəmbər ölərdimi heç?

1187 Hesabla bu qədər xəlqi, bəşəri,
Varmı ölüm üçün daim dipdiri?

1188 Dünya-mehmanxana... gələr-gedər köç,
Fildir, əjdahadır, doymaz qarnı heç.

## ÖGDÜLMÜŞÜN AYDOLDUYA CAVABI

1189 – Ata, sən ölümü düz düşünmüsən,
Ağlına, zehninə, fəhminə əhsən.

1190 Bəs bu zəka nədir, qafillik nədir?
Göz yaşın özünü ittiham edir.

1191 Nə üçün yığmısan bu qədər daş-qaş?
Vaxtında verəydin yoxullara kaş.

1192 Qafil yaşamısan "heyif!" deyirsən,
Sözdə öz-özünü eyibləyirsən.

1193 Vur başını daşa, qan-yaş tök, çatla,
İndi nə fayda var bunlardan, ata?

## AYDOLDUNUN ÖGDÜLMÜŞƏ CAVABI

1194 Mənim əhvalımdan ibrət al, oğlum,
Sabaha hazırlaş, qurbanın olum.



1195 Mən qafil olmuşam, sən olma qafil,
Hər günü, hər anı bir qənimət bil.

1196 Bütün yaranmışlar ölüb də gedir.
Hələ tapılmayıb ölümə tədbir.

1197 Bütün ölərilər vaxtın əsiri,
Vaxtı çatan kimi quruyur diri.

1198 Şair buna uyğun söz demiş incə,
O söz əbədidir, ölməzdi məncə.

1199 Hər bir ölərinin bəllidi vaxtı –
Son günü, son dəmi, son ixtilatı.

1200 Vaxt gəldi – çatdımı, həyat da sönər,
Səni yola salan günlər görünər.

1201 Gör mən nə gündəyəm, ibrət al, oğul,
Qalx, ayıl, ölümə daim hazır ol.

1202 Sənsən bircə dərdim... Can demək asan,
Axı kiçik ikən mənsiz qalırsan.

1203 Məndən sonra yəqin yaşarsan – çox-çox,
Mənim səndən savay, bir təşvişim yox!

1204 Övladı böyütsə ata zəhməti,
Keçər balasına ata xilqəti.

1205 Övlad mehr görsə bir də doğular,
Ata-anasının üzü ağ olar.

1206 Övlad yaşayarsa diqqətdən kənar,
Yəqin arsız olar, yaramaz olar.

1207 Tərbiyə verərək atsa həyata,
İdrak əhli yapar övladı ata.

1208 Övladlar yetirmiş, dünya görmüş pir,
Tərbiyə hökmündən görün nə deyir:

1209 Kimin oğlu-qızı böyüsə biar,
Halına özü də, yer-göy də ağlar.

1210 Başsız qalan övlad – paçavra, cındır,
Taqsır övladda yox, atasındadır.

1211 Yamansa övladın xülqü, xilqəti,
Deməli, görməyib ata zəhməti.

1212 Ata övladına versə tərbiyə,
Haqqı var fəxr edə, "övladım!" deyə.

1213 Göz qoy övladına, ey ata memar,
Sənə gülməsinlər əskik adamlar.

1214 Bəxş et övladına elmi, sənəti,
Ta ki, gözəl olsun xülqü, xilqəti.

## ÖGDÜLMÜŞÜN AYDOLDUYA CAVABI

1215 – Sənin qayğın ilə düşdüm həyata,
Mənimçün hər sözün örnəkdir, ata.

1216 Sən gedəndən sonra yaşarammı mən?
Düşməzmi gözümdən bu çöl, bu çəmən?

1217 Təki bu dünyada bilib yerini,
Qanımda hiss edim diləklərini.

1218 Daha nə çarə var, yetişsə əcəl?
Hər alın yazısı – bir hökmi-əzəl.

1219 Ağlamaq bəzəkdir xuda əmrinə,
Əmr gəldi, ağla – budur ənənə.

1220 Çoxları ağlayıb, ah-fəryad edib,
Qoyub sərvətini, biryolluq gedib.

1221 Bilirdin dünyanın puç olduğunu.
Neçin qafil qaldın ömrün uzunu?

1222 Bir yerə gəlsə də bütün dünyalar,
Sənə iki arşın bez qismət olar.

1223 Qayğı çəkirsənsə yaşamaq üçün,
Ağla, göz yaşı tök, dincəlsin gözün.

1224 Ağla, fərqi yoxdur, dönməz ötən gün,
Daha gecən gəlir – qaranlıq dövrün.

1225 Təşvişin nənəmsə, qəm çəkmə zinhar,
Min bir təşviş keçir, nə faydası var?

1226 Sən xəlq olunmusan, yaranan ölür,
Yalnız Xaliqindir əbədi ömür.

1227 Mehriban atamdın – çox şeyə qadir,
Səndən də mehriban Tanrım baqidir.

1228 Səni O yaratdı. Verdi var-dövlət,
Mənimki deyilmi o dövlət əlbət.



1229 Kiçiyə, böyüyə bəxti, qisməti,
Qədrsizə qədri O verməmişmi?

1230 Dinlə, nələr söylər alimin sözü,
Dinləsə açılar nadanın gözü.

1231 Mərd sözdə ildırım, olmaz kəsəri,
Dinlə, alt-üst elə kəsafətləri.

1232 İzzət ondan gəlir – ulu Tanrıdan,
Əzizdi, vahiddi, sonsuzdu Yəzdan.

1233 Kiçiyə böyüklük, gözsüzlərə nur,
Qədrsizə qədr bəxş edən Odur.

1234 Oğlunu fəxr ilə dinləyir deyə,
Aydoldu əlini qaldırdı göyə.

1235 Xudaya şükr etdi, gözündə hörmət,
– Oğluma bəxş edib ağıl, fərasət.

1236 Ürəyim sakitdir oğul sarıdan,
Səadət içində yaşayar müdam.

1237 Görün, nə söyləmiş zəka yolçusu,
Qansa, təşnələrə bəxş eləyər su.

1238 Bayat kimə versə zəkavət, bilik,
Çatar muradına o, həmişəlik.

1239 Əhdinə kim çatır? Xülqü yaxşılar.
Ay da, gün də onu əzizlər, oxşar.

1240 Kimin ki, yaxşıdır xülqü, xilqəti,
Qucar səadəti, eşqi, ülfəti.

1241 Aydoldu əlini qaldırdı göyə,
Yalvardı Bayata min şükür deyə.

1242 – Min-min mövcudatı necə yaratdın,
Rizqinlə hamının dadına çatdın.

1243 Məni Sən yaratdın, verdin bəxt, kərəm.
Günahkar qulunam, ibadətsizəm.

1244 Məni uca tutdun bu vaxta kimi,
Bahara çatdırdın diləklərimi.

1245 Verdin min-min nemət, arzu-kam, dad-tam,
Səndən çox razıyam, ey ulu ağam!

1246 Mənə hökmün çatdı, gedirəm artıq,
Bircə balam qalır, ərzə yaraşıq.

1247 Mən ölüb getsəm də, cahan baqidir,
Onu bəxtiyar et, ona həyat ver.

1248 Hər iki dünyada qahmar çıxaraq,
Ağ günə yaxın et, pis gündən uzaq.

1249 Çatdır yaxşılığa, yamandan saxla,
Yeməyin, geyməyin möhtacı qılma.

1250 Min bir dua qıldı sidqi-ürəkdən:
– Yarəb, özün gözlə zalım fələkdən.

1251 Dinlə, nələr demiş ağ saçlı bir ər,
Kişilik rəmzidir bu yaxşı sözlər.

1252 Bayat kimə versə yardım, inayət,
Hər iki dünyada tapar səadət.

1253 Tanrıdan qismətin hidayət olsa,
Verəcək əhdini hər iki dünya.

1254 Çatsa Bayat fəzli hansı xilqətə,
Yetər hər niyyətə, arzu-nemətə.

1255 Buna uyğun demiş aqil bir kişi,
İnansa aqilə düzələr işi:

1256 Tanrı kimi sevsə, yenər çətini,
Yeyər ləzzət ilə öz nemətini.

1257 İnansa Tanrıya, qurtuluş tapar,
Bəla qapısını biryolluq qapar.

1258 Aydoldu söylədi: – Anla, ey oğul,
Unutma ölümü, daim hüşyar ol!

1259 İnanma dünyaya, bir yeldir – hədər,
Dünya nemətləri tez gəlib-gedər.

1260 Bayata tapşırdım mən səni bərk-bərk,
İstəsə həlavət, şəfqət verəcək.

1261 Budur, ayrılıram bu gün mən səndən,
Göz yaşım üzümdən süzülür dən-dən.

1262 Nələr etməlisən məndən sonra sən,
Dinlə, birər-birər açıq deyim mən.

## AYDOLDU ÖGDÜLMÜŞƏ ÖYÜD VERİR

1263 Dilinlə, könlünlə tapın Bayata,
İnanma, hazır ol daim həyata.



1264 Yaxşı-yaxşı işlər Bayat əmridir,
Yalnız ona tapın, onundu təqdir.

1265 Hər nə gərəyinsə Bayatdan dilə,
Ondan böyük güc yox, bunu dərk elə.

1266 Uca tut əmrini, fərmanlarını –
Hər iki dünyada pərəstarım.

1267 Unutma özünü, qısalt dilini,
Heç vaxt havalanma, gözlə felini.

1268 Atılma alova var-dövlət üçün,
Zora çevrilməsin qüvvətin, gücün.

1269 Yaşadım bir müddət, gedirəm indi,
Məndən örnək götür, növbə sənindi.

1270 Mən yığa bilsəm də, yeyə bilmədim,
Günlərim tez ötdü, bəhrə görmədim.

1271 Sən qalan malım mənə yük oldu,
Nuş olsun, rahat ye, ey gözüm odu.

1272 Bacarsan, sənindi var-dövlət, ad-san,
Hər iki dünyada pak, üzüağsan.

1273 Bunca var-dövləti tuta bilməsən,
Üzün saralacaq, çıxıb əlindən.

1274 Doğru ol, kamil tut fel-ətvarını,
Düzlükdə taparsan iftixarını.

1275 Dinlə, nələr demiş doğru-düzgün ər,
Hər iki dünyaya sahib hünərvər:

1276 Rahatlıq istəsə kişi... qoy onda,
Dincliyi axtarsın doğruluğunda.

1277 Sən bəylik istəsən, inan, ay bala,
Ona yetişərsən doğruluğunla.

1278 Hökm etmək istəsən böyük xalqa sən,
Doğruluq yolunu gərək seçəsən.

1279 Mərdin düzgün olsa xilqəti, işi,
Hər iki dünyada doğar Günəşi.

1280 Aydoldu söylədi: – Eşit, sən, bala,
Qorun cəhənnəmdən yaxşılığınla.

1281 Yalnız yaxşılıq et, yamandan həzər,
Yaxşı ol, ardınca yaxşılıq gəzər.

1282 Uyma yaman işə, parçalar səni,
Yamanlıq ilandır, o çalar səni.

1283 Mey içmə, qoşulma alçaqlara sən,
Əmin gəz, özünü ülvi biləsən.

1284 Bu iki xilqətdən səadət qaçar,
Onun qapısını yoxsulluq açar.

1285 Polad dizlərinin qırar girini,
İki növ əclafdan gizlə sirrini.

1286 Söz gəzdirənlərdən həzər, əlhəzər,
Görüb bildiyini aləmə çözər.

1287 Sınanmış mərdləri möhkəmcə tut sən,
Ondan yüz mənfəət, ülfət görərsən.

1288 Söz dinlə, hər sözə inanma fəqət,
Faş etmə sirrini, möhkəmcə gizlət.

1289 Özünü yaxşı tut, həsəd apàrma,
Sənə qəm gətirər bu iki əmma.

1290 Əyalı boş qoyma, qapını qapa,
Bunu qanmayanlar fələkət tapar.

1291 Yadı evə qoyma, əyalı çölə,
Qoyma sınanmamış evinə gələ.

1292 Çox da qayğı çəkmə, xülqünü xoş tut,
Xoş olsan, qonacaq ovcuna yaqut.

1293 İndi buna bənzər bir sözü dinlə,
Əməl et, düz gələr dünya səninlə.

1294 Yamançün dövlətin nə mənası var,
Yoxsuldur, daşsa da o dövlət, o var.

1295 Həyasız hərzədən həzər, əlhəzər,
Min alqış, aləmi ismətlər bəzər.

1296 Tələsmə, hər işdə çəm tap, səbr elə,
Çatarsan əhdinə yalnız səbr ilə.

1297 Bəyə yaxşı-yaxşı xislətlər gərək,
Tapsa, ömrü-günü çiçəkləyəcək.

1298 Düzgün al-ver elə, işi düz apar,
Düzgün olsan, səni bəxt özü tapar.

1299 Qoru gözlərini, az ye, halal ye,
Nəfsini, dilini saxla, haqqı de!



1300 Uzaq ol, hazırsa xəyanətə xalq,
Avam qiyamına qarışma heç vaxt.

1301 Dilində gəzməsin bəylərin sözü,
Yalnız yaxşılığa könül ver, quzum.

1302 Nə özünü əskilt, nə özgəsini,
Yalnız yaxşılıq et, boğ həvəsini.

1303 Hansı yerə girsən, gör çıxışını,
Görməsən, fələkət yeyər başını.

1304 Al özünü ələ qəzəblənəndə,
Səbrli sevinci öndədir öndə.

1305 Dözümlü kişilər nə demiş, dinlə,
Əyri iş düzələr səbr etməyinlə:

1306 Səbr qılanların ucalar başı,
Qonar sağ çiyninə səadət quşu.

1307 Üz versə bir zillət, möhnət, məşəqqət,
Səbr etsən, ardınca gələr səadət.

1308 Bəxtin və dövlətin aşıb-daşanda,
Mərd olsan, yaşarsan azad cahanda.

1309 Səbr elə, səbrdə ər xilqəti var.
Səbr edən göyə də bir gün yol tapar.

1310 Dar günü, ölümü daim yadda tut,
Nə özünü, nə də əslini unut.

1311 Dilindən çıxmasın birçə yalan söz,
Səni ucuz edər o nagəhan söz.

1312 Qohuma, qardaşa mehr saç bol-bol,
Böyüyə, kiçiyə gülərüz, mərd ol.

1313 Süfrə aç, çörək ver, biganə durma,
Hər kəsin eybini cəld üzə vurma.

1314 Məbədə səcdə qıl, tapın Allaha,
İtirmə özünü, batma günaha.

1315 Varın aşıb-daşsa lovğalanma heç,
Yamandan əlhəzər, yaxşılığı seç.

1316 Vurulma dünyaya, bu zövq itəcək,
İnanma sərvətə, gəlmiş, gedəcək.

1317 Həyata bənd olma, xoş bir yuxudur,
Bəxtə bel bağlama, quş gibi uçur.

1318 Gün keçir... günlərin çələngini hör,
Sürəkli, ürəkli, gərəkli iş gör.

1319 Mey içmə, zinaya yol vermə əsla,
Fasiqdən, məkkardan özünü saxla.

1320 Bu iki xassədən səadət qaçar,
İnsana gədalıq yolunu açar.

1321 Eşit, nələr demiş sınanmış kişi,
Çiynində gəzdirər qızıl Günəşi:

1322 Mey içmə, zinadan həzər, əlhəzər,
Zina, mey dalınca fəlakət gəzər.

1323 Mey səni batırar min bir günaha.
Tüpürər üzünə zina bir daha.

1324 Sənə deyəcəyim bunlardı, oğlum,
Unutma sözümü, qanadım-qolum.

1325 Tutsan sözlərimi, yad etsən hər vaxt,
Sevincin artacaq, azalmayacaq.

1326 Ata öyüdümü sev ehtirasla,
Ürəyində bəslə, unutma əsla.

## AYDOLDU ELBAŞIYA ÖYÜDNAMƏ YAZIB QOYDUĞUNU BİLDİRİR

1327 Qoydu qarşısına kağız, mürəkkəb,
– Bismillah! – deyibən göstərdi ədəb.

1328 Sənin dərgahındır ən uca dərgah,
Yaradan, böyüdən, əfv edən Allah!

1329 Yaratdı milləti, yüz min xilqəti,
Rizqilə bəslədi bəşəriyyəti.

1330 – Ol! – desə xəlq edər istədiyini,
Onun icadıdır hər köhnə, yeni.

1331 Onun öz hökmüdür bütün arzular,
Ona gərək deyil nə yardım, nə yar.

1332 Ölümə namizəd əmanəti çox,
Dirilər öləri, ona ölüm yox.

1333 Əziz peyğəmbərə məndən min salam,
Çatdırsın Allahım eşq, ehtiram.



1334 Alsın salamımı səhabələri,
Eşqimi Tanrıdan duysun hər biri.

1335 Parlaq, uzun yaşa, xoşbəxt Elbaşı,
Xalqa bax, əynində bəylik quması.

1336 İşim-gücüm təkis, adım Aydoldu,
Təkislik yırtıldı, peymanəm doldu.

1337 Sıxır boğazımı ölüm carçısı,
Yox qurtuluş yolu, nicat havası.

1338 Məni yaxşı tutdun, qıldım inayət,
Mənsə göstərmədim layiqli xidmət.

1339 Səninçin yazıram bu məktubumu,
Yüz-yüz hümmətinə cavabım bumu?

1340 Cahan işlərinə bələddim bir az,
Sənin işlərini düz gördüm, ustad!

1341 İndi də yazıram vəsiyyətimi,
Oxu öyüdümü, nəsihətimi.

1342 Dinlə, nələr demiş mehriban bir ər,
Mehrdir ən böyük insani dəyər!

1343 Mehriban kişinin mehri, söz-sovu,
Olsun sənin üçün bir ovçu ovu.

1344 Kişinin ən çini – mehriban kişi,
Sözümə əməl et, çağır Günəşi.

1345 Elbaşı, ey mənim canım-ciyərim,
Sözümə əməl et, tacım, sərvərim!

1346 Əcəl gəldi çatdı, mən gör nə halda,
Təəssüf, göz yaşı vermədi fayda.

1347 İndi gərəyimdir ibadətlərim,
Fəryadım, ahımdır bəd sifətlərim.

1348 Qaldı qızıl-gümüş, cah-cəlal, büsat,
Onlardan qismətim – yalnız hesabat.

1349 Həsrətlə ölürəm, həsrət faydasız,
Kəsilən umudum sönən bir yıldız.

1350 Ölüm – biixtiyar. Şəksiz, şübhəsiz,
Siz də arxamızca gələcəksiniz.

1351 Sayıq ol, yaxlaşır o kaftar başı,
Hər bir tədbirini gör yaxşı-yaxşı.

1352 Mərdlik toxumu səp, hələ ki, sağsan,
Yoxsula var gərək, sənə də ad-san.

1353 Zorla yox, eşq ilə el qəlbinə gir,
Felinlə, dilinlə xalqı sevindir.

1354 Dinlə, nələr demiş doğrucul bir ər,
Hələ cavan ikən hüşyar, səfərbər:

1355 Ölümə hazır ol, çatmamış, əcəl,
Xəstə yox, sağ ikən ibadətə gəl.

1356 Göz yaşı nə verir əcəl çatanda,
Bürünüb kəfənə yerdə yatanda.

1357 Elbaşı, püxtə ol məndən sonra sən,
Fürsət dəmlərini vermə əlindən.

1358 Hər işdə düzgün ol, yetkin ol barı,
Səni aldatmasın dünyanın varı.

1359 Yürüt xalqın üçün adil siyasət,
O vaxt öz günün də xoş keçər əlbət.

1360 Qəsd etmə canına beş-üç kənd üçün,
Atılma alova var-dövlət üçün.

1361 Dünyanın fəxrisən, ona qul olma,
Varı başdan aşan bir yoxsul olma.

1362 Hədsiz məğrurlanma, havalanma çox,
Dünya inanılan bir şey deyil, yox!

1363 Yaxşını yaxın tut, yamandan həzər,
Çalış, kirlənməsin ovcundakı zər.

1364 Xəbisi, acgözü at bir kənara,
Vermə çörəyini vəfasızlara.

1365 Qalma ibadətdən, günahdan sakın,
İbadətdən savay yoxdur pənahın.

1366 Ölüm pusqudadır, unutma bunu,
O səni boğmamış özün boğ onu.

1367 Adam hara qaçsa, ölüm haqlayır,
Saxlanmaz olsa da tutub saxlayır.

1368 Sayıq ol... nə qədər uzun yaşasan,
Yenə bu torpağa yaslanacaqsan.

1369 Kim qaçıb qurtulub ölümdən, hanı?
Kim yaşaya bilib artıq bir anı?



1370 Dövrü, günü, ömrü tutmuş duranlar,
Yaxşı bir məsəli qoymuş yadigar:

1371 Nəsillər bir uzun karvana oxşar,
Nə qədər getsə də axırda toxdar.

1372 Övlad ki, atanın belindən gəlir,
Mənzili bir müddət ana bətnidir.

1373 Elə ki, doğuldu, qoyulur adı,
Hey çapır, altında fələyin atı.

1374 Gündüzlər bir çərək, gecə bir çərək,
Ölümünə doğru aparar fələk.

1375 Bu dünya bir böyük mehmanxanadır,
Çıxdınmı səfərin hansı yanadır?

1376 Sənə bu aləmdə ikicə yol var,
Düşün, hansı yola çıxsan xoş olar?

1377 İşin bitib demək, yol gəlsə sağdan,
Yolun soldan gəlsə, döy başına, yan.

1378 Dünya bir tarladır xoşbəxt Elbaşı,
Görərsən, yeyərsən dən yaxşı-yaxşı.

1379 Əkdiyin göyərər. Biçərsən təkrar,
Hər nəyi veribsə təbiət alar.

1380 Ev yıxma, qan tökmə, özgəni soyma,
Bir gün divan tutur əcəl adama.

1381 Bəy olsan, qul olsan – yuxudur hər kəs –
Getdimi, dünyaya bir daha gəlməz.

1382 Röyaya bənzəyir ötən günlərin,
Bir röyadan savay nəyin var sənin?

1383 Dinlə, nələr deyir, anıb keçmişi,
Bayıldıqdan sonra ayılan kişi.

1384 Şair buna dair qoşub şerini,
Al oxu, dərk elə söz cövhərini.

1385 Oyaqkən keçirdin ömrü yuxutək,
Onun nə faydası? Cavab ver görək.

1386 Ömrünə qoşuldu min arzu-dilək,
Hamısı təəssüf, kədər, küy-kələk.

1387 Sağ ikən fikirləş, ey dili-qafil,
Ölümə yaxındır diriliyin, bil.

1388 Aclar qarşısında aç süfrəni sər,
Əbədi yaşayır səxavətlilər.

1389 İnanma orduya, atlılara sən,
Ordudan, qızıldan fayda yox əslən.

1390 Özünü özgəyə həsr etmə, qafil,
Odlanma, kül olma, öz qədrini bil.

1391 Səndən öncə gələn dünya bəyləri,
Göz yumub getdilər. Göz yumma. Diril!

1392 Bu ölüm səni də yaxalayacaq,
Fürsət dəmlərini buraxmadan qalx!

1393 Dinlə, nələr demiş zəka Günəşi –
Dünyanın eybini dərk edən kişi:

1394 Şor suya bənzəyir bu dünya malı,
İçirsən, doymursan, nəmlənmir dilin.

1395 Kölgənə bənzəyir dünya, ey qoçaq,
Get, ardınca gələr, qaçsan, qaçacaq.

1396 Boş saqi gibidir dünyanın işi –
Verilən badəni itirir kişi.

1397 Özün yaxşılığı kəsf et, ey qoçaq,
Bəyi yaxşı olsa, yaxşılaşar xalq.

1398 Yığışıb saraya ac canavarlar,
Təmizlə sarayı, ey ulu sərdar!

1399 Xalq quzu sürüsü, bəy də baş çoban,
Xalq yaşar, olarsa çoban mehriban.

1400 Cilovla iş vaxtı qəzəbi, qeyzi,
Bəylər qəzəb saçsa pozar bəyliyi.

1401 Heç kəsə, heç vədə acı söz demə,
Acı söz bənzəyir kor cəhənnəmə.

1402 Tədbirli, təmkinli, dinc, mülayim ol,
Günahın az olsun, yaxşılığın bol.

1403 Qarşıda uzun yol, ağır bir səfər,
Yola hazırlıq gör, ey tədbirli ər!

1404 Qəsr, saray tikmə, xoşbəxt Elbaşı,
Qoy qara yer üçün daş üstə daşı.

1405 Qızıl daşıyırsan xoznəyə tez-tez,
Sənə iki arşın bez gərəkdi, bez.



1406 Şair bu barədə nə yaxşı yazmış,
Hər sözü ən gözəl şerə əsasmış.

1407 Qafil ömrü boyu hey dartar, yığar,
Ölümə çarəmi bu dövlət, bu var?

1408 Çatıb muradına zənginləşəndə,
Görər ki, əcəli dayanmış öndə.

1409 Rahat həyatınla fəxr etmə, a bəy,
Qürurun sönəcək bir qığılcımtək.

1410 Əbəs, boş yaşama bu aləm üçün,
Canlı namizədsən cəhənnəm üçün.

1411 İpək yatağında ağnayan gülünc,
Qara yer altını düşündünmü heç?

1412 Bu gün gözəllərlə mazaqlaşan can,
Sabahkı tabutu andınmı bir an?!

1413 Bu gün at çapırsan qəmsiz, kədərsiz,
Ağac at minərsən sabah, yəhərsiz.

1414 Get, ölümə qarşı bir ağac ək sən,
Sabah ah da çəkə bilməyəcəksən.

1415 Qalx, Allahdan istə güc dəniz-dəniz,
Allah ümman verər sənə, şübhəsiz.

1416 Nə gəlsə başına, vaysınma, sakın,
Boyun əy qəzaya, bərk olsun ağzın.

1417 Sən iki dünyada məğrur, üzüağ,
Yaşayarsan, olsan beş şeydən uzaq.

1418 Özgə qanı tökmə, qisas, xüsumət,
Haram, zorakılıq – ən alçaq sifət.

1419 Mey içmə, fitnədən həzər, əlhəzər,
Dağıdar bəyliyi alçaq kimsələr.

1420 İstəsən həmişə bəylik edəsən,
Gərək zülmü yıxıb ədli güdəsən.

1421 Elbaşı, sən bu gün elin başısan,
Xalqın pənahı ol, ayıq yaşa sən!

1422 Boynuna ən ağır yük götürmüsən,
Ayıl, qafil olma, dördəlli tərpən!

1423 Boş həvəs ardınca qaçır bədən, can,
Qul olma, həvəslər quludur insan.

1424 Keçirdiyin həyat – ac yel, qara yel,
Yel qoldan tutacaq, verəcəkmi əl?

1425 Qalan günlərini ayıq vur başa,
Təkcə özünçün yox, xalq üçün yaşa!

1426 Vəfa qıldımı heç bu dünya sənə?
Vəfa qıldımı heç, göz yetir mənə.

1427 Dinlə, nələr demiş tədbirli bir ər,
Tədbirli kişilər elmə səfərbər!

1428 Dünya – bir düşərgə, ən – ulu karvan,
Saxlarmı karvanı düşərgə müdam?

1429 Bu dünya sarayı bir qazanc yeri,
Burda nəyi tapsan, al gətir bəri.

1430 Köçünü özündən tez göndər, ustad,
Gərəklini göndər, gərəksizi at.

1431 Gedirəm... mənə bax, qəflətdən oyan,
Çalış ki, qoyasan yaxşıca ad-san.

1432 İstəsən bəyliyin olsun əbədi,
Yüksək tutmalısan sən bu məbədi.

1433 Yıx zülmü, adil ol, tapın Tanrıya,
Laybalay açılsın qapın Tanrıya.

1434 Heç vaxt qafil olma, ayıq-sayıq ol,
Çıxmasın rastına məşəqqətli yol.

1435 Əl saxla, iş görmə, ey ulu bəndə,
Qəzəbin beynini silkələyəndə.

1436 Xalqın aman tapar, bəylik əl verər,
Böyüklər sözünü dinləsən əgər.

1437 Bütün yaxşıları qoru, qucaqla,
Əclafın, alçağın gözünü dağla.

1438 Adil siyasətin susdursun şəri,
Bəxtin kəmər bağlar, sevsən bəşəri.

1439 Məşhur alim kişi nə demiş, dinlə,
Sözündən pay götür öz zövqün ilə.

1440 Elbaşı, şüar et, düz siyasəti,
Yoxsa itirərsən bəşəriyyəti.

1441 Hər kim yürüdərsə yaxşı siyasət,
Ad-sanı əbədi yaşayar əlbət.



1442 Sən təməl üstündə, sən elmə yaxın,
Əslini, nəslini unutma, sakın.

1443 Yamanlar dəbinə uyma məbada,
O səni öldürər iki dünyada.

1444 Ömür ötəridir, tez gedir bada,
Gələn ölüm isə durub qarşıda.

1445 Məndən ibrət götür, qalx, hazırlıq gör,
Hələr ki, dirisən, bitməmiş ömür.

1446 Kişidən irs qalar, canım-ciyərim,
İrsim, xatirəmdir söylədiklərim.

1447 Ən əziz dost bildim cahanda səni,
Sənə irs qoyuram bu xatirəni.

1448 Sözdür ən faydalı, əziz yadigar,
Sözə əməl etsən, bəxtin bəxt olar.

1449 Yadigar qoyuram, bunu uca tut,
Nə sözləri unut, nə məni unut.

1450 Nə qədər yaşasam, bilir ki, aləm,
Ölümdən qurtula bilməyəcəyəm.

1451 Gəlir əvvəl-axır əcəl tez, ya gec,
Əcəldən qurtulan olubmudur heç?

1452 Əzrayıl önündə mərd ayıq gərək,
Uzun yol getməyə hazırlıq gərək.

1453 Varmıdır ölümdən qurtuluş yeri?
Yox... alın, götürün gərəkliləri.

1454 Ölümündən əvvəl öz ölümünü,
Görənə qulaq as, gör nədir yönü.

1455 Öz vaxtında gəlir ölüm növbəti,
Sən də hazırlıq gör, yubanma qəti.

1456 Qızıl kəmərilə lovğalananlar,
Əcəl gələn kimi kəməri açar.

1457 Mən sənin haqqını ödədim, ey dost,
Budur sənə sevgim, sənədir, ey dost.

1458 Tanrım pənahında saxlasın səni,
Yeməkdə, geyməkdə açsın bəxtini.

1459 Ömrü xoşbəxt keçir, mini vur başa,
Xalqına xidmətdə şad, azad yaşa.

1460 Mehrim, məhəbbətim sözlərimdir, al,
Ey üzü günəşlim, sağ-salamat qal.

1461 Mən ölüb gedirəm, xoşbəxt Elbaşı,
Qalır bircə balam – bağrımın başı.

1462 Yalvardım Allaha balam gələndə,
İstəsə saxlayar od içində də.

1463 Üstündə göz ol ki, batmasın bəhər,
Atma, alçaqlara qoşula bilər.

1464 Tanrıdır ilk səbəb yaratdığına,
Bütün yaxşı-yaman bağlıdır ona.

1465 Oğul-qız sahibi atayla ana,
Daim cavabdehdir yaxşı-yamana.

1466 Budur, mən ölürəm – onun atası,
Oğlum yetim qalır, oğlum anasız.

1467 Olubsa azacıq xidmət məqamım,
Yaxşı yola çıxar ciyərparamı.

1468 Demirəm çörək ver, elm öyrət əvvəl,
Elmi sayəsində xalqa tutsun əl.

1469 Uca və pak olsun xülqü, xilqəti,
Bəhrə-bar gətirsin xalqa xidməti.

1470 Boş-bekar qalmasın, yensin çətini,
Yensə, yapacaqdır səadətini.

1471 Nəyi öyrənibsə kiçikkən hər kəs,
Bütün ömrü boyu unuda bilməz.

1472 Dinlə, nələr demiş söz deyən kişi,
Zəka dənizində üz deyən kişi:

1473 Sən elmin südüylə böyüt uşağı,
Olmaz heç bir vədə əli aşağı.

1474 Oğluna, qızına bəzən şillə vur,
Döyülən ədəbli, elmli olur.

1475 Bitirdi məktubu, verdi oğluna,
– Elbaşı dostumdur, tez çatdır ona.

1476 Bu məktub söz deyil, vəsiyyətimdir,
Hamıya, hər kəsə məhəbbətimdir.

1477 Oxusun naməni, tutsun sözümü,
Əcəldən çəkməsin ayıq gözünü.



1478 Öpdü övladını, basdı bağrına,
Süzüldü göz yaşı yanaqlarına.

1479 – Oğlum, əhvalımı gördün, unutma,
Nə gündə gedirəm, ayıq ol, yatma.

1480 Bu günə bir ömür yol gəlirik biz,
Sənin də növbətin çatacaq şəksiz.

1481 Ən vacib sözümü demişəm sənə,
Xatırla, dərk elə, dua qıl mənə.

1482 Elbaşı istəsə, xidmət qıl ona,
Can yandır işinə, yol-yoruğuna.

1483 Elm öyrən, boş-bekar keçirmə günü,
Düz ol, mülayim ol, qoru xülqünü.

1484 Elbaşı gec yatsa, gec yat, ertə dur,
Erkən oyananlar bəxtiyar olur.

1485 Tanrının əmrini ağır tut, ağır,
Elbaşıya xidmət tapınağındır.

1486 Həzər qıl, yanaşma yaramazlara,
Yol-yoruq təmizlə, yaxşılıq ara.

1487 Özünə-sözünə daim ehtiyat,
Sağ-salamat yürü, salamat, rahat.

1488 Ağladı, oğlunu qucaqlayaraq,
Yenə bir ah çəkdi, əfsuslu bir ah.

1489 – İnamı öldürən vəfasız dünya,
Neçin hədəf seçdin məni cəfaya?

1490 Min bir nemət ilə bəslənən canım,
Qara yer altında nə cür dolanım?

1491 Çılpağam, bir zaman doğulduğum tək,
Onda da, indi da ağlağan, kövrək.

1492 Ölümünü görüb ağlayan kişi,
Necə təsvir edir görün gərdişi:

1493 Anamın bətnilə torpağın bətni,
O mənə süd verdi, bu ilan zəhri.

1494 Nurlu dağ başından düşüb zülmətə,
Gedirəm məzara, əbədiyyətə.

1495 Bir-bir üzr istədi yoldaşlarından,
Mavi asimana tapşırıldı can.

1496 Kəsdi ağlamağı, dondu göz yaşı,
Varından pay aldı qohum-qardaşı.

1497 – Elbaşı! – deyirkən kəsildi dili,
Kim kəsdi? Yaradan – ulu sevgili.

1498 Söndü son nəfəsi "Tanrım" deyəndə,
Gecə gündüzünü əvəzləyəndə.

1499 – Ərşi-əla! – deyə yeri tərk etdi,
Quru cismi qaldı, can uçub getdi.

1500 Getdi can, anadan heç olmamıştək,
Adından nişanə, iz qaldı gerçək.

1501 Qəflət yuxusundan oyanan kişi,
Görün nasıl yozur böylə gərdişi.

1502 Cəsədin yönümü qəbiristandır,
Ruhunsa məkanı ərşi-əladır.

1503 Quru qəfəs qaldı, uçub getdi can,
Hara uçdu? Bilir tək ulu Yəzdan.

1504 Xoşbəxtdir, yol alsa ərşi-əlaya,
Əyilsə rast gələr min bir bəlaya.

1505 İkisindən biri – onun qisməti,
Daim yaşayacaq – ölməz, əbədi.

1506 Gör nəyə bənzəyir insanın özü,
Ad-san çıxardımı tükənir sözü.

1507 O hardan gəlmədə, hayana varır?
Hansı düşərgədə durur, dayanır?

1508 Bu sirri bilirmi bir ulu alim?
Hansı zəkavətli, hansı müəllim?

1509 Yox, bunu dərk edən zəka yox hələ,
Bircə ulu Tanrı – ülvi mərhələ...

1510 Gəzər nişanəsiz, yeyər, içər də,
İtər nişanəsi gözlər görəndə.

1511 Qısa ömürlüdür insan – O azman,
Sözü diliuzun, təşvişi ümman.

1512 Azadlıq axtarıb, düşüb dərdlərə,
Bulaşıb nə qədər kəsafətlərə.

1513 Aləmi tutsa da həsrəti çin-çin...
Yenə qaya köksü gərilib neçin?



1514 Dinlə, nələr deyir bir mərd hünərvər,
Ölümü dərk edib hazır olan ər:

1515 Necə amansızsan, ey qanmaz ölüm,
Min silah önündə basılmaz ölüm!

1516 Heç kəsə verməyib qurtuluş, aman,
Yırtan, parçalayan ac canavarsan.

1517 Gəlsin yer üzünə kaş öylə bir gün –
Alilər yaşasın, alçaqlar ölsün.

1518 Ölür böyük-kiçik, yaxşı və yaman –
Qara yer altında yüz-yüz, min-min can.

1519 Yüz il də, min il də yaşaya bilsən,
Yoxdur qaçış yolu, sən ölməlisən.

1520 Görün nələr deyir o məğrur, uca,
Xalqa başçı olan müdrik bir qoca:

1521 Ölümsüz yaşamaq necə yaxşı iş,
Ömür dan yeritək şəfəqlənərmiş.

1522 Məni rahatlığa çatdıran ölüm,
Kəsdi şah damarı, dincəldi könlüm.

1523 İnsan yaman deyil, bəd xilqətidir,
İnsan yaman deyil, pis niyyətidir.

1524 Ölü heyrətlimi? Doğulan ölər,
Qara yer altına hamı səfərbər.

1525 Ölüm dəblərində bu dünya girinc,
İstər tut bu dəbi, istər tutma heç.

## XAQAN ELBAŞI ÖGDÜLMÜŞƏ ÖYÜD VERİR

1526 Elbaşı dostunun tutdu yasını,
Çağırdı yanına can parçasını.

1527 – Oğlum, bəsdi daha, çəkmə qəm-kədər,
Kədərin getdimi, sevincin gələr.

1528 Təkcə sənin deyil müsibət, ələm,
Məni də dağladı bu kədər, bu qəm.

1529 Bu haqda düşünmə, özünü ovut,
Xidmətə hazırlan, çiynini şax tut.

1530 Atan ölübsə də atayam sənə,
Atanam, balam ol, qoyma şam sönə.

1531 Ögdülmüş yer öpdü: – Əziz Elbaşı,
Başçısan, bu adı yüz illər daşı.

1532 Mən sənin sadiqin, xidmətkar qulun,
Sənə canım qurban, qanadım-qolum.

1533 Sənə fəda oldu atamın canı,
İndi Tanrı verir yeni qurbanı.

1534 Çıxardı cibindən məktubu oğul,
Verdi Elbaşıya: – Oxu, sakit ol.

1535 Elbaşı məktubu açdı, oxudu,
– Ey zehnin, zəkanın məşəli, odu.

1536 Kişilər sərvəti, mehriban kişi,
Evimin dayağı, Ayı, Günəşi.

1537 Çəkdin zəhmətimi diriliyində,
Yeyirsən qəmimi hələ bu gün də.

1538 Verə bilməmişəm haqqını, heyhat,
Sənin haqlarını ödəsin Bayat.

1539 Sən məni nə qədər şad etmisənsə,
Min dəfə qaytarsın qoy ulu kimsə.

1540 Elbaşı yaş töküb ah çəkdi bu an,
Silib gözlərini çıxdı otaqdan.

1541 Çəkildi evinə, qapandı qapı,
Yas tutdu, titrədi min könül sapı.

1542 Oğul da dilində atanın adı,
Yetimə, yoxsula gümüş payladı.

1543 Unutdu get-gedə ata qəmini,
Yaxşılar böyütdü zövq aləmini.

1544 Tutdu atasının nəsihətini,
Ağ günlər bəzədi səadətini.

1545 Dinlə, nələr deyir aqil bir kişi,
Başından keçibdir neçə xalq işi:

1546 Möhkəm tut atanın nəsihətini,
Bağlar yad yolunu, açar bəxtini.

1547 Atanı, ananı dilşad eylə sən,
Yüzünü alarsan, birini versən.



1548 Yoldaş Elbaşı da, qəlbində şəfqət,
Yürütdü ağıllı, adil siyasət.

1549 Güldü, çiçəkləndi, zənginləşdi xalq,
Qalxdı, Elbaşıya dua qılaraq.

1550 Yalqız oturmuşdu Elbaşı bir gün,
Qapadı kitabı, düşünmək üçün.

1551 Könül dincəlmədi, heyrətdə qaldım,
Hanı bir ər kişi, olsun qanadım?!

1552 Gözümdə Aydoldu fəzilətləri,
Kişilər kişisi, ey haqqın əri.

1553 Ən yaxşı dost idin mənə həyatda,
Xalq üçün hər işin yuxarı qatda.

1554 İşim bərbad oldu, boş qaldı yerin,
Hanı sənə əvəz bircə yavərim.

1555 Neçin unutmuşam mən Ögdülmüşü,
Hardan tapasıyam öylə bir eşi?

1556 Ölərkən Aydoldu tapşırmadımı,
Böyləmi xatırlar adam adamı.

1557 Ata köçdü-getdi, oğul ki, sağdır,
Sönənin yerində yanan çıraqdır.

1558 Qalxdı, çağırtdırdı o, Ögdülmüşü,
Andı məhəbbətlə yaxın keçmişi.

1559 Ögdülmüş sevincək içəri gircək,
Gördü ki, yalqızdır, tək əyləşib bəy.

1560 Elbaşı əl verdi, xəyala daldı,
– Oğlum, fələk səni nə hala saldı?

1561 Doğrumu, əyrimi yolun-yoruğun?
Ötən günlərindən sualın, sorğun?

1562 De, atandan sonra neylədi fələk,
Həsrət içindəmi yenə də ürək?

1563 Ögdülmüş dilləndi: – Xoşbəxt Elbaşı,
Yüz yaşa, ad qazan bundan da yaxşı.

1564 Mən sizə xidmətdən çıxdım kənara,
Fələk üz döndərdi, azdım, nə çara?

1565 Elbaşı üzünə tamarzı qaldım,
Dərd, ələm içində soldum-saraldım.

1566 Bu gün dəvət qılıb məni Elbaşı,
Mənə bel bağlayır dövlət... nə yaxşı.

1567 Adın çəkiləndə nurlandı gözüm,
İşığa qərq oldu günüm-gündüzüm.

1568 Sorğuya-suala tutdu Elbaşı,
Gəncin cavabları necə də yaxşı.

## ÖGDÜLMÜŞ ELBAŞI XİDMƏTİNƏ GİRİR

1569 - Oğul, indən belə könlünü sıxma,
Dayan xidmətimdə, bu yoldan çıxma.

1570 Qarşımda atanın xidmətləri çox,
Onun haqlarını ödədimmi? Yox.

1571 Nə qəm, bu haqları ödərəm sənə,
Təki gendən baxan vurmasın tənə.

1572 Eşit, nələr demiş üç ordu boyi,
Sözün böyüklüyü - onun dirəyi.

1573 Çəksə zəhmətini kimsə dünyada,
Unutma zəhməti, ölü olma ha!..

1574 Buraxma əlindən insaniyyəti,
Göstər insanlara ər ləyaqəti.

1575 Uğrunda kim çəksə bir azca zəhmət,
Göstər daha böyük hörmət, məhəbbət.

1576 İnsanı tanıdır insaniyyəti,
Kişini ər gücü, kişi qeyrəti.

1577 Nə qəm, heç olmasın varın, dövlətin,
Təki qaralmasın insaniyyətin.

1578 Ögdülmüş yer öpdü: - Dünyalarım var,
Elbaşı edirsə mənə etibar.

1579 Xidmətkar qulunam, ey məbədə yar.
Xidmətkar qulunu məbəd ucaldar.

1580 İstəsən ucuz tut, istəsən ağır -
Sənə bağışladım, can qurbanındır.

1581 Asta addımlarla çıxdı otaqdan,
Düşündü çox şeyə qadirdi insan.



1582 O gündən sıxdığı yumruğunda qəm,
Xidmət kəmərini bağladı möhkəm.

1583 Gecələr keşikçi, gündüz pasiban,
Çalışdı, dönmədi tutduğu yoldan.

1584 Xidmət Elbaşıya əl versə əgər,
Dövlət gündən-günə qalxar, yüksələr.

1585 Dövlət köhlənini xidmətdə çapan,
Ərən bahadırı xatırla bir an!

1586 - Bəylər dövlətini istəyən kişi,
Sən bəy fərmanına təslim tut işi.

1587 Bəyin ürəyincə iş görməyənlər,
Yalnız özlərini lənətləsinlər.

1588 Onun xidmətini bəyənmirsə bəy,
Ömrü əfsanədir, bir heçdir demək.

1589 Elbaşı əylədi cavan dostunu,
Müxtəlif işlərə yar etdi onu.

1590 Bir gün Elbaşını fikirlər sıxdı:
- Min əfsus, Aydoldu əlimdən çıxdı.

1591 Qullar, xidmətçilər görün nə qədər!
Heyhat, əsas işi hansı həll edər?

1592 Aydoldudan savay iş bacaran yox,
Onuntək mehriban, gözəl insan yox.

1593 Yaxşını, yamanı sınayan, görən,
Ağ saçlı ustadı dinlədinmi sən.

1594 Ey hər mətləbinə çatan, qulaq as,
İtirsən, əziz dost bir də tapılmaz.

1595 Yeyənlər, içənlər, gəzənlər nə çox,
Heyf, insan sözünə layiqlisi yox.

1596 Hanı yer üzündə öylə bir insan,
Ona ömrün boyu arxalanasan?!

1597 Gör şerin ustadı nə demiş, dinlə,
Hər beyti nurlanıb bir məna ilə:

1598 Çoxu mamlı-matan, dada çatan yox,
Dada çatan olsa, yaşamır az-çox.

1599 Qullar, xidmətçilər görün nə qədər,
Gül açan, bar verən varmıdır məgər?

1600 Elbaşı söylədi: – Böylə məsəl var:
Uğurlu ölsə də uğuru qalar.

1601 Kimdir Aydoldunun oğlu, uruğu?
Məgər o deyilmi nəslin baş buğu?

1602 Ata öldü, getdi, qaldı boş yeri,
Oğluna vermişəm həmən baş yeri.

1603 Mən ona tərbiyə, halal duz-çörək,
İnsan səadəti bəxş edəm gərək.

1604 Yararlı oğuldur, hər addımı ox,
Gəncliyindən savay bir nöqsanı yox.

1605 Xalqın başbiləni, bəxtəvər bir ər,
Görün, nələr demiş yığcam, müxtəsər:

1606 Bəylər yetişdirsə hansı uşağı,
Bəydən o, durmalı bir baş aşağı.

1607 Bəylər kimi tutsa özünə yaxın,
O, necə yüksələr, gül açar, baxın!

1608 Aydoldu haqqını ödəmək gərək,
Oğluna insani bir kömək gərək.

1609 Üstümdə o mərdin çoxdur zəhməti,
Gərək unutmayaq insaniyyəti.

1610 Yaddan çıxarmayaq ər kişiləri,
Saxsılar içində zər kişiləri.

1611 İdrakı ümmandan, səmadan geniş,
Sözün ovçusu gör nələr söyləmiş:

1612 Daim yaxşılıq et, ey yaxşı insan,
Yaxşılıq əbədi, ölməz bir ad-san.

1613 Yaxşılıq qocalmaz, qarımaz, ölməz,
Ömrü çox uzundur, yaşar, əskilməz.

1614 Elbaşı çağırdı cavan dostunu,
İşin üst qatına qaldırdı onu.

1615 Oxşadı, vəsf etdi əzizləyərək,
Ona qayda-qanun bəxş etdi fələk.

1616 Nizam Günəş oldu, siyasət bir Ay,
Tilsimli qapılar açıldı tay-tay.

1617 Elbaşı karıxsa, ona göz oldu,
Elmdə, sənətdə sözü söz oldu.



1618 – İçdə, dışarıda bütün işlərim,
Düz gedir, yüz yaşa, ey hünərvərim.

1619 Bir ömür yol getdim, çiynimdə dağlar,
Bilmədim dağ çapan oğullar da var.

1620 Səni ki, tapmışam, bəxtiyaram mən,
Hələ yollar keçib yüksələcəksən.

1621 Fil qüvvətli oğul, oğul gibi fil,
Hələ kiçikkən də aşkar olur, bil.

1622 Buna uyğun gələn misralar da var,
Oxusan mənası gül-gül açılar.

1623 Ögdülmüş gecəni gündüzə qatdı,
Gündüz olmayanı gecə yaratdı.

1624 Gərəksiz nə varsa ləğv etdi, atdı,
Əkdiyi ağaclar bəhrəyə çatdı.

1625 Unutdu Elbaşı məşəqqətləri,
Artdı, aşıb-daşdı el sərvətləri.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

1626 Elbaşı dostunu çağırdı bir gün,
Sormaq, cavab almaq, ucaltmaq üçün.

1627 – Oğul, yaxşı dinlə, könül tut mənə,
Diqqətlə qulaq as böyük deyənə.

1628 Hər sual, hər cavab bir xəzinədir,
De, faydalı nədir, faydasız nədir?

1629 Ögdülmüş söylədi: – Ey qüdrətli bəy,
Mərdlərin yaxşısı, ürfanlı nəhəng.

1630 Ən faydalı nəsnə iki dünyada,
Gözəl xilqətdir ki, tez yetir dada.

1631 İkinci – şərm, həya, üçüncü – düzlük,
Hər şeydən gərəkli, hər şeydən böyük.

1632 Xoş xilqət layiqdir çoşğun alqışa,
Daim çəkilərsən yuxarı başa.

1633 Mən illət sayıram həyasızlığı,
İsmət cövhərlidir insan qılığı.

1634 Düzlük, şərmü həya, işıqlı xilqət,
Ən böyük sərvətin, ən böyük dövlət.

1635 Saflıq, dürüstlük də səni apaşkar,
Bu iki dünyada bəxtiyar qılar.

1636 – Bəs yaramaz nədir? – sordu Elbaşı –
Yaramazdan nə cür qorunsun yaxşı?

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

1637 Ögdülmüş söylədi: – Cavabımı sən,
Yadında saxlasan min alqış, əhsən!

1638 Məndə yaraşmayan üç qəbahət var,
Feli yaman olan daim alçalar.

1639 Yalan söz toxuyan nəzərdən düşər,
Yalanla əkizdir bu dünyada şər.

1640 Paxıllıq, acgözlük ən böyük bəla,
Bu dərdə nadanlar olur mübtəla.

1641 Kimin alçaqdırsa xülqü-xilqəti,
İşığı gördümü, artar zülməti.

1642 Kimin ad çıxarsa yalançılığı,
Sözü yox, ağzından tökülər qığı.

1643 Acgözü lənətlər mərifət elmi,
Ən yava, ən xudbin, misgin deyilmi?

1644 Acgözlükdən böyük hansı mərəz var?
Yığar, yeyə bilməz, özgəyə qalar.

1645 Qızılı yığsan da yeyə bilmədin,
Oldu öz düşmənin, yeraltı dərdin.

1646 Siz ey bu dünyanı qamarlayanlar,
Aşını hazırla, xeyrat yeyən var.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

1647 Elbaşı söylədi: – Dinlədim səni,
Bir də cavablandır könül deyəni.

1648 Alim olurmu heç anadangəlmə?
Ya sonralar çatır idraka, elmə?



1649 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
İnsan bu dünyaya gəlir xam, naşı.

1650 Elmə yiyələnir ötdükcə illər,
Sənəti öyrənir hey birər-birər.

1651 Elmsiz doğulan insan tamaşa –
Elmi mənimsəyib çəkilir başa.

1652 Fəhm, ağıl, istedad – anadangəlmə,
Törəniş üstündə gəlir aləmə.

1653 Təfəkkürdən savay fəzilətləri,
Kişi öyrəndikcə gedir irəli.

1654 Dinlədi Elbaşı, xeyli sevindi,
– Mən öz diləkçəmi tapmışam – dedi.

1655 Atası çıxsa da əlimdən dünən,
Yerində oğlu var, bəxtiyaram mən.

1656 Tanrıya min dəfə şükr etmək gərək,
Xalqa haqq-ədalət, xalqa duz-çörək!

1657 Ögdülmüş nə qədər əziz, mehriban,
Bütün işlərinə can qurbandı, can.

1658 Yaxşı işlər görür, qızıldır əli,
Yaxşıya yaxşıyla cavab verməli!

1659 Dinlə, nələr deyir mərdlər başçısı,
Xalqın kamil oğlu, nərlər başçısı:

1660 Kim sənə göstərsə kişi xidməti,
Ucalt, dəyərləndir insaniyyəti.

1661 Vəfaya vəfadır insanlıq haqqı,
Vəfa qıl, düz davran, qoru əxlaqı.

1662 Elbaşı dostunu əzizləyərək,
Dedi, ülviləri tanıtmaq gərək.

1663 Gənc igid günbəgün şöhrət qazandı,
Dualar etdilər, hörmət qazandı.

1664 Sayıldı, ad aldı tay-tuş içində,
Lələ, dürrə döndü yüz daş içində.

1665 Könlünü, dilini kəmtər tutaraq,
Ədalət yolunda yürüdü qaçaq.

1666 Dili baldan şirin, ürəyi açıq,
Məhəbbət qazandı, məhəbbət – işıq.

1667 Artıq yar-yoldaşı, qohum-qardaşı,
Tay-tuşu olanın ucalar başı.

1668 İnsan qanad tapar, varsa dayağı,
Coşar bəxt bulağı, sərvət qaynağı.

1669 Var-dövlət yaraşır açıq sifətə,
Təvazö alimə, mərdlik şöhrətə.

1670 Eşit, nələr demiş pirani ustad:
Aqili dinləyən alar üstün ad.

1671 Kimin var-dövləti aşsa başından,
Tövazö gözləsin yaranışından.

1672 Dövləti əlinə alan bahadır,
Təvazö gücünə saxlamalıdır.

1673 Bəxt nəyi andırır – gül açan bağı,
Kökü, rişəsidir qəlb açıqlığı.

1674 Feli xoş, mülayim, kəmtər kişilər,
Nurludur, gözəldir dünyalar qədər.

1675 Nə qədər misgindir özünü dartan,
Kibirli, xüdpəsənd ondan da nadan.

1676 Hamıya yaraşır var-dövlət, büsat,
Aqilə iki qat, bəlkə də yüz qat.

1677 Buna uyar gələn bir beyti oxu,
Ağıl kamanında dilləndir oxu.

1678 Məgər yaraşırmı nadana dövlət?
Kaş aqilin olsun hər növ səadət.

1679 Nadanın dövləti təsadüfidir,
Alimdir dövlətə çatmağa qadir.

1680 Nadan var-dövlətlə böyük olarmı?
Alimə yaraşır böyük məqamı.

1681 Var-dövlət, səadət çatsa nadana,
Vəfa qılmayacaq ömürlük ona.

1682 Bu fikrə dəlil var əlimdə, dəlil,
Oxu, qədrini bil, mənasını bil.

1683 Ucaldar kişini dövlət, səadət,
Təbərrik günlərə çatdırar əlbət.

1684 Nakəsə üz tutsa var-dövlət az-çox,
Dövləti qamarlar, səadəti yox.



1685 Sınadı Elbaşı cavan dostunu,
Bütün işlərində düz gördü onu.

1686 Göylərə qaldırdı, əzizləyərək,
Əziz tutmasa da solmadı çiçək.

1687 O, yenə aləmə saçdı ətrini,
Əsla azaltmadı ər xidmətini.

1688 Bəy bir dayaq bildi onu özünə,
Ona tapşırıldı yatır-xəzinə.

1689 Əmanət saxladı ləl, inci, mərcan,
Əmanət saxlayan mərdə can qurban.

1690 Ögdülmüş düzlüklə ad-sana çatdı,
Elbaşı günbəgün onu ucaltdı.

1691 Cürmünü, eybini qoyub bir yana,
Bütün işlərini saldı sahmana.

1692 Unudub özünü bəyi bəy bilən,
Zərrəcə dönmədi öz xidmətindən.

1693 Xeyli ehtiyatlı, kamil bir ərən,
Dinlə, nələr demiş bir gün sinədən:

1694 Kişiyə yaraşır qızıl və gümüş,
Ər kişi qızıldan qat-qat üstünmüş.

1695 Alim kəlam demiş – dillər əzbəri:
Gözə sürmə edin düz kişiləri.

1696 Əli düz, könlü düz ər kişilərə,
Azdı, qurban olsan bəlkə min kərə.

1697 Düz kişilər demiş bunu, qulaq as,
Demiş: Əmanətə xəyanət olmaz.

1698 Orduda birinci kimlər fərqlənir?
Kimin özü düzdür, nizamı dəqiq!

1699 Kimdir vəsfə layiq? Səxavətlilər,
Təhqirə paxıllar, dar xislətlilər.

1700 Ələmli, kədərli adamlar nə çox,
Daim nəsə yığır, amma rizqi yox.

1701 Quyuya, dənizə, oda girən var,
Dincəlmir aləmi ayaqlayanlar.

1702 Dəyərsə birinin zəhməti sənə,
Cəld ol, yar bağrını, ver əvəzinə.

1703 Yeri pay-piyada qulaclayanlar,
Yalın əllərilə dağı çapan var.

1704 Gədiklər aşanlar, qaya çapanlar,
Yer qazan, daş yaran, su çıxaranlar.

1705 Döyüşdə qılıncdan zərbə yeyənlər,
Can fəda qılanlar görün nə qədər.

1706 İnsan dürlü-dürlü... adamaldadan,
Yolkəsən, basmaçı, qatil, evçapan.

1707 Bunlar yemək, geymək, tamah üçündür,
Heyvana bənzəyən insan cürbəcür.

1708 Bunlar nadan işi. Çoxu gözüdar,
Qoyun sürüsüdür cahil adamlar.

1709 Öz rizqini yeyən halallar başqa,
Tapmır Allaha, ülfətə, aşka.

1710 Dinlə nələr deyir dünyalar gəzən,
Eşqi tükənməyən sanballı ərən:

1711 En dərə dibinə, ya qalx dağa sən,
Qismətindən artıq yeyə bilməzsən.

1712 Könlünü, dilini düz saxla hər vaxt,
Günün-güzəranın kəm olmayacaq.

1713 Zənginlik istəsən darılma qəti,
Kamil ol, uca tut insaniyyəti.

1714 Dünyaya hökmran olmaq istəsən,
Haqqı, ədaləti əldən vermə sən.

1715 Görün nə söyləmiş bir ər oğlu ər,
Aləmi ədl ilə yeyən hünərvər.

1716 Özün bu dünyada bəylik istəsən,
Cəsur ol, sözünü mərd, açıq de sən.

1717 Soruş, kimlər tutub dünya üzünü,
Kim ki, düz tanıdıb xalqa özünü.

1718 İnsan səadətə çatmazmı məgər,
Düz olsa könüllər, düz olsa dillər?

1719 Yalnız doğruluğu, insaniyyəti,
Şüar edənlərin açılır bəxti.

1720 Çatdı səadətə Ögdülmüş, çatdı,
Xalqa məhəbbəti qol-budaq atdı.



1721 İnandı Elbaşı, kamildi dostu,
Pak əlli, doğruçu, adildi dostu.

1722 Dostu hər sınaqdan şərəflə çıxdı,
Elbaşı dostuna fəxr ilə baxdı.

1723 Alim nə söyləmiş, dinlə sonadək,
Nadan boyun büküb düşünsün gərək.

1724 Xidmətçi quluna göz yetirən bəy,
Əslini, nəslini öyrənsin gərək.

1725 Bəyə alnıaçıq görünsə qulu,
Gərək açsın ona yüksəliş yolu.

1726 Bu yolda xidmətkar tapar etibar,
Bəy də, xidmətkar da şöhrət qazanar.

1727 Necə dürüst demiş görün Yəğma bəy –
Fəhmi, fərasəti ellərə örnək:

1728 Məsəl var – çörəyi çörəkçiyə ver,
İşi işbilənə – bundadır xeyir.

1729 Tapşırsa işini yaramazlara,
Bəy naçar qalacaq – naçar, avara.

1730 Tanrı hansı bəyə versə bir inci,
Öncə bəxş eləyir yaxşı xidmətçi.

1731 Kimisə nəzərdən salmaq istəsə,
Pis bir xidmətçini verir o şəxsə.

1732 Bu cahil öylə bir ocaq çatır ki,
Tüstüyə bürüyür tutduğu mülkü.

1733 Elbaşı dostunu vəsf edə-edə,
Verdi Ögdülmüşə vəzirliyi də.

1734 Bir az da yüksəldib mehriban etdi,
Ellərin üstündə hökmran etdi.

1735 Verdi yaraq, geyim, damğa da, at da,
Səadət imkanı, ev də, büsat da.

1736 Verdi tərifnamə, təşəkkürnamə,
Sözləri söz deyil, balmış sən demə.

1737 Hələ saray əhli, mülazim ərlər,
Can fəda qıldılar, peşkəş verdilər.

1738 Ənamla, təzimlə gəldi çoxları,
Mümkünmü unutmaq yüz yadigarı?

1739 Ögdülmüş yürütdü adil siyasət,
Kişiyə nəvaziş, böyüyə hörmət.
1740 Ədalət duyğusu, təmkini, səbri,
Eldən uzaq etdi zülm ilə cəbri.
1741 Var-dövlət, səadət, axışdı sel-sel,
Möhkəmləndi bəylik, çiçəkləndi el.
1742 Artdı sevənləri yeni əjdərin,
Yırtıldı bayrağı sevməyənlərin.
1743 Elbaşı qurtuldu vəsvəsələrdən,
Zövq aldı bəxtinə gülən səhərdən.
1744 Anladı sirrini bu gəlhagəlin,
Ürfan məşəliymiş o baş, o beyin.
1745 Bu cür arifləri öyməmək olmaz,
Nadanı, əclafı söyməmək olmaz.
1746 Barlı bağa bənzər fəzilətlilər,
Üfunət saçmada dar xislətlilər.
1747 Səadət yaraşır yalnız arifə,
Alimin qiyməti sığmır tərifə.
1748 Sən get İla bəyin eşit sözünü,
Eşitsə gözsüzlər tapar gözünü.
1749 Şair gözəl demiş, buyur çiçək dər,
Beyti duya bilsən mişk ətri verər.
1750 Pisə, nadana yox, sərvət, səadət,
Alimə, arifə yaraşır əlbət.
1751 Dövlət tab edərmi nadan əlində?
Xeyr, aşıb-daşar ürfan əlində.
1752 Alim açılarkən qızılgül gibi,
Nadan sönüb gedər soyuq kül gibi.
1753 Elbaşı qovuşdu səadətinə,
Həmd etdi xaliqin ülviyyətinə.
1754 – Sənsən elmi verən, ey ulu Tanrı,
Əql üçün yaratdın sonsuzluqları.
1755 Öncə bilik verdin, sonra azadlıq,
Çək məni düzlüyə, olmayım yazıq.
1756 Öylə güclü et ki, öz həmdəmini,
Bütün məzlumların çəkim qəmini,



1757 Özün pənahım ol, ey pərvərdigar!
Payladı yoxsula var-dövlət, davar.
1758 Ötdü günlər, aylar, sevinci sel-sel,
Boy atdı, yaratdı, zənginləşdi el.
1759 Bəli, ər kişilər elin naxşıdır,
Ölməsə, min illər qalsa yaxşıdır.
1760 Çatar səadətə bəy yetirən xalq,
Xalq isə düzlüklə yüksələr ancaq.
1761 Qarışır torpağa yaxşı, yaman da,
Bircə ad-san qalır baqi cahanda.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

1762 Yalqız oturmuşdu Elbaşı bir gün,
Umsundu, darıxdı Ögdülmüş üçün.
1763 Görüşdülər.
– Salam.
– Əleykəssalam,
Ata nəvazişi görməyən balam.
1764 Tez getdi, atana tamarzı qaldın,
Nə səhər öyrətdi, nə elmə daldın.
1765 Səni böyütməyə tapmadı macal,
Nə bir öyüd verdi, nə ağıl, kamal.
1766 Bəs necə oldu ki, qalxıb boy atdın,
Sənətə, kamala, əqlə də çatdın?

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

1767 – Elbaşı, ömrünü kamil vur başa,
Nə qədər istəsən, o qədər yaşa.
1768 Tanrı kimə qılsa lütf, inayət,
Yetər diləyinə, yüksələr əlbət.
1769 Türkcə bir məsəl var, diqqət yetir bir,
Ağsaqqal dilində gözəl səslənir:
1770 Bayatın fəzlilə yetişir insan,
Tapır diləyini, qazanır ad-san.

1771 Tanrı verənləri aləmə bəşər,
Nə qara topraklar, nə mavi gözlər.

1772 Mədəd, yardım olsa ulu Tanrıdan,
Hər bir diləyinə qovuşar insan.

1773 Bir də yadda saxla, əziz Elbaşı,
Oğulu böyüdür ata alqışı.

1774 Elbaşı əl verdi, qayğıma qaldı,
Tale üzə güldü, başım ucaldı.

1775 Bəylər diqqətindən yayınmayan kəs,
Çatar mətləbinə, zəhməti itməz.

1776 İnsan bağ kimidir, bəy sözü də – su,
Su içib bar vermək ən böyük arzu.

1777 Bəhrə-bar yetirir su içən bağlar,
Ətr-ənbər, çiçəklər onu qucaqlar.

1778 Bəy öz fərmanını yazıbsa yaxşı,
Qulun bəxti gülər, ucalar başı.

1779 Fərmanın sözləri olmasa yaxşı,
Qullar qan ağlayar, tökər göz yaşı.

1780 Tanrıya can atsın gərək adamlar,
Açılar qapılar, Tanrı olsa yar.

1781 Tanrı, kərəmilə əzizlər qulu,
Açar qarşısında mərifət yolu.

1782 Yalnız elm əhlidir azad, bəxtiyar,
Yaşca kiçiksə də, böyük sayılar.

1783 Elbaşı soruşdu: – Bəs ey hünərvər,
Elmə hansı yolla yiyələnirlər?

1784 İnsan təbiətən alim doğulur,
Yoxsa öyrəndikcə kamala dolur?

1785 Ögdülmüş dil açdı, ağlı-huşu cəm:
– Bu sözə əsaslı cavab verəcəm.

1786 Ağıl, könül versə əzəldən Yəzdan,
Elmin cövhərinə sahib olursan.

1787 Cöhvərin oldumu, bundan sonra sən,
Hər şeyə can atsan öyrənəcəksən.

1788 Elmə yiyələnən alim də olur,
Xalq üçün, yurd üçün bir də doğulur.



1789 Elmə öz vaxtında verməsə könül,
Hələ qönçə ikən solar qızılgül.

1790 Övladı elm əhli görmək istəyən,
Tələs, cocuq ikən düş üstünə sən.

1791 Cocuq yavaş-yavaş öyrənir elmi,
Bəs alim? Alimlik fitri deyilmi?

1792 Biliyi, sənəti, gözəl xilqəti,
Mənimsəyən tapır hər səadəti.

1793 Sənəti cavankən öyrənir insan,
Sonra alimliklə qazanır ad-san.

1794 Buna uyğun gəlir türkcə bir məsəl:
Elmi zərrə-zərrə mənimsə, yüksəl.

1795 Öyrənən insanlar başkəsən olmaz,
Daim öyrənsə də zirvəyə çatmaz.

1796 İstedad, öyrənmə Tanrıdan gələr,
Zəhmətlə birləşsə qat-qat yüksələr.

1797 Tanrı vergisidir fəhm, fərasət,
Fərasətdir verən bizə səadət.

1798 Hamıdan üstündür istedadlılar,
Yüz sənət sahibi qol-qanadlılar.

1799 İdraksız ərlərə ər demək çətin,
Onlar lal oğludur bəşəriyyətin.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

1800 Elbaşı söylədi: – Dinlədim səni,
Yenə bir sözüm var, ey ləl mədəni.

1801 Fəhmin, fərasətin elmdən fərqi,
Sərhəddi hardadır, açın bu sirri.

1802 Fəhmin, fərasətin özü nədəndir,
Deyin, hardan gəlib, hara gedəndir?

1803 Ögdülmüş söylədi: – Əziz Elbaşı,
Qiymətdə mat qoyur elm, daş-qaşı.

1804 Fərasət məkanı baş beyindədir,
Baş beyin sahilsiz bir xəzinədir.

1805 Xilqəti pakizə, işi bəhrəli,
İnsanın qolunda zəncirdi fəhmi.

1806 Tanrı buxovladı elm ilə bizi –
Bizim dilimizi, xilqətimizi.

1807 İdrak əhli ölməz, idraksız ölü,
Gəl sula, ey yazıq, bu təşnə çölü.

1808 İnsan zülmət basan bir ev kimidir,
İdrak – məşəldir ki, ona nur verir.

1809 Növ-növ yaxşılıqlar idrakdan gəlir,
Elmi sayəsində insan yüksəlir.

1810 Bizi insan etdi elm ilə idrak –
Ədalət yolunu göstərən çıraq.

1811 Sən idrak yolunu tutsan cahanda,
Xəzinə taparsan öz varlığında.

1812 Elmsiz nə idin? İlxıda bir at,
Gör hara yüksəldin, ey dadi-bidad.

1813 Qoşulma ilxıya, sürünmə yerdə,
Cəh-cəh vur, qanad çal şah zirvələrdə.

1814 – Yenə bir sözüm var – dedi Elbaşı,
Ey günəş sifətlim, yaxşıdan yaxşı.

1815 Sən mənə idrakın verdin vəsfini,
Mən bilmək istərəm onun məğzini.

1816 Necədir görkəmi, xülqü, xilqəti,
Vücudu, cövhəri, yaşı, fitrəti?

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

1817 – Xilqəti gözəldir idrak əhlinin,
Sevinci, güvənci, şadlığı min-min.

1818 Üzü işıqlıdır, yaşı çox cavan,
Bütün yaxşılara yol başlar ondan.

1819 Özü sanballıdır, yerişi yüngül,
Hamıya mehriban, nurəfşan könül.

1820 Gül açar, bar verər, hara vursa əl,
Kimə sözü yetsə, çağırar: gəl-gəl.



1821 Həssas, istiqanlı, sevimli, şəndir,
Bütün insanlara xeyir verəndir.

1822 Müdrik, uzaqgörən, ən çətin işi,
Kamil həll eləmək onun vərdişi.

1823 Ən çətin düyünü aça bilən ər,
Bulanıq suları duruldan hünər.

1824 Gözlər sağı-solu, önü, arxanı,
Seçər iş görməyə ən dürüst anı.

1825 Qaçanı saxlayar, uçanı tutar,
Yamar, sınıqları baş-başa çatar.

1826 İdraksız həmişə qəmgin, mükəddər,
– Sənsiz, idrak əhli, ölürəm! – deyər.

1827 Səndən çatmaz mənə bir zərrə, bir iz,
Sənsiz girlənənlər ölüdü şəksiz.

1828 Ölgünlərə cansan, dilsizlərə söz,
Ey zülmətdə məşəl, gözsüzlərə göz.

1829 İdrak idraklıya söylər: – Eşimsən,
Hər işimi görən can günəşimsən.

1830 Gözəldir xilqəti idrak əhlinin,
Safdır təbiəti idrak əhlinin.

1831 Elm-idrak əhlinin hər əlaməti,
Bir gövhər şöləsi, zər əlaməti.

1832 Dili, sözü doğru, dərdliyə həmdərd,
Bütün işdəkiləri kamilanə, mərd.

1833 Xülqü xoş, duyğusu ən incə duyğu,
Günəşə yönəlmiş yolu-yoruğu.

1834 Səbirli, sanballı, nurəfşan, mətin,
Ən ağır işlərdən əl çəkər çətin.

1835 Özü gənc, hər feli, hər işi kamil,
Cavan mərdlər ona arzumənd, mail.

1836 Bu şeri duymaqda sən xiridarsan,
Açılar mənası, məğzinə varsan.

1837 İşi qos-qocaman, özü növcavan,
Açılar mənası, məğzinə varsan.

1838 Gəncliyi – məhəbbət, qocalığı mərd,
Özü başdan-başa sevinc, səxavət.

1839 Sevindi Elbaşı, dedi: – Ey hüşyar,
Sözündə elm-ağıl dəryaları var.

1840 Tanrım mənə verdi şan-şərəf, ad-san,
Sən də onun mənə ərmağanısan.

1841 Çəkmisən nə qədər məşəqqətimi,
Tanrı özü versin sənin əhdini,

1842 Mənim yüklərimi aldın çiyninə.
Mən dinc... amma düşür ağırlıq sənə.

1843 Tanrıdan diləram qüvvət, mətanət,
Birə-beş ödərəm haqqını, ey mərd.

1844 Sənin bu xidmətin – qəhrəmanlıqdır,
Mehrin ən qiymətli mehribanlıqdır.

1845 Xidmət aləmində kamil, müqəddəs,
Özgəni düşünər, özünü güdməz.

1846 Görün nələr demiş xidmətçi oğul,
Bəyini dincliyə qovuşduran qul:

1847 Bəyin dağlar qədər ucalar başı,
Mehriban, mərd olsa qulu, işdaşı.

1848 Dikəldər qəddini bəy də, nökər də –
Xidmət olan yerdə, mehr olan yerdə.

1849 Alsa öz çiyninə məşəqqəti qul,
Tale bəy başına səpər qızılgül.

1850 Hansı bəy taparsa böylə bir qulu,
Sanar ki, Tanrının bəxşişidir bu.

1851 Çoxunun qəlbində böylə bir istək,
Yaşayıb dünyada gör nə qədər bəy.

1852 Elbaşı hökmündə çiçəkləndi el,
Dualar, alqışlar kükrədi sel-sel.

1853 Ondan xəbər tutdu neçə dost diyar,
Üzünü görməyi arzuladılar.

1854 Yüksəldi Elbaşı, törəsi yaxşı,
Gül açdı yurdunun torpağı, daşı.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

1855 Elbaşı çağırdı cavan dostunu,
– Dinlə, mən söz deyim, sən eşit bunu.



1856 Can yetdi vücuda, baxdı, nə gördü,
Onun hər qismini möcüzə gördü.

1857 Könül xoşluğu var, göz xoşluğu var,
Bəs can müddəası, can nəyi xoşlar?

1858 Ögdülmüş söylədi: – Ah çəkən könül,
Nəyi arzulasa onu xoşca bil.

1859 Yer üzünü görmək – gözə xoş gəlir,
Tapsa arzusunu könül dincəlir.

1860 Elbaşı soruşdu: – Ey zəka əri,
Bəs nədir sevginin nişanələri?

1861 Hamının başında eşq iddiası,
Nədir bu sevginin məğzi, mənası?

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

1862 Vaxt olur, qız ilə oğlan görüşür,
Göz gözə baxanda qəlbə od düşür.

1863 Dünyada nə qədər maneələr var,
Fəqət qəlb önündə məgər bənd olar?

1864 Sevirmi, sevmirmi – bilmək istəsə,
Könül cavab versin gərək hər kəsə.

1865 Eşqin öz hüsnü var, öz dəsti-xətti,
Bu xətti əks edər yarın surəti.

1866 Şair bu barədə gözəl söz demiş,
Dinlə bu kəlamı, ey sözü kişmiş:

1867 Sevən bir insanın üzü eşq olar,
Danışsa, dil açsa sözü eşq olar.

1868 Sevirmi, sevmirmi, bilmək istəsən,
Onun gözlərinin içinə bax sən.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

1869 Elbaşı söylədi: – Dinlədim səni,
Yenə bir sözüm var, ey ləl mədəni.

1870 Mənə diqqət yetir, söylə görüm bir,
Ən gərəkli sözü kimlər söyləyir?

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

1871 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Bəylərin elm ilə ucalır başı.
1872 Bəylər elmin tacı, elmə bayraqdar,
Avam qul sözünə hansı lüzum var?
1873 Soruşmaq asandır, cavabsa çətin,
Cavabın məğzidir elmi qüdrətin.
1874 Mənim işim çətin, səninki asan,
Sən məni xar etmə, ey böyük insan.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ CAVABI

1875 Soruşanlar bir az inadkar olur,
Bilmədiklərini soruşur, sorur.
1876 Bu işə əslində şad olmaq gərək,
Hər cavab açılır bir xəzinətək.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

1877 Ey siyasət əhli, bilirsən ki, sən,
Eşitmək üstündür söz söyləməkdən.
1878 Söz deyən can qoyur sözün yolunda,
Dinləyən ker çəkir əli qoynunda.
1879 Alim kəlamı var bənzəyir lələ!
Hələ söz deməmiş diqqətlə dinlə.
1880 Dinləmək gücünə alim olan var,
Gəvəzə, özünün başından basar.
1881 Məgər çox danışan tapır bir xeyir?
Dinləmək qulağa dinclik gətirir.
1882 Deyilməmiş bir söz qızıldır xalis,
Dilindən çıxdımı sarı misdi, mis.
1883 Elbaşı söylədi: – Düz dedin, oğul,
Dövlət kəmərini bağladın, sağ ol.



## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

1884 – Ey xoşbəxt Elbaşı – əhdim, muradım,
Mənim şərəfimdir qulluqçu adım.
1885 Versə canını da qul deməz: əfsus!
Təki onun bəyi bəxtiyar olsun.
1886 Mən öz bildiyimi deyirəm yalnız,
Əgər səhvim olsa bağışlayınız.

## BƏYLİYƏ LAYİQ BƏY NECƏ OLMALIDIR

1887 Elbaşı söylədi: – Sözüm var hələ,
Beynimə od basıb vermədə şölə.
1888 Böyük var, kiçik var, yaxşı-yaman var,
Tanrımız yaradan xilqətdir onlar.
1889 Savadlı, savadsız, dövlətli, yoxsul,
Ağıllı, ağılsız, naçar, gəda, qul...
1890 Onlara başçı bəy nasıl olmalı?
Hökmündən səadət hasil olmalı!
1891 Öylə yaşasın ki, çiçəklənsin el,
Axsın xəzinəyə sərvəti sel-sel.
1892 Yurd, ulus qovuşsun istədiyinə,
Düşmən boyun büksün, son qoysun kinə.
1893 Xalqa qanad versin düzgün siyasət,
Ordunu saxlasın elm ilə qüdrət.
1894 Yayılsın cahana adı, şöhrəti,
Ölkəyə sığmasın varı-dövləti.
1895 Xalqa illər boyu bir dayaq olsun,
Hər iki dünyada üzü ağ olsun.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

1896 Çətin sözlər sorur məndən Elbəyim,
Sənə halal olsun rəncim, əməyim.
1897 Bəyliyin işini kim bilər? Bəylər,
Törə də, nizam da onlardan gələr.

1898 Anadan olanda bəy doğulur bəy.
İş görüb öyrənir, yüksəlir demək.

1899 Tanrı hansı bəyə gör fürsət verir:
Ona ağıl, könül, fərasət verir.

1900 İdrak, qabiliyyət, istedad, iman,
Ona bəxş olunur başdan, binadan.

1901 Bəylik işi yalnız bəylər işidir,
Bu iş bir ulusun yüksəlişidir.

1902 Bunları sən məndən yaxşı bilirsən,
Çünki atan bəydi, özün də bəysən.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ CAVABI

1903 Anladım, sözündə ceyran mişgi var,
Ətrindən məst olur çöllər, səhralar.

1904 İş görən kişilər görür işini,
Gendən vaxt da görür tərpənişini.

1905 Burda iş görən mən, gendən baxan sən,
Mənim pisimi də yaxşı görürsən.

1906 Elm ilə, eşq ilə yüksələn qüdrət,
Tanrı bəxş elədi sənə fərasət.

1907 Ədalət hissini mənimsəyib sən,
Mənə xidmət etdin kiçikliyindən.

1908 Hər işi öyrəndin, vardın məğzinə,
Sözünlə, işinlə sadiqsən mənə.

1909 Kişi sadiqlərdən sorar sözünü,
Sadiq fəda qılar sənə özünü.

1910 Umudum sənədir, çünki sadiqsən,
Səndən gözləyirəm düz cavabı mən.

1911 Eşit, sadiq kişi nə söyləmiş, nə:
Sədaqət meyardır insaniyyətə.

1912 Ariflər sadiqi vəsf eləmişlər,
Ona insanların xası demişlər.

1913 Atma, bas bağrına sədaqətlini,
Böylədir zəkanın, elmin təlimi.



## ÖGDÜLMÜŞÜN CAVABI

1914 Ögdülmüş ər bəyi tutdu alqışa:
– Ey əli yuxarı, dinc, azad yaşa.

1915 Bəyliyə yarayır yalnız hünərvər,
Mergənlər[1], zəkalar, cəsur kişilər.

1916 Atası bəydirsə oğul da bəydir,
O da atasıtək qüdrət deməkdir.

1917 Elmə kim susayır? Fərasətlilər,
Kim böyük sayılır? Səxavətlilər.

1918 Xalqa başçı olur bəylər elm ilə,
Səadət gətirir obaya, elə.

1919 Bəy adı bağlıdır bilik sözüylə,
O, bilik gətirir daim özüylə.

1920 Ağıllı, elmli, hünərvər bəyin –
Düşməni məhv olur, gəlsə də min-min.

1921 Dinlə, nələr demiş cəsur, hünərvər,
Sınaqlardan çıxmış, dünya görmüş ər:

1922 Bəy gərək zəkalı, cəsur, mərd ola,
Ta ki, toxunmaya ona şər, bəla.

1923 Feli, xülqü gözəl, sənət əhli bəy,
Ad-san qazanmağı bacarsın gərək.

1924 Qırıb həyat adlı güclü axarı,
Yalnız elm adamı qalxır yuxarı.

1925 Toxumu sağlamsa, partladır daşı,
Tutur ər kişilər yuxarı başı.

1926 Bəy kişi müqəddəs, saf olsun gərək,
Üstəlik kirpikdən od qapan, zirək.

1927 Cəld və cəsur gərək xalqın sərvəri,
Onda görə bilər böyük işləri.

1928 Dinlə, nələr demiş Ötükən bəyi,
Fələyi ram edir sözün köməyi.

1929 Dili düz, könlü düz, xülqü gözəl bəy,
Hamıdan zəkalı, uca, əzəl bəy.

1. Mergən – snayper.

1930 Gözü tox, könlü tox, səxavətli, mərd,
Bəylər zəka əhli, ən ulu qüdrət.
1931 Yaxşılıq etməyə uzundur əli,
İsmətli, xoş üzlü, hünər məşəli.
1932 Xalqa həyat olsa bu cür mətinlər,
Ondan elin fəxri övladlar törər.
1933 Kimlər sala bilir işi sahmana?
O kəs ki, güvənir elmə, ürfana.
1934 Xalqı elm arxalı dolandırır bəy,
Elmsiz acizdir, bir heçdir demək.
1935 Kitabdan elə ki, bir az gen düşər,
Bəyin bəyliyi də qüvvədən düşər.
1936 Dərdinin dəvası ürfandır yenə,
Qovuşsa ürfana, arslandır yenə.
1937 Dərdinə loğmantək çarə gəzən bəy,
Savadlı, elmli, cəld olsun gərək.
1938 Kim ki, elmə çatır, çilçıraq olur,
Hər iki dünyada üzüağ olur.
1939 Hər iki dünyanı fəth edən insan,
Bəxtiyar doğulur başdan-binadan.
1940 Şair bu nisbətlə demiş sözünü,
Bu söz gözsüzlərin açar gözünü.
1941 Ərənlər içində mənə söylə bir,
Hamıdan bəxtiyar olanı kimdir?
1942 Məncə bəhrə alıb bəhrə verənlər,
Hər iki dünyada yaşar bəxtəvər.
1943 Pak isə əxlaqı, dürüstsə işi,
Bəyi tərk eləməz talе günəşi.
1944 Ədəbi, ərkanı, gözəl əxlaqı,
Tanrı kimə versə gülər növrağı.
1945 Başından tökülər nemətlər xası,
İstər özü yesin, istər paylasın.
1946 Tanrı bəndəsinə hər fəziləti,
Verir ki, nur saçsın xülqü-xilqəti.
1947 Bəyə gözəl əxlaq, yüz sənət gərək,
Ta ki, çiçəklənsin şəhər, kənd-kəsək.



1948 Necə səadətmiş gözəl davranış,
Geyim də, yeyim də ondan yaranmış.
1949 Kimin yaranışdan bədsə xilqəti,
Qoy alsın gözünə min fəlakəti.
1950 Xilqəti, rəftarı naqis olanlar,
Özünü həmişə bəlaya salar.
1951 Bəy saf olmalıdır, bəy mütəfəkkir,
Saflığa can atan ər minlərcədir.
1952 Qorxu hissi olur mərdlərdə bir az,
Bu duyğu onları sınmağa qoymaz.
1953 Bəy ki, mütəfəkkir, safdil olmadı,
Batacaq muradı, batacaq adı.
1954 Bəyin zinətidir səbr ilə qərar,
Belində kəmərdi bu iki meyar.
1955 Yalnız təfəkkürdən, elmdən kömək!
Ta ki, öz işində ləngiməsin bəy.
1956 Yalnız idrak əhli iş görsün gərək!
Cahil gözə girir qaratikan tək.
1957 Bizə aqil gərək, könül, göz gərək.
Əgər könül yoxsa, göz neyləyəcək?
1958 Eşit, nələr demiş elin sərdarı,
Mətin, dünyagörmüş, könül memarı.
1959 Kimdə varsa ağıl, onu vəsf edin,
"Kişidir!" deyibən ardınca gedin.
1960 Varsa istedadı, savadı, elmi,
Onun yamanı da yaxşı deyilmi?
1961 Ən böyük xəzinə ağıldır şəksiz,
Ağıl sahibinə alim deyin siz.
1962 Əlhəzər, düşməndir yüngülməzaclıq,
Üzün qara olar, beynin qaranlıq.
1963 Yüngüllük, çaşqınlıq bizi məhv edir,
Çoxu cahilliyin nişanəsidir.
1964 Görmə, tələsik iş könülsüz olur,
Bir qaşıq suda da insan boğulur.
1965 Daim səbirli ol, səbir-müqəddəs,
Yalnız ibadətə yubanma, tələs.

1966 İsmətli, xoşsifət, gözü-könlü tox,
Mülayim olmağın, inan, misli yox.

1967 Az qala dünyanı basıb yesə də,
Doymayan acgözlər durur hələ də.

1968 Acgözlük – azardı, çalışma əbəs,
Onu loğmanlar da sağalda bilməz.

1969 Aclar yeyib-içər, axırda doyar,
Acgöz bu dünyanı əldənmi qoyar?

1970 Acgözdən bəy olmaz, gədadır, gəda,
Dünyanı dördəlli qamarlasa da.

1971 Kamil, mərd kişilər nur üstünə nur,
Kamilin işi də zavalsız olur.

1972 Fikir, idrak əhli, xilqətli bir kəs,
Alçaq əməllərə əl verə bilməz.

1973 Tanrı kimə versə ismət, fəzilət,
Üstəlik bəxş edər var-dövlət, izzət.

1974 Sakın, bəd əməldən həzər, ehtiyat,
Ehtiyat üstündə qurulmuş həyat.

1975 Ehtiyat kəmərdir belində sənin,
Zülmətdə çıraqdır əlində sənin.

1976 Varlığın pakizə, dilin düz olsun,
Xalqa xeyir gətir, günəşin doğsun.

1977 Bəylər öz xalqına etsə xəyanət,
Sən ondan gözləmə xeyir-bərəkət.

1978 Düz könül, düz əməl, pakizə xilqət...
Bunsuz qaçaq düşər eldən səadət.

1979 Vədə xilaf bəydən gözləmə haray,
Ömrünü zay edər, gününü ah-vay.

1980 Bəy nasıl olmalı? Zirəng, mərd, ayıq,
Yoxsa min zavala qatlaşmalıyıq.

1981 Xalqın kökləridir bir cüt nur, işıq –
Biri düz siyasət, biri ayıqlıq.

1982 Ayıq bəy düşmənin əzər başını,
Gövhərə çevirər yurdun daşını.

1983 Hansı bəy yürütsə düzgün siyasət,
Gətirər xalqına ağ gün, səadət.



1984 Ayıqlıq, siyasət, – bu iki meyar,
Bəyliyi yaşadan iqtidar, vüqar!

1985 Düşməni xar edən ayıq döyüşçü,
Nə demiş, sözündə dəryalar gücü:

1986 Xalqa kim gərəkdir? Ayıq Elbaşı,
Bəylər, bir ayıqdan min ayıq yaxşı.

1987 Ayıqlıq – bəylərin yüksəliş yönü,
Qafillik bəyliyin kəsir kökünü.

1988 Ayıq ol, düşmənin boynunu sındır,
Adil ol, ədl ilə xalqı dolandır.

1989 Dağıdır ölkəni başı-beyni qan,
Düz yolu buraxıb əyrini tutan.

1990 Bəyi yıxa bilər, gəzərsə dimdik,
Öncə zorakılıq, sonra cahillik.

1991 Sındırmaq istəsən düşmən boynunu,
Ayıq qulağınla dinlə sən onu.

1992 Yalnız ayıq bəylər yıxar düşməni,
Qafillik dağıdır yurdu, ölkəni.

1993 Bəylər qafil olsa başa gəlməz iş,
Bürüyər ölkəni tənəzzül, təşviş.

1994 Ayıq vurub-yıxar qafili daim,
Yoxsa qart düşməni kim yaxalar, kim?

1995 Bəyi ayıq olsa Elbaşı enməz,
Əl qaldıran olsa çökər, sevinməz.

1996 Dolandıra bilməz xalqı zülmkar,
Xalqda zülmü yıxan yırtıcılıq var.

1997 Gör nə demiş dilim – sözü müqəddəs:
Zülmün idarəsi çox sürə bilməz.

1998 Zülm od-alovdur, qarsar torpağı,
Ədalət saf sudur, göyərdər bağı.

1999 İstəsən illərcə hökm edəsən şad,
Adil siyasətlə xalqını ucalt.

2000 Zülm – məmləkəti dağıdan tufan,
Ədalət – bağ-bostan, dastan, gülüstan.

2001 Zalım viran qoydu şəhəri, kəndi,
Axırda ac qalıb çöldə gəbərdi.

2002 Düz siyasət yapsa bəylər, ağalar,
Bəylik əsrlərcə yaşar bəxtiyar.

2003 Hər şeydən rəzili sözün palçığı –
Bəyin iş başında yalançılığı.

2004 Sözü də, özü də düz olmalı bəy,
Xalqı ona arxa, o, xalqa kömək.

2005 Hər işi xalq üçün dağdan ağır yük,
Yalançı dönükdür, ən böyük dönük.

2006 Eşit, nələr demiş vəfalı mətin:
Vəfadır cövhəri insaniyyətin.

2007 Vəfasız adamlar cəfadır xalqa,
Köpəkdir, zahirən adam olsa da.

2008 Umma yalançıdan vəfa, ya iman,
Bu söz illər boyu çıxmış sınaqdan.

2009 Kişi mergən gərək – cəsarətli, mərd,
Düşməni yandıra ondakı qüdrət.

2010 Qəhrəman olmalı ordu rəhbəri,
Ta ürəkli etsin ürəksizləri.

2011 Ürəkli baş olsa ürəksizlərə,
Dönər milyon könül bir səməndərə.

2012 Mənim sözlərimə isbat istəsən,
Oxu bu beytimi, ey könlü rövşən:

2013 İtlər ilxısına arslan olsa baş,
Arslana çevrilər it yavaş-yavaş.

2014 Arslan sürüsünə başçı olsa it,
Arslan itə dönər, eşit, ey igid.

2015 Xoşrəftar, mülayim, səxavətli bəy,
Xalqına ən böyük köməkdir, kömək.

2016 Şöhrəti kim tapar? Səxavətlilər,
Bu şöhrət dünyaya səadət çilər.

2017 Mərdlər axıb gələr, bir ordu olar,
Ordular başçısı bəy də bəxtiyar.

2018 Bütün sərvətini xalqa paylayan,
Bir mərd bəyan etmiş, gör nədir bəyan:

2019 Süfrən açıq olsun, ərmağanın bol,
Səadət saçmağa hər gün hazır ol.

2020 Çörəkli kişilər – səxa mədəni,
Verimlə əskilməz ağ quşun dəni.

2021 Əldə qılınc, balta... canda cəsarət,
Sərvət qayğısını çəkərmi heç mərd?

2022 Nə cür sərvət yığır alim cahangir,
Ordunun hər fəthi bir xəzinədir.

2023 Elləri tutmağa ordular gərək,
Ordu saxlamağa dövlət, var gərək.

2024 Yalnız zəngin eldən pay almaq olar,
Sən adil siyasət apar, ey sərdar!

2025 Saydığım dörd şərtdən biri olmasa,
Bəylik bərbad olub, batacaq yasa.

2026 Beş şeyi özündən uzaq etsə bəy,
Şöhrəti, ad-sanı əskilməyəcək.

2027 Biri – çaşqınlıqdır, biri acgözlük,
Üçüncü – cahillik, dağdan ağır yük.

2028 Dördüncü – pozğunluq, ən böyük bəla,
Beşinci yalandır, bənzəyir yala.

2029 Bu beş rəzalətdən bəy uzaq gərək,
Onda hökmü, sözü daşdan keçəcək.

2030 Pozğunlar aləmin ən bədbəxtidir,
Çünki özgəni də o, bədbəxt edir.

2031 Buna uyğun gələn müdrik bir sözü,
Gör necə göstərir şerin güzgüsü:

2032 Pozğunlar köpəkdir, qapağan itdir,
Varlığı, cəmdəyi bir torba ətdir.

2033 Pozğunun düşməndən fərqi var məgər?
Düşmən ləng edəni pozğun cəld edər.

2034 Fatehlik istəsən, xoşbəxt Elbaşı,
Öncə görməlisən üç işi yaxşı:

2035 Laləyə dönəndə qılıncında qan,
Dartıb aldığını paylamalısan.

2036 Dilində hər cümlə qənd olmalı, qənd,
Sənə bəy də, qul da bənd olmalı, bənd.

2037 Bəyə qüdrət gərək dava-dalaşda,
Sevilsin, əyləşsin yuxarı başda.

2038 Gülər üz, şirin söz, xoş, incə rəftar,
Aman, bizim bəyə nasıl yaraşar!

2039 Yumşaq, əliaçıq, lətif, rəhmdil,
Bəyi yerin-göyün yaraşığı bil.

2040 Türlü sənətləri bilərsə kamil,
Nə qədər evlərdə yandırar qəndil.

2041 Kişilər sərvəti, xalq içrə kamil,
Sevən könülləri etməzmi mənzil?

2042 Bu cür mərd bəylərə qul olar bəşər,
Sevən ürəyində aləm yerləşər.

2043 Bədsifət, yalançı, lovğa, gözüdar,
Adamlar qoy bizdən uzaq olsunlar.

2044 Alçaqlıq, çaşqınlıq, yüngüllük aşkar,
İnsanı aləmdə sərgərdan qoyar.

2045 Avamla, cahillə bağlanan ülfət,
Bəyə şan gətirməz, gətirər zillət.

2046 Qara – qul qarası, bəy isə ağdır,
Bu fərqlə əbədi yaşayacaqdır.

2047 Şöhrətli, yetkin bəy olmaq istəsən,
Öz ər mənliyindən imdad istə sən.

2048 Qara işlər görsə bəy bu cahanda,
Zülmət rəngi alar özü bir anda.

2049 Ortaboy, səsi gur, üzü işıqlı,
Bəy gərək cəld, cəsur, yar-yaraşıqlı.

2050 Nuruna gələnlər baxsın, vurulsun,
Sevənlər az qala heyranı olsun.

2051 Düşmənə amansız, dosta mehriban,
Hüsnü görən gözə nur bağışlayan...

2052 Boyca hündür olsa, vəsf eyləməziz,
Bir az gödək olsa, yaxşı deməriz.

2053 Ortaboy, şivərək, enlikürəkli,
Döyüş meydanında üzlü-ürəkli...

2054 Görün, yüz döyüşdən çıxan bir kişi,
Necə təsvir edir odda bişmişi.

2055 Qəzəbli, natəvan, cahil gödəkboy,
Bəzən öz qövmünə toy tutdurur, toy.



2056 Ortaboy, silahlı, cəngə səfərbər,
İşi miyanə tut, ey qüdrətli ər!

2057 Fitnədən, badədən, meydən əlhəzər,
Pakizəlik sevən mərd ayıq gərək.

2058 Bəylər mey içməyə qurşansa əgər,
Ellər qan-yaş tökər, məmləkət inlər.

2059 Cahangir bənd olsa eyşə, işrətə,
Xalqını uğradar yüz fəlakətə.

2060 İşini görməsən öz vaxtında sən,
Quş gibi uçsan da neyləyəcəksən?

2061 Dinlə, nələr demiş təlimçi rəhbər –
Nadanı içkidən çəkindirər ər.

2062 Sən ey boğazımn, nəfsinin qulu,
İçmə, yıxar səni bu gəda yolu.

2063 Avam meyxor olsa, yurdu batacaq,
Bəy batsa, xalqın da bəxti yatacaq.

2064 Mey zahirən şəkər, əslində zəhər,
Sonu – düşmənçilik, dava-dalaş, şər.

2065 Dəli – divanədir məst olan axmaq,
Məstin vaxtımı var iş görə sərvaxt?

2066 Eşit, nələr demiş düşünən bir ər,
Çoxlu sürünəcək nəfsinə nökər?

2067 Ən vacib işini atıb kənara,
Ən murdar iş görür sərxoş avara.

2068 Həmişə məstanə, həmişə xumar,
Xalqı düşünməyə haçan vaxt tapar?

2069 Ən alçaq işlərə meydir yol açan,
Sərxoşdur ən vacib işlərdən qaçan.

2070 Fəsad olan yerdən var-dövlət gedər,
Fəsadçı bəyliyi pozar, məhv edər.

2071 Var-dövlət təmizlik, halallıq istər,
Xoşbəxt ola bilməz haram yeyənlər.

2072 Meypərəst, fəsadçı, alçaq olsa bəy,
El-oba özü də düşgünləşəcək.

2073 Avamın səhvini bəylər düzəldər,
Bəy özü büdrəsə, kim əlac edər?

2074 Napakı su ilə pak edir insan,
Bəs su iylənərsə, nəylə yuyasan?

2075 Həkimdir xəstənin gələn üstünə,
Həkim bəs neyləsin özü xəstəsə?

2076 Xalq üçün örnəkdir bəyin rəftarı,
Onun hər addımı, işi, qərarı.

2077 Hansı yöndədirsə bəyin nizamı,
Xalq görüb-götürür o intizamı.

2078 Dinlə, sözlərimə isbat istəsən,
Gərək hər kəlməyə diqqət verəsən.

2079 Bəylər hansı yolla getsə, əmin ol,
Qulunun keçdiyi yoldur həmən yol.

2080 Bəy yaxşısa dövlət, var aşıb-daşar,
Onun qulları da bəxtiyar yaşar.

2081 Tamam gərəksizdir kibr, lovğalıq,
Düz yoldan çıxarsan, yazıq bədqılıq.

2082 Təvazö əhlisə xoşbəxtdir, inan:
O bəyin sərvəti aşar başından.

2083 Dinlə, nələr demiş fazil bir insan –
Xalq içrə nüfuzlu, müdrik, qocaman:

2084 Bəy ki, lovğalanıb dartdı özünü,
Zülmətə çevirir ağ gündüzünü.

2085 Kibr ilə ucalan görmədim heç vaxt,
Kəmtərlərin çoxu mayaq, çilçıraq.

2086 Kibirdən nə fayda? Könül soyudur,
Kəmtər kişilərsə nur üstünə nur.

2087 Bəy nasıl olmalı? Mülayim, yumşaq,
Yoxsa ümidlərin doğrulmayacaq.

2088 Bəy açıq könüllü, munis, mehriban...
Keçə bir çoxunun günahlarından.

2089 Məhəbbət, sədaqət artacaq ona,
Sadiqlər olacaq qol-budaq ona.

2090 Xalqa başçı gərək, bəyə də hümmət,
Hümmətin rəhnidir məhəbbət, mürvət.

2091 Mürvəti, qeyrəti car olsa ərzə,
Bəyin bəy şikarı çıxacaq düzə.



2092 Ölüsən hümməti olmayan insan,
Hər iki dünyada üzüqarasan.

2093 Hümmətlə əkizdir adil siyasət,
Başçı kamilliyi, cürət, qətiyyət.

2094 Bəy nizam yaradır siyasətilə,
Avama nur saçır fərasətilə.

2095 Sözümə şahiddir şer, incəsənət,
Harda şahid varsa, ordadır sənət.

2096 Bəylər dərgahını siyasət bəzər,
Bəylər siyasətlə bir nizam düzər.

2097 Siyasət təzələr köhnə rüzgarı,
Yandırıb kül eylər yaramazları.

2098 Dövlət möhkəmlikdə dağ olsun deyə,
İki qüdrət gərək yurda, ölkəyə.

2099 Orduya zər, gümüş, ənam verəsən,
Xalqı ədalətlə sevindirəsən.

2100 Ədalət ulusu qanadlandırır,
Ənam alan ordu min səddi qırır.

2101 Bəydən razı qalsa xalq ilə ordu,
Daim çiçəklənər dərgahı, yurdu.

2102 Xalqına ədalət göstərməsə bəy,
Haqqı qorumasa, sevinməyəcək.

2103 Bəyliyin kökünü dağıdır onlar –
Xalqın ortasına rəxnə salanlar.

2104 Ordu sərvət bulub olmasa dilşad,
Qından çıxmayacaq qılınclar, heyhat.

2105 Qılınc tutan bəyin qolu bükülməz,
Qılıncsız o kimdir? Biçarə bir kəs.

2106 Xalqa rəhbər olan bəy vuruşanda,
Xalqa keşik çəkir qılınc, aybalta.

2107 Qılıncla, baltayla düşməni yıxan,
Cahangir nə demiş, qulaq as, inan!

2108 Ey ölkələr tutan, xalqı saxlayan,
Qafillik zəhərdir, çıxarma yaddan.

2109 Yurd qılınc altında çiçəklənəcək,
Qılınc keşikçisə, xatircəmdi bəy.

2110 Qılınc tərpənirsə, yağı tərpənməz,
Qılınc qına girsə, dolanma əbəs.

2111 Qılınc tutanlara ənam ver, ənam,
Özün də şad yaşa, könlündə inam.

2112 Bəxtiyar Elbaşı, bu xalq işləri,
Ağırdır, çətindir əzəldən bəri.

2113 Başçı olmaq çətin... xalq-əzəmətdir,
Məşəqqət üstündən məşəqqət gəlir.

2114 Rəhmət gözləyirsən, lənət deyirlər,
Səfa yox... Cəfası dünyalar qədər.

2115 Hansı yana baxsan dəhşətdi, dəhşət,
Bir damla şadlığı boğur yüz möhnət.

2116 Sevənlərin tək-tək... kin bəsləyən çox,
Dərdin bol, qəmin bol... fərağətin yox.

2117 Könül belə yerdə inamsız olur,
İnamsız ürəklər təşvişlə dolur.

2118 Yolunda xəbər var hər addımbaşı,
Xətərli iş görən yaşarmı yaxşı?

2119 Görün fazil kişi nə söyləyir, nə,
Hər sözü dürdanə, beyni-xəzinə!

2120 Xalq – bir dağ qalası, xalq boynu qılca,
Ona inanmadıq ömür boyunca.

2121 Xalqın hər işində min-min xətər var,
Saysız müsibətlər, faciələr var.

2122 Biri sevinc tapır, mini qəm-kədər,
Öz başını yeyən bəylər nə qədər.

2123 Dünyadan kam almaq istəsən əgər,
Cəsur ol, bar versin gördüyün işlər.

2124 Dilini, könlünü saxla tərtəmiz,
Get Tanrı əmrini əziz tut, əziz.

2125 Neyləsə qail ol, Tanrıya sığın,
Razı qal, xidmətdir razı qalmağın.

2126 Xalqa mehriban ol, munis, mehriban,
Yaxşılıq taparsan, xeyirxah olsan.

2127 Xalqa zərər vurma, bərəkət gətir,
Dazbaş yamanları dünyadan itir.



2128 Mərd olsan, səníndir həyat, kainat,
Oyna-gül, dövran sür, yaşayıb-yarat.

2129 Ölsən, o dünyaya hələ umud var.
Tanrı yaxşılara yaxşılıq sanar.

2130 Bəylərə elm-idrak, fəzilət gərək,
Sizə, ay Elbaşı, güc-qüvvət gərək.

2131 Bu izzət, ləyaqət kimdə varsa, var,
Xalq ona baş əyər, bəy adlandırar.

2132 Xalqa başçı olur mətanətlilər,
Xeyrat, ehsan verən səxavətlilər.

2133 Dinlə, nələr demiş elm əhli-zirəng,
Hər beyti xalq üçün rəngbərəng çələng.

2134 Doğru-dürüst gərək zəkavətli bəy,
Dünyaya səs salır fərasətli bəy.

2135 Necə gözəl olar, necə də yüksək,
Xalqa həyan olsa səxavətli bəy.

2136 Mərd, yumşaq könüllü, gözütox, adil,
Suçları əfv edən, feli mötədil.

2137 Zehində, zəkada hamıdan üstün,
Siyasəti düzgün, törəsi düzgün.

2138 Hansı yurdun bəyi olsa böyləcə,
Orda səhər gülər, əriyər gecə.

2139 Yaranar ölkədə xoşbəxt, dinc həyat,
Bu cür mərd kişilər tez gedir, heyhat.

2140 Mənim bildiklərim budur, Elbaşı,
Düşün dərin-dərin, duy yaxşı-yaxşı.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

2141 Anladım, mükəmməl, gözəl danışdın,
Nə yanlış söylədin, nə bir az çaşdın.

2142 Yenə soruşmalı bir mətləbim var,
Durulsun fikrimdə bulanıq sular.

2143 Bəyin böylədirsə əqli-kəmalı,
Bəs onun vəziri nasıl olmalı?

2144 Qızılla, gümüşlə dolsa xəzinə,
Var-dövlət sığmasa dünya üzünə,
2145 Ədalət hökmündə çiçəklənsə el,
Ordu ənam alıb kükrəsə sel-sel,
2146 Xalq rahatlıq tapsa, ad çıxartsa bəy,
Yaxşılıq hər yanda hakimdir, demək.

## BƏY VƏZİRİ NECƏ OLMALIDIR

2147 Bəyə yardım əli uzadan vəzir,
Daim ondan ötrü səadət gəzir.
2148 Şübhəsiz, bəylərə vacibdir kömək,
Vəzir yaxşı olsa, dinclik tapar bəy.
2149 Nə qədər səhvləri düzəldir bir-bir,
Bəylərin yükünü daşıyır vəzir.
2150 Vəzirliyə güclü, müdrik, müqtədir,
Fəhmli, qeyrətli kişi gərəkdir.
2151 Zehni dərin gərək, idrakı dəniz,
Tədbiri düşməni diz çökdürə, diz.
2152 İşdə üz ağardan, doğruçu, zirəng.
Sovuşa günləri alim ömrü tək.
2153 Vəzirlik zor işdir – çətindən çətin,
Qüdrətin, qeyrətin, zehnin, zəhmətin.
2154 Millətin timsalı bir oğul gərək,
Xilqəti pakizə, rəftarı ipək.
2155 Zəkavətli nəsil – köklü, əsilli,
Bəhrə, bar gətirən yaxşı nəsildi.
2156 Vəzir iman əhli, büllur gibi saf,
Xalqın inandığı, sevdiyi insan.
2157 Kişilər kişisi, mərd, mütəfəkkir,
Dərdlilər dərmanı loğman deməkdir.
2158 Daim ayıq-sayıq, mülahizəli,
Yamanı yandıran hünər məşəli.
2159 Hökmü daşdan keçən cürət, ləyaqət,
Vəzir bəydən sonra ən ulu qüdrət.



2160 Toxumsuz kişilər napak olurlar,
Onun vəzirlikdə nə ölümü var?
2161 Övladsız kişilər cəfa gətirir,
Övladlı sədaqət, vəfa gətirir.
2162 Eşit, nələr demiş tədbirli insan,
Sən tədbir əhlini xalqa başçı san!
2163 Nəsilli kişinin xülqü xoş olur,
Xalqa əl uzadır nur atası nur.
2164 Sənə quş iliyi, bal yedirsə də,
Napakın xülqündə zədə var, zədə.
2165 İsmətli, gözü tox, ər kişi gərək,
İsmətsiz kişilər verərmi çörək?
2166 Acgöz bu dünyanı yesə də doymaz,
Gözütox gərək ki, sərvətə uymaz.
2167 İsmətli insanlar yaxşıdan yaxşı,
Kişilər seçməsi, kişilər başı.
2168 Hər kim ismətlisə ona ver işi,
Üz vermə, rədd elə üzlü cakeşi.
2169 Dilinə doğru söz gəlməyən alçaq,
Həyasız, abırsız kölədir ancaq.
2170 Nəsihət verməyən, candan xoşlayan,
Abırlı bir şəxsin dediyini an:
2171 İsmətsiz kişidən həzər, əlhəzər!
Bulaşıq qanında əqrəblər gəzər.
2172 Arsızın sifəti məgər sifətdir?
Mərəz və qərəzdir, sümüksüz ətdir.
2173 Abırlı sifətlər işıqdır, işıq,
Şan-şərəf məşəli, yurda yaraşıq.
2174 Xalqa xeyir verən, işi düz görən,
Vəzirin nur yağar mərd çöhrəsindən.
2175 İncəsə rəftarı, xoşsa xilqəti,
Xeyri şadlandırar bəşəriyyəti.
2176 İşin bayraqdarı dürüst olmasa,
Axsayar bəy işi, götürər əsa.
2177 Bəy gərək inansın xidmətçisinə –
Düzlüyün, saflığın mərd elçisinə.

2178 Camallı, kamallı, müdrik kişilər,
Xalqa xeyir verər dünyalar qədər.

2179 Kimin işıqlısa, nurlusa üzü,
Qəlbində yaşadır günü, gündüzü.

2180 Yaxşını, yamanı görən bir insan,
Dinlə, nələr deyib çıxmış sınaqdan:

2181 Qəlbə ayna tutur insan surəti,
Hüsnü günəş olur, pakdı xilqəti.

2182 Təndir bir-birinə içiylə çölü,
İçərisi bağdır, üzü bağ gülü.

2183 Sanballı, cəlallı, xoşsifət dədə,
Layiqdir şahlığa, vəzirliyə də.

2184 Hesaba, kitaba vurğun bir usta,
Türlü yazılardan xəbərdar olsa,

2185 Yer tutsa elmdə, incəsənətdə,
Yaxşı vəzir çıxar ondan, əlbəttə.

2186 Kitabla, hesabla dürüst iş görər,
Ayı, günü, vaxtı dəqiqləşdirər.

2187 Hesab-kitab özü bir haqq-hesabdır,
Haqq-hesab güdənlər əhli-savabdır.

2188 Kişi güclü gərək... güclü tez ölməz,
Gücsüzlər dünyada iş görə bilməz.

2189 Qüvvət elmdədir, yalnız elmdə,
Əl boyda yazının söz məşəlində.

2190 Hər yazı qüvvətin əlamətidir,
Yazını yaradan ruh qüdrətidir.

2191 Yazını-pozunu anlamayanlar,
İli, ayı, günü nə cür hesablar?

2192 Alimlər yazını kəşf etməsəydi,
Hesab öyrənməyin çarəsi nəydi?

2193 Hələ xəlq etməmiş aləmi Tanrı,
Lövhəni, qələmi yaratmadımı?

2194 Bəndəsi neynirsə, yazır mələklər,
Tanrım o dünyada yazını bəklər.

2195 Yumşaq ol, yumşağın bəxti gətirir,
Gördüyü hər işdən gül ətri gəlir.



2196 Yumşaq təbiətli, mülayim adam,
Görün nələr deyir şad olmağından:

2197 Yumşaq könüllülər sevir, sevilir,
Daşürək mətləbə çatmadan ölür.

2198 Mülayim kişilər sürətlə qalxır,
Dağal dağ başına quyudan baxır.

2199 Kimdir vəzirliyə əsil namizəd?
Oxumuş, öyrənmiş, qələmli qüdrət,

2200 Dili də, qəlbi də, işi də düzgün,
Namus, vicdan əhli hamıdan üstün...

2201 Yaxşını yamandan dürüst ayıran,
Gözütox, işbilən, mehriban insan...

2202 Şəriətə sadiq, imanı kamil,
Büllur kişiləri bir xəzinə bil.

2203 Vardırsa böyləcə fəzilətləri,
Onu vəzifəyə çəkin irəli.

2204 Şaha vəzir olsa bu cür adamlar,
Özü də, xalqı da murada çatar.

2205 Bəylərin işləri rastına düşər,
Ölkə çiçəklənər, el zənginləşər.

2206 İnan, vəzir olsa yavuz, yaramaz,
Qarışar bəy, gəda... ayırmaq olmaz.

2207 Yaxşı vəzir ilə qüdrət tapar xalq,
Azad nəfəs alar, bar verər tornaq.

2208 Eşit nələr demiş zəkası ümman,
Varlığı elm ilə çırağban insan!

2209 Bəyin könlü, dili düz olsa, inan,
Yayınmaz xidmətçi haqqın yolundan.

2210 Bəylər zalım olsa, qaniçən olsa,
Onun xidmət əhli düzəlməz əsla.

2211 Bəylər yaxşıdırsa, barı-bəhəri,
Ənamı yüksəldər xidmətçiləri.

2212 Ülvisə, pak isə bəyin cövhəri,
Atar, yaxın qoymaz bədxislətləri.

2213 Yaman harda olsa, tapar yamanı,
Yaxşını kəşf elə, ey yaxşı, tanı.

2214 Yaman yaxşı ilə birləşə bilməz,
Doğru əyri ilə güləşə bilməz.

2215 Qaynayıb-qarışmaz gündüzlə gecə,
Ağ sular alova can atsın necə?

2216 Bilmədiklərini bilmək istəsən,
Görəndən, biləndən yardım istə sən.

2217 Hər kəs ömür sürür öz dəstəsilə,
Düzsənsə, qoşulma bir əyri felə.

2218 Fikrimin isbatı bu beyti dinlə,
Dən verər, dil tapar özü səninlə.

2219 Uçan, yürüş yapan xilqətlərə bax,
Hər kəs öz tayını tapmada ancaq.

2220 Qarışmır, tez qaçır yaxşı yamandan,
Tərk et bu qanunu, unutma bir an.

2221 Vəzir öz bəyinə gənəşəkçidir,
Gənəşəkçi ərlər əlbir və dilbir.

2222 Cahilə, alçağa qoşulma əsla,
Bundan füqəra da çəkər dərd, bəla.

2223 Bəylər yaxın tutsa pisi, nakəsi,
Həm öz adı batar, həm də ölkəsi.

2224 Elbaşı, tapılsa böylə bir vəzir,
Bəy də, füqəra da yaşayar əlbir.

2225 Bəy çatar cahanda hər muradına,
İşi qanad qoşar qol-qanadına.

2226 Xalqı zənginləşər, gedər irəli,
Artar, aşıb-daşar xəzinələri.

2227 Qocalmaz, şöhrəti tutar cahanı,
Özü gedərkən də qalar ad-sanı.

2228 Bilər, o dünyası, bu dünyası var,
Hər iki dünyada yaşar bəxtiyar.

2229 Elbaşı söydədi: – Dərk etdim səni,
Yaxşı sözlərinlə ayıltdın məni.

2230 Bəs ordu başçısı nasıl olmalı,
Ki bada getməsin bəyin cəlalı.

2231 Orduya eşq ilə başçılıq etsin,
Xata çıxarmadan əhdinə yetsin.



2232 Darmadağın etsin qanlı düşməni,
Böylə bir qəhrəman açırmı səni?

## ORDU BAŞÇISI NECƏ OLMALI

2233 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Zərbən altındadır düşmənin başı.

2234 Şübhəsiz gərəkdir ordu rəhbəri,
Hökmündə saxlasın qart düşmənləri.

2235 Mükəmməl, dözümlü bir erkək gərək,
İgid ki, köksündə dağ boyda ürək.

2236 Orduya intizam, nizam gətirmək,
Düşməni məhv etmək ən nəhəng əmək!

2237 Bu işə qəhrəman, mülayim, mergən,
Düzü – çörəyi bol, pak xilqətli, şən,

2238 Zirəng, ayıq-sayıq oğul gərək ki,
Düşmən boğazına girsin dirsəyi.

2239 Açıq süfrəsinin ətrafında cəm,
Cəm olsun cəsurlar, – böyük bir aləm.

2240 Yetirsin orduya bütün malları,
Çoxalsın dostları, yoldaşı-yarı.

2241 Əynində geyimi, altında atı,
Yarağı mat qoysun yetmiş elatı.

2242 Oğlum, qızım deyə yığmasın sərvət,
Bağına bağ suyu, altına dövlət.

2243 Yığsın, paylasın da var-dövlətini,
Qaynağa çevirsin öz qüdrətini.

2244 Yedirsin, içirsin, paylasın ənam,
At, silah... önündə qul, kəniz, qulam...

2245 Yığışsın başına seçmə igidlər,
Dağda-daşda yatan canfəda mərdlər.

2246 Daşdan od çıxaran ağlı bir əvsun,
Özü dev ürəkli, qeyrətli olsun.

2247 Cəngdə kimə gərək ağciyər kişi?
Qanında gəzdirsin qızıl günəşi.

2248 Ürəksiz adamlar pozar ordunu,
Pozulan ordu da mərdlər yurdunu.

2249 Vuruşu cəsurlar aparmalıdır,
Düşmənin başını qoparmalıdır.

2250 Şübhəsiz, cəbhədə ölüm də haqdır,
Tutub bu dünyanı kim qalacaqdır?

2251 Eşit nələr demiş devürək bir ər,
Ölümü, düşməni tapdayan hünər.

2252 Heç vaxt əbəs ölmür cəsur bir insan,
Görüb qart düşməni neçin qorxasan?

2253 Düşmənin başında qasırğa ol, vur!
Anla, yoxsa əcəl, ölüm də yoxdur.

2254 Ar-namus uğrunda döyüş müqəddəs,
Mərd əzər düşməni, qisasdan dönməz.

2255 Ar-namus güdənlər cəbhədə coşar,
Arsızlar tülkü tək sivişib qaçar.

2256 Bəzən igidləşir qovğada qorxaq,
Özünü öldürür mərdliyə dustaq.

2257 Ar-namus əhlidir devürəklilər,
Ölsə də, namusu uğrunda ölər.

2258 Könlün açıq olsun, xilqətin təmiz,
Bu halda xalq istər... sevilərsiniz.

2259 Qəlblərə od salır xoşsifət insan,
Naqqallar, cahillər çəkinir ondan.

2260 Ordunun başçısı dartsa özünü,
Yağı qaraldacaq ağ gündüzünü.

2261 Kibr, qürur əhli qəflətdə qalar,
Ya vaxtsız gəbərər, ya bərbad olar.

2262 Mərd, igid, sanballı, xoşsifət birər,
Gec-tez şöhrət tapar dünyalar qədər.

2263 Amansız olmalı əclafa qarşı,
Yaxşılar gün görsün bir az da yaxşı.

2264 Ordunu yüksəldir düzgün siyasət,
Gözlərə nur verir, qəlblərə qüvvət.

2265 Orduya can verir əmrə itaət,
İtaət – duz-çörək, cürət, ləyaqət.

2266 Başsız, pozğun olsa hər hansı ordu,
Onu öz içindən yeyəcək qurdu.



2267 Yaxşılara hörmət, yamana nifrət –
Bundadır qələbə, şöhrət, ləyaqət!

2268 Yaxşıya yaxşılıq ucaldar səni,
Sevincin bilərsən mərd sevincini.

2269 Qulun olar, sənə ağ günlər dilər,
Feyzini, lütfünü görən kişilər.

2270 Dinlə, bu barədə nə söyləmişlər,
Beyti dərk eləsən qanına işlər!

2271 Mərdlər yaxşılığın quludur, qulu,
Sən get, yaxşılıq et, aç bu haqq yolu.

2272 Kim ki bayraq etmiş insaniyyəti,
Sən də göstər ona insan ülfəti.

2273 Başçı gərək bəzən qıy vura bilsin,
Düşmən görünəndə tər qura bilsin.

2274 Cəngdə şir biləkli, aslan ürəkli,
Mərd gərək... gözündə düşmənin şəkli...

2275 Donuz tək hücumçu, qurd gibi cəsur,
Öküz tək qisascıl, ayıtək fəndgir.

2276 Qızıl tülkü təki usta, hiyləgər,
Bir qara nər gibi kinli, hünərvər.

2277 Ala qarğa gibi ayıq-sayıq, şən,
Qaya quzğunutək uzağı görən.

2278 Cəsarətdə arslan, cəldlikdə qaplan,
Gecələr ana tək uyğusuz qalan...

2279 Kimdə bu sifətlər cəmlənmiş olsa,
Başçıdır... haqqı var bu adı alsa.

2280 İntiqam alaraq düşməni əzən,
Darmadağın edən, əzminə əhsən!

2281 Daim sufrən açıq, duz-çörəyin bol...
Zəfər ordusuna buyur, başçı ol!

2282 Köhlənin, geyimin yaraşır sənə,
Çoxları mehmandır açıq süfrənə.

2283 Həyat cövhəridir şərbətin, aşın,
Dinlə, nələr deyir İla qardaşın:

2284 Ad almaq istəsən duz-çörək yedir,
Ölməzlik istəsən, milyon qəlbə gir.

2285 Duz-əörək verənlər bilirlər yəqin:
Səxavət rəmzidir insaniyyətin.

2286 Böyüklük istəsən geniş sufrə aç,
Ömür-gün diləsən, min neməti saç!

2287 Vəzirə bir sıra xislətlər gərək,
Cizgilər çəkə ki, iş getməyə ləng.

2288 Sözü dürüst ola, feli düz, rəvan,
İtirər inamı, danışsa yalan.

2289 Daim süfrə aça, səxavət saça,
Paxıldan, nakəsdən cəld uzaqlaşa.

2290 Cəngdə cəsarətli, qeyzi dipdiri,
Düşmən tez öldürür ağciyərləri.

2291 Məkri, hiyləni də bacara az-çox,
Arslanı öldürür qəfil dəyən ox.

2292 Hücuma qaldıra lazım gələndə,
Dönə ağ bayrağa ordu önündə.

2293 Olsa bu görkəmdə ordu başçısı,
Düşmən dağ da olsa qalar damcısı.

2294 Qolu qılınc olar, qılıncı uzun,
Dönər şöhrətinə yurdun, ulusun.

2295 Dəxli yox... od yağa, boran-qar yağa,
Tab edər aclığa, yuxusuzluğa.

2296 Yaraqlı-yasaqlı, köhlənli, məğrur,
At üstə kişilər bir də doğulur.

2297 Nöqsandır ordunun böyüklüyü də,
Çoxu başsız qalır hücum çəkəndə.

2298 Baxdıq, ordu gördük on iki minlik,
Ona ordu dedik, çoxdur demədik.

2299 Görün nələr demiş cəngçi hünərvər,
– Mənə dörd min kişi döyüşdə yetər.

2300 Ordu yayğın olsa tez çökər yəqin,
Onu sağ-salamat saxlamaq çətin.

2301 Şöhrətli, cürətli igid nə söylər:
İgidsə, basılmaz silahlı ləşgər.

2302 Aləmə səs salan cəngi nə demiş:
– Sayca çox ordunu üstələ, – demiş.



2303 Seçmə kişilər ver, böyük ordu yox,
Silahlı əsgər ver, dönük ordu yox!

2304 Nizamsız ordudan nizamlı əsgər,
Qat-qat cəsur olur, qat-qat mötəbər.

2305 Başçı cəngdə gərək ley gibi ensin,
Vuran oğullarla əhatələnsin.

2306 Gözdə-qulaqda ol, seç vurhavurda,
Kəşfiyyat əhlini, avanqardı da.

2307 Ön qüvvə çatınca kəşfiyyatçıya,
Düşməni elə vur, qoparsın qıyya.

2308 Ordunu hazırla, keşikçilər seç,
Nə çox arxada qal, nə irəli keç.

2309 Keşikçi düzməkdə mahir olmalı,
Qərargah qurmağa qadir olmalı.

2310 Bayraqdar gizlətsin öz nəqşəsini,
Zərbəçi hifz etsin dev zərbəsini.

2311 Tutsun əsas hissə ən möhkəm yeri,
Uzaqlaşdırmasın, yığsın əsgəri.

2312 Dayan ayıq-sayıq, qafil olma heç,
Əgər qafil olsan başından vaz keç!

2313 Qaldırıb ön səfi, yanaş düşmənə,
Göz qoy ota, suya, çölə-çəmənə.

2314 Möhkəmlən ordaca, döymə düşməni,
Azmısan, çoxmusan, görməsin səni.

2315 Elə ki, borkidin, dil almaq gərək,
Düşmənin halını anlamaq gərək.

2316 "Dili" öyrəndinmi, işə cəld giriş,
Düşmənin boynunu sındırmaqdır iş.

2317 Keşik sayıqlığı buna deyərlər,
Cəngdə kim sayıqsa, odur hünərvər.

2318 Sənin yol vəsiqən – ayıq bəy sözü:
Silahlan, şir gibi şadlandır bizi.

2319 Düşməni yıxmağa iki silah var,
Bu iki yaraqla düşmənin batar.

2320 Ən qəvi düşməni məhv edir hiylə,
Hiylə qur, düşməni qanına bələ.

2321 Keşik və sayıqlıq – ikinci yaraq,
Hər kim keşikdəsə basılmayacaq.

2322 Ayıq-sayıq duran keşikçi yəqin,
Qıracaq boynunu qafil düşmənin.

2323 Düşmən ordusu çox... səninkisə az...
Qorxma, atıl cəngə... qayıtmaq olmaz.

2324 Çarpışmaq imkanı vardırsa, çarpış,
Yoxsa zireh geyin, belindən yapış.

2325 Yatsın, ver yuxuya, hücum et gecə,
Azmısan, çoxmusan hardan biləcək?

2326 Əgər hücum üçün tapmasan qüvvə,
Onda elçi göndər, gazan girəvə.

2327 Dost ol üzəvari, görlə ehtiyat,
Döyüşdə çaşmamaq vacibdi qat-qat.

2328 Sülhdən kar aşmasa, qəsd etsə düşmən,
Vuruşmaq istəsə, qaçma önündən.

2329 Yubanma, ordu çək, cəngə cəsur get,
Köhlən ver, ənam ver, mərdləri vəsf et.

2330 Yubansan, sirrini düşmən biləcək,
Üstünə qasırğa, tufan gələcək.

2331 Dinlə nələr demiş, qırıb sədləri,
Düşməni məhv edən döyüş əsgəri:

2332 Sınanmamış düşmən hələ çox uzaq,
Sınansa, hökmünə göz alışacaq.

2333 Başında tufan ol, gizlət nəqşəni,
Yubansan, döyüşdə yenəcək səni.

2334 Bir bölük qoşunu pusquda saxla,
Yürü oxçulardan azca qabaqda.

2335 Köhlənbaz, bahadır cəngavərləri,
Ön qatara qoy ki, güdsün əsgəri.

2336 Köhlənbaz, sınanmış təcrübəlilər,
Həm tədbirli olur, həm də hünərvər.

2337 Döyüşə can atır yeniyetmələr,
Lakin leysan gəlsə, odları sönər.

2338 Gərək sağda-solda, arxada, öndə,
Seçmələr dayansın döyüş gedəndə.



2339 Düşmən cəng yerinə yaxınlaşanda,
Səngərdən sıçrasın mərdlər bir anda.

2340 Ən əvvəl uzaqdan oxla vuruşmaq,
Yaxında süngüyə əl atmaq ancaq!

2341 Aybalta, qılınc da qoy düşsün işə,
Yaxala, məhv elə dırnaqla, dişlə!

2342 Çəkilmə, düşmənə arxa çevirmə,
Vur, vur, ölüncə vur! Girəvə vermə!

2343 Nə söylər cənglərdə bərkimiş əsgər:
Səbr et, səbrin ilə düşmən yenilər.

2344 Gəlin, qız şadlanar toy gərdəyində,
Qəhrəman döyüşdə "qan-qan!" deyəndə.

2345 Mərdlər at oynadar, nərildər nər-nər,
Düşməni ram edər, əsir götürər.

2346 Yağını gördümü, coşar qeyrəti,
Əzər, özgəsinə verməz növbəti.

2347 Düşmənin başında at oynadan ər,
Döyüşdə ya ölər, ya qalib gələr.

2348 Atılar vuruşa min bir canıyla,
Qızardar üzünü düşmən qanıyla.

2349 Qızarar qalxanı, zirehi, atı,
Al-yaşıl boyanar silah büsatı.

2350 At salıb qəsd etsə düşmənin sənə,
Tab et, dal çevirmə, zorbə vur yenə.

2351 Qaçsa, vermə aman, arxadan izlə,
Seyr etmə, təqib et qaynar qeyz ilə.

2352 Bir yerdə durmasa, get, sürətlə get,
Qoyma əsir ala, onu əsir et!

2353 Düşmən ordusunu dağıdan mərdlər,
Nəfəs dərib onu tamam məhv edər.

2354 Düşmən uzaqlaşsa, sən getmə, dayan,
Çünki yorularsan qayıdan zaman.

2355 Çıxmazda ölümə üz tutur düşmən,
Ölürsə üz-üzə neçin gələsən?

2356 Qafil olmayanlar çatır əhdinə,
Qafil ölüb gedir su içəndə də.

2357 Ehtiyat gərəkdir bu yerdə, gülüm,
Ehtiyatsız olsan, labüddür ölüm.
2358 Mənə hikmət açdı sınanmış bir ər,
Sınanmış kişinin hər sözü gövhər:
2359 Düşmən uzaqlaşsa, təqib etmə sən,
Qayıtsa, bəlkə də kötək yeyərsən.
2360 Düşmən dağılmışsa, cəm ola bilməz,
Odu su söndürsə, bir də dirilməz.
2361 Çıxmaza düşənlər mərd ölüm dilər,
Ölüm istəyənlər öldürüb-ölər.
2362 Ənam, ərmağan ver iş görənlərə,
Zər alıb minnətdar olsun zərgərə.
2363 Mərdə halal olsun ənam, ərmağan,
Təki sevsin səni ərmağan alan.
2364 Yamanı vəsf etsən o, yaxşılaşar,
Yaxşını vəsf etsən, bir az da coşar.
2365 Boğar arslanı da ənam alsa mərd,
At qızılquş olar, üstündə xələt.
2366 Görsən yaralanıb, məlhəm ver ona,
Əsir düşsə, pul bas, qaytar yurduna.
2367 Dəfn elə hörmətlə, ölənlər olsa,
Baş çək övladına, unutma əsla.
2368 Döyüşçü ruhlanar, şad olar onda,
Qoyar canını da sənin yolunda.
2369 İsti söz, açıq üz, ənam-səxavət,
Ucaldır insanı bu üç fəzilət.
2370 Ucalsan, çoxları qul olar sana,
Uğrunda atılar oda, leysana.
2371 Bu beytə fikir ver, yaxşı düşün sən,
Şah beyti üstün bil min xəzinədən.
2372 İlıq söz, açıq üz, səxavət göstər,
Toplansın başına səni sevənlər.
2373 Qızılla, gümüşlə gedib qul alma,
Yetər bu üç sifət, ey mərd üləma!
2374 Ordu başçısında bu sifət gərək,
Səxavət, cəsarət, əzəmət gərək.



2375 Qızıl-gümüş saçıb saf toxum əksən,
Qızıl fədailər kəşf edəcəksən.
2376 Həmən üç sifətdir hər şeyin başı,
Qulu, qaravaşı gör yaxşı-yaxşı.
2377 Bəy tapsa bu sayaq ordu başçısı,
İşi rəvac tapar, qalmaz qayğısı.
2378 Ordu başçısı da duyar iftixar,
Bilər ki, başında qeyrət tacı var.
2379 Bəli, yaxşı vəzir, yaxud sərkərdə,
Gərək bəxtə dönsün təxt olan yerdə.
2380 Onda bəy qovuşar diləklərinə,
Ərzin gücü axar biləklərinə.
2381 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Bu iki sənəti duy yaxşı-yaxşı.
2382 Sərkərdə – bir aləm, vəzir – bir aləm,
Biri qılınc tutur, o biri qələm.
2383 Xalqın cilovunu iki əl tutur,
İkisi bir olsa, nur üstünə nur!
2384 Mərdlərin mərdi bil onunla bunu,
Hansı baş əyməsə vurdur boynunu!
2385 Hansı xeyir versə, xeyirxahı ol,
Zərər versə biri, ona yağı ol.
2386 Bəy kimdir aləmdə – xalqın başçısı,
Bu iki xidmətçi – haqqın başçısı.
2387 Onlardır millətə qol-qanad verən,
Bəyliyə bərəkət, həlavət verən.
2388 Alim gör nə deyir, araşdır, ara,
Qazmaqlı plovdur, üstündə qara.
2389 Bir yurdu qılıncla tutsan da tək sən,
Qələmin olmasa neyləyəcəksən?
2390 Qılıncın hökmündə qan qorxusu var,
Fəqət qələmdədir əsl iqtidar.
2391 Sən qılınc gücünə vursan da qapaz,
Onu uzun müddət saxlamaq olmaz.
2392 Ən qudrətli fateh yalnız qələmdir,
Qələmsiz, qismətin ahdır, ələmdir.

2393 Bildiyim bunlardır, xoşbəxt Elbaşı,
Sordun, bəyan etdim bəlkə də yaxşı.

2394 Elbaşı söylədi: – Anladım səni,
Yenə bir sorğum var, ey ləl mədəni.

2395 Sən Hacib üstünə mənə bilgi ver,
Nasıl olmalıdır, danış yerbəyer.

2396 Bir Hacib gərək ki, haciblər başı –
Taxtın keşikçisi, ədlin nəqqaşı!

2397 Bəyliyin uğrunda canfəda bir ər,
Açıb bircə-bircə məğzini göstər.

## HACİB NECƏ OLMALIDIR

2398 – Yüz yaşa, min yaşa, xoşbəxt Elbaşı,
Ölkə bir üzükdür, sən onun qaşı.

2399 Hacib son dərəcə saf olsun gərək,
Doğruçu, dözümlü, məğrur, dizi bərk.

2400 Feli düz, xülqü xoş, zatı təmiz, pak,
Xalqa xeyir verən aygün bir idrak.

2401 Özü də saf olar, saf isə zatı,
Bəhrəmənd eləyər eli-elatı.

2402 Yaxşı kişilərdən yaxşılıq gələr, –
Geyim, yemək-içmək, ənam çox gələr.

2403 Feli düzgün olsa, sözünü dinlər,
Söz dinləyən kişi saflıqda gövhər.

2404 İsmətli, toxgözlü, mülayim Hacib...
Hacib ki, hər şeyi bilməsi vacib.

2405 Gözütox kişilər ruşvət götürməz,
Dərhal gözdən düşür rüşvət alan kəs.

2406 Varmı rüşvətxorun namusu, arı?
Rüşvət bərbad edir abadlıqları.

2407 Hacib mütəfəkkir, ismətli, təmiz,
Olarsa, tez dolar boş xəzinəmiz.

2408 Yersiz iş tutarmı qəzəbli kimsə?
Qəhr-qəzəb saçmaz, əl verməz pisə.

2409 Ağ günə tez çıxır zərif kişilər,
Bircə mülkü olsa, Tanrı beş elər.



2410 Canı sulu kişi pula pul deməz,
Elmə sahib olsa, zirvədən enməz.

2411 Ürəyi, idrakı dərya bir kişi,
Görün nasıl öyür elm oyrənmişi:

2412 Bəy işi görməyə elm əhli gərək,
Cahil, nadan kimdir? Yoluq bir köpək.

2413 Kimdə ki, elmdən yoxdur bir əsər,
Çoxdan gəbərmişdir, olsa da bir nər.

2414 Yalnız öz elmilə ucalır insan,
Elmsiz gədanı guru kötük san.

2415 Bomboş müqəvvadır elmsiz adam,
Elm əhli yüksəkdir göydən, səmadan.

2416 İldırım hökmüylə şəri yarmasan,
Min-bir günahından qurtularmısan?

2417 Nicatın – zehinli, zirəng olmağın,
Xalqına xidmətdə nəhəng olmağın!

2418 Meyvəsiz ağacdır zehinsiz gəda,
Aclara, lütlərə səndən nə fayda?

2419 Zehinli qucaqlar iki dünyanı,
Qazanar hər şeyi – şöhrəti, şanı.

2420 Zehin, zoka əhli əsil kişidir,
Xalqın ruh atəşi, can günəşidir.

2421 Nurani çöhrəsi saqqalsız, təmiz,
Laçın əzəmətli, hamıya əziz.

2422 Getdimi-gəldimi azca yaxına,
Mərdliyi nur saça boy-buxununa.

2423 Yalnız mərdlərindir hörmət, əzəmət,
Yalnız sanballıya verilir qiymət.

2424 Kimlər bu aləmdə sevir-sevilir –
Feli düz, işi pak, mərd mütəfəkkir.

2425 Özgələr qəmini yeyə bilməsən,
Yaxşı olmağını əfsanə bil sən.

2426 Xalqla üz-üzədir həmişə Hacib,
Üzünün nurani olması vacib!

2427 Gözlər işıq alsın gərək üzündən,
Canlar ruzu tapsın təbəssümündən.

2428 Alim nələr demiş gör ona dair:
İnsanın görkəmi əsl əsərdir.
2429 Bir cüt göz su içir mərd çöhrəsindən,
Əyil, sən də nuş et nur çeşməsindən.
2430 Nurani çöhrəyə eşq ilə baxsan,
O gün ağ bəxtini sən tapacaqsan.
2431 Ağıllı, kamallı, açıq könüllü,
İnsan nəzərimdə bir qızılgüldü.
2432 Kamillər unutmur verdiyi vədi,
Cahillər anarmı dediyi nədi?
2433 Huşsuzlar aləmdə iş görə bilməz,
Aldığı nəfəs də əbəsdi, əbəs.
2434 Huşsuzlar içi boş, quru müqəvva,
Könül sahibləri – günəş, su, hava!
2435 Yoxsula, yetimə, dula əl tutan,
İnsan idrak əhli, əziz, mehriban!
2436 Qanun keşikçisi, zirəng, çevik, mərd,
Hacib yer üzündə ən güclü xilqət!
2437 Böyükdür, hamıya kiçiklik edər,
Özü çox mülayim, dili qənd, şəkər.
2438 Hacibin nur saçsın gərək surəti,
Pak, incə xilqəti, insaniyyəti.
2439 Dinlə nələr demiş arlı arsıza:
Könlünü kiçik tut, dilini qısa.
2440 Mərdlərə verilir üç bəxt, üç qılıq –
Gülər üz, isti söz, təvazökarlıq.
2441 Sevib-sevilənin pak olur zatı,
Qul və əsir edir eli-elatı.
2442 Özünü, sözünü bilən bir Hacib,
Ehtiyat əhlidir – səbirli, nəcib.
2443 Dili də, qəlbi də eyni olmalı,
Xalqın görən gözü, beyni olmalı.
2444 Dürüst bilməlidir hər bir sənəti,
Yazdığı kitabda öz dəsti-xətti.
2445 Sənəti, hünəri çılçıraq olsun,
Bütün sahələrdə üzüağ olsun!



2446 Haciblik sənəti ən incə xidmət,
Düşünsən anlarsan bunu, nəhayət.
2447 Hacib, arxasında mərdlər, mətinlər,
Xalq önündə gedən öndərdi, öndər.
2448 Dinlə, nə hikmətdir şairin sözü –
Axsağın ayağı, gözsüzün gözü.
2449 Hacibin dünyada varı, dövləti,
Heç bilsən nələrdir – on fəziləti.
2450 İti göz, saf könül, həssas qulaq, dil,
Üz nuru, qamət, iş, elm, idrak, pak əl.
2451 Yaşasın Elbaşı – özü, sözü dürr,
Hacib öz bəyinin görən gözüdür.
2452 Qanunu, qaydası, iş nizamı var,
Varsa tez açılar önündə yollar.
2453 Buna uyğun gəlir bir alim sözü,
Qoy könül verənlər dərk etsin özü!
2454 Böyükdür, uludur haciblik işi,
Görür böylə işi yalnız ər kişi.
2455 Böyüyü, kiçiyi yoxdur bu işin,
Bəyliyə xidmətdir sənin günəşin.
2456 Katib, xəzinəçi, çəkməçi, dərzi,
Əyan da, sərkər də cəlb etsin sizi.
2457 Hacib ənam verər... növ-növ elçilər,
Gələnlər, gedənlər qəsrə nur çilər.
2458 Təqdiri, təkzibi gözlər önündə,
Töhməti, xələti, ziyafəti də.
2459 İş görsə, tərtibi qalmaz yarımçıq,
Səslər kişiləri: – Haydı, yola çıx!
2460 Yoxsula, yetimə, dula əl tutan,
Hacib hamısını dinlər mehriban.
2461 Gələrkən qəbula şikayətçilər,
Yanar ürəklərə hacib su çilər.
2462 Kəsər qarşısını yamanın, şərin,
Açar meydanını xeyir işlərin.
2463 Sarayda öylə bir iş tapmaq çətin,
Hacibin pak əli ona dəyməsin.

2464 Yardım da ondandır hər vaxt, hər zaman,
Düşsə iş quyuya, səbəb də ondan.
2465 Hacib ayıq-sayıq, hüşyar olmalı,
Şərin qarşısında divar olmalı!
2466 Gərək hifz eləsin bəyin sirrini,
Əqli cilovlasın həvəslərini.
2467 Bir könül yıxmasın, ev uçurmasın,
Dilindən havayı söz qaçırmasın.
2468 Çıxıb-gedənləri qəsrə səsləsin,
Harama, rüşvətə nifrət bəsləsin.
2469 Bəy! İki xislətdən demərəm vaz keç,
Onlara əl vermə, iş tapşırma heç.
2470 Bir yalançı qəssab, bir əliəyri,
Milyonçu olsa da, xalqa nə xeyri?
2471 Kimdə aşkardısa bu iki xislət,
Əlhəzər, qaç ondan, ey ulu xilqət!
2472 Üç fəzilət gərək xidmət əhlində:
Ehtiyat güdməsə düşəcək bəndə.
2473 Bəzən fənalığa göz yuma bilsin,
Sirr saxlaya bilsin, nitqi kəsilsin.
2474 Eşit, nələr demiş alim bir insan,
Hökmün daşdan keçər, ona inansan:
2475 Başın istəsən ki, qalsın salamat,
Sən bəyin sözünü car çəkmə heç vaxt.
2476 Batır bəy sirrini açan bir kişi,
Dili söz qaçırsa, sınacaq dişi.
2477 Məgər gizli qalır ləyaqətsiz iş!
Yaymış bəy sirrini, başı kəsilmiş.
2478 Ağzını boş qoyan görər barını,
Qıyıqla tikərlər dodaqlarını.
2479 Pirani sözünü qoy bilsin nadan:
Öz başını yeyər sirr saxlamayan.
2480 Vacibdir əməldə, sözdə ehtiyat,
Bəzən görməməli, gözdə ehtiyat!
2481 Bəyə yanaşmasın, xahiş olmasa,
Açmasın ağzını, söz sorulmasa.



2482 Dinlə, nələr deyir kamal sahibi,
Kamalın, idrakın görünmür dibi:
2483 Susma, bərkdən danış yeri gələndə,
Söz söylə, üz göstər maliklərə də.
2484 Dünyada hər şeyin öz məqamı var,
Qaçmasın gözündən qoy fənalıqlar.
2485 Sənət, hünər əhli ulu Hacibin,
Hökmü daşdan keçər, əmin ol, əmin.
2486 Budur bildiklərim, xoşbəxt Elbaşı,
Soruşdun, söylədim bəlkə də yaxşı.
2487 Elbaşı söylədi: – Anladım səni,
Yenə bir sözüm var, ey ləl mədəni.
2488 İndi aşkar elə, bildir bu halı:
Qapılar başçısı nasıl olmalı?

## DARVAZAÇI NECƏ OLMALIDIR

2489 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Rahat və dinc yaşa, ey feli yaxşı.
2490 Gərək darvazaçı mehriban olsun,
Gecəsi gündüzə nərdivan olsun.
2491 Qanını, canını verib xidmətə,
Yanar məşəl kimi atsın zülmətə.
2492 Qanunu, adəti bilsin, qorusun,
Hər feli, əməli doğru, düz olsun.
2493 Qızılı, gümüşü,çörəyi, duzu,
Yığsın öz başına yurdu, ulusu.
2494 Bəkçiyə baş çəksin yatmazdan öncə,
Sabahkı işləri tapşırsın gecə.
2495 Yerbəyer eləsin müsafirləri,
Ayığı, sayığı çəksin irəli.
2496 Bir günlük işinin bəhrəsi, barı –
Qapanır sarayın darvazaları.
2497 Dəyişsin növbəni, görüb səhəri,
Gecənin, gündüzün keşikçiləri.

2498 Bəyin hüzuruna varsa gələnlər,
Cəm qəbul olunsun qoy birər-birər.

2499 Özü dəysin gözə, tez də çəkilsin,
Qəbul istəyənlər qoy gedib-gəlsin.

2500 Gərək qarşılasın, gəlibsə onlar –
Yaraqlı-yaraqsız növbə tutanlar.

2501 Qəbul bitən kimi haqqın əsgəri –
Qapılar başçısı girsin içəri.

2502 Xalqın vəkili tək qoy dilə gəlsin –
Zillət çəkənlərə həmdəm kəsilsin.

2503 Qızıl, gümüş alsın, ərmağan alsın,
Yardım umanları tez yola salsın.

2504 Öyrənsin xidmətdə kimdir boş-bekar,
Cınqırı çıxmadan səssiz yananlar!

2505 Hansı xeyir verir, hansı şərdi, şər?
Hansından millətə hansı pay düşər?

2506 Bəyə bəyan etsin bunları bir-bir,
Kimə xələt düşür, kimə kor qəbir.

2507 Çıxsın, bəyan etsin hər tədbirini,
Bəxşiş alıb gedən sülh əsgərini.

2508 Əyləşsin, başında fikir axarı,
Heç kim öz işindən düşməsin ayrı.

2509 Yaxşı qarşılayaq yad qonaqları,
Bizdən umub-küsən yoldaşı, yarı.

2510 Tanıyaq dəstərxan gətirənləri,
Hansı yaramırsa, qaytaraq geri.

2511 Şərbət paylananda ehtiyat gərək,
Ona qarışmasın başqa bir ahəng.

2512 Verməli hər kəsin öz qismətini,
Dürüst paylamalı bəy nemətini.

2513 Nəzərdən qaçmasın təki bu yerdə,
Çöldə, içəridə bircə nəfər də.

2514 İki şey gətirir bəyə şan-şöhrət:
Qapıda bayrağı, süfrədə nemət.

2515 Saray yaraşığı iki mərd də var:
Səadətə açar, bəyə iftixar.



2516 Biri saraybaşı, o biri Hacib,
Hacib azadlığı hər şeydən vacib.

2517 Bəyə layiq olsa bu iki kişi,
Ərzə şölə salar bəylik günəşi.

2518 Yaramaz, ayrıca diqqət olmasa,
Saqiyə, aşpaza, yataqşünasa.

2519 Hər gün öz yerində olsun bərqərar,
Kamandar, laçındar, tuğçu-bayraqdar.

2520 Gağırsın günorta dost və yarını,
Aparsın yeməyə yoldaşlarını.

2521 Yedirsin, içirsin, versin varını –
Fikir nübarını, söz nübarını.

2522 Köhlən bir at seçsin ağ günə layiq,
Silahı, geyimi özünə layiq.

2523 Qərib, yad bir adam gəlsə xidmətə,
Sınasın, ev versin, çəksin ülfətə.

2524 Öyrənsin necədir halı, ovqatı –
Yeməyi, geyimi, silahı, atı.

2525 Aclara, toxlara baş çəksin bir-bir,
Anlasın kim yersiz, kim yerindədir.

2526 Olsun dərd əhlinin dostu, həmdəmi,
İsti yaraların sərin məlhəmi.

2527 İşə çıxmayanlar tapılsa tək-tək,
Öyrənsin necədir, haçan gələcək?

2528 Xəstəsə üstünə həkim göndərək,
Yolunu azıbsa, yoldan döndərək.

2529 Bunların hamısı bəyə sədaqət,
Bəylik qarşısında xidmətdir, xidmət.

2530 Dinlə, nələr deyir bir xidmət əhli,
Hörmətli, ağsaqqal, pir – xidmət əhli:

2531 Xidmətçi bəyinə sadiq olmalı,
Sadiq də xidmətə aşiq olmalı!

2532 Bəyliyi, dövləti möhkəmləndirən,
Qulu əzəmətli xidmətçi bil sən.

2533 Gözlər özünün yox, bəyin xeyrini,
Ulu bir soyadın, soyun xeyrini.

2534 Mehrsiz, bəhrəsiz, yaman övladdan,
Yaxşı bir xidmətçi ustundür, inan.

2535 Ağac fayda versə, olaram qulu,
Gül zərərli olsa, tapdaram gülü.

2536 Faydası dəymirsə, tərk et qardaşı,
Ondan fayda verən qara daş yaxşı.

2537 Üzün açıq olsun, rəftarın yumşaq,
Özün təvazökar, sözün də bal, yağ.

2538 Acı dil, bəd sifət nəyinə gərək,
Görənlər soyuyub üz döndərəcək.

2539 İsbatdır sözümə, oxu bu beyti;
Məğzini göstərir sözün surəti.

2540 Dilindən, ağzından zəhər saçan var,
Sümüyü qılınclar, ürəyi oxlar.

2541 Gülüm, inan gedər xəncər yarası,
Getməz dil yarası, o şər yarası.

2542 Bəylər at minibən atlansa cəngə,
Çövkana, şikara, ya dost görməyə.

2543 Onu hər bəladan qorumaq gərək,
Xətərdən, qovğadan qorumaq gərək.

2544 Xata sağda, solda, arxada, öndə –
Cəngdə, quş ovunda, at belində də.

2545 Əlhəzər, rədd elə zay adamları,
Şübhəli kəsləri gözdə tut barı.

2546 Bəyi hifz eləsin sadiq kişilər,
Mərdliyə, saflığa aşiq kişilər.

2547 Başçı nizamlasın səf-səf ləşgəri,
Göndərsin yerinə keşikçiləri.

2548 Kiçik səf girməsin böyük səflərə,
Kənar yanaşmasın bəyə-rəhbərə.

2549 Sarayda necəsə oturmaq, durmaq
Bu hüsnü yolda da gərək qoruyaq.

2550 Ey böyük hökmdar, ulu cahangir,
Məncə, saraybaşı böylə gərəkdir.

2551 Dinlə, bu sözlərim qalsın yadigar:
Çörəyi tapdayan ürəyi tapdar.



2552 Ər kişi istəsən – dəryalar kimi,
Seç, öyrənmiş olsun sənəti, elmi.

2553 Elbaşı söylədi: – Anladım səni,
Yenə bir sözüm var, ey ləl mədəni.

2554 Bilirsən, şübhəsiz, sən bu şakəri,
Ellərə göndərir bəy elçiləri.

2555 Nə cür olmalıdır elçi sifəti –
Onun mahiyyəti, xülqü, xilqəti?

2556 Uzaq ölkələrə baş çəkir səfir,
Hansı fəzilətlər ona gərəkdir?

## ELÇİNİN SİFƏTLƏRİ

2557 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Öyrənin elçini siz yaxşı-yaxşı.

2558 Elmi, mərifəti hər şeyə qadir,
Elçi çoxlarından üstün kimsədir.

2559 Elçidir Tanrının əziz balası,
Mərdlərin əlası, kişilər xası.

2560 Elçi sahmanlayır növ-növ işləri,
Ram edir nə qədər keşməkeşləri.

2561 Bilikli, tədbirli, mərd sözlü, zirəng,
Elçi idrak əhli, xatircəm gərək.

2562 Bir olsun cahanda sözüylə özü,
Düzəltsin əyrini, əyməsin düzü.

2563 Xalqa başçı olmuş müdrik, müqtədir,
Kişi nələr deyir, eşit, cahangir:

2564 Kimi oyatmışsa elmin nəfəsi,
Odur hər ordunun baş sərkərdəsi!

2565 Harda, hansı yerdə zəka nuru var,
Orda iş getməkdə, zəfər bərqərar.

2566 Məgər görməmisən əzəldən bəri:
Ölünü dirildir alim əlləri!

2567 Haçan, harda sönmüş zəka lampası?
Ağ günü göstərir elmin kompası.

2568 Gözütox, vəfalı kişilər gərək,
Saflıqda büllur tək, düzlükdə ox tək.
2569 Kimdir verən bəyə xeyir, bar-bəhər?
Onu candan sevən sədaqətlilər.
2570 Sədaqət əhlini öz ürəyin bil,
Böləndə, şan balın, duz-çörəyin bil.
2571 Vəfalı xidmətçi şah damarındır,
Əbədi xəzinən, iftixarındır.
2572 Acgözlər özünü tez verir bada,
Ondan elçi olmaz heç vaxt dünyada.
2573 Gözütox gədalar bir özgə xilqət,
Səbr etsə, bəlkə də tapar bərəkət.
2574 Acgöz – nəfs əhlidir, nəfs də düşmən,
Həfsgir gədadır, yadda saxla sən.
2575 Dinlə nələr demiş gözütox bir ər,
Gözütox kişilər – bəylərə rəhbər!
2576 Acgözlük lüt qoysa kimi dünyada,
Zəngin edə bilməz ony bəy, gəda.
2577 Nəfsinə dustaqdır tamahkar, dustaq,
Onun xilaskarı ölümdür ancaq.
2578 Acgözə, dargözə nəsihət verən,
Alimin nə çıxır görün dilindən:
2579 Bəy olmaq istəsən, gərək öncə sən,
Könül bəyliyini mənimsəyəsən.
2580 Qara qul olsa da, bəydir gözütox,
Bəysə də acgözün quldan fərqi yox.
2581 Acgöz bəy olsa da, yoxsuldu, yoxsul,
Bəydən də üstündür gözütox bir qul.
2582 Zərif, təvazökar, ismətli bir ər,
Ən çətin elmi də dərk edə bilər.
2583 Üzündə yoxdursa abrı-isməti,
O qoruya bilməz haqq-ədaləti.
2584 Feli yaxşı olsa çıxar min oddan,
Mərdsə, dözümlüsə qazanar ad-san.
2585 Dözümlü, qüvvətli, elm əhli bir ər,
Daşdan od çıxarar, dəryadan gövhər.



2586 Dinlə, nələr deyir, bu beyti oxu,
Tükü yarı bölər elmin düz oxu.
2587 Bütün elmlərə qucaq aç, qucaq,
Onda səadətin aşıb-daşacaq.
2588 Qartal ərşə qalxar, girməz boş hinə,
Qanad çalmaq ilə çatar əhdinə.
2589 Soruş gör mətinlər neçin mətindir?
Çün qələm əhlini yıxmaq çətindir.
2590 Dinləyib-öyrənmək, yazmaq, oxumaq,
Elmə, səadətə yol açır ancaq.
2591 Sənətini bilən üzüağ yaşar,
Hər damla qanında bir dərya coşar.
2592 Elçi sözə, şerə vurğun olmalı,
Kitablar üstündə kamal bulmalı!
2593 Gözəl bolməlidir nücumu, tibbi,
Nəhrə dönməlidir ilhamı, təbi.
2594 Cəbri, həndəsəni, şahmatı, nərdi,
Mükəmməl öyrənsə, daha nə dərdi?
2595 Yüksələr, rəqibə çəksə göz dağı,
Bacarsa rəqəmdən kök çıxarmağı.
2596 Yüksələr, çövkanda hamını ötsə,
Yay çəkib, ox atıb mergənlik etsə.
2597 Xətti gözəl olsa, bilsə dilləri,
Yarar buludları, şimşək əlləri.
2598 Çatar muradına bu cür elçilər,
Səhhəti aləmə işıq, nur çilər.
2599 Zehinli, zəkalı, qüdrətli, zirəng,
Olması bəyliyə çələngdir, çələng.
2600 Yaramaz olarsa özgənin qulu,
Sınar bəyin qolu, bəyliyin qolu.
2601 Olmasa cürəti, eşqi, hünəri,
Elçi görə bilməz dürlü işləri.
2602 İşində-gücündə göstərsə hünər,
Onu əzizləyər, onu sevərlər.
2603 Sirri saxlamağı bacarsın gərək,
Hər kəsi dinləmək başqa bir əmək.

2604 Elçi ola bilsə sənət ustadı,
Eldə şöhrət tapar bəyin bəy adı.

2605 Elm əhli ağsaqqal eşit nə demiş:
Qanmazın beynini qarğalar yemiş.

2606 Sənəti, qüdrəti, elmi olanlar,
Heç vədə qocalmaz, həyatı anlar.

2607 Bir cüt qanad tapar sənət sahibi,
Yüksələr günəşə laçınlar gibi.

2608 Kimin ki, öz işi, öz sənəti var,
Ona səcdə qılar ən uca dağlar.

2609 Hər hansı sorğuya düz cavab verən,
Elçi hazırcavab, mərd gərək əslən.

2610 Tapar ağ bəxtini meydən çəkinsə,
Həyatda özünü apara bilsə.

2611 Savadlı mey içsə, savadsız olur,
Məst-xumar savadsız dərhal pozulur.

2612 Elmin, mərifətin düşməni içki,
Cəngin, ədavətin mayəsidir ki...

2613 O kəs ki, qurşanır meyə, işrətə,
Son qoyur ömründə hər səadətə.

2614 Xülqü xoş, ismətli, zərif kişi də,
Bəzən gözdən düşür içki içəndə.

2615 İsməti, saflığı, zəkanı, elmi,
Meyə qurban verən namərd deyilmi?

2616 İtirir bəxtini meyə qurşanan,
Həm dəli sayılır, həm axmaq, nadan.

2617 Dilə mey dəyəndə korşalır beyin,
Yanıb külə dönür cismin, ürəyin.

2618 Aqil nələr demiş, oxu bu beyti:
Badədə boğulur kişi qeyrəti.

2619 Könül sirlərini faş edir içki,
Keçir yad əlinə ürəyindəki.

2620 Elm əhli mey içsə elmsizləşir,
Cahil eşşəkləşir, qat-qat pisləşir.

2621 Ağıllı elçini bas bağrına, sıx,
Dili şirin olur, ürəyi açıq.



2622 Dili şirin olan cəzb edir bizi,
Caziblərdir yapan işlərimizi.

2623 Sözü unutmaya, ülfət bağlaya,
Bilsə hansı sirri, canda saxlaya.

2624 Saqqalı qırxılmış, boy-buxunlu, mərd,
Kişilər gözəli, ağ üzlü xilqət.

2625 İki fəziləti onun zinəti,
Comərd təbiəti, bir də hümməti.

2626 Sözü şəkər ola, dili nabat, qənd,
Böyük də, kiçik də şirin dilə bənd.

2627 Elçinin silahı müdrik sözüdür,
Tapar diləyini olsa sözü dürr.

2628 Bəxtiyar Elbaşı, bu cür elçini,
Tapsan ucaldarsan şərafətini.

2629 Göndər öz elcini, çək də sınağa,
Yaxınsa – yaxına, yadsa – uzağa!

2630 Elbaşı söylədi: – Anladım səni,
Yenə bir sözüm var, ey ləl mədəni.

2631 Sənin söz borcun var. Söz – əngin aləm,
Mən sənə söz haqqı ödəməliyəm.

2632 Nə cür olmalıdır bəylikdə katib,
Nəzakət, hüsnü xətt, məktubu tərtib?

## KATİB NECƏ OLMALIDIR

2633 Ögdülmüş söylədi: – Ey bəxtiyar bəy,
Bu işə münasib bir adam gərək.

2634 Bəy özü nə qədər kamil olsa da,
Bir katib gərək ki, batmasın sədə.

2635 Sirri açmaq olar yalnız katibə,
Vəfası qanaddır ilhama, təbə.

2636 Sirri saxlamaqda imanı kamil,
Dürrü qorumaqda onu dəniz bil.

2637 İç aləm faş olsa, xaniman yanar,
Açılsa bəy sirri, can alovlanar.

2638 Möhkəm saxlansa da bəyin bəy sirri,
Agah etməlidir iki nəfəri.

2639 Onun biri – katib, digəri vəzir,
Yalnız iki mərdə açılmalı sirr.

2640 İşdən agah etsən iki nəfəri,
Dərhal yoxa çıxar incikliklәri.

2641 İki mərd olmalı sirr dağarcığı,
Açsalar, onların yox qanacağı.

2642 Sənətkar nə demiş, bir sətrini an:
Dilini kəsməli sirri saxlayan.

2643 Bəyin inam yeri, dəyanət gərək,
Sirri saxlamasan başın gedəcək.

2644 Ağzını açdınmı, toxum saçılır,
O söz toxumları ləkə sancılır.

2645 Sözü xalq eşidir, dəfn etmək olmaz,
Sözü pərdələmək, gizlətmək olmaz.

2646 Ağızdan saçılan gah oddur, gah su,
Birinci-yazıdır, ikinci – pozu.

2647 Qaynar cəhənnəmdir gərəksiz kəlam,
Ağzından çıxdımı, yanarsan müdam.

2648 Dirilik suyudur incə, yaxşı söz,
Qoy axsın gülşənə, gül dər, çiçək üz.

2649 Xəbərdar edirəm mərdlik pirini,
Möhkəmcə saxlasın könül sirrini.

2650 Əzbərlə şerimi, ey ülvi xilqət,
Bağrımın başı ol, sirrini gizlət.

2651 Sirrin canda qalsın, gətirmə dilə,
Ocağın dönməsin bir ovuc külə.

2652 Başın düşmənindir əzəl gündən dil,
Cilovla düşməni, təslim edə bil.

2653 Xətti gözəl olsun, hər sözü usta,
Ondan fal açmağı bacarmaq istə.

2654 Xətti gözəl olsa, məktub qəlb açar,
Dönər al qönçəyə, söz ətir saçar.

2655 Gözəl xət birləşsə fəsahət ilə,
Bu yazı çevrilər ən şirin dilə.



2656 Eşit, nələr deyir İla məntiqi:
Ən gözəl üsuldur məktubun nitqi.

2657 Yazı – can cövhəri, fikir gövhəri –
Əbədi yaşadır yaxşı sözləri.

2658 Yazıçı kitabı yazmasa əgər,
Hikməti, qüdrəti nə cür bilinər?

2659 Olmasa alimin xətti, əl izi,
Bizə kim göstərər keçmişimizi?

2660 Bir yazı meydanda olmasa hakim,
Şifahi sözlərə kim inanar, kim?

2661 Bu yurddan o yurda xəbər göndərən,
Yazı, xətt olmasa yapışar nədən?

2662 Böyük bir ölkəni xətti mübarək,
Yazının hökmüylə dolandırır bəy.

2663 Bəyliyə əzəmət, qüdrət verənlər,
Üç nəfər kişidir, bəli, üç nəfər.

2664 Biri – alimlərdir, biri katiblər,
Biri də igidlər, daim səfərbər.

2665 Onlardı çökdürən qan düşməni,
Canavar ağızlı harın düşməni.

2666 Alim gərək olur ən çətin anda,
Məsləhət verirlər cavab yazanda.

2667 Məktub ayırd edir bütün işləri,
Sındırır yırtıcı, qanlı dişləri...

2668 Mərdlər qılınc ilə deyir sözünü,
Qələm də ağ edir xalqın üzünü.

2669 Elə ki, birləşir bu üç növ kişi,
Susdura bilirlər hər keşməkeşi.

2670 Qalan tayfaları ardınca aşkar,
Yalnız bu üç qüdrət çəkər, aparar.

2671 Qılınc yurd alandır, sədləri qırır,
Qələm də nur saçır, el dolandırır.

2672 Üç mərdə güvənib bizim Elbəyi,
Təzələr aləmi, gülər diləyi.

2673 Elm ilə aparar siyasətini,
Əql ilə göstərər məharətini.

2674 Qılınc fəth eləyər özgə ölkəni,
Qələm kəşf eləyər qızıl mədəni.

2675 Qılıncdan daman qan yol açar fəthə,
Qələmin qarası altun gətirər.

2676 Qılıncla qələmdir yurdun mayəsi,
Bugünkü, sabahkı işin yiyəsi.

2677 Bu iki fəzilət, bu iki qüdrət,
Ən böyük hökmdür, ey ulu xilqət.

2678 Böylə bir qoşqu var, diqqətlə oxu,
Sən yaxşı sözlərdən bir çələng toxu.

2679 Dürüst qələm çalan saçar fəzilət,
Qılınc vuran kişi – bir özgə qüdrət.

2680 Qılınc ellər tutar, yurdlara girər,
Qələm gülşən salar, çiçəkləndirər.

2681 Qüdrətli, gözütox, sadiq, səmimi,
Katib dəyərlidir xəzinə kimi.

2682 Nəfsini öldürmüş, gözütox insan,
Özü xəzinədir əslinə baxsan.

2683 Acgöz, tamah əhli əşya quludur,
Onuncun ehsan ver, ey camalı nur!

2684 Tamahkar kölədir, lap boy olsa da,
Ən alçaq adamdır bütün dünyada.

2685 İtirər özünü, acgözsə katib,
Göz açıb görər ki, can əldən gedib.

2686 Qızıl, gümüş görsə heyranı olar,
Yeyər xocasının başını aşkar.

2687 İşdən bərk yapışar sadiq xidmətçi,
Daim dərgah üçün alışar içi.

2688 Malını, canını qılar da fəda,
Bəyliyi uğrunda, bəyi uğrunda.

2689 Yaramaz işləri atar bir yana,
Mey vurmaz dilinə, dönər loğmana.

2690 Elmdən gen düşər, qurşansa meyə,
Xətti xəta tapar, dəyməz heç nəyə.

2691 Katib gecə-gündüz eldə gərəkdir,
Tələb olundumu, öndə gərəkdir.



2692 Bu iki qüdrəti seç diqqətlə sən,
Ver işi onlara, ver hörmətlə sən.

2693 Xətti dürüst katib, dili qənd elçi,
Bəyliyin sevinci, bəyin sevinci.

2694 Yaxmda, uzaqda biganəlikdən,
Ədavət törəsə, onları gör sən.

2695 İş irəli getsə, ya geri qalsa,
Yalnız onlardan gör, ey böyük usta.

2696 Katib yanılmasın gərək yazıda,
Elçi yağ-bal etsin sözü ağzında.

2697 Katib mətin gərək, mükəmməl gərək,
Ona tapşırılan iş açsın çiçək.

2698 Bu cür mərdlər olsa qəsrin zinəti,
Yurda işıq salar insaniyyəti.

2699 Budur bildiklərim, qibleyi-aləm,
Sizə bəyan etdim, bitdi vəzifəm.

2700 Elbaşı söylədi: – Anladım səni,
Yenə bir sözüm var, ey ləl mədəni.

2701 Nə cür olmalıdır bəs xəzinəçi?
Ona aydın olsun ovcumun içi.

2702 Verim xəzinəmi, qızıl-gümüşü.
Yetirsin yerinə özü hər işi.

## XƏZİNƏÇİ NECƏ OLMALIDIR

2703 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Dərdin dərmanı bil qızıl-gümüşü.

2704 Dürüst, etibarlı, təmiz bir insan,
Olsa xəzinəçin, peşmanlamazsan.

2705 Dinlə, nələr deyir min keşməkeşi,
Yarıb, qalib çıxan zəngin bir kişi:

2706 Can şirin olsa da, bir gün yerindir,
Qızıl-gümüş ki, var candan şirindir.

2707 Gümüşdür yumşaldan daş könülləri,
Gümüşdür əyən də əyilməz əri.

2708 Gümüş görmüş adam gəlib həvəsə,
Yeridir "görürəm mələk!" söyləsə.

2709 Ən inadcıl adam sərtlikdə bir şir,
Qızılı gördümü mülayimləşir.

2710 Olsa xəzinəçi gözütox bir can,
Bəxti, səadəti aşar başından.

2711 Baxta ki, var-dövlət onun naxşıdır,
Yenə Tanrısından qorxsa yaxşıdır.

2712 Seçsin yaraqlını, yaraqsızı da,
Halalı, haramı, əxlaqsızı da.

2713 Gözütox kişilər ülvi, müqəddəs,
Var-dövlət istəməz, rütbə istəməz.

2714 Görüb-götürmüşsə dünyanı, hərgah,
Onu yıxa bilməz acgözlük, tamah.

2715 Tanrıdan qorxursa, ülvi bil onu,
Tutacaq həmişə haqqın yolunu.

2716 Doğruluq pakhqdır, nəfi, xeyri var,
Əbədi gənclikdir, əbədi bahar.

2717 Pakın ömrü-günü həlavətlidir,
Bəxti, səadəti sel qüdrətlidir.

2718 Dinlə, nələr deyir bir dost-mehriban,
Bu sözə əməl et, ey yaxşı insan.

2719 Dilin düz, könlün düz, hərəkətin düz,
Düz olsan güləcək bəxtinə gündüz.

2720 Düz olsan gələcək bəxtin, ağ günün,
Sevincin, şadlığın, dövlətin, mülkün.

2721 Hüşyar, mərhəmətli, sapsağlam, mətin...
Mətin ol, bar versin qoy səadətin.

2722 Qayğısız kişidən həzər, əlhəzər,
Nə xoşlar xəzinə? Fərasətli ər.

2723 Əyrini düzəldir yalnız fərasət,
Ondadır yamanı qandıran cürət.

2724 Çatar, məst olmasa, bəxti imdada,
Bacarsın özünü aparmağı da.

2725 Bütün var-yoxunu verib küləyə,
Sonda lüt qalacaq qurşansa meyə.



2726 O, gərək bir azca əlibərk ola,
Ta ki, boş xəzinə günbəgün dola.

2727 Xidmətçi sadiqsə, səadət tapar,
Canfəda xidmətçi bəyi bəy yapar.

2728 Mərdlərin başı say sədaqətlini,
Nökərsən, bəy edər sədaqət səni.

2729 Sayıq xəzinəçi hesabı gözlər,
Canını qıysa da, varı əzizlər.

2730 Heç nəyi unutmaz zəka sahibi,
Hesabla iş görər ilhamı, təbi.

2731 Çox şeyi unudar, zəkasız, xumar,
Ona xəzinəmi tapşırmaq olar?

2732 Hesabı, kitabı yerli-yerində,
Daim ayıq gərək öz işlərində.

2733 Xəzinəçi, həm də katib deməkdir,
Alır hesabları yazıya bir-bir.

2734 Gəliri, çıxarı kağızda bəlli,
Xəttindən bilinir hər işin həlli.

2735 Vaxtı, ayı, ili dürüst yazmalı,
Hesabda çaşmasa pozulmaz halı.

2736 Haqq-hesab kağızda görünür aşkar,
Yazdımı, açılır bağlı qapılar.

2737 Dinlə, nələr demiş mehriban bir ər:
Xidmətçi işini hesabla görər.

2738 Hesabsız heç bir iş dürüst sayılmaz,
İnanma yaddaşa, qələm götür, yaz.

2739 Hər şey çıxır yaddan, yazılan qalır,
Xidmətçi qafilsə ömrü qısalır.

2740 Haqq-hesab çəkməyi bacarsın gərək,
Özü tədbir tökən, qələmli, zirəng.

2741 Hesabda yanılsa hansı xidmətçi,
Hesabat verəndə sönər sevinci.

2742 Kitabın, hesabın olsa mükəmməl,
Yanılmaz yaddaşın, çıxmaz bir əngəl.

2743 Təki idrak eşqi dönməyə sondə,
Macal tapsan, öyrən həndəsəni də.

2744 Nazikdir, incədir həndəsə elmi,
Ərşə ayna tutan qüdrət deyilmi?

2745 Bilimdan bir kişi nə demiş dinlə:
Qazmaqlı plovtək elmi nuş elə.

2746 Alimlər bənd olsa, başı aylanar,
Həndəsə elmini bir dərya sanar.

2747 Onun hər düsturu leysandan böyük,
Döyər hər damlası yeddi qat göyü.

2748 Bilikli, zəkalı, feli düz gərək,
Zəkalı kişilər itirməz əmək.

2749 Zəkalı kişilər doğru, düz olur,
Bəxti gündüz olur, ömrü işıq, nur.

2750 Zehinsiz daş qıra, dağ yara bilməz,
Həyatda özünü apara bilməz.

2751 Saraydır saxlayan xəzinəçini,
Öz mənliyi bilsin saray içini.

2752 Könlü, dili doğru, feli düz gərək,
Nə od, tüstü vursun onu, nə şimşək.

2753 Saxlasın dilini, gözütox olsun,
Həvəsi ağlına tabe tutulsun.

2754 Göz görüb sevəni könül arzular,
Arzu qarşısında bir sərhədmi var?

2755 Yeddi qat vücudun könüldür bəyi,
Daşı da çatladır onun istəyi.

2756 Alim nələr demiş: – Coşma, ey yazıq,
Ram et könlünü, ram. Yığ gözünü, yığ.

2757 Könülə təslimdir bədən də, can da,
Odur dağı yıxan, dağ qaldıran da.

2758 Boş bir müqəvvadır könülsüz kişi,
Əlində məhv olar yüz alim işi.

2759 Xəzinə bəkçisi əlibərk gərək,
Qızılın üstündə yata ilan tək.

2760 Səxavət gözəldir, amma qulaq as:
Özgə sərvətilə səxilik olmaz.

2761 Alver ustalığı incə bir sənət,
Alveri bilməyən görməz mənfəət.



2762 Hər malın ucuzu, bahalısı var,
Alveri bilməyən dərhal aldanar.

2763 Bilsə hər davarın öz qiymətini,
Mümkünmü aldada onu hər dəni?

2764 Alış-veriş özü başqa bir ovsun,
Təki vəfa əhli, şirindil olsun.

2765 Vaxtında qaytarsın təki borcunu,
Onda rədd eləməz, sayarlar onu.

2766 Alqıda-satqıda düz olsa feli,
Yumulmaz heç kəsin səxavət əli.

2767 Ənam paylananda döyüşçülərə,
Gərək tamam-kamal hamını görə.

2768 Xidmətçi ənamı əsirgəyərsə,
Canda kin saxlanar, gözlərdə qüssə.

2769 Dinlə, gör nə demiş səxavətli ər,
Könlündə bəslənsin dürdanə sözlər.

2770 Sevəni sevməyən olsa dünyada,
Vədə xilaf çıxan gədadır, gəda.

2771 Nəyisə kiməsə verməyəcəksən,
Neçin vəd edirsən, ey əhdi kəsən?!

2772 Bəy pozsa vədini, çökər get-gedə,
Ona xalq inamı, var-dövləti də.

2773 Sayıq olmalısan, sayıq, mötəbər,
İşi əldən verər ikiləşənlər.

2774 Bəy sarayındakı xidmətçilərin,
Canfəda xidməti məğzidi xeyrin.

2775 Babat güzəranlı xidmətçilər var,
Görsə bəy sovqatı, necə şadlanar.

2776 Bəyin bəxşişini kəsərsə bəkçi,
Yarlığı alanın sönər sevinci.

2777 Tapsa muradını, eşqini insan,
Quru çöp olsa da, sən onu fil san.

2778 Dinlə, nələr demiş ağsaçlı ustad:
İnsan murad istər, murad ver, murad.

2779 Elə ki, əhdinə qovuşdu insan,
Versə canını da, uf deməz, inan.

2780 Bacar, qarışqanı sən filə döndər,
Ağ gün, bahar olsun qoy ona öndər.

2781 Zəkalı, qeyrətli, ismətli, zərif,
Xidmətçi tapsa bəy, san ki, gül dərib.

2782 Qoy ona tapşırsın xəzinəsini,
Ödəsə haqqını, sevsə, bəsidi.

2783 Elbaşı söylədi: – Anladım səni,
Yenə bir sözüm var, ey ləl mədəni.

2784 Bəy yeyib-iməli, ləzzət almalı...
Bəs süfrə memarı necə olmalı?

2785 Təki bəy xörəkdən şübhələnməsin,
Bəy ona inansın, "Afərin!" desin.

2786 Yesin ləzzət ilə, kef-damaq ilə,
Dönməsin əngələ yem adlı tələ.

2787 Sən mənə şərh elə bunları bir-bir,
Ey bahadır oğul, ey əhli-tədbir.

## SÜFRƏ BAŞÇISI NECƏ OLMALIDIR

2788 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Bu işi xoşsima bir mərdə tapşır.

2789 Adamlar içindən pak bir kişini,
Seçib ona tapşır süfrə işini.

2790 Sadiq, sədaqətli, ismətli, təmiz,
Bir adam axtar ki, büllur, ləkəsiz.

2791 Öylə bir adam ki, bəyin uğrunda,
Hazırdı verməyə lap canını da.

2792 Bəy üçün hər xətər boğazdan olur,
Aşçı büllur gərək, nur gibi büllur.

2793 Aşçı bəd nəzərdən qapsın od gərək,
Bəyə hər məqamda ehtiyat gərək.

2794 Millət başçısının min düşməni var,
Düşmən addımbaşı ona tor qurar.

2795 Diqqətli olmasa aşçı aşında,
Bəy düşər xətaya süfrə başında.



2796 Sınanmış xidmətçi daşdan çıxan su –
Neməti süfrəyə vaxtında qoysun.

2797 Xilqəti, xidməti, zəhməti aşkar,
Süfrə memarına inanmaq olar.

2798 Dinlə, nələr demiş müdrik bir insan,
Hər zəka damlası əngin bir ümman.

2799 Siz nəyin üstündə zəhmət çəksəniz,
O, sevimli olur, sevimli, əziz.

2800 Ömür-gün qoysanız nəyin yolunda,
Çarpan qəlbinizi görərsiz onda.

2801 Ömür-gün ulduzu, iş-axan ulduz,
Zəhmətə verilmir ömür-gün, əfsus.

2802 Kişi ağız açmaz, ömrü ötsə də,
Zəhməti, qayğısı hədər getsə də.

2803 Gözütox, könlü bəy, üzü nurlu ay,
Saf insan gərək ki, ömrü axar çay.

2804 Dərin düşüncəli, imanlı, dinli,
Vəfalı insanlar hamıya bəlli.

2805 Bir az incə olur bəy təbiəti,
Xoşlayır pakizə, dadlı neməti.

2806 Aşpazı pak isə aş da pak olur,
Damağa dad verir, keflər durulur.

2807 Əti, yağı kafi, suyu müqəddəs,
Xörəyə xəsislər dad verə bilməz.

2808 Acgözün, xəsisin hər işi bəddir,
Bu bədlik mərd üçün ən böyük dərddir.

2809 Doğru, düz xadimə əhsən de, əhsən,
Amma bil ondan da yaxşı özünsən.

2810 Bütün kişilərə inan... amma bil,
Heç kim özün qədər mötəbər deyil.

2811 Məqamı gəlmişkən bir söz deyim, bil,
Unutma bu sözü, ey dili-qafil:

2812 Hamıya inan da, amma bil ki, sən,
Özünçün canfəda yenə özünsən.

2813 Ey mənim ərmanım, dinim-imanım,
Hifz elə, hər şeydən əzizdir canın.

2814 Dili düz, qəlbi düz süfrə memarı,
Səni qorumağı bacarsın barı.

2815 Pakizə kişilər, əziz, müqəddəs,
Yoxsa bircə tikə boğazdan ötməz.

2816 Tanrı özü sevir pakizələri,
Bəxş edir pak adı, əzmi, hünəri.

2817 Pak süfrə xoş gəlir hər bir insana,
Su, ruzu pak isə sinir də cana.

2818 Napaklar süfrədən iraq... əlhəzər!
O, bal da yedirsə zəhərdi, zəhər.

2819 Olmasa doğruluq, inam, etibar,
Yeməyin, içməyin məgər xeyri var?

2820 Aşçı əyridirsə hər işi əyri...
Üstəlik nə qədər xidmətçiləri?

2821 Ruzu oğruları yığışsa qəsrə,
Bərəkət taparmı açılan süfrə?

2822 Kişiyə yaraşır doğruluq, əxlaq,
Yoxsa kim süfrədə sevinc tapacaq?

2823 Dinlə, gör nə deyir bir ülvi xilqət,
Yalnız düzlər tapır xeyir, bərəkət.

2824 Düz adam büdrəməz, bəxtiyar olur,
Nurlu gecəsindən əskilməyir nur.

2825 Harda omba durub qalxır xəyanət,
Ordan qaçaq düşür var-dövlət, ülfət.

2826 Xəyanət hardasa haqlasa bizi,
Qurudar torpağı, içər dənizi.

2827 Bəyini çox sevən xadim canfəda,
Bacarsın özünü aparmağı da.

2828 Fədakar xadimin fədakarlığı,
Qoyar dağ üstünə elə bil dağı.

2829 Pakizə xadimin zəkası almaz,
Xörək gətirəndə, cəld olsun bir az.

2830 Gündəlik xidməti – ən böyük əvsun,
Qaydanı gözləsin, gözütox olsun.

2831 Dolansın həmişə ehtiyat ilə,
Dönsün ağlı-huşu bir qızılgülə.



2832 Bəyinə qəbrədək vəfalı olsa,
Ömürlük qazanar xeyirli ad-san.

2833 Zəkalı kişilər ad-san arzular,
Elm əhli sədaqət, vəfa, etibar.

2834 Elm əhli-kişilər, ərənlər xası,
Vəfanın, düzlüyün, ədlin arxası.

2835 Kişilər sərvəri – zəkalı kişi,
Nələr söyləmişdir, qulaq ver, eşit!

2836 Zəkalı, vəfalı mərdləri tanı –
Sənə fəda qılar bütün canını.

2837 Natəmiz, cəfakar, mərdliyə günü,
Vədə versə belə, udar sözünü.

2838 Söylədim, eşitdin, xoşbəxt Elbaşı,
Bu cür olmalıdır aşçılar başı.

2839 Görəyi, süfrəsi-şəfa bəxş edən,
Bəy yesin, içsin də şübhələmədən.

2840 Mənim bildiklərim budur, söylədim,
Ağlıma gələni bəyan eylədim.

2841 Elbaşı söylədi: – Dinlədim səni,
Yenə bir sözüm var, ey ləl mədəni.

2842 Aç mənə mətləbi, bildir əhvalı –
Mey, şərbət başçısı necə olmalı.

2843 Öylə bir başçı ki, çin övladı çin –
Bəy onun əlindən mey alıb içsin.

## MEY, ŞƏRBƏT BAŞÇISI NECƏ OLMALIDIR

2844 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Bunu da şərh edim qoy yaxşı-yaxşı.

2845 Haqq yolu tapınca min cəfa çəkmiş,
Saqilər başçısı Eqdiş nə demiş:

2846 Vəfalı, canfəda, gözü-könlü tox,
Baş saqi düzlükdə ox olmalı, ox.

2847 Mənimsəmiş olsa bu sifətləri,
Əhdinə yol açar fəzilətləri.

2848 Növ-növ ədəvələr yardımı olsun –
Gurni, reyhan suyu, güvariş, məcun.
2849 Bu dürlü dərmanlar loğman gibidir,
Onun ümmanında mərcan gibidir.
2850 Quru, yaş meyvə də, buzlu şərbət də,
Onun töhfəsidir sizə, əlbəttə.
2851 Hamıya ilk xətər boğazdan gəlir,
Ağız ləzzətini aşpazlar bilir.
2852 Aşpaz, şərabşunas sayıq olmasa,
Zəqquma dönməzmi süfrəli masa?
2853 Alim nə istəyir, ehtiyat, tədbir,
Neməti ahəstə yemək gərəkdir.
2854 Boğazı qorusan, baş da ucalar,
Az yeyilən ruzu ləzzətli olar.
2855 Bəxtini itirmiş haram yeyənlər,
Nəfsinə qul olan ac ləlöyünlər.
2856 İnsanın boğazı – boğmalığıdır,
Onun həm loğmanı, həm göz dağıdır.
2857 Zəkalı, elmli olarsa yəqin,
Tapar açarını insaniyyətin.
2858 Zəka tunc sipərdir yamana qarşı,
Qaynayıb-qarışmaz yamana yaxşı.
2859 Əyrini həbs edib basırlar dama,
Kötük göndərilir odda edama.
2860 Sən haqq yolunu tut, ey gənc bahadır,
Doğruluq qızıldan qat-qat bahadır.
2861 Könlü pak, əqli çox, ürəyi düzsə,
Şərabçı çevrilir bir müqəddəsə.
2862 Bütün əməlləri saf olsun gərək,
Cummasın yanına hər gün hər köpək.
2863 Özü hazırlasın şəhdi, cövhəri,
Özü damğalasın bütün meyləri.
2864 Reyhan da, şüyüd də, ədviyyələr də,
Dönsün təbərrikə o pak əllərdə.
2865 Təmiz hazırlasın özü hər şeyi –
Quru, yaş meyvəni, gülabı, meyi.



2866 Mey içənlər görsün gövhərə bənzər,
Zərli piyalələr, büllur qədəhlər.
2867 Sinsin işi-gücü canına bəyin,
Gül açsın, bar versin əhdi, əməyi.
2868 Zəhmətdir gətirən hər şeyə məna,
İş dönür həyatın şah damarına.
2869 Gözün nələr deyir ağsaçlı aqil:
Sən aqil sözünü ay parçası bil.
2870 Neməti, sərvəti, hər səadəti,
De kimdir yaradan? Kişi zəhməti.
2871 Ən böyük sevgiyə layiqdir onlar –
Xidməti yolunda ömür qoyanlar.
2872 Saqilər işini tapşırın ona –
Zəhmətin, xidmətin sadiq oğluna.
2873 Onun şəyirdləri saqqalsız, gözəl,
Gərək hər bir işə əl yetirsin, əl.
2874 Onun həssaslığı gül titrəyişi,
Açsın könülləri diqqətli işi.
2875 Pəhləvan sanballı, çöhrəsi açıq,
Çinarboy, qarasaç, hüsnündə işıq.
2876 Beli incə gərək, yanları şişman,
Bədəni ağappaq, üzü ərğəvan.
2877 Əyninə geydiyi ipək göy, sarı,
Yaraşsın boyuna yaşıl paltarı.
2878 Saqqalsız saqilər işinə əmin –
Təki içkilərə tük də düşməsin.
2879 Qədəhə tük düşsə könül bulanar,
Xörəyi yesən də ləzzətsiz olar.
2880 Elə buna görə üz təmiz gərək,
Piyalə sunanlar saqqalsız gərək.
2881 Saqi üzü nurlu, məmiz, pakizə...
Əlindən mey alsan dad verər sizə.
2882 Xilqəti xoş olan, üzü nurlu ər,
Bir fincan suyu da bal kimi verər.
2883 Ey alim sözünə tamarzı, təşnə
Dinlə, təqdim edim bu beyti sənə:

2884 Kamal, camal əhli çox şeyə qadir –
Əlindən nə versə bal-şərbətdir.

2885 Ey ac-susuz qalan tamarzı insan,
Gözəlin hüsnünə baxsan, doyarsan.

2886 Saqilər gözələ bənzər olmalı,
Ovcunda piyalə şəkər olmalı.

2887 Bəy gərək inansın öz saqısinə,
Ki, nuş etdikləri canına sinə.

2888 Gözütox, ismətli, sədaqətli ər,
Ər xidmətçi, a bəy, dünyaya dəyər.

2889 Dürüst seçilməli baş katib, elçi,
Bir də aşpaz ilə saqi – o inci.

2890 İncilər aləmdə tapılmır asan,
Dürüst seç, sonralar vaysınmayasan.

2891 Büdrəsə, zay çıxsa baş katib, elçi,
Sönər birco gündə xalqın sevinci.

2892 Saqi, yaxud aşpaz zay çıxsa, inan,
Yalnız bəylər görər onlardan ziyan.

2893 Bir neçə xadimi sən özün gərək,
Toxumluq dən kimi seçəsən, a bəy!

2894 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Bəyin adı qədər böyükdür işi.

2895 Böyük əməllərdə baş ağrısı var,
Getməsə ağrılar, bəylikmi qalar?

2896 Alim gör nə deyir... alim sözləri,
Bir düzüm incidir, ya da mirvari.

2897 Sən döz məşəqqətə, dinclik istəmə,
Məşəqqətdən doğur gənclik, sən demə.

2898 Bəy məşəqqət çəksə, el zənginləşər,
Bəy də öz taxtində rahat əyləşər.

2899 Çox da əmin olma rahatlığına,
Rahatlıq, məşəqqət gedir yan-yana.

2901-2903 Aşpaz da, saqi də sənə sədaqət,
Vəfa göstərsələr, gözəldir əlbət.

2904 Can bəslə, ruhunu gətir ilhama,
Canın gedər olsa, əlac arama.



2905 Budur bildiklərim, xoşbəxt Elbaşı,
Düşün dərin-dərin, duy yaxşı-yaxşı.

2906 Bu cür xadimlərə açsan qoynunu,
Sındıra bilərsən düşmən boynunu.

2907 Mən dəqiq söylədim hər şeyi sənə,
Diqqətlə qulaq as, sözüm var yenə.

2908 Elbaşı dinləsə, açıb söylərəm,
Yoxsa öz sinəmdə pünhan eylərəm.

2909 Elbaşı söylədi: – Əsirgəmə, ayt,
Açıq xəzinə də başqa bir büsat.

2910 Elmin dənizisən, elmin ümmanı,
Çıxar bircə-bircə ləli, mərcanı.

2911 Ögdülmüş döylədi: – Ən əvvəl sənsən,
Dürlü bilikləri xalqa bəxş edən.

2912 Mən açıq söylədim, deyimmi yenə,
Necə baxmalıdır qul öz bəyinə.

2913 Bəy gərək tanısın xidmət əhlini,
Təmizlik, ləyaqət, qeyrət əhlini.

2914 Bəyin haqqı-sayı qulun boynunda,
Qulun haqqı-sayı azmıdır onda?

2915 Qullar bəy haqqını hiss etsin müdam,
Bəy də çıxarmasın qulunu yaddan.

2916 Xidmətçi çalışır güzəran üçün,
Zavallı neyləsin görməsə bir gün?

2917 Elbaşı söylədi: – Aç bu yumağı,
Nədir xidmətçinin zəhməti, haqqı?

## XİDMƏTÇİLƏRİN HAQQ-SAYI

2918 Ögdülmüş söylədi: – Ey Haqqa bəndə,
Xidmətçi haqqı var bəyin çiynində.

2919 Vaxtında verilsin ruzu, çörək, su,
Bir də xidmət üçün hazırlıq olsun.

2920 Bəy gərək həmişə hiss etsin bunu –
Xidmətin nə qədər zor olduğunu.

2921 Canını, cişmini qul edir fəda,
Təki şad yaşasın bəyi dünyada.
2922 Tab edir ac-susuz, atlı, piyada,
Qılınc zərbəsinə, qəfil oxa da.
2923 Bəyi qoruyaraq gərir köksünü,
Gözləyir sağ-solu, arxamı, önü.
2924 Düşmən qarşısında dönər sipərə,
Bəyə həyat dilər, özü ölsə də.
2925 Bəyin şadlığıdır quluna müjdə,
Gecəli-gündüzlü dözər min dərdə.
2926 Bəy onun haqqını ödəsin gərək,
Olsun mehribanı, "can!" desin gərək.
2927 Eşit, nələr demiş üç ordu xanı –
Kişilər gözəli, el qəhrəmanı.
2928 Ey xalqın başçısı, ey tacı yaqut,
Xidmətçi qulunu daim uca tut.
2929 Xidmətçi olmasa, bəy dediyin ər,
Yurdu dolandıra bilərmi məgər?
2930 Əsilli, nəsilli, köklü olsa da,
Qulun sayəsində bəy çatır ada.
2931 Elbaşı, insanlıq – mürvət deməkdir,
Mürvət təriqətdir, xidmət deməkdir.
2932 Bəli, tapa bilsə hər kos yolunu,
Başa vurmalıdır xidmətdə onu.
2933 Xidmətçi can qoyur dolanmaq üçün,
Mürvət əldən gedər, o görməsə gün.
2934 Bəy öz xadiminə baş çəksin gərək –
Barlımı, barsızmı dərgahda əmək?
2935 Əmək bar verirsə, haqqını ödə,
Sevinsin, şad olsun qoy xidmətçi də.
2936 İnsan az seçilir heyvandan, inan –
O da yemək istər, bu da hər zaman.
2937 İlxının qarnını doyurmasan sən,
Heç ondan bəhrəmi, barmı görərsən?
2938 Qıyar canını da xidmətçi sənə,
Şirin söz söyləyib ənam versənə!



2939 Xidmətçi nə istər: bəyi şad olsun,
O da öz bəyinə qol-qanad olsun.
2940 Dinlə, gör nə demiş müdrik bir insan,
Elm əhli ucadır Günəşdən, Aydan.
2941 Dostdan yaxşılığı əsirgəmə sən,
On dəfə can verər, bir yol "can!" desən.
2942 Sənin qulun olar, görsə nəfini,
Bir gül ver, uğrunda tapdar əfini.
2943 Ənam, mükafat ver xidmətə qarşı,
Qarnını, əynini gör yaxşı-yaxşı.
2944 Bəy necə fəxr edib açar qol-qanad,
Acından ölərsə ilxısında at?
2945 Dinlə, nələr demiş ağsaqqal bir ər,
Şahin gözləridir bu cür öyüdlər.
2946 Bir insan uğrunda insan zəhməti,
Qazanır ən böyük insaniyyəti.
2947 İnsan zəhmətinə qiymət verməyən,
Məgər seçilirmi köpəkdən, itdən?
2948 Unutma, xidmətçi iki cür olur,
Biri azad, erkin, o biri quldur.
2949 Qul xidmət etməsə, dəyənək yeyər,
Azad olmasa da tər tökməli, tər.
2950 Azad xidmətçiyə mükafat ver sən,
Onu asudə qıl zəhmətdən, işdən.
2951 Yaxşılıq quludur azad xidmətçi,
Sən ona bəxş elə könül sevinci.
2952 Azadı qul ilə bir tutma, lələ,
Biri din əhlidir, o biri kölə.
2953 Asayiş dərgahı – bəy dərgahını,
Saxlamaq ən böyük arxan, pənahın!
2954 Xadimi zənginsə, ad qazanar bəy,
Bu adı and yeri bilər gələcək.
2955 Bəyi xidmətçiyə bağlayan kəmər,
Satıcı, alıcı felinə bənzər.
2956 Satıcı dostuna nəsə verir ki,
Dolansın ölkəni, tapsın müştəri.

2957 Ay keçir, il keçir, bar gətirir var,
Qazancı qardaş tək bölüşür onlar.
2958 Bəy də, xidmətçi də onlara bənzər,
Kitabı hesabı dürüstlük bəzər.
2959 Qula şirin sözlə nəsə verər bəy,
Qulun can şəhdini nuş edər əmək.
2960 Balta da qaldırar, qılınc da çalar,
Gülər nizam tapan ellər, obalar.
2961 Nemət aşıb-daşar, xəzinə dolar,
Düşmənin boynunu sındırmaq olar.
2962 Bəhrə-bar verənlər ulvidir, a bəy,
Bəhrə-bar verəni qorumaq gərək.
2963 Dünyalar dolaşan bir tacir başı,
Dinlə, nələr demiş, duy yaxşı-yaxşı.
2964 Faydasız oğuldan faydalı bir qul
Ustündür. Düşmənmiş öylə bir oğul.
2965 Faydaya can atır bütün canlılar,
Fayda görməz ovçu evdə qarıyar.
2966 Qanadsız quş uçmaz, bəyin qanadı,
Onun əsgəridir – onun övladı.
2967 Əsgərlə bilinir bəyin bəy gücü,
Qırır düyünləri əsgər qılıncı.
2968 Hansı bəy başına yığsa mərdləri,
Sahibqıran olub tutar hər yeri.
2969 Sənətdə-hünərdə kamil olan bəy,
Çatar hər əhdinə, başında çələng.
2970 Min-min sənət gərək cahangirə ki,
Sənət sayəsində tutsun hər yeri.
2971 Oğul, sənət öyrən, qiymət ver ona,
Dövlət quşu gibi qonar başına.
2972 Sənəti, hünəri dövlət quşu say,
Enər də, çiyninə qonar Günəş, Ay.
2973 Dünyalar dolaşan ağsaçlı sərvər,
Dinlə, nələr demiş, hər sözü bir zər:
2974 Sənəti, hünəri uca tut, uca,
Ucaldar o səni ömrün boyunca,



2975 Elm, savad öyrən, gəzmə boş-bekar,
Beynində nur saçar günəşlər, aylar.
2976 Hayqırdı Elbaşı: – Var ol, hər zaman,
Ey zəka yolçuşu, tazə-tər fidan.
2977 Bizə sən göstərdin ən dürüst yolu,
Vəfalı kişilər uludan ulu!
2978 Xalqımın üstündə mənəm hökmran,
Sözümlə, işimlə açıldı meydan.
2979 Fəfət bəyliyimlə fəxr etmirəm mən,
Firavanlıq deyil könlümdən keçən.
2980 İstəyim budur ki, qarşımdakılar,
Olsun məndən zəngin, güclü, bəxtiyar.
2981 Özgəni şad etmək öz şadlığımdır,
Yaxşı ad qazanmaq – azadlığımdır.
2982 Bütün xəzinəmi, gümüşü, zəri,
Verim, şad eləyim gərək əsgəri.
2983 Nədir əhdim mənim? Yaxşı bir ad-san,
Nəzərdən salmasın məni Yaradan.
2984 Bütün işçilərim var qazansın, var,
Azı mənim qədər zəngin olsunlar.
2985 Ölsəm, dua ilə yad eləsinlər,
Oyadıb ruhumu şad eləsinlər.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

2986 Bu işə nə qədər zəka qüvvəsi,
Sərf etdi Elbaşı – elin nəfəsi.
2987 Yaxşı bir ad-sandan, hörmətdən savay,
Ölən kimsənəyə nə qalır, eyvay.
2988 Varını-yoxunu xərclə millətə,
Qazan bu dünyanı, axirəti də.
2989 Sonda ki, bu qədər qızıl – gümüş var,
Hər hansı ölkəni qul etmək olar.
2990 Eşit, nələr demiş alim olan bəy,
Bəyliyin əsası qızıldı gerçək.

2991 Bəy gərək zər seçib ordu yaratsın,
Düşmənin boynuna zər kəmənd atsın.

2992 Çoxlu əsgər gərək, çox xəzinə yox,
Bəy tox olmasa da, el tox gərək, tox!

2993 Bəy yurdu basılmaz, varsa ordusu,
Ordusu olmasa, gülməz arzusu.

2994 Bəydən qayğı, hörmət görərsə ordu,
Hökm ilə fəth edər hər hansı yurdu.

2995 Bəy olsa məhəbbət, səxavət kanı,
Öz ovcunda tutar iki cahanı.

2996 Alim gör nə deyir: dargözdürsə bəy,
Xalqa hökm etməsi çox sürməyəcək.

2997 – Rədd olsun, xəsisdən, əlhəzər! – deyə,
Hamı qucaq açır səxavətliyə.

2998 Sənət-hünər əhli xəsisdən qaçar,
Comərdin başına gül-çiçək saçar.

2999 Bəylik və xəsislik bir-birinə zidd,
Xəsisi hər yerdə fəlakət gəzir.

3000 Xalqı əldə saxlar bir cüt qüvvə var:
Qızıl, bir də qılınc – iki bayraqdar.

3001 Yurdu səxavətlə möhkəmləndirək,
Bəyə bəylik verən səxadır, ey bəy!

3002 İldırım qılıncın düşmən bağrını,
Parçalar, kəsər də şah damarını.

3003 Qızılı, gümüşü saçsa yağış tək,
Yurdu qılıncsız da dolandırar bəy.

3004 Qılıncın, qızılın misli varmı heç?
Bu iki qüdrəti özün üçün seç.

3005 Qızıldır dərdlinin rəngini açan,
Dumanlı yollara al şəfəq saçan.

3006 Harda qılınc vursan, orda gümüş var,
Gümüş olan yerdə qılıncın parlar.

3007 Gümüş saç, yığılsın başına mərdlər,
Gümüş dərməyəni qılıncınla dər.

3008 Ey gılınclı igid, dönməsin odun,
Qılınca qurbandır yığdığın altun.



3009 Xəsis hey toplayar dövləti-varı,
Səxi qılıncıyla alar onları.

3010 Bəşər qanunları bu cür yaranmış,
Xəsisə həqarət, səxiyə alqış.

3011 Ögdülmüş yalvardı: – Ey pərvərdigar,
Elbaşı həmişə olsun bərqərar.

3012 Şad oldu Elbaşı dua-sənadan,
– Sənsən pənahımız, ey ulu Yəzdan!

3013 İnam məbədimiz özünsən yalnız,
Sənsən ağır gündə sığındığımız.

3014 Mənim səndən savay yox bir dayağım,
Sənsən umud yerim, şadlıq qaynağım.

3015 Yüz yaxşılıq gördüm – səndən yadigar,
Mənə vermədiyin bir diləkmi var.

3016 Yalnız duam ilə sığındım sənə,
Mən qəmgin, sən qəmsiz ulu kimsənə.

3017 Köməyim, qüdrətim səndəndi yalnız,
Göstər haqq yolunu, ey pənahımız!

3018 Ögdülmüş, güvəncim, taqətim, tabım,
Hər cür yaxşılıqdan üstün kitabım.

3019 Ən böyük sevinci bəxş etdin mənə,
Yüz yol minnətdaram ulu töhfənə.

3020 Sən mənim ömrümə şan-şərəf, ad-san,
Cismini, canını fəda qılırsan.

3021 Yardım istəyirəm, verim haqqını,
Olasan könlümün xeyli yaxını.

3022 Elbaşı söylədi: – Ey gövhər, ey zər,
Səni vəsf eləyir zəkavətlilər.

3023 Camal da səndədir, kamal da səndə,
Elm, mərifət də, ey ulu bəndə.

3024 Doğruçu, vəfalı, sədaqətlisən,
Əlindən tutursan insanların, sən.

3025 Xidmət qalmadı ki, bacarmayasan,
Çatmır xidmətinə ənam, ərmağan.

3026 İndi məndən sənə bir əvəz gərək,
Ödəyim haqqını, yaşa sevincək.

3027 Sən ki, mənə bunca şadlıq vermisən,
Xudadan xeyrini yüz qat görəsən.

3028 Elbaşı toxtadı, fikirli baxdı,
Xidmətçi yer öpdü, ayağa qalxdı.

3029 Minib köhlənini yola düzəldi,
Sevinclər içində evinə gəldi.

3030 Qıldı gecə-gündüz öz xidmətini,
Xidməti gətirdi səadətini.

3031 Parladı idrakı, elmi, biliyi,
Güldürdü, ram etdi bəxti fələyi.

3032 Eşit, nələr demiş dövlətli bir ər,
Dövləti dünyaya səs salan hünər.

3033 Kimin ki, dövləti aşır başından,
O, xoşbəxt yaranıb yaranışından.

3034 Dövlət üz ağardır, ucaldır başı,
Başın ağ buludla durar yanaşı.

3035 Ozan buna uyğun söz aramışdır.
Dinlə həmən sözü, ey mərd bahadır:

3036 Hər kim dövlətlisə, əqlinə yox söz,
Onun astarı da üz görünər, üz.

3037 Cahan filosofu natiq olsa da,
Dövlətsizsə gərək salmasın səda.

3038 Bu dünya qanunu böylədir ancaq,
Dövləti olanlar şöhrət tapacaq.

3039 Dövlət abır verir abırsıza da,
Uğurlar gətirir uğursuza da.

3040 Kimə ürcah olsa cahanda sərvət,
İçini, çölünü bəzəyər əlbət.

3041 Dövlətdir gətirən arzuları da,
Şərəfi, şöhrəti, iqtidarı da.

3042 Dövlət əldən getsə əyər başını,
Quyuda görərsən hər təlaşını.

3043 Bağlanma dünyaya, ey ağıllı ər,
Başın, uca başın min bəla çəkər.

3044 Bu bədzat, əmanət dünyadan əl çək,
Yalnız o dünyaya tələs, ey ürək!



3045 Bu alçaq məkandan əl üz, ey xəstə,
Yalnız uca yerdə bir məqam istə.

3046 Ey könlü pakizə, ey feli doğru,
Can at hər sahədə paklığa doğru.

3047 Ey himmət sahibi, bu yurda uyma,
Get, səni bəkləyir həqiqi dünya.

3048 Sənə bu dünya yox, axirət gərək,
Tərk etməsən, səni o tərk edəcək.

3049 Dünya cəfaçıdır, ona cəfa qıl,
Səni xilas edər o zaman əql.

3050 Ey başı aylanan, ey yoldan azan,
Sevmə bu dünyanı, zindandı, zindan.

3051 Dünya quyusuna quyulananlar,
Nə yuxarı qalxar, nə sevinc tapar.

3052 Qurtul bu quyudan, qalx yuxarı, qalx,
İbadətlə keçir vaxtını ancaq.

3053 Qayıt əyri yoldan, tüpür, tövbə qıl,
Ülvi bir aləmi arzular ağıl.

3054 Elbaşı, könlündə pak, ülvi niyyət,
Xalq üçün yürütdü yaxşı siyasət.

3055 Dincəldi el-oba, tapdı səadət,
Düşmən zəiflədi, dost buldu qüvvət.

3056 Elbaşı şadlıqla qucdu cahanı,
Bürüdü aləmi şöhrəti, şanı.

3057 Günlər bu minvalla bəxtiyar ötdü,
Canavar quzuyla yoldaşlıq etdi.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

3058 Çağırdı Elbaşı Ögdülmüşü ki,
Sorsun əhvalını, bilsin kefini.

3059 Günlər necə keçir, ey bədrli ay,
Ölkədə yoxsulmu çoxaldı, ya bəy?

3060 Nə qədər yaramaz, yavuz var eldə?
Xalqın əhvalını anlayaq bir də.

3061 Söyüşmü, alqışmı dillərdə gəzən?
Xalq qınayır bizi, ya deyir: – Əhsən.

3062 Yaxşılığımmı bol, nöqsanlarımmı,
Mənə aydın söylə, bilim çaramı.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

3063 Ögdülmüş söylədi: – Əziz Elbaşı,
Murad başa gəldi görün nə yaxşı.

3064 Elbaşı aləmin qeydinə qaldı,
Sevinclə çoxaldı, qəmlər azaldı.

3065 Tapdı ağ bəxtini, zənginləşdi xalq,
Çiçəkləndi şəhər, gül açdı qışlaq.

3066 Xalqın gecələri, gündüzləri dinc,
Bürüdü ölkəni səadət, sevinc.

3067 Alqışlar səslənir dildə-ağızda,
Sizə duaçıdır oğul da, qız da.

3068 Zülm – od-alovdur, ədalət də – su.
Sənin ədalətin yıxdı kabusu.

3069 Aləm çiçəkləndi siyasətinlə,
Zalim külə döndü ədalətinlə.

3070 Elbaşı, xalq üçün üç növ bəla var,
Bəy qafil olarsa yurdu talanar.

3071 Qurdlar söküb-töksə elin bağrını,
Elbaşı duymasa ahı-ağrını.

3072 Məgər bu üç dərddən səndə biri var?
Canavar sürüyə nə cür soxular?

3073 Ey düz siyasətli saf bəy, zərif bəy,
Tanrım bəxş eləyib sənə əql, ürək.

3074 Nə qədər qorxulu işləri gördün,
Xalqa ruzu verdin – əyin-baş verdin.

3075 Xudaya şükr ilə ibadət eylə,
Bir azca rahat ol, fərağət eylə.

3076 Kənardan üz versə nə qədər xəta,
Onu ləğv etməyə hazıram, ata!

3077 Şad oldu Elbaşı, fatihə verdi,
Şükr etdi Tanrıya, azaldı dərdi.

3078 – Ulu sahibimsən, ey mehribanım,
Ucaltdın köləni, qul natəvanı.

3079 Sən mənə göstərdin hər yaxşılığı.
Gəzirəm, boynumda min borcun dağı.

3080 Ha vaxt ödəyərəm bu qədər borcu?
Şükrümü özün qıl, ey ipin ucu!

## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

3081 Elbaşı söylədi: – Ey Ögdülmüşüm,
Xudanın fəzlidir sənlə görüşüm.

3082 Bütün yaxşılıqlar cəm olub səndə,
Sənsən zülmü yıxan, ədli tikən də.

3083 Xuda özü verdi hər töhfəsini,
Üstəlik on hissə pay bildi səni.

3084 Bəy özü nə qədər cəhd eləsə də,
Qulu əl verməsə, çatarmı əhdə?

3985 Bir cüt göz gibidir bəylə nökəri,
Çölü biri görür, içi digəri.

3086 Əgər yaxşıyamsa, sənə görəyəm,
Qulumsan, balamsan, ey böyük aləm.

3087 Aləmi fəth edən, ellər saxlayan,
Xaqan nələr demiş, qulaq ver bir an:

3088 Sədaqətli qulu tapmışdırsa bəy,
O qulu qızıla qərq etsin gərək.

3089 Buğün kişi tapmaq asandır məgər?
Bəxtəvər sayılır tapan, bəxtəvər.

3090 Sədaqətli olur qulların xası,
Sədaqət əhlini kimlər tapası?

3091 Sədaqət əhlini tapmasa bəşər,
Nə cür insanlıqdan bəhs aça bilər?

3092 Yanıb-yaxılıram, Ögdülmüş, inan:
Bircə sənsən mənə atandan qalan.

3093 Sənin tək biri də olsaydı əgər,
Fikir çəkərdimmi heç zərrə qədər?

3094 Ey dürüst xilqətli könül loğmanı,
Səni əldən versəm, başqası hanı?

3095 Sənin bu təkliyin bərk sıxır məni,
Tapa bilərsənsə tap öz eşini.

3096 Sənin də zəhmətin yüngülləşərdi,
Mənim də duamı göy eşidərdi.

3097 Qohum-qardaş ara, gör varmı biri,
Qəlbi səninki tək işıqlı, iri?!

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

3098 – Sağ olsun Elbaşı – dedi Ögdülmüş,
Əli işə yatsın, qönçə versin iş.

3099 Daim başa gəlsin əhdi-muradı,
Dincəlsin çırpınan qolu-qanadı.

3100 Mənim zəhmətimdən qayğılanmasın,
Tox tutsun könlünü, əbəs yanmasın.

3101 Mənim məşəqqətim, dincliyim də var,
Dinclik məşəqqəti daim yumşaldar.

3102 Əgər el işinə fayda verməyi,
Candan arzulasan, eşit, Elbəyi.

3103 Alim nələr demiş, qulaq ver barı:
Elmi mənimsəsin el başçıları.

3104 Çox olsa elmli idarəçilər,
Ucaldar ölkəni, yurda nur çilər.

3105 Yardımçı, elm əhli edərsə kömək,
Çatar rahatlığa, yeyib yatar bəy.

3106 Bu cür idrak əhli, elmə vəfadar,
Mənim qardaşlarım arasında var.

3107 Hər işi cəld görən, əla bacaran,
Ayıq, mütəfəkkir mərdlər var, inan.

3108 Feli-rəftarı düz, adı Ögdülmüş,
Bütün yaxşılıqlar əlini öpmüş.



3109 Heyif, bu dünyadan üz döndərdi tez,
Qovuşdu xudaya, könlü pak, təmiz.

3110 Sovuşur günləri ibadət ilə,
Yuyur suçlarını bu adətilə.

3111 Mənimkindən çoxdur fəzilətləri,
O – kişilər başı, mərdlər sərvəri.

3112 Mənim o qardaşım əl versə mənə,
Zəkası nur salar hər felə-fənnə.

3113 Onda Elbaşı da xatircəm olar,
Tutar bu aləmi, yaşar bəxtiyar.

3114 Elbaşı söylədi: – Taparsam onu,
Canın rahatlanar, açılar donu.

3115 Bu işə hazırlaş, əziz arkadaş,
Ensin dağdan düzə qoy yavaş-yavaş.

3116 Onu çağırmağa kimi göndərək?
Gələrmi bu yana... tədbir tök görək.

3117 Sifariş göndərək, ya məktub yazaq?
Hansı yaxşıdı gör, özün tap, qoçaq.

3118 Ögdülmüş söylədi: – Ey incə mənə,
Özün cavab verdin öz sualına.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

3119 Sizə qardaşımdan bəhs açdım, a bəy,
Gələrmi, gəlməzmi, çətindir demək.

3120 Sənə hörmət qoyar, gələrsə əgər,
Gəlməsə fərmanın qiymətdən düşər.

3121 Gəlməsə, sıxar da ismət, ar məni.
Elbaşı dərd çəkər, qınayar məni.

3122 Elbaşı söylədi: – Mən söz soruşdum,
Son də sualımın ardınca qoşdun.

3123 Çağır, kimdi görək o ləl mədəni,
Gəlməsə nə üçün qınaram səni?

3124 Dedin, bəlli oldu fəzilətləri,
Çağıraq, açılsın fəzl dəftəri.

3125 Deyirlər elm, ürfan, zəka əhlidir,
Umaram: görünsün o əhli-tədbir.

3126 Bütün insanlara təndir, deməli,
Üstəlik məşəldir, zəka məşəli.

3127 Yalnız zəkalardır iş bacaranlar,
Sudan da, daşdan da od alır onlar.

3128 Diqqətlə qulaq as sən bu sözlərə,
Nalı nalbəndə ver, zəri zərgərə.

3129 Elm ilə açılır ən möhkəm düyün,
Elmə vaqifsənsə fəxr elə, öyün.

3130 Elmi hələ dünən qavrayan insan,
Qavradınmı, bugün mağmun olmazsan.

3131 Təkcə mənə dəyməz onun faydası,
Sən də qardaşından qalarsan razı.

3132 Kişiyə dünyada qardaş gərəkdir,
Qardaş yoxsa, dost tut, dostluq köməkdir.

3133 Görün el rəhbəri nə gözəl deyib:
Qardaşı olanlar qalibdi, qalib.

3134 Qardaşlı mərdlərin gur gələr səsi,
Dosta qanad verər dostun nəfəsi.

3135 Özünə qardaş tap, yoxsa qardaşın,
Qardaş əvəzidir mərd arkadaşın.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

3136 Bəxtiyar Elbaşı! – dedi Ögdülmüş –
Mən çarə taparam, mümkündür görüş.

3137 Özüm tək gedərəm, versən icazə,
Dəvət eləyərəm söhbətə-sözə.

3138 Zəka dənizindən sözlər seçərəm,
Hər sözün əyninə bir don biçərəm.

3139 Özün yaxşı olar məktub yazasan,
Eşitsin, nə deyir verdiyin fərman.

3140 Fərmanı dinləyib cəld əkilməsin,
Mənə inansa da məndən bilməsin.



3141 Sözün söz yeri var, fərmanın fərman,
Yazının təsiri özgədir, inan.

3142 Ey əsli pakizə, insanı tanı:
Avamı ovlayar bəyin fərmanı.

3143 Alim kişilərdən qalma məsəl var:
Tutqun könülləri bəy sözü açar.

3144 İsti bir söz desə bəy öz quluna,
İllət sovuşsa da, ruh verər ona.

3145 Dilinin altına bal qoyursa bəy,
Daim sevilləcək vəsf ediləcək.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ CAVABI

3146 Elbaşı söylədi: – Budursa çara,
Yazalım məktubu, salalım tora.

3147 Son gedəsi olsan, get, hazırlıq gör,
Məktubu yazıram, özünlə götür.

## ELBAŞI GÜNDOĞDU MƏKTUB YAZIR

3148 Yazdı, qarşısında mürəkkəb, kağız,
Zəmin hazırladı işinə yalnız.

3149 Tanrının adıyla başladı sözə,
Odur əfv eləyən, odur möcüzə.

3150 Yalnız Tanrımızdır bizə qol-qanad,
Bütün dərdlilərə dərmandır bu ad.

3151 Duamın – sonamın yox nəhayəti,
Yalnız xuda verir bizə qisməti.

3152 Bütün xilqətləri özü yaratdı,
Yalnız Xuda verir bizə qisməti.

3153 Qadirdi, çatdırır bizi qismətə,
Göstərir hökmünü hər bir xilqətə.

3154 Aya yar-yaraşıq, günəşə işıq,
Göyə göy rəng verən Xaliqdi, Xaliq.

3155 Həmişə hərlənən fələyə bax, gör,
Dönüb dolanması Tanrı hökmüdür.

3156 Özü düzüb-qoşdu qəza-qədəri,
Qəzaya boyun əy, səcdə qıl, kiri.

3157 Qıldı nə istəsə, qılacaq yenə,
Odu, hər nə desə, olacaq yenə.

3158 Sizə Elbaşıdan alovlu salam,
Esənlik diləyən məktub yazıram.

3159 Sağ-salamatmısan, dinc yaşarmısan,
Yükünü rahatca daşıyırmısan?

3160 Eşitdim... yüksəkmiş fəzilətlərin,
Sənin yoxmuş mislin, ey hünərvərim.

3161 Tanrıdan verilib sənə bu qismət –
Elm-ürfan, fəzilət, əql, zəkavət.

3162 Eşitdim bu sayaq xislətlərini,
Səni arzuladım, ey gözüm, səni.

3163 Göndərdim qardaşın Ögdülmüş bəyi,
Ki sənə yetirsin məndəki rəyi.

3164 Bildim vaz keçmisən əzizlərindən,
Kəndindən, xalqından, can-ciyərindən.

3165 Tək-tənha üz qoyub dağa getmisən,
İbadət yolunda əhdə yetmisən.

3166 Söylə qardaşların neyləmiş sənə?
Neçin üz döndərdin, mənə desənə!

3167 Aç mənə, sənə bir zülm edilibsə,
Gəl bura, varlığın incidilibsə.

3168 Sənə ədalətlə qılaram mədəd,
Taparsan bu yerdə sevinc, səadət.

3169 Qardaşdan qardaşa çatar mənfəət,
Həlavət taparsan, yalnız həlavət.

3170 Qohumla, qardaşla barışmaq gərək,
Dostlara qaynayıb qarışmaq gərək.

3171 Harda yaxınların, əzizlərin var,
Bax könül gözüylə, axtaran tapar.

3172 Bu şerin yazarı nələr deyir gör:
Qarışan canların hüsnü özgədir.

3173 Qara yer ağ suyla qovuşan zaman,
Gülüstan yaranır, inan, gülüstan.



3174 Elə ki, birləsdi qardaşlar, dostlar,
Qol-qanad tapanlar səadət bular.

3175 İbadət yolunu seçsən, burda seç,
Şəhərin qışlaqdan fərqi varmı heç?

3176 Hər yerdə eynidir taət, ibadət,
Burda azca asan, dağda çətin, sərt.

3177 Öncə get mənimsə elmi, ürfanı,
Sonra dinə tapın, oxu Quranı.

3178 İki xas kişidir çalan qələbə,
Biri müəllimdir, biri tələbə.

3179 Öyrədən, öyrənən – dünyaya memar,
Sürüyə qatılır yerdə qalanlar.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ OYÜDÜ

3180 İndi hansındansan, ürəyini aç,
İkisindən biri ol, üçüncüdən qaç.

3181 Dərindən mənimsə, hikmətə uğraş,
Yorulma, usanma, zəhmətə qatlaş.

3182 Elm öyrən, qulaq as məsləhətə sən,
Sonra yollanarsan ibadətə sən.

3183 Eşit, nələr deyir bilgi verənlər,
Səcdəni bir müjdə sanan ərənlər.

3184 Tanrıya səcdəni elmdən öyrən,
Qapına damğa vur, bilimdən, öyrən.

3185 Bilgisiz səcdənin nə faydası var,
Bilgisiz abdallar nicatmı tapar.

3186 Elmsiz səcdəyə uyan naşıdır,
Alimin röyası ondan yaxşıdır.

3187 Ey dağlar başında haqqa tapınan,
Kənddə ibadətin üstündür ondan.

3188 Ümmətdən uzaqda ibadət olmaz,
Nə oruc əl verər, nə də ki namaz.

3189 Könül vermisənsə ibadətə sən,
Neçin qarışmırsan bu hümmətə sən?

3190 Zahidin eşqilə nə odlanırsan?
Bəladı zahidlik, sən aldanırsan.

3191 Öyünmə, hədərdi sənin adətin,
Kimsəyə xeyri yox bu ibadətin.

3192 İbadət tərzini gözləmək gərək,
Onu el gözündən gizləmək gərək.

3193 Kişisən, hifz elə bu adəti sən,
Gözə soxmayasan ibadəti sən.

3194 Xəlvət ibadəti xoşlayır ağıl,
Eşit bu kəlamı, ona əməl qıl.

3195 Təvazö gözləyən mərdlər, mətinlər,
Yüz il səcdə qıla, onu az bilər.

3196 Sən eşit dostunun məsləhətini,
Adamlar görməsin ibadətini.

3197 En düzə, səcdə qıl kənddə, şəhərdə,
Sənin hər duana çəkilsin pərdə.

3198 Xalqa xeyrin dəysin, dərdinə yara,
Qohuma-qardaşa bir çarə ara.

3199 Gör dul gəlinləri, anasızları,
Şil, əlsiz-ayaqsız, çarasızları.

3200 Xalq ilə fərizə namazım qıl,
Cümə namazını qıl-hacı sayıl.

3201 Əl tut yoxsullara, halal pul qazan,
Mədəd qıl, hər evdə qaynasın qazan.

3202 Bu cür xidmətlər də ibadətdi, bil,
Könül rahatlığı səadətdi, bil.

3203 Namaz da, oruc da öz xeyrinədir,
Öz xeyrini güdən nəçidir, nədir?

3205 Kişilərdən üstün, kişilər başı,
Bu beyti söyləyib görün nə yaxşı:

3206 Öz xeyrini güdmək kişilik deyil,
Özgənin xeyrini güdəndi kamil.

3207 Ərdi özgə üçün bənövşə dərən,
Yaxşıya, pisə də kərəm göstərən.

3208 Kişi fayda versin gərək bir kəsə,
Qoy ölsün kiməsə xeyri dəyməsə.



3209 Aç qarın doyuran,əyin-baş verən,
Kişini mərdlərin gültacı bil sən.

3210 Yalnız ibadətə könül verən kəs,
Tanrının lütfünə yol tapa bilməz.

3211 Tanrı sevincini istəyən insan,
İslam sevincini qazan bu başdan.

3212 Tanrı möhtac deyil sənin səcdənə,
Yaxşı ad qalacaq cahanda sənə.

3213 Yaxşı ad kişinin ibadətidir,
İbadətsiz ad da müvəqqətidir.

3214 Tanrına ibadət bəndəliyindir,
Xalqına xidmətdən güc alıb gedir.

3215 Əli-könlü açıq, səxa mədəni,
Alim gör nə demiş, eşit nəğməni:

3216 Tanrıya səcdə qıl. Əzizdi səcdən,
Ancaq səcdən ilə çox öyünmə sən.

3217 Tanrıya tapınmaq bəlkə də asan,
Gərək xalqını da unutmayasan.

3218 Gəl, gəl, çağırıram, Ozğurmuş, səni,
Öz xeyrini güdən sanma sən məni.

3219 Gəlsən, udacaqsan, qazanacaqsan,
Mənə zərəri yox, gəlməsən, inan.

3220 Səni çağırdım ki, bir ad-san qazan,
Xalqa xeyrin dəysin, abad olasan.

3221 Dediyim sözlərə diqqətlə yanaş,
Çin olsa, dayanma, Çin soddini aş.

3222 Mənə yardımçı ol orda yox, burda,
Varlandır yoxsulu, qüvvət ver yurda.

3223 Mənə ad-san gətir, özünə xeyir,
Onda iki dünya inan, sənindir.

3224 Məni yaxşılaşdır, özün yaxşı ol,
Ərdən ər öyrənər, ər naxışı ol.

3225 Sən mənə yaxşı ol, Tanrı da sənə –
Qılacaq lütfünü öz bəndəsinə.

3226 Eşit nələr demiş tacik alimi:
Yayılmış sədası ildırım kimi.

3227 Xalq bəyi gətirsə xalqa səadət,
Aşacaq başından, inan var-dövlət.

3228 Yaxşılığı bəyçün arzula ancaq,
Bəyin yaxşı olsa xeyir görər xalq.

3229 Avam yaxşı olar yalnız özüyçün,
Elbəyi yaxşısa, el də görər gün.

3230 Yalnız insanlara xeyir gətirən,
Adamı kişi bil yer üzündə sən.

3231 Xoşlar yaxşılığı bəlkə hər insan,
Bəs yaxşılıq nədir, gərək qanasan.

3232 Yaxşılıq odur ki, xalqa səadət,
Verməyin gətirsin sonə hələvət.

3233 Xalqa mehribandır yaxşı kişilər,
Mehr özü bəlkə də ən kamil əsər.

3234 Söylədim sözümü bu məktub ilə,
Qurudu qələmdə sonuncu gilə.

3235 Qalan sözlərimi, ayüzlüm, yenə,
Doğmaca qardaşın yetirər sənə.

3236 Bağladı məktubu möhürləyərək,
Götürdü Ögdülmüş: – Mübarək, a bəy.

3237 Elbaşı söylədi: – Qalx, yola çıx sən,
Qalan sözlərimi özün deyərsən.

3238 Alimsən, möhkəm ol, əliboş gəlmə,
Gəlsin hüzuruma o səs, o nəğmə.

3239 Alim gör nə demiş: – Həfəsi ovsun,
Bir elçi göndər ki, sözün söz olsun.

3240 Rəvamı heç sənə söz öyrədim mən?
Özün ki, hər şeyi dürüst bilirsən.

3241 Könlündə nə varsa həpsini söylə,
Dərdinə dərman ol, bir əlac eylə.

3242 Ögdülmüş – o nəcib, o gözəl insan,
– Əvət! Əvət! – deyib çıxdı otaqdan.

3243 Atlanıb yollandı evinə sarı,
Dəyişdi əynində olan paltarı.

3244 Batdı qızıl Günəş – o nurlu sandıq,
İşıqlı dünyaya çökdü qaranlıq.



3245 Qapandı göylərin açıq qübbəsi,
Siyah saçlarıyla bəyaz çöhrəsi.

3246 Canamaz yanında dəstəmaz aldı,
Qılıb namazını, uyğuya daldı.

3247 Söküldü dan yeri, çəkildi həbəş,
Oyandı Ögdülmüş, doğunca günəş.

3248 Sabah namazıyla əhdinə erdi,
Fikirli-fikirli təsbeh çevirdi.

3249 Dikəldi al Günəş – o nurlu qalxan,
Çırağban üzünü göstərdi cahan.

3250 Sürdü köhlənini o dağ başına,
Yetişdi ordakı qarındaşına.

3251 Mənzilə çatınca endi atından,
Qapının ağzında dayandı bir an.

3252 Döydü, taqqıldatdı. Özğurmuş qalxdı,
– Ya Tanrı! – deyibən irəli çıxdı.

3253 Açınca qapını qucaqlaşdılar,
Görüşüb öpüşüb soraqlaşdılar.

3254 Yapışdı qolundan, saldı içəri,
Başda nişan verdi ən rahat yeri.

3255 Böyük sevinc gəldi kiçik odaya,
Dedi: – Şükür sənə, şükür Xudaya!

3256 Ayrılıb yenidən görüşən zaman,
Nə qədər bəxtiyar olarmış insan.

3257 Nə böyük səadət – ağ yola düşmək –
Qardaşdan ayrılıb bir də görüşmək.

3258 Nə böyük səadət – verib baş-başa,
Bunca yaxın ola qardaş qardaşa.

3259 Görün nələr demiş mehriban qardaş –
Mehr, ülfət bağlayan könüldaş, sirdaş:

3260 Görüşsə, öpüşsə iki mehriban,
Kədər damla olar, sevinc birümman.

3261 Ən böyük bəxtəvər sayın onları –
Ayrılıb salamat tapışanları.

3262 Özğurmuş soruşdu qardaşlarını,
Ögdülmüş ərz etdi iftixarını.

3263 Ozğurmuş soruşdu: – Hüzuruma sən,
De necə gəlmisən, nədir diləkçən?
3264 Eşitdim Elbaşı məhrəmdir sənə,
Hicat verirsiniz mehr istəyənə.
3265 Elin qayğısını çəkənə əhsən,
Bu işdən əl üzüb nə cür gəlmisən?

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3266 Ögdülmüş söylədi: – Ey əziz adam,
Özüm görüşünü arzulamışam.
3267 Gəldim, şadlığımız qol-budaq atsın,
Həsrətin, ələmin qoy başı batsın.
3268 Gəldim, nəslimizə çələng hörməyə,
Bu gün fürsət tapdım səni görməyə.
3269 Səni görmədiyim gör neçə ildir,
Bu fürsət əlimə düşmədi bildir.
3270 Yaxşı ki, tapmışam bu sabah imkan,
Şükür, ey Yaradan, ey ulu Yəzdan.
3271 Sağ-salamat olsa insan dünyada,
Əhdi gözdə qalmaz, çatar murada.
3272 Fürsəti ən yaxşı qənimət bilən,
Kişi nələr demiş, eşitdinmi sən.
3273 Təki baş sağ olsun, hər şey düzələr,
Yenidən birləşər ayrı düşənlər.
3274 Sən dilək diləmə, can sağlığı um,
Min dilək yaradır sağlıq, ey quzum!
3275 Tanrı mətləbimə çatdırdı məni,
Sağ-salamat tapdım can istəyini.
3276 Bu sözdən başqa da yenə sözüm var,
İstəsən deyərəm, can rahatlanar.

## OZĞURMUŞ ÖGDÜLMÜŞ İLƏ DANIŞIR

3277 Ozğurmuş cöylədi: – Dinlədim səni,
Sən də eşit, qardaş, könlüm deyəni.
3278 Yeganə yaradan, o böyük bayat,
Sənə bəxş eləsin min-min yaxşı ad.
3279 Kişi düz yürüsə məslək yolunu,
Saxlamaz yolundan dərd-cavab onu.
3280 Sınanmış kişilər eşit nə deimiş,
Öyrən mənasını, ey könlü geniş.
3281 Canda qaynayırsa bir arzu-dilək,
Ayaq yorulsa da büdrəməyəcək.
3282 Dilək uzaq yolu yaxınlaşdırar,
Can bular, gözünə görünsə nigar.
3283 Qayğını çəkirəm, mənimdir bu qəm,
Qəlbimdə nə varsa açıq deyirəm.
3284 Hanı qohum-qardaş, hanı şəhər, kənd?
Həpsini tərk etdin, atdın nəhayət.
3285 Min bir bəla görən ey yalqız insan,
Necə natəvansan, ac-yalavacsan.
3286 Dərdini çox çəkir qohum-qardaşın,
Onlar dincələrmi, çatıqsa qaşın?
3287 Yalqızlıq yamandır. Yalqız qalan kəs,
Daim dərdə düşər, murada yetməz.
3288 Evdə əyləşməyə qalmayıb gücüm,
Canda taqətim yox, etməyə hücum.
3289 Min bir cəhənnəmi, dərdi-qubarı,
Məgər tək səninçün yaradıb Tanrı?
3290 Mənə açıq söylə, bilim düzünü –
Sən hardan almısan bunca dözümü?

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ CAVABI

3291 Ozğurmuş söylədi: – Sözün dürr imiş,
Eşit, mən də deyim, ey bağrı geniş.
3292 Bu sözlər ki, dedin, qanım-canımsan,
Qardaşım, sirdaşım, mehribanımsan.
3293 Qarındaş dərdini qarındaş çəkər,
Yad gəlib halına yanarmı məgər?

3294 Neçin ayrılmışam qardaşlarımdan,
Neçin tənhalığa can vermişəm, can?

3295 Orda aydın gördüm naqisliyimi,
Burdasa ucaldır ibadət məni.

3296 Tənhalıq yolunu seçdim burada,
Tənha ibadətlə yetim murada.

3297 Dünya işlərinə könül verən kəs,
Haqqa, ibadətə yol aça bilməz.

3298 Dünya qapısını qapamayınca,
Yarımçıq ibadət bicadır, bica.

3299 Sındıra bilməsən nəfsin boynunu,
Oyundur ibadət, bir din oyunu.

3300 Ariflər nə demiş, yaxşı qulaq as,
Nəfs ilə ibadət bir yerə sığmaz.

3301 Xidmətçi bir qulu yoldan çıxaran,
Yalnız öz nəfsidir, cahanda, inan.

3302 Nəfsinə qul olan öz dustağıdır,
Nəfs ona ən yaxın, ilkin yağıdır.

3303 Nəfsin güc gələndə baş qaldırsa can,
Yalnız idrakınla onu yıxarsan.

3304 Bununçun atmışam şəhəri, kəndi,
Dağların başında yalqızam indi.

3305 İnsan övladından döndərsəm də üz,
Nə qiybət əhliyəm, nə bir ağır söz.

3306 Qardaşım, demə ki, yalqızam, təkəm,
Mənə allahımın özüdür həmdəm.

3307 Uzağam qardaşdan, dostdan bir qədər,
Acammı, toxammı – qoy bilməsinlər.

3308 Elin könlü sınsa almaq çətindir,
Bu iş yalnız haqqın, ədalətindir.

3309 Nənim dəyməsə də bir xeyrim xalqa,
Ziyan da görməzlər, inan, ay qağa.

3310 Yaxşılıq, yamanlıq, xeyir, ya ziyan,
Haqqın öz işidir başdan, binadan.

3311 Ərşdən başlamış yer altınadək,
Tanrının hökmüdür hər iş, hər işdək.



3312 İnsandan gördüyün ziyan, ya xeyir,
Yaman da, yaxşı da sənə bəllidir.

3313 Deyirsən səcdəyə varmıdır hacət?
Qula qapı açır, inan, ibadət.

3314 Qulun quldur adı. Xidmət nə yaxşı!
Gərək ayılmasın səcdədən başı.

3315 Tanrı xoş görsə də, xoş görməsə də,
Misilsiz qüvvədir ibadət, səcdə.

3316 Mənə ziyan yoxdur yalqızlığımdan,
Bu yolla nəfsdən xilas olur can.

3317 Bu beyti söyləyən gör nələr demiş:
İçi bal tumudur, zahiri yemiş.

3318 Deyirsən ellərə qaynayıb qarış,
De göydənmi düşür, hanı dost-tanış?

3319 Yanıma gəlmisən bu sabah erkən,
Fərq et, ayrı düşdüm ibadətimdən.

3320 Təkcə bir səninlə ülfətim, məhrim,
Gör nə ziyan verdi, bəs hanı xeyrim?

3321 Qaynayıb-qarışsam insanlara mən,
Ayrı düşmərəmmi ibadətimdən?

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3322 – Eşitdim sözünü – Ögdülmüş dedi,
Mənim də fikrimi sən dinlə indi.

3323 Sənin söylədiyin sözlər yalandır,
Gözə kül üfürən, baş aldadandır.

3324 Hayan olmalısan dirilərə sən,
Səni kişi bilib desinlər əhsən.

3325 Diri, sağ olmağın nədir nişanı?
Onu xeyir verən işindən tanı.

3326 Evlənmək gərək ki, alınsın bəhər,
Övladsız kişiyə naxoş deyərlər.

3327 Gör nə gözəl demiş arif adamlar:
Övladsız kişinin ad-sanımı var?

3328 Oğul-qız hər evin bərəkətidir,
Sənə arxa olan bir nəsil gətir.

3329 Kimdən oğul qalsa yurda yadigar,
Sən onu diri bil, tapsa da məzar.

3330 Kişi oğul-qızsız köçsə dünyadan,
Ad-sanı puç olar, yurdu da viran.

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ CAVABI

3331 Özğürmuş söylədi: – Düz dedin sözü,
Amma bir mətləb də cəlb edir bizi.

3332 Xoşbəxtsən, övladın yaxşı çıxarsa,
Səndən sonra yanan bir şamın varsa.

3333 Övladın zay çıxsa yanarmı ocaq?
Sənin papağını yerə soxacaq.

3334 Yadlar, biganələr, xəbis köpəklər,
Səni lənət ilə yad edəcəklər.

3335 Oğul-qız düşmənsə, düşmən nə lazım?
İkiqat düşmənə varmıdır lüzüm?

3336 Zərərdən, zülmətdən qoyulmuş himi,
Düşmən olan yerdən işıq gələrmi?

3337 Necə dürüst demiş gör aqil dədə:
Zay övlad zülmətdir sənin üstündə.

3338 Alim kəlamı da tuş gəlir buna,
Könlü açıqların haq bəyanına.

3339 Yandırma özünü oğul-qız deyə,
Bütün övladlarmı qalxır zirvəyə?

3340 Murada yetən o, bəla çəkən sən,
O dövran sürəcək, sən öləcəksən.

3341 Evlənən gəmiyə minmiş gibidir,
Dənizin qoynuna girmiş gibidir.

3342 Ogul-qız doğulsa dağılır gəmi,
Dənizdə boğulmaq, heç kişilikmi?

3343 Oğul-qız ataya yar olsun gərək,
Olmasın önündə zəhərli xörək.

3344 Oğul-qız zay çıxsa tez verər bada,
Atanın, ananın ad-sanını da.

3345 Bu cür ailədən kim umar vəfa?
Umsa bəla görər, ya cövrü cəfa.



3346 Bu cür zillət çəkir övlad atası,
Fil gibi daşıyır möhnəti, yası.

3347 Ülfətdaş, arkadaş, dost – dedin gərək,
Demədin bu yükü kimlər çəkəcək?

3348 Dinlə, nələr deyir hökmü hikmətin:
Könül zərif şeydir, qorumaq çətin.

3349 Könül çox zərif bir şüşəyə bənzər,
Gözlə, toxunmasın, ey oğul, xətər.

3350 Könül zərifliyi hamıya əyan –
Əriyir istidən, donur soyuqdan.

3351 Dost dostdan incisə düşmənlik törər,
Düşmənlik, ədavət ölümdən betər.

3352 Düşmən qoymaz səni alasan murad,
Verər həlavətsiz, dilxor bir həyat.

3353 Düşmənin nə qədər kiçik olsa da,
Sən onu böyük bil namərd dünyada.

3354 Filin düşmənidir xırdaca hünü –
Girir qulağına, deşir gözünü.

3355 Düşmənlə döyüşdə qocalmış bir ər,
Dinlə, nələr demiş, tutanda səngər.

3356 Nəyindən qorxuram düşmənin, deyib,
Qafillik etməyin ən böyük eyib!

3357 Düşməni öndə bil hər addımbaşı,
Düşmənə düşmən ol, yaxşıya yaxşı.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3358 Dinləyin Ögdülmüş nələr söyləyir:
– Mənim sözlərimə qəlbində yer ver.

3359 Halaldan yaratdı aləmi allah,
Yemək, içmək verdi, güləndə sabah.

3360 Yaxşı dost tapanlar, ülfət yapanlar,
Yaxşı işlər görər, səadət bular.

3361 Xeyir verənlərə qayna-qarış sən,
Xeyir nişanədir kişi feyzindən.

3362 Tək-tənha dolanan yalqız kişilər,
Nə bir xeyir verər, nə də bar-bəhər.

3363 Xeyir gətirməyən adam ölüdür,
Yaşamır, həyatda yalnız sürünür.

3364 Hər kimin çoxdursa dostu, yoldaşı,
Şan-şöhrət qazanır, ucalır başı.

3365 Dostu çox olanlar qalxır get-gedə.
Qazanır bugünkü, axirəti də.

3366 Dərd çəksən, dərd çəkər, şad olsan, gülər,
Əgər lazım gəlsə, uğrunda ölər.

3367 Yaxşı hər nəyin var, xalqa çəkər car,
Amma nöqsanını faş etməz, susar.

3368 Yalnız cəng oyadar mürgülü mərdi,
Yaxşısı, yamanı bilinər qəti.

3369 Döyüş, cəng olmasa tanınarmı ər?
Ad-sanı, şöhrəti nə cür bilinər?

3370 Hər kimin parlaqsa fəzilətləri,
Azalmır başından düşmən fərdləri.

3371 Hər kim yamanlığı dünyadan silir,
Ona öz ətrafı düşmən kəsilir.

3372 Bir düşmən izləyir hər yaxşı işi,
Ölüdür düşməni olmayan kişi.

3373 Düşməni çox olan zər kişidir, qan,
Çoxdur fəziləti başdan-binadan.

3374 Düşmənlə döyüşdə boy atır insan,
Kim qazana bilər düşmənsiz ad-san?

3375 Dinlə nələr demiş şücaətli ər,
Yalnız hünər əhli kam ala bilər:

3376 Bir mərd min nəfəri sayarmı düşmən,
Paxıllıq görməsə o min nəfərdən?

3377 Qurd dönüb baxarmı köpəyə sarı,
Ardınca düşsə də it ilxıları?

3378 Özgə ayağına düşmərəm dersən,
Əbəs danışmaram, dinmərəm, dersən.

3379 Adamlar olmasa harda durarsan,
Kimin barəsində məclis qurarsan?



3380 Kimdi mərd? Dilinə şəkər, bal qatan,
Kişilər yanında baş yeri tutan.

3381 Kimdi mərd? Tikanı gül ilə əyən,
Acı danışana şirin söz deyən.

3382 Kimdi mərd? Dağ yükün altına girən,
Cəfa qılana da vəfa göstərən?

3383 Qisas köklərini canda çürütsün,
Qəlbində olanı dildə yürütsün.

3384 Yaxşılıq gücünə ad-san qazanan,
Kişilər nə demiş, qulaq ver bir an:

3385 Yaman danışmayın. Yaman-ağırdır,
Zərif könülləri yaman ağrıdır.

3386 O səni söysə də, sən onu vəsf et,
Alçaqdır. Sən ülvi qatarında get.

3387 Sənə cəfa qılsa, sən göstər vəfa,
Yaxşı vəfa saçar, yaman da cəfa.

3388 Qohumun, qardaşın əl üzsə səndən,
Sən yaxınlıq yarat, ey qohum sevən.

3389 Sənə bir zülmkar zülm etsə əgər,
Əfv et, keç suçundan, din böylə söylər.

3390 Bir günah işləsə qul, ya cariyə,
Əfv elə, əlində olsun sərmayə.

3391 Dözür hər cəfaya məşəl ürəklər,
Mərdlər ölümü də səbr ilə bəklər.

3392 Hicra bir guşəyə çəkilib getsən,
Nə cür tapacaqsan yaxşılığı sən?

3393 Orda qızıl, gümüş, gövhər, mismi var?
Daxmada rahatlıq nə cür tapılar?

3394 Nə oğul-qız dərdi, nə zər-zinətin,
Nə qəsrin, yurdun var, nə səadətin.

3395 Bir qoldan yapışan əlin də yoxdur,
Ad-sanın, əməlin, felin də yoxdur.

3396 Hər şeydən vaz keçdin damlasınadək,
Hansı axmaq sənə zahid deyəcək?

3397 Zahidlik kəməri bağlayan bir ər,
Aza qane olar, çoxu rədd edər.

3398 Kimsə tapmayanı zahidlər tapar,
Onun səbr adlanan bir silahı var.

3399 Mərd kimdir? Min çeşid əhdi olsa da,
Tamam üz döndərə ondan dünyada.

3400 Yalnız könül versin ibadətinə,
Əl tutsun yoxsula, bir də yetimə.

3401 Gəlhagəl dünyaya bel bağlamasın,
Gethaget dünyaya yas saxlamasın.

3402 Çatsa arzulara, gətirsə əli,
Qəlbini göstərsin şəkər, bal dili.

3403 Əməl et sözümə, ey xülqü yaxşı,
Mərdlikdir insanın əzəl naxışı.

3404 Kimdi yer üzündə ərlərin əri –
O kəs ki, seçmişdir mərdlik səngəri.

3405 Kimdi hamıdan baş, ülvi, hünərvər –
Çatıb min arzuya büdrəməyənlər.

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ CAVABI

3406 Ozğurmuş söylədi: – Açıq danış, din,
Ey bədrlənmiş ay, nədir mətləbin?

3407 İcazə verirəm, dözümü kəs də,
Cavab ver, əhdini, arzunu istə.

3408 Mənə açıq söylə, nədir istəyin?
Hansı arzularla çarpır ürəyin?

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3409 Ögdülmüş söylədi: – Sözüm budur ki,
Açım könlümdəki bir diləkçəmi.

3410 Elbaşı Gündoğdu tanıyır səni,
Onunçün yanına göndərdi məni.

3411 Möhkəm arzulayır ki, səni görsün,
Məni vəkili tək göndərib bugün.

3412 Səninçin nə qədər çətin olsa da,
Gərək baş çəkəsən böyük ustada.



3413 Bilirsən, Elbaşı, necə sultandır,
Xalqa çox canfəda, çox mehribandır.

3414 Üzünü görənlər bəxtiyar olur,
Hər iki dünyada səadət bulur.

3415 Eşit nələr demiş cahanı tutan,
Xalqı dolandıran şanlı hökmran.

3416 Adil, saf olmaq da bir səadətdir,
Səadət saçanlar xalqa bar verir.

3417 Harda şöhrət tapsa bəyin bəy adı,
O yeri ziyarət özü şəfadı.

3418 Ədalət, doğruluq əsasdır, əsas,
Ədalət olmasa, yaşayış olmaz.

3419 Dünya tapmasaydı adil bəyləri,
Tanrı şumlayardı yeddiqat yeri.

3420 Adil bəyi tapan, salam verən zat,
Qurtular günahdan, tapar da nicat.

3421 Görürsən adamam, gözü-könlü tox,
Səbəb elbaşıdır, başqa dağım yox.

3422 Tanrım zəka verdi, hələ elm də,
Bütün yaxşılıqlar gəlir əlimdən.

3423 Tanrımın verdiyi bacarıq, qüdrət,
El yükü çəkməyə çağırır əlbət.

3424 Neçin görmək istər səni Elbaşı –
Dost əllər qaldırar ən ağır daşı.

3425 Minnətçi gəlmişəm, kər tilsimi qır,
Məni tək qaytarma, ey mərd bahadır.

3426 Öz əlilə yazıb məktub göndərib,
Oxuyun, hər sözə can şəhdi verib.

3427 Çıxardı cibindən bəy məktubunu,
Açdı hörmət ilə Ozğurmuş onu.

3428 Oxudu diqqətlə fikrə dalaraq,
Dedi: – Elbaşıda təfəkkürə bax!

3429 Çağırır yanına, mənə gəl deyir,
Sözündən saçılır bərəkət, xeyir.

3430 Mənə məsləhət ver, nə cür davranım,
Çətindir mənimçün, canım, sultanım.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3431 Ögdülmüş söylədi: – Bizim Elbaşı
Səni yada salır hər addımbaşı.

3432 Dilindən düşmür heç adın, soyadın,
Nəzəri səndədir böyük ustadın.

3433 Könül kimi sevsə onu qılar yad,
Dilində dolaşar əziz, doğma ad.

3434 Sevən nələr deyir, oxu bu beyti,
Ürəyə qidadır yarın surəti.

3435 Könül kimi sevsə göz baxar ona,
Baxar, heyran qalar heyranlığına.

3436 Nə qədər mətləbi varsa könlündə,
Çıxar, aşkar olar bir gün dilində.

3437 Ozğurmuş söylədi: – Yol göstər mənə,
Ey igid, möhtacam məsləhətinə.

3438 Ən yaxın həmdəmim, qardaşım sənsən,
Qardaşlıq borcunu ödəməlisən.

3439 Məsləhət verməyə layiq ol, layiq,
Bu işə birlikdə yol tapmalıyıq.

3440 Qardaşsan, üstəlik yoldaşım ol sən,
Yoldaşlıq, qardaşlıq əkizdir əslən.

3441 Sənciyəz ən yaxın mehribanımsan,
Sənə inanıram, ey əziz insan.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3442 Ögdülmüş söylədi: – Öz sözünü sən,
Ey bəxtiyar kişi, soruşma məndən.

3443 Dəvətçi göndərib məni Elbaşı,
Məndənmi umursan yardım, ey naşı?

3444 Gedək, gəl! – deməkdən yox başqa sözüm,
Başqa söz deməyə gələrmi üzüm?

3445 Qoşa getməliyiz, baxmadan geri,
Başqa məsləhətin qalıbmı yeri?

3446 Eşit, nələr demiş elm əhli, aqil,
Zəka məbədinə səcdə qıl, əyil.



3447 Xeyrini bilənlər özü baş tacı,
Onun məsləhətə nə ehtiyacı?

3448 Öylə bir kimsədən məsləhət um ki,
Bilməsin xeyrini, mənfəətini.

3449 Öz xeyrini güdən xeyrə can atır,
Xeyrə can atmaq da zorakılıqdır.

3450 Deyirsən götür-qoy, məsləhət gərək,
Hər şeydən üstündür əmr edən ürək.

3451 Sənə ən mehriban elə özünsən,
Özün bildiyini sorma özgədən.

3452 Ən yaxşı məsləhət, zərif güldəstə,
Sənin özündədir, özündən istə.

3453 Səni deyə-deyə yol keçmişəm tək,
Məsləhət budur ki, bərabər gedək.

3454 Ərşə çəkilmişdir nicat, yaxşılıq,
Yaxşılıq xəlq içrə yuxudur artıq.

3455 Şəhərdə, kənddəki yaxşılıqları,
Sənə bir-bir dedim, ey iftixarım!

3456 Yaxşılıq dilədim Tanrıdan sənə,
Can versin hər sözüm, dedim, can sənə.

3457 İnsandan qaçırsan, neyləmiş insan?
Sən xalqa qaynayıb-qarışmalısan.

3458 Çarə qıl, məlhəm qoy islam dərdinə,
Cənnətdə yer verər yaradan sənə.

3459 Tanrıya səcdə qıl, dili-könlü düz,
Yaşa ömrün boyu bəxtiyar, ağüz.

3460 Xalqa qayna-qarış, birgə ömür sür,
Xəlqin eybini yox, öz eybini gör.

3461 Sənə uyğun gələn bu beyti oxu,
Əməl et sözünə, ey haqqın oxu!

3462 Umsan hansı yeri, o yerdə yaşa,
Ancaq özünü də unutma, haşa.

3463 Kişi öz xeyrini güdməyə bilməz,
Düz yolda vüqarla, iftixarla gəz.

3464 Xülqün yaxşı olsun, yaxşılıq umsan,
Min bir sevinc tapar o zaman insan.

3465 Yaxşılıq hər yerdə yaxşılıqdı, bil,
Yaxşılıq önündə yaxşıca əyil.

3466 Xülqün yaxşı olsun, yamanlığı at,
Qorxma, tapacaqsan səadət, nicat.

## OZĞURMUŞ DÜNYA EYBLƏRİNDƏN DANIŞIR

3467 Ozğurmuş söylədi: – dinlədim səni,
İndi də sən eşit könlüm deyəni.

3468 Bu dünya özünü sevdirmiş sənə,
Fəzilət demisən eyiblərinə.

3469 Heyrət etməməyin aydındır mənə,
Sevən sevdiyinin varmaz eybinə.

3470 Bu dünya sevdirib sənə özünü,
Yamanı yaxşı tək örtüb gözünü.

3471 Sevən nələr demiş, aydın deyilmi,
Fəzilət bilirsən yarın eybini.

3472 Sevimli olmağın nədir nişanı –
Qızılgül sanırsan onda tikanı.

3473 Dünyanı sevməyin nişanəsi də,
Qözəllik saymaqdır eybi əslində.

3474 Dünyanı nə qədər vəsf etsən, öysən,
Sənə göstərərəm min eybini mən.

3475 İnsan günah etsə, Tanrım inciyər,
Dünya bir əmanət yerdi, köç! – deyər.

3476 Neçin istəyirsən əmanət yeri?
Yalnız cənnətdədir səadət yeri.

3477 Şad etmək istəsə Tanrı, qulunu,
Ona dünya verməz, açar yolunu.

3478 Bu dünya üzündə yaxşı de nə var?
Afətdir, Tanrıdan bizi gen salar.

3479 Sığmaz yerə-göyə zənginləşənlər,
Yalnız yoxsul olur təvazökar ər.

3480 Mən kiməm? Tanrının dəlisi bir kəm!
Dünya tələb etsə it kimi ölləm.



3481 Çıplaq doğulanlar çıplaq da gedir,
Tutmaq yox, dünyanı atmaq gərəkdir.

3482 Neçin qürurlusan, ey öləri şəxs,
Üçcə günlük qonaq deyilsənmi bəs?

3483 Həyat dartır bizi ölümə doğru,
Daim fürsət güdür əzrayıl – oğru.

3484 Dünya qapı açır, hər gün bir qapı,
Hər məzar bir şəxsi həyatdan qapır.

3485 Burda üççə günlük qonaqlıq üçün,
Dirənmə çiynində dağ boyda yükün.

3486 Dünya vəfasızdır, dolur, boşalır,
Hər nə vermişdirsə əlindən alır.

3487 Öncə beşik verir, sonra da məzar,
Başqa kimsələrə balıar, laləzar.

3488 Dünya dedikləri kölgəyə bənzər,
İzləyərsən, qaçar, qaçarsan izlər.

3489 Fikir ver, tuş gəlir bu kəlam sənə,
Düşün mənasını ey pak kimsənə.

3490 İzləsən bu dünya, önündən qaçar,
Yalnız mərd kimsələr ondan baş açar.

3491 Seyr elə, dərk elə bu qülü-qalı,
Dini basıb yeyir dünyanın malı.

3492 Təzə gəlin kimi bəzənir dünya,
Əslində cilvəsi röyadı, röya.

3493 Can verme, buraxmaz qartımış qarı,
Yapışar yaxandan, dartar yuxarı.

3494 Qılığı cəfadır, özü bivəfa,
Qıymaz ki, görəsən üççə ay səfa.

3495 Dünyaya bağlanan sönər get-gedə,
Bir ölümə bənzər diriliyi də.

3496 Ömür qiymətlidir, düşünsən bir az,
Onu boş işlərə sərf etmək olmaz.

3497 Ömür sərmayədir yaxşılıq üçün,
Hədər, boş keçirmə onu sən bu gün.

3498 Dünyanın məğzidir, diqqət ver, diqqət,
Halal, haram, şübhə – bu üç əlamət.

3499 Dünya oxşar səni, axırda qovlar,
Öncə şərbət verər, sonra zəhrimar.

3500 Halalın, haramın öz qiyməti var,
Ehtiyat gözləsən şübhən dağılar.

3501 Sevinci az qala azdırar səni,
Ələmi, qayğısı bezdirər səni.

3502 Bir şadlıq verər ki, sonu ələmdir,
Üzü sevincdirsə, astarı qəmdir.

3503 Bir nemət uzadar, haqqı məşəqqət,
Zillət çəkdirməsə verərmi nemət?

3504 Dinlə, nələr demiş ayıq-sayıq ər:
Həzər, dünya sənə bəla yetirər.

3505 Zənginlik istəsən yoxsul ol, yoxsul,
Yoxsulluq baylıqdır, buna əmin ol.

3506 Sənə kəc baxanlar qoy qansın bunu:
Qara yer altında verər borcunu.

3507 Hər nə dərmisənsə, bir gün puç olar,
Hər nə yığmısansa, çökər, uçular.

3508 Gedər gedərilər, gələr gələsi,
Ağlar vağam olan, gülər qönçəsi.

3509 Dəyişər gedəri, gələri dünya,
Yetirmiş, itirmiş nələri dünya.

3510 Arif könül verməz köçub gedənə,
Hazırlar özünü uçub gələnə.

3511 Ölümü dərk edən düşünsə az-maz,
Yubanmaz, dünyada binə bağlamaz.

3512 Yolda ev tikərmi yola səfərbər?
Tanqah toplayarmı köçən kişilər?

3512 Bu dünya səninçin bir mehmanxana,
Mehman ol, ömrünü bağlama ona.

3514 Halı dəyişməyən bir kimsə varmı,
Aqil də dünyadan vəfa umarmı?

3515 Övliyalar umdu alimdən bəhər,
Zahidlər dünyam tərk elədilər.

3516 Bu dünya könlünü alsa da ələ,
Qorx, gözə görünməz tələdir, tələ.



3517 Çoxları dünyada qafildi, qafil,
Unutmuş özünü, ilişibsə, bil.

2518 Ayıq, ehtiyatlı şairlər başı,
Gör nələr söyləmiş, duy yaxşı-yaxşı.

2519 Min il həlavətlə dövran sürsə də,
Yenə solur, sönür insan get-gedə.

3520 Axırda qara yer qismətdir ona,
Topraq nə vermişsə basır bağrına.

3521 Nə töksən aşına, çıxar qarşına,
Dirilik əlini çəkər başına.

3422 Sən dəmdə ah çəksən, nə faydası var,
İl, ay, gün şahiddir sənsən günahkar.

3423 Dünyanın dincliyi üç şeyə bağlı,
Üçlükdən yaranır ömür nağılı.

3524 Sevinci, dincliyi yaradır üçlük,
Götürmə çiyninə, ey dost, başqa yük.

3525 Bir gün gəlib çatır ölüm soyuğu,
Yoxdur həlavəti, bir afətdir o.

3526 Oğul-qız qayğısı – başqa bir zəhmət,
Övlad təşvişini çəkmək məşəqqət.

3527 Dinlə, nələr demiş sənin ustadın:
Əridir kişini oğul-qız, qadın.

3528 Qadınla söz-söhbət şirin olsa da,
Sanki yuyunarsan buz gibi suda.

3529 Dünya dedikləri mələk-cadugər,
Sənə şərbət verər, üstündən zəhər.

3530 Üzdə nəyə bənzər – şirin nemətə,
Əslində məzəsiz, duzsuz söhbətə.

3531 Ağappaq günümü qaraldan dünya,
Qəbr adlı evimi daraldan dünya.

3532 Dünyanın dincliyi üç şeyə bağlı,
Ey xilqəti gözəl, ey bağrı dağlı.

3533 Düşmənin – cismi can və dünya dadı,
Bu iki tolədir qəlbin fəryadı.

3534 Üçüncü düşmənin – din oğrusudur,
Əlhəzər! Tanrıdan mətləbim budur.

3535 Üç düşmən... üçü də qansız, qəvi, sər,
Cismü-can törədir böyük ədavət.

3536 Tanrını zikr etsən, gedər bəlalar,
Qorxma, get. Bu dünya yerində qalar.

3537 Ödərəm cismü-can tələbini mən,
Fəqət ölüm gəlsə can gedər əldən.

3538 Gör nə gözəl demiş ər mütəfəkkir,
Bu söz meyar gibi bizə gərəkdir.

3539 Cismü-can incidir, dərd verir mənə,
Güldürür, ağladır hey dönə-dönə.

3540 Hərdən tox yatıram, hərdən susuz, ac,
Ürək bir arzuya, bir əhdə möhtac.

3541 Çatsam bir əhdimə, bir əhdim qalır,
Məgər dərman tapsam, dərdim azalır?

3542 Ram edə bilmirəm cism ilə canı,
Sən özün təslim et, ulu Yəzdanım.

3543 Yaman inadcıldır bu cism ilə can,
Nə cür əzizləsən, mehr umma ondan.

3544 Cismü can şikarçı köpəyə bənzər,
Toxa ağasını tanıyar məgər?

3545 Getməz ov dalınca dolusa qarnı,
Saymaz ağasının arzularını.

3546 Cism can qayğısız oğlana oxşar,
Toxsa, oynar qaçar. Get, bir il axtar.

3547 Tərpənməz yerindən, toxdursa az-maz,
Onun nazı ilə oynamaq olmaz.

3548 Ömür üçcə gündən ibarətdi, bil,
Yuxu və gecələr hesabdan deyil.

3549 Biri ötən gecə, digəri ertə,
Çıxarmı, çıxmazmı ertəyə bəndə?

3550 Yoxdur bundan savay dirilik, ömür,
Sabahın sonluğu fəna görünür.

3551 Erkək atəşini söndürmək üçün,
Qadınla görüş də macaldır bu gün.

3552 İstər arvad olsun, istər nazənin –
Odunu birtəhər söndürər sənin.



3553 Boğazın dincələr, doyubsa qarnın,
Əbəsdir başqa cür çalışmaların.

3554 Qarın doyurmaqçin bu dünyada sən,
Arpa da, halva da yeyə bilərsən.

3555 Şəkər, halva yeyən oyanar səhər,
Yenə acam deyər, yenə ver deyər.

3556 Görün nə söyləmiş gözü-könlü tox,
Yoxsul mütəfəkkir, hər kəlməsi ox:

3557 Sən ömrün boyunca qaymaq, bal yedin,
Mən cad, kəpək yedim. Sınmadı qəddim.

3558 Doyduq da hər gecə bərabər yatdıq,
Yenə sübh havası bizi oyatdı.

3559 Dünyanı tutsan da bir gün ölürsən,
Məzarda hamıya təndaş gəlirsən.

3560 Qara yer altında, böylədir qayda,
Yanbayan uyuyur yoxsul da, bay da.

3561 Əmanət dünyanı görüb üçcə gün,
Neçin öyünürsən, ey məğrur ölgün?

3562 Dünyanı tutmağa can atan qağa,
Ölüm də can atır səni tutmağa.

3563 Dirilik, həlavət səndən gen gəzər,
Bəndini qırmağa olum tələsər.

3564 Hər canlı, şübhəsiz, bir gün öləcək,
Hansı gün öləcək? Bilənlər tək-tək.

3565 Cocuk arzular ki çıxsın saqqalı,
Saqqallı nə istər? Ağarsın çalı.

3566 Saqqal ağaranda ölüm yanaşır,
Sənin silahın yox ölümə qarşı.

3567 Yandırma özünü bu dünya üçün,
Əbəs saçılmasın atəşin, gücün.

3568 Dünya dedikləri şor suya bənzər,
Nə qədər içsə də doymaz təşnələr.

3569 Qum çölünə oxşar hər insan oğlu,
Doymaz, yol açsa da yüz nəhrə doğru.

3570 Dünya dedikləri sərab gibidir,
Tutmaq istəyirsən, çəkilib gedir.

3571 İlğımdır, çatmazsan nə qədər getsən,
Görünər, sonra da itər nəzərdən.

3572 Əl vermə, baş əymə cismə, cana sən,
İstəyi – oyundur, şadlığı – matəm.

3573 Yaşadığın günlər getdimi, gəlməz,
Nə qədər yaşarsan, bir kimsə bilməz.

3574 Çalış, boş ötməsin əlindəki gün,
Hazırlaş ölümə, yaşa din üçün.

3575 Dinlə, nələr demiş ayıq, hünərvər,
Hər cür kəsafətdən təmizlənmiş ər:

3576 Sovuşan gecəni saldın yola sən,
Sabahkı günün də çıxacaq əldən.

3577 Günlərin arası bircə ləhzədir,
Budur ömrün-günün, ey pir oğlu pir.

3578 Ötən ötdü-keçdi, tükəndi nəfəs,

3579 Məni çağırırsan şəhərə, kəndə,
Nəfsimin quluyam. Can hanı məndə?

3580 Cismü-can düşməndir, başqa düşmənin,
Adı zənginlikdir, tələdir yəqin.

3581 Nəfsə, cismə, cana baş əymə, oğul,
Uyma diləklərə, möhkəm ol, mərd ol.

3582 Dinlə, nələr demiş ayıq, hünərvər,
Nəfsinin boynunu sındıran bir ər:

3583 Uyma cana, cismə, ey elmi yüksək,
Nəfsə əsir olsan, dinin çökəcək.

3584 Hissinə, nəfsinə əsir düşənə,
Kişi demək olmaz, aydınmı sənə?

3585 Nəfsinə, cisminə xərac verən kəs,
Qarışar torpağa, eşq ola bilməz.

3586 Zəkasız adamlar çoxdan ölüdür,
Hər əhdi, istəyi bir qan gölüdür.

3587 Budur, açıq dedim, nədir bu dünya,
Get düşün, gözündən çəkilsin röya.



## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3588 Ögdülmüş söylədi: – Dinlədim səni,
Ey bəxtiyar kişi, saflıq mədəni.

3589 Halı böylə ikən qoca dünyanın,
Öz ömür yolunu bağlama, sakın!

3590 Bu geniş aləmi qılma bunca dar,
Günahkar quluna tanrı fəzli var.

3591 Əzabı bolsa da, rəhmi kəm deyil,
Günahkarına da rəhmət deyir, bil.

3592 Rəhmətə ümid qıl, əzabdan çəkin,
Səcdə et, bəndəlik köhlənini min.

3593 Aləm, atıb gəlsə şəhəri, kəndi,
Hamı dağa çıxsa, dağ sökülərdi.

3594 Aləm pozulardı, ey bəndə Məcnun,
Nəsli kəsilərdi insan oğlunun.

3595 Bütün xalq dünyanın eşqilə coşsa,
Gecəni gündüzə qatıb çalışsa.

3596 Atsa ibadəti, toplasa pul-mal,
Məgər dolmazdımı cəhənnəm dərhal?

3597 İki ev yarandı xalq üçün əlbət,
Biri-cəhənnəmdir, o biri-cənnət.

3598 İki göz verilib bizə... baxmağa
Biri axirətə, biri cahana.

3599 İki əl verilib – tutsun, dalğanı,
Biri axirəti, biri dünyanı.

3600 Cüt ayaq verilib – addımlasın da,
Biri o dünyada, biri yaxında.

3601 Dinlə, nələr demiş zəkavətlilər,
Ayıl, qafil olma, ey günahkar ər!

3602 Bu iki dünyanı yaratdı xuda,
Bunu tapmısansa, istə onu da.

3603 İnsan övladını – ac qalan, doyan,
Bir millət yaratdı böyük Yaradan.

3604 Qarnına yem verdi, əyninə geyim,
Budur yaşayışın ilk şərti deyim.

3605 Geyim zəruridir, hələ ruzu da,
Halal süfrəmizin halal duzu da.

3606 Halal dünya tapsan, götürsən bəhər,
Ondan yoxsula da pay ucu göstər.

3607 Nəfsinin gözünə şiş soxan kişi,
Necə gözəl qurur heç bilsən işi.

3608 Gözlə ədaləti, çəkin Tanrıdan,
Fəzlinə umud et, rahimdi Yəzdan.

3609 Bəndəlik yolundan azma, büdrəmə,
Yol haqqın yoludur, başqa söz demə.

3610 Naşıya, nadana nəsihət verən,
Gör necə dürr saçıb xəzinəsindən:

3611 Umuddan, qorxudan cüt qanad bağla,
Bu iki qüdrətdir nur saçan ağla.

3612 Dinlə fərmanını, qulluq et haqqa,
Qədəm bas saraya, arxalan dağa.

3613 Umudla qorxudur sənə cüt qanad,
Qanadlan, qalx ərşə, ey möhtəşəm zat.

3614 Üzmə umudunu, suçluyam deyə,
Bağlan ibadətə, əl qaldır göyə.

3615 Bəndəlik deməkdir taət, ibadət,
Hər kimsə bəndəsə etsin itaət.

3616 Tanrı buyruğunu müqəddəs tutan,
Zaval görməyəcək başdan, binadan.

3617 Özünə amansız özün ol, özün,
Daşı parçalasın idrakın, sözün.

3618 Budur, mən söylədim bildiklərimi,
Sənə xoş gəlirsə, götür fikrimi.

3619 Fikrimi, zikrimi qəbul etməsən,
Cavab ver, məğzini mənimsəyim mən.

3620 Sözü uzatmağın nə mənası var?
Yarım cümlədən də dost dostu anlar.

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ CAVABI

3621 Ozğurmuş əlini qoydu alnına,
Dalıb xəyallara, aradı məna.



3622 Dedi: – Əziz qardaş, təşvişim artdı,
Mehrin, məhəbbətin məni oyatdı.

3623 Tanrı nicat versin, qüssəmi yedin,
Bu yaxşı sözləri mənimçin dedin.

2624 Düşündüm, daşındım, qardaş, mən yetim,
Bu işdə görünmür səlahiyyətim.

3625 Könlüm istəmir heç, qaçır bu işdən,
Könül sevməyən iş xatadı əslən.

3626 Sevib-sevilməklə bəxtiyar olan,
Ozan gör nə söylər, bir beytini an:

3627 Hansı bir addımı atmaq istəsən,
Öncə məsləhətləş öz qəlbinlə sən.

3628 Yaxşı kişilərə üz tutmaq olar,
Ancaq lap yaxında öz ürəyin var.

3629 Hamıdan mehriban sənə özünsən,
Könlün istəməyən iş görmə əslən.

3630 Bunu yadda saxla, ey qəlbi büllur:
Könül sevməyən iş faydasız olur.

3631 Mən çaşıb qalmışam, ey pir oğlu pir,
Könlüm bu addımı atmaq istəmir.

3632 Səndən dönə-dönə üzr istəyirəm,
Məni yalqız burax, ey ülvi həmdəm.

3633 Nə xülqüm, şöhrətim, nə qılığım var,
Görüşsək, Elbaşı məndə nə tapar?

3634 Mən dünyadan qaçıb gəldim bu yerə,
Nə üzlə qayıdım ora dübarə?

3635 İnsana xidmətdən əl çəkmişəm, əl,
Tanrıya səcdəni saymışam əfzəl.

3636 Burax, məşğul olum ibadətimlə,
Duaçın olaram, ey hüsnü şölə.

3637 İki can vəhdəti bulmaq istəsən,
Məni yox, görüşə özünü seç sən.

3638 Zəhmət mənim olsun, fərağət sənin,
Elbaşı yanında iş, xidmət sənin.

3639 Ünsiyyət yaradan bir hünərvərin,
Fikrinə diqqət et, canım-ciyərim.

3640 Gözünü-könlünü səfərbər qılan,
Çıxarar əhdini daşdan-qayadan.

3641 Xalq nəyə güvənir? Min bir dəbinə,
Çarpışır, çatır da öz mətləbinə.

3642 Dinlə, nələr demiş eşqi müqəddəs,
Vəfası dillərdə dastan olan kəs:

3643 Yaxınlıq meyarı öz könlündü, bil,
Tapar uzağı da, yaxınsa könül.

3644 Vəfanın gözüylə baxsan görərsən,
Beşcə qarış yerdir Şərqdən Qərbəcən.

3645 Ögdülmüş şöylədi: – Dinlədim səni,
Sən də eşit məni, ey ləl mədəni.

3646 Elbaşı gözləyir, göz dikib sana,
Məni utandırma, məktub yaz ona.

3647 Öz əlilə yazıb, göndərib kağız,
Ona cavab yolla barı bir ağız.

3648 Mən yola düşürəm, cavab ver mənə,
Möhtacam beş kəlmə vida sözünə.

3649 Həm məktub umuram, həm dil cavabı,
Ey mənim könlümün tavanı, tabı.

## ƏLCAVAB

3650 Ozğurmuş söylədi: – Gərəksə yazı,
Yazaram indicə cavab kağızı.

3651 Kağız, qələm aldı, mürəkkəb tapdı,
Sözləri elə bil havadan qapdı.

3652 Tanrının adıyla başladı sözə,
Yaradan, əfv edən ulu möcüzə!

3653 Dilimdə, könlümdə min-min dualar,
Sənə tapınıram, ey pərvərdigar!

3654 Nə qədər xilqəti özün yaratdın,
Geyim, ruzu verdin, həyata atdın.

3655 Vahidsən, misilsiz, bircəsən yəqin,
Özünsən xaliqi iki aləmin.

3656 Bizdən çox yüksəkdə, ucadasan çox,
Şərikin, ortağın, bənzərin də yox.



3657 Ululuq, böyüklük yaraşır sana,
Qadir hökmransan cümlə-cahana.

3658 Yaratdın nə qədər qullarını sən,
Hamsına inayət əta etmisən.

3659 Hökmündən rəng aldı mavi asiman,
Ay, günəş, ulduz da asıldı ordan.

3660 Kül rəngli topraqda ağ su, yaşıl su,
Külək, atəş-alov, çəmən qoxusu.

3661 Yaratdın hər şeyi... dünya quruldu,
Nə hamin, nə arxan, nə mislin oldu.

3662 İstəsən qulunu əzizləyərsən,
Yaxud səcdəsini qəhr eləyərsən.

3663 Hər kəsin qəzası bəllidir sənə,
Sənsiz varmı çatan öz mətləbinə?

3664 Salamlar sevimli peyğəmbərimə,
Bizə yol göstərən baş rəhbərimə.

3665 Yazdım Elbaşıya dua məktubu,
Mənim sağlıq arzum, salamımdı bu.

3666 Elbaşısı göstərdi mərhəmətini,
Gözüm işıqlandı, öpdüm xəttini.

3667 Məhəbbət yaşayır dürüst xəttində,
Hər bir öyüdündə, nəsihətində.

3668 Mənə vəd eləyir nələr, ay nələr,
Ənam, yemək-içmək, saysız töhfələr.

3669 Arzular dalınca qaçan insanlar,
Dolaşır aləmi, gəzir biqərar.

3670 Dövlətdən bir ziyan görməmişəm mən,
Varlığım isinib mərhəmətindən.

3671 Ölsəm, aşkar olar zərərim bəlkə,
Bir xeyir görməyib məndən bu ölkə.

3672 Nə vəfa qılmışam elin yolunda,
Nə xidmət etmişəm qolum qolunda.

3673 Nə törə bilmişəm, nə dəb, nə adət,
Nə də göstərmişəm önündə xidmət.

3674 Bəlkə çoxlarına cəfa vermişəm,
Cəfa məktəbinə varmaqdır peşəm.

3675 Sığındım, Tanrıma verdim canımı,
Qoy özü qorusun din-imanımı.

3676 Yeməyi, geyməyi əsirgəməyən,
Tanrıma borcluyam yerdən göyəcən.

3677 Səndən dünyaları qızırqanmadı,
Mənə vermədimi bu etiqadı?

3678 Yaratdı, yaşatdı, verdi pərvəriş,
Bəli, dünya bəyi, onundu dərdiş.

3679 Baylığım, zaylığım, yaxşım, yamanım,
Yalnız Tanrıdandır, ey səxa kanım.

3680 Haqqın qapısıdır yalnız əbədi –
Mənim səcdə yerim, xalqın məbədi.

3681 Neçin gəlməliyəm hüzuruna mən?
Neçin bəy ömrünü zay etməliyəm?

3682 Tanrı qullarıyıq biz hər ikimiz,
Qulluq içindəyiz pakizə, təmiz.

3683 Qula səcdə qılmaq yaraşmaz bizə,
Sən özün verməzsən buna icazə.

3684 Ey yüksək könüllü, eşit bu sözü,
Gör kimi göstərir zəka güzgüsü.

3685 İnsana yaraşmaz insana səcdə,
İbadət qılırsan hansı məbədə?

3686 Kimə tapınmalı? Yalnız Allaha,
Qapını açıq qoy haqqa, dərgaha.

3687 Mənim dörd arzumu yetir yerinə,
Mən səcdə qılaram o halda sənə.

3688 Bir ömür ver mənə, ömür nöqsansız,
Bir gənclik istərəm, gənclik xəzansız.

3689 Yoxsulluqdan uzaq həyat ver, həyat,
Azarsız, bezarsız günlər – şad, azad.

3690 Mənə bəxş eləsən bu dörd fürsəti,
Səcdənə gələcəm, ey səadətim!

3691 Səni məbəd bilib qulun olacam,
Canımı verəcəm, ey başı ucam!

3692 Bunları verməyə gücün yetməsə,
Mənə açıq bildir, ey ulu kimsə.

3693 Mənim ruzum da var, əyin-başım da,
Yenə gərək olsa bəxş edər Xuda.

3694 Həyat da, ölüm də, qədir-qiymət də,
Onun əlindədir – Tanrı əlində.

3695 Yalnız zəkalardır bunu dərk edən,
Başqa cür olarmı, ey haqqa həmdəm?

3696 Məni bircə Tanrım qoruduğutək,
Sən qoruyarmısan, ey adı yüksək?

3697 Tanrım məni gözlər dərddən, bəladan,
Mən səni gözlərəm, sağ qalsam, inan.

3698 Məni yedirməzsən özün yeməsən,
Amma Tanrım yeməz, ruzu verirkən.

3699 Dərdi şərh etməyin nə mənası var?
Dilim deməsə də haqq məni anlar.

3700 Mənə bəla gəlsə neyləyər quldar?
Amma Tanrım məni zordan saxlayar.

3701 Sən bağışlarmısan, olsam günahkar?
Min günahım ola, ağam bağışlar.

3702 Eşit, nələr deyir günahkar bəndə,
Dil susmur, sirrimiz faş ediləndə.

3703 Ey çin mehribanım, vəfalı ağam,
Yoxdur səndən savay dayağım, arxam.

3704 Ey arzu qaynağı, ey dərdə çara,
Qol-qanad verirsən qanadsızlara.

3705 Sevincim, güvəncim, dayağım da sən,
Dərdimə şəfasan, ey murad verən.

3706 Şadhq içindəyəm, sənsən şadlığım,
Ey əhdim, ilqarım, ey azadlığım!

3707 Yanında suçluyam, günahkaram mən,
Rəhmin hüdudsuzdur, ey suçdan keçən.

3708 İncitmə könlümü, keç günahımdan,
Məni əfv eləsən, görməzsən ziyan.

3709 Elbaşı, bu dünya gəldi-gedərdir,
Dirilik vaxtı da bir gün tükənir.

3710 İnanma dünyaya vəfası hanı?
Burda binə qurub olma heyranı.

3711 Ötən günlərini keçirdin əbəs,
Barı sabahını zay etmə, tələs!

3712 Ötən günlər içrə gərəklisi var,
Varsa, hazırlıq gör, sabaha apar.

3713 Özüm əhvalımı yaxşı bilirəm,
Sözüm Elbaşıya olarmı məlhəm?

3714 Duaçı olaram Elbaşıya mən,
Məni yalqız qoyub seyr etsə gendən.

3715 Tanrım razı qalsın, şad olsun deyə,
Mən ömrü verirəm yalnız səcdəyə.

3716 Dünya ovuc boyda, dünya kəmnəfəs,
Mənə bu dünyada heç nə gərəkməz.

3717 Dünya yerli-dibli dağılsın, nə qəm,
Qarnım tox, əynim saz, ülvidir səcdəm.

3718 Dinlə, nələr demiş eşqi müqəddəs,
Tanrıdan, bəxtindən razı olan kəs:

3719 Qarın doyurmağa su, çörək yetər,
Vardır əyin-baş da hələ bir qədər.

3720 Taparam ruzumu ömrüm boyunca,
Tanrım verib mənə hər şey doyunca.

3721 Əbəs haraylayır məni Elbaşı –
Məndən elm yaxşı, zəkavət yaxşı!

3722 Bəlkə el işinə yararam çətin,
Yararlı nəyim var, ey səadətim!

3723 Getsəm də səcdədən ayrılmaz başım,
Sənçin min iş görər orda qardaşım.

3724 Görmək istəyirsən sən məni yaxşı,
Sən özün yaxşı ol, adil Elbaşı.

3725 Cahanda nə qədər şöhrətlilər var,
Sənin ətrafına yığışıb onlar.

3726 Məndən Elbaşıya dəyərmi səmər?
Həlavətsiz işlər heç işdir məgər?

3727 Məni yalqız burax, üzr istəyirəm,
Mənə acıqlanma, kərəm qıl, kərəm.

3728 Bugün qardaşım da dinlədi məni,
Yetirər ünvana dediklərimi.



3729 Bitirdi məktubu, dedi: – Buyur, al,
Götürdü kağızı qardaşı dərhal.

3730 Hər nə düşündümsə yazdım da bir-bir,
Dillə dediyim də sənə bəllidir.

3731 Bir-bir agah etdim hər işdən səni,
Əl çəksin Elbaşı, tək qoysun məni.

3732 Elçi söz aparar, cavab gətirər,
Eşitdin cavabı, ey ər oğlu ər!

3733 Dinlə, nələr demiş üç ordu xanı,
Xəbərdar eləmiş cümlə cahanı:

3734 Zaval yox elçiyə, yol getsə kəsə,
Ona tapşırılan sözü düz desə.

3735 Elbaşı bundan da yaxşı söyləmiş,
Söz deyən elçini incitmə! – demiş.

3736 Hər nə eşidibsə düz desə əgər,
Elçiyə ölüm yox, bilin müxtəsər.

3737 Elçi dedikləri vasitəçidir,
Sözü düz deyirsə, iradlar heçdir.

3738 Elçi səmimisə, razı qalıb sən,
Ənam verməlisən, vəsf etməlisən.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3739 Ögdülmüş söylədi: – Fikrini bildim,
Hər nə danışdınsa diqqət kəsildim.

3740 Yazdın Elbaşıya cavab məktubu,
Əmin ol, çatacaq sahibinə bu.

3741 Bircə, əziz qardaş, şübhəm budur ki,
Biganə bilməyir Elbaşı səni.

3742 Yenə göndərəcək məni yanına,
Yenə çağıracaq öz ünvanına.

3743 Ozğurmuş söylədi: – Sevimli qardaş,
Danışma, bağrıma daş basıram, daş.

3744 Mən qədəm basmaram Sizin ünvana,
Sən də zəhmət çəkib gəlmə bu yana.

3745 Tapılmaz bir şeyi istəmək – yaman,
Deyilməz bir sözü sormaq da – ziyan.

3746 Yaxşını, yamanı görən bir kişi,
Necə təsvir edir görün gərdişi:

3747 Sorulmaz bir sözü sorma, amandır,
Umulmaz bir şeyi umma, ziyandır.

3748 Hər yerə yürümə pay-piyada sən,
Məşəqqət gətirir hər yürüş əslən.

3749 Ozğurmuş söylədi: – Get, söykən, elmə,
Gəlmə bu yanlara, bir daha gəlmə!

3750 Ögdülmüş son sözü bəyan eylədi:
– Bitdi, hüzurundan azadam – dedi –

3751 Qardaşım, həmdəmim, canım, ciyərim,
Budur bildiklərim, düşündüklərim.

3752 Ögdülmüş atlandı, qayıtdı geri,
Evinə çatınca güldü gözləri.

3753 Günəş qürub etdi, işığı söndü,
Səma başdan-başa qara göründü.

3754 Cahanın çöhrəsi kömürmü oldu?
Yatanlar uyudu, gözlər yumuldu.

3755 Yatağa girincə, yatdı Ögdülmüş,
Yuxusu üstündə ulduzlar gümüş.

3756 Od gibi yananda Şərqin yeləsi,
Bürüdü aləmi gəlin şöləsi.

3757 Qalxdı dan yerindən mərcanlı süpər,
Saçıldı cahana ağ mirvarilər.

3758 Ögdülmüş saraya gəldi birbaşa,
Durdular bir müddət üzbəüz, qoşa.

3759 – Necədir Ozğurmuş, halı, əhvalı?
İş görə bildinmi, xalq ağsaqqalı?

3760 Hər işdə ustasan, sən kamil usta,
Görüşün bir əsər etdimi dosta?

3761 Ögdülmüş əvvəlcə məktubu verdi,
Elbaşı oxudu, baxdı, çevirdi.

3762 Bürüşdü sifəti, azca qızardı,
Azca nəfəs dərib xəyala vardı.



3763 Dedi: – Qarındaşın kəskin danışır,
Amma yox nöqsanı, sanmıram çaşır.

3764 Doğru söz deyənlər alovdur, alov,
İpək yayhğıma tikan bükmüş o.

3765 Söylə gördüyündən, eşitdiyindən,
Dillə dediyini yetir mənə sən.

3766 Ögdülmüş hər şeyi bəyan eylədi,
Olub keçənləri dürüst söylədi.

3767 – Bəhs açdıq əqldən, zəka gücündən,
Tanrıya səcdənin böyüklüyündən.

3768-3770 Elbaşı diqqətlə dinlədi onu,
Hiss etdi zəkadan yoğrulduğunu.

3771 Könül arzuladı, tamarzı qaldı,
İnan, tamarzılıq ən müşkül haldı.

3772 Elə bil qılıncdır, kayb edir qanı,
Tamarzı itirir azadlığını.

3773 Könlümüz – bir bəydir, biz onun qulu,
Bəy gedər, ardınca ararız yolu.

3774 Əhdinə çatmasa dincəlməz könül,
Baş aparıb getsə təslim edə bil.

3775 Ögdülmüş, haqqı yox umub-küsənin,
Əsil, çin adammış qardaşın sənin.

3776 Ey kaş, sözlərini eşitməyəydim,
Felində müdrikmiş, elmində alim.

3777 Eşitdim, könlümdə yer verdim ona,
Mərd ol, çatdır məni dost vüsalına.

3778 Sən yaxşı bilirsən şah diləkçəmi,
Üzünü görməsəm dincələrəmmi?

## ÖGDÜLMÜŞÜN ŞAH ELBAŞIYA CAVABI

3779 Ögdülmüş söylədi: – Ey xülqü gözəl,
Xalq içrə möhtəşəm, hökmü mükəmməl.

3780 Dedim qardaşıma: – Ol da xatircəm,
Göndərsə Elbaşı, bir də gələcəm.

3781 Səni aparacaq bir gün yanına,

Dünən açıq-aydın demişəm ona.
3782 Dedi: – Gəlmə daha. Getməyəcəyəm,
Zor olmaz ürəyə, boğar məni qəm.
3783 – Eşitdim sözünü – dedi Elbaşı –
Yanına bir daha var yaxşı-yaxşı.
3784 Bu necə olur ki, şah budaq əyə,
Könlü istəyəni dərə bilməyə?!
3785 Bu necə olur ki, xalqın başçısı,
Qala yana-yana, qəlbində sızı?
3786 Hər bir yaxşılığın öz çaları var,
Dilək nəcibdirsə, can əhdə çatar.
3787 Bu arzu yenə də mənə dərd oldu,
Partlayar ürəyim, görməsəm onu.
3788 Bizə uyğun gəlir, oxu bu beyti,
Oxu, ey könlümün tabı-taqəti.
3789 Dünyada hər dərdin bir dərmanı var,
Hər can məlhəmini bir loğman arar.
3790 Dərmanı olmayan dərd ola bilməz,
Çatar mətləbinə ararsa hər kəs.
3791 Elbaşı, ey adı, özü bəxtiyar,
Çarəsi olmayan aləmdə nə var?
3792 Təki başın uca, canın sağ olsun,
Ömrüm gözlərinə çılçıraq olsun.
3793 Peşiman olmağın nə mənası var?
Sözü bəyan etdim, axtaran tapar.
3794 Hər zəka mülkündə bir kəlam yatır,
Sən söylə sözünü, ey mərd bahadır.
3795 Dillə deyilməyən söz bir az asan,
Dilindən çıxdımı peşman olursan.
3796 Dediyin sözlər sənə quldu, qul,
Sən sözün qulusan, desən, əmin ol.
3797 Sözü hesabla de, tələsmə əbəs,
Tələsik deyilən söz bəhrə verməz.
3798 Çağırdım, Ozğurmuş gəlmədi bura,
Bunu düşünmədim mən günü qara.



3799 Onun gəlməsini bilir ki, çiləm,
Elbaşı bir istər, mən yüz istərəm.
3800 Mətləbim budur ki, verək əl-ələ,
Sizə xidmət edək qoşa könüllə.
3801 Mən onu nə qədər tutdumsa dilə,
Dirəndi, gəlmədi həlavət ilə.
3802 Əgər lazım bilsən, bir də gedərəm,
Deyərəm sözümü, təki çəkmə qəm.
3803 Elbaşı bir daha qoy məktub versin,
Oxusun məktubu, iman gətirsin.
3804 Elbaşı söylədi: – Göndərdim kağız,
Aldım cavabını sərrast, amansız.
3805 Yeni bir məktubun nə mənası var,
Sən özün məktubsan, ey bizə simsar.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

3806 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Yenə bir kağız yaz sən yaxşı-yaxşı.
3807 Elçilik bəlkə də bir az tutarsız,
Sözdən vəfalıdır əl boyda kağız.
3808 Məktub – şahidlikdir. Aldınmı ələ,
Tab etməz önündə nə tor, nə tələ.
3809 Elbaşı söylədi: – Budursa arzun,
Məktub da yazaram, ey canım-gözüm.
3810 Məktub axı nədir? Beş-on kəlmə söz,
İnsanın yerini verərmi kağız?
3811 Hər nə gərəkdirsə dilinlə söylə,
Bağla onu mənə tədbirlə, səylə.

## ELBAŞININ OZĞURMUŞA MƏKTUBU

3812 Elbaşı götürdü mürəkkəb, qələm,
Bir məktub yazdı ki, hər sözü aləm.
3813 Yaradan, əfv edən, ulu möcüzə,
Tanrının adıyla başladı sözə.

3814 Oğruya, doğruya fərmanı yetən,
Tanrının hökmünə əhsən, min əhsən!

3815 Yoxdan var yaradan, varı yox qılan,
Yeganə, pakizə, saf, ulu, Yəzdan!

3816 Vahiddir. Könlünü ona ver, ona,
Səcdə qıl, nur düşsün qoy idrakına.

3817 Onun yetmədiyi bir mətləbmi var?
Yox desə yox edər, ol desə olar.

3818 Bütün canlılara ruzu verəndir,
Ölüm göndərəndir, yol döndərəndir.

3819 Qədr, qədrsizlik onun hökmüdür,
Böyüyə, kiçiyə yol açır, güdür.

3820 Min dilək diləyər, bir kimsə bilməz,
Yüz qəza yürüdər... hanı duyan kəs?

3821 Min salam yetirsin qoy rəhbərimə,
Sevimli, müqəddəs peyğəmbərimə.

3822 Bütün eşlərinə dua-sənalar,
Dörd ulu kimsəyə məhəbbətim var.

3823 Ey əqli aləmə incilər səpən,
Sənə yüz min salam, ehtiram, əhsən!

3824 Könlüm əmr elədi, məktub göndərdim,
Bəs harda qalmısan, ey əziz alim?

3825 Göndərdim üstünə qardaşını mən,
Əhdim bu oldu ki, dərhal gələsən.

3826 Bura üz tutmağı rəva görmədin,
Bizdə doğrudanmı səfa görmədin?

3827 Yetirdi hökmünü qardaşın mənə,
Məktub da yazmısan, alqış şəstinə.

3828 Oxudum məktubu, düşündüm xeyli,
Bizdən qaçaq düşmə, ey idrak əhli.

3829 Baldan şirin sözlər göndərdim sənə,
Zəqqumdan acıdır cavabın mənə.

3930 Yenə dinlə məni, a mehribanım,
Qəlbində yer tutsun adım, ünvanım.

3831 Dağların qoynunda zahid olmusan,
Almısan bu adı, çox ucalmısan.



3832 El içrə bəllidir adın, ünvanın,
Yayılmış aləmə şöhrətin, şanın.

3833 Adın-sanın çündür ibadətin də,
Sərf etmə gücünü əbəs, bihudə.

3834 Xalqın gözü düşsə ibadətinə,
Pozular, salarsan işi çətinə.

3835 Taət-ibadət də pərdəli gərək,
Bəd gözə gəlməsin səcdəyə enmək.

3836 Sevimli qulunu gizlədər Xuda,
Xalq onun dilini bilməz dünyada.

3837 Kəndə gəl, qışlaqda el içrə yaşa,
El xəbər tutmasın səcdəndən, haşa!

3838 Halal bir dünya tap, doydur acları,
Özünü də azca təmin et barı.

3839 Hər iki dünyanı bu başdan qazan,
Qazan halal çörək, şan-şərəf, ad-san.

3840 Ey bizə gəlməyən, dinlə bu beyti,
Dinlə, nələr deyir alim qüdrəti:

3841 Allah bəndəsinə xeyir ver, xeyir,
Yalnız xeyirxahlar, xalq, insan deyir.

3842 Zorla səsləyirəm səni qışlağa,
Bir xeyrini görsün müsəlman qağa.

3843 Ey zahid, anla ki, xalq xeyir güdür,
Xeyir gətirməyən çoxdan ölüdür.

3844 Yalnız öz xeyrini güdən adammı?
Hamı düşündürsün səni qoy, hamı!

3845 Öz malım vermək bir azca asan,
Gərək canını da fəda qılasan.

3846 Yalnız can-can deyən mehriban deyil,
Xalq mehr saçana mehriban deyir.

3847 Deyirlər filankəs yaxşı kişidir,
Kimdir yaxşı kişi, anlat mənə bir.

3848 Mümkünmü insana yaxşı söyləmək,
Çəkmirsə bir qayğı, qıymırsa əmək?

3849 Ey elmi mötəbər, pakizə mərd ər,
Nəzər sal bu fikrə, fəhmini göstər.

3850 Doğru-düz görünsə sənə sözlərim,
Yubanma, dikilib yola gözlərim.

3851 Bir az zəhlə tökür söz uzananda,
Sözü yığcam deyər kişi cahanda.

3852 Deyirəm, bununla kifayətlənərək,
Söz yox, bir-birini anlamaq gərək.

3853 Qalan sözlərimi qarındaşıma,
Demişəm, söhbətdə çıxar qarşına.

3854 Məktubu bitirdi, xətti qurutdu,
Lələk qələmini işdən soyutdu.

3855 Bağladı məktubu möhürləyərək,
Götürdü Ögdülmüş – əlləri şimşək.

3856 – Cəld tərpən, bu dərdin çarəsi səndə,
Onu dəvət elə şəhərə, kəndə.

3857 Bura gələn kimi xəbər ver mənə,
Onu çatdıraram hər bir əhdinə.

3858 – Əlbəttə...
Ögdülmüş qalxdı ayağa,
Yönəldi evinə, girdi otağa.

3859 Süfrə arxasında keçirdi vaxtı,
Açdı yatağını, bir azca yatdı.

3860 Üzünü gizlətdi Rumun gözəli,
Göyə qara çəkdi zəncinin əli.

861 Qaraquş rənginə boyandı göylər,
Qarangu yeridi ta ərşə qədər.

3862 Dikib gözlərini qardaş gözünə,
Daldı xəyallara yataqda yenə.

3863 Gecə daş kömürdən, zülmətdən qara,
Oyandı, yanarkən göydə aypara.

3864 Qaçdı gözlərindən şirin yuxusu,
Söndü səmaların ayı, ulduzu.

3865 Qalxdı dan yerindən günəş şöləsi,
Güldürdü aləmi nurlu çöhrəsi.

3866 Təharət. Dəstamaz. Bamdad namazı,
Dua-səna ilə tərpənən ağzı.



3867 Bir çocuq yardımı. Köhlən minməsi,
Mənzilə çatınca atdan enməsi.

3868 – Əziz qardaş! – deyə dua qılması,
Göydən işıq alan nurlu siması.

3869 Qapı taqqıltısı...
– Buyur içəri.
Səcdədən ayrılan qardaş əlləri.

3870 Ona nimdar verdi yuxarı başda,
Gözlər intizarda, ürək təlaşda.

3871 – Qardaşım, əziyyət çəkmisən yenə,
Axı niyə gəldin, bir söylə mənə!

3872 Mən ki, öz fikrimi söylədim kəsə,
Zorlamı çəkirsən məni qəfəsə?

3873 Yaxşını-yamanı bilən bir adam,
Dinlə, nələr demiş başdan-binadan:

3874 Mərd üçün kafidir bircə imtahan,
Sevib-sevmədiyi bilinər əlan.

3875 Mis ilə altunu seçməyən bir ər,
Çəksə sir daşına bir azca, yetər.

3876 Ögdülmüş söylədi: – Ay ömrüm-günüm,
Mənə acıqlanma, başına dönüm.

3877 Verdim Elbaşıya məktubunuzu,
Dəydi damağına dilinin duzu.

3878 Öz əlilə yazdı cavab məktubu,
Buyurun, başçıdan ərmağandı bu.

3879 Ozğurmuş məktubu aldı, oxudu,
Yandı gözlərində qəlbinin odu.

3880 Düşündü: qardaşım, ağır görüşdü,
Mənim qismətimə görün nə düşdü.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞ İLƏ İKİNCİ GÖRÜŞÜ

3881 Ögdülmüş söylədi: – Əziz qardaşım,
Yaxşılıq diləyir sənə Elbaşı.

3882 Hər nə deyirəmsə diqqətlə dinlə,
Bir də düşərmi ola bu fürsət ələ?

3883 Burda ibadətin, ey mərd bahadır,
Demirəm yaxşıdır, yaxud yamandır.

3884 Ancaq könül versən şəhərə, kəndə,
Yaxşılıq açılar yalnız önündə.

3885 Dünyanın rüzgarı heç də bəd deyil,
Hamı əlbir olsa qanad tapar el.

3886 Dünyanı tərk etsən zahid olarsan,
Bəlkə qazanarsan sərmayə, ad-san.

3887 Dünyanı özünə düşmən bilmə sən,
Xalqa xeyir versən nurlanar çöhrən.

3888 Dinlə, nələr demiş səxavətli ər,
İnsanı bəzəyir dövlət, bar-bəhər.

3889 Var-dövlət əhlində elm-idrak ara,
Daim əl uzadar yaxşılıqlara.

3890 İnsana səadət, var-dövlət gərək,
Kam alsın, gözündə qalmasın dilək.

3891 Əzizlik istəsən var-dövlət verər,
Sənə həcc adlanan ziyarət verər.

3892 Kişinin dövləti, varı olmasa,
Dili qısa olar, əli də qısa.

3893 Neçin səadəti tərk eləyirsən?
Neçin götürmürsən nəsihəti sən?

3894 İnsanı lüt qoyar yalnız ibadət,
Səni müflis görər bütün cəmiyyət.

3895 Bəndəsi Tanrını ibadətlə yox,
Məhəbbətlə tapır, incədir bu yol.

3896 Min-min namaz əhli canamaz üstə,
İtirdi yolunu axır nəfəsdə.

3897 Bilirəm, səcdəni xoşlayır Xuda,
İbadət çatdırır bizi murada.

3898 Ancaq səcdənin də min-min növü var,
Ən uyarlısını öyrən kim tapar?

3899 İndi ki, böylədir, ibadəti sən,
Gərək özün üçün kəsf eləyəsən.

3900 Dediyim sözlərə yaxşı nəzər sal,
Mənə bir cavab ver, ey əhli-kamal.



3901 Mənim fikirlərim ağlına batsa,
Əməl et sözümə, ey büllur, ey saf.

3902 Qul olma hissinə, doğrult könlünü,
Xalqa qayna-qarış asayiş günü.

3903 – Daş saldı başıma, sevimli qardaş,
İnan, boşqabımda zəhərləndi aş.

3904 Tutalım, Ozğurmuş səni dinlədi,
Elbaşı yanında işlərəm – dedi.

3905 Axı xidmətin də öz qaydası var,
Bunları bilməyən nasıl davranar?

3906 Oturub-durmağın, girib-çıxmağın,
Yolunu bilməsə çaşmazmı çaşqın?

3907 Xidmətçi nə söylər, heç bilirmisən?
Azı üç sınaqdan çıxana əhsən!

3908 Bəylərə xidmətdə ehtiyatlı ol,
Dilini, könlünü doğru tut, oğul.

3909 Öyrən qaydaları, adətləri sən,
Xidməti dərk etsən, bəhrələnərsən.

3910 Mən xülqü, xilqəti bambaşqa adam,
Tortibə, adətə, insana yadam.

3911 Nə cür xidmət qılım sənin bəyinə?
Bu qapı ömürlük qapanmış mənə.

3912 Neçin zorlayırsan, nədir bu gordiş?
Elbaşıya xidmət, heç asanmı iş?

3913 Ögdülmüş söylədi: – Sözdü sözümüz,
Üzü astar etmə, ey hüsnü gündüz.

3914 Elbaşı hər şeyi əfv edir, görür,
Dur bərabər gedək, ya məni öldür.

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ CAVABI

3915 – Mənim bu sözlərim – dedi Ozğurmuş –
Sənə xoş görünməz, ey xilqəti xoş!

3916 Bizə yaraşarmı sarayda rəng-rəng,
Rəsmi qaydaları dürüst bilməmək?

3917 Xalqa başçılığı öyrəndi bəylər,
Bəylər sayəsində ölkə çiçəklər.

3918 Rəsmi qaydaları bilməsə onlar,
Yurdu idarəni nasıl bacarar?

3919 Onların silahı elm, zəkavət,
Sönərsə zəkavət ölməzmi millət?

3920 Günəş təfəkkürlü cahan rəhbəri,
Gör nə gözəl demiş bu sətirləri:

3921 Dünya rəhbərinə zəkavət gərək,
Xalqı ram etməyə cəsarət gərək!

3922 Bəyin bəy qılıncı yıldırım, almaz,
Yoxsa yad boynunu sındırmaq olmaz!

3923 Nizamlar, qaydalar yaratmalıyıq,
Xalqa, yurda layiq, bəşərə layiq.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

3924 Ögdülmüş söylədi: – Sevimli qardaş,
Bu iş çətin deyil, iş görəsən kaş.

3925 Mənəm qaydaları mükəmməl bilən,
Deyim bircə-bircə, sən də al, öyrən.

3926 Öyrənmək eyb olmaz bilmədiyini,
İnadla taparsan hər diləyini.

3927 Beyni işıqlılar apaçıq deyib,
Öyrənməyənlərə yarımçıq deyib.

3928 Alim doğulmayıb dünyada heç kim,
Öncə dil yaranıb, sonra söz, deyim.

3929 Elmi öyrənməklə alim olursan,
Elm alsan, hər işin gedəcək asan.

3930 Ozğurmuş söylədi: – Budursa əhdin,
Sözüm yox... qəlbimə şəbnəm çilədin.

3931 Sən məni saraya haraylayırsan,
Nədən ibarətdir xidmət, iş, filan?

3932 Sənmi bu dəbləri öyrədəcəksən,
Ya özüm öyrənib bilməliyəm mən?



3933 Rəsmi qaydaların de bir qismini,
Nizamdan, tərtibdən agah et məni.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA SÖZÜ

3934 – Ey istedad əhli-dedi Ögdülmüş,
Sən lap doğru dedin, ağzın fal imiş.

3935 Əvvəl tutduğun yol yanlış idi çox,
İndi haqqa gəldin, buna şübhə yox.

3936 İndi mən söyləyim, sən eşit, öyrən,
Gözün işıqlansın bildiklərindən.

3937 Öyrənsən dilinə gəlməsin yalan,
Yalanlar insanı məhv edir ələn.

## BƏYLƏRƏ XİDMƏT NƏDƏN İBARƏTDİR

3938 İki çeşid olur xidmətçi kişi,
Günə can verməkdir birinin işi.

3939 Biri cavan ikən başlar xidmətə,
Boy atar, ömrünü verər zəhmətə.

3940 Hələ kiçik ikən işə başlayan,
Hamıdan cəld olar, hamıdan rəvan.

3941 Bu gün hansı dəbi sənə öyrətsəm,
Elə hesab et ki, hələ kiçiksən.

3942 Sənə bəd sözüm də gətirər səmər,
Mənə inanmaqla taparsan bəhər.

3943 Hələ kiçik ikən xidməti öyrən,
Boy atıb olarsan mahir işgörən.

3944 Girməyi, çıxmağı, rəsmi dəbləri,
Öyrən ki, mənimsə məğzi, cövhəri.

3945 Ertə oyanmalı, cəld olmalısan,
Dilin-könlün dürüst, özün sıxılqan.

3946 Daim açıq olsun qulağın, gözün,
Xidmətə müntəzir gecən-gündüzün.

3947 Xidmətdə ehtiyat ən böyük meyar,
Dilini dişinlə sıxmağı bacar.

3948 Ən kiçik işlərdən başlanır xidmət,
Bəyə qulluq özü – qüdrət, ləyaqət.

3949 Bəyin hüzuruna girib-çıxmağı,
Öyrən... qazanarsan söz demək haqqı.

3950 Az-çox bir rütbəyə çatarsa insan,
Bəy öz muradını götürər ondan.

3951 Mergən[1] devürəksə yayda ox olar,
Xidmətçi yüksəlsə, vəzir, möhürdar.

3952 Rəftarın pak ola, üzün də nurlu,
Saqilik edərsən, ey günəş oğlu!

3953 Aqillər katiblik işinə yarar,
Yazı, hesab bilən – baş xəzinədar.

3954 Layiqli yerini tutarsa insan,
İşində zövq alar öz varlığından.

3955 Eşit, bir xidmətçi nə demiş mənə:
Xidməti bacaran çatar əhdinə.

3956 Dayansan bəy ilə bir gün üz-üzə,
Çəkin ki, qarşında durmuş möcüzə.

3957 Sözün püxtə gərək, könlün-dilin düz,
Xilqətin pakizə, içərin gündüz.

3958 Gözünü yerə dik, şax baxma bəyə,
Özün diqqət kəsil, diqqət hər şeyə.

3959 Ayaqda hazır ol, əlin əl üstə,
Pakizə nəfəsin bahar, güldəstə.

3960 Qapıdan girəndə sağ ayağı at,
Sözü diqqətlə de, təmkinlə anlat.

3961 Mətləbi açanda diz çök ədəblə,
Əlin əl üstündə, hüsnündə şölə.

3962 Qanrılma, çevrilmə sola, ya sağa,
Sözə diqqət kəsil, həssas ol, qağa.

3963 Bir söz soruşulsa, düz ver cavab, düz.
Əmri icra elə vaxtında, dürüst.

3964 Mey içmə, boş-bekar dayanma heç vaxt,
Yaramaz tiplərdən uzaq ol, uzaq.

1. Snayper.



3965 Görüb eşitməyin öz məqamı var,
Bir gözün kor olsun, bir qulağın kar.

3966 Bu cür aparарsa kişi xidməti,
İşi rəvac tapar, ağ olar bəxti.

3967 Bəzisi at, axur, ilxı sahibi,
Bəzisi dolanar sərkərdə gibi.

3968 Bəzisi möhürdar, bəzisi hacib,
Olar bəzisi də vəzir, sərkatib.

3969 Bir çoxu qazanar danişmənd adı,
Bir çoxu gök ayuq – türkmən qanadı.

3970 Bəzisi inanc bəy, bəzisi çağrı,
Biri batır təkin, o biri çavlı.

3971 Xidmətçi əlləri birini oxşar,
Təqdir yollarında biri addımlar.

3972 Rütbələr müxtəlif... çatsan birinə,
Yar olar ən ülvi arzular sənə.

3973 Xidmətçi çatarsa bu mərtəbəyə,
Sanar ki, ömrünü bəxş edib bəyə.

3974 Yüksək vəzifəni tutsa bir alçaq,
Ən yava işlərə meydan açacaq.

3975 Alim bu barədə düz demiş bizə:
Vermə vəzifəni ləyaqətsizə!

3976 Yaxşılar ucalır yaxşı əsasla,
Nakəsə, nadana əl vermə əsla!

3977 Yüksək mərtəbəyə dırmaşsa nadan,
Yeyər xocasının başını əlan.

3978 Bəy gərək quluna mərifət verə,
Elmin sayəsində güc-qüvvət verə.

3979 Qula bir imtahan, bir sınaq gərək,
Zokası parlaqsa ucaltmaq gərək.

3980 Qul sübut edibsə sədaqətini,
Bəy gərək kəsməsin mərhəmətini.

3981 Bəylik cəlalını sahmana salan,
Tərtibçi nə demiş, dinlə yaxından.

3982 Nə qədər yüksələ, qul yenə quldur,
Bəyə xidmətilə yalnız, uludur.

3983 Necə kiçik olsa yenə bəydir bəy,
Yüksək xidmətçidən bir xeyli yüksək.

3984 Ey bəy qayğısıyla qədrlənən qul,
Bəyini böyük bil, uca tut, oğul!

3985 Bəyinlə tənləşmə, öcəşmə əsla,
Onu yormalısan hansı əsasla?

3986 Bəylərin gözündə od var, alov var,
Sakın, kül edincə səni yandırar.

3987 Bəylər zəmanədir, zəmanə yaman,
Sən zəmanə ilə saz olmalısan.

3988 Dinlə, nələr demiş ömrü səfərbər,
Xidmətdə yüksələn, dilək tapan ər:

3989 Alim – əzəmətdir, alimi dinlə,
Ruhunu oxşayar ipək səsilə.

3990 Bəy gözündən gülüb baxsa adama,
Ona şad olma sən, çox da inanma!

3991 İnanma xidmətə, qürurlanma çox,
Yoldan sapan bəydə yoxdur rəhm, yox.

3992 Şöhrətli, ya böyük, kiçik bahadır,
Yalnız xidmətilə adam sayılır.

3993 Bəylər xidmətində bərk duruş gərək,
Sarsılan, büdrəyən yeyəcək kötək.

3994 Bəy səni nə qədər yaxın tutsa da,
Unutma özünü, düz ol dünyada.

3995 Bəy yaxşı olsa da, ondan qorx, çəkin,
Cəza göz önündən getməsin təki.

3996 Gahdan atəş olur bəylər, gahdan – su,
Güldürür, ağladır sözün doğrusu.

3997 Həzər üç xilqətin qonşuluğundan –
Yanar od, axar su, kükrəmiş arslan.

3998 Zəbərdəst arslana bənzəyər bəylər,
Sakitsə ipəkdən yumşaq görünər.

3999 Qəzəbi kükrəsə alar canını,
Sökər qabırğanı, içər qanını.

4000 Yaxın getmə bəyə, qəzəblənəndə,
Salar təhqir ilə səni kəməndə.



4001 Cavab ver, soruşsa, get çağıranda,
Var ol, qodrli ol daim cahanda.

4002 Ərzini vaxtında bəyan eyləyən,
Kişi nələr demiş, diqqət ver, öyrən:

4003 – Buyur, gəl! – desələr qiymətin aydın,
– Çıx, gözlə! – desələr söyüşdən sakın.

4004 Öz yerini bilən, gözütox adam,
Mötəbər sayılır əzəl binadan.

4005 Üç şeydən uzaq ol, uzaq ol, uzaq,
Olma sərt, amansız, yaşa üzüağ.

4006 Qəvi düşmənindir acgözlük, yalan,
Çəkin üç yağmın yavalığından.

4007 Özünü saf saxla, həmişə pak ol,
Bəylik təmizlikdir, yaxud başqa yol.

4008 Qatil, qayna-qarış, sarayı tanı,
Əziz tut da səni əziz tutanı.

4009 Sallayıb əlini saraya girmə,
Əl ver, heç kimsəyə arxa çevirmə!

4010 Əyləşmək istəsən öz yerini bil,
Adamlar səninçin payəndaz deyil.

4011 Ucadan öskürmə, qəh-qəhə çəkmə,
Alçaqlıq sayılar sərt mühakimə.

4012 Yerdə bardaş qurma, baş-ayaq yatma,
Bərkdən danışmaqla xalqı oyatma.

4013 Unutma özünü, bir də əslini,
Unutsan, zəmanə kəsər səsini.

4014 Özündən böyüyün sözünü demə,
Sözü seçib söylə, dustaq eyləmə.

4015 Üzünü ağ edən düz söz, düz kəlam,
Nitqin yaxşılığa yönəlsin müdam.

4016 Mey içib saraya soxulma heç vaxt,
İçəni alçaldır yaramaz əxlaq.

4017 Amandır, üç şeydən ehtiyat gərək,
Gözləyə bilməsən başın gedəcək.

4018 Boyin bəy sirrini saxlayıb nihan,
Göz bəbəyin kimi qorumalısan.

4019 İkinci – xalq içrə faş etmə bəyi,
Ehtiyat kömləgi geyinsin əynin.

4020 Üçüncü sarayda nakəsdən çəkin,
Düz apar özünü sərvlər təkin.

4021 Bu üç ehtiyatı güdməyən naşı,
Addım ata bilməz, kəsilər başı.

4022 Görünmür gözlərə baş verməyən iş,
Məgər zəngmi çalır qabaqca gərdiş?

4023 Sən əyləşmiş olsan yuxarı başda,
Böyük gələn kimi o yeri boşla.

4024 Bəylər söz soruşsa qısılma, danış,
Yerində konuşan mərdlərə alqış.

4025 Dinləyən var isə de bildiyini,
Sözünü kəssələr, toxta, bir də de.

4026 Bəylər çağırsalar süfrə başına,
Qonaq ol aşına, yeməyə başla.

4027 Öncə sağ əlinlə götür yeməyi,
Unutma bismillah – Allah deməyi.

4028 Özgənin önündən götürmə yemək,
Öz qarşındakını nuş etmək gərək.

4029 Birinci tikəni özgəyə ötür,
Nə süngü təmizlə, nə bıçaq götür.

4030 Tələsmə, qadıntək yeməkdən sakın,
"Buyur-buyur!" deyə dayanma çaşqın.

4031 Tox olmaq, az yemək qəbahət deyil,
Bəylər süfrəsinin qiymətini bil.

4032 Gördüyün hər işə sidq ilə yanaş,
Nur, işıq tapasan. Deməyəsən kaş...

4033 Şair gözəl demiş, coşanda ilham,
Qızıldan üstündür hər qızıl kəlam.

4034 Bir iş, bir ixtiyar sənə verilsə,
Yalnız elmə güvən, ey cəsur kimsə!

4035 Əmr alsan, gücünü sərf elə bol-bol,
Ayıq-sayıq davran, səxavətli ol.

4036 Yurdu, qəbiləni get, idarə et,
Bir əlində qılınc, birində dövlət.



4037 Düz ol, yaxşı davran vəzirlik etsən,
Yaramaz siyasət yürütmə əslən.

4038 Məsləhətçi olsan fərasət göstər,
Sapmasın yolundan bəy zərrə qədər.

4039 Ehtiyatlı davran, olsan gök ayuq,
Türkmən başçıları şöhrətə layiq!

4040 Özün ordubaşı, Elbaşı olsan,
Mərdləş, qulağını, gözünü aç sən.

4041 İşdir, Hacib olsan, rədd elə pulu,
Şadlandır yetimi, dulu, yoxsulu.

4042 Olsan xəzinəçi əlin pak gərək –
Günəşdən saçılan qızıl şüatək.

4043 Sirri faş eləmə sərkatib olsan,
Bir məktəb deməkdir hər məktub yazan.

4044 Bunlar ad çıxaran xidmətçilərdir,
Özgələr qapıda adi nökərdir.

4045 Yenə türlü-türlü xidmətçilər var:
Yer-yataq ustası, aşpaz, laçındar.

4046 Çoxdur əziyyəti bu xidmətlərin,
Rahatlığı azca, zəhməti min-min.

4047 Qədir-qiymət umsan özünə əgər,
Əzizlə mərdləri, ey ər oğlu, ər.

4048 Daim ululara göstər ki, hörmət,
Tökülsün başından dövlət, səadət.

4049 Eşit, nələr deyir qariyə sözü,
Əməl edənlərin açılar gözü.

4050 Ulu hörmətini saxlayan udar,
Ayağa qalxar ki, gəlmiş tacidar.

4051 Uluya layiqdir kiçik hörməti,
Ulu da kiçiyə verər fürsəti.

4052 Ögdülmüş söylədi: – darda, çətində,
Bu cür dayanarlar bəy xidmətində.

4053 Mən dedim, öyrətdim, sən də öyrəndin,
Bəylərə xidmətin böylədi fəndi.

4054 Bəylərə xidmətin böylədir yolu –
Ağ günə, ağ bəxtə çatmaq üsulu.

4055 Heç bilsən nə söylər uğurlu xidmət,
Öyrən ki, ondadır xeyir, bərəkət.

## SARAYDAKI ORDU İLƏ SÖHBƏT BƏHSİ

4056 Özğurmuş söylədi: – Bu sözləri mən,
Eşitdim, ey comərd, sənin dilindən.

4057 Yenə bir sözüm var səndən sormalı,
Dürüst cavablardır dövlətim, malım.

4058 Saraya baş çəksəm bir xidmətçi tək,
Bəyim dərgahında durmağım gərək.

4059 Gərək bələd olam yola-yoruğa,
Yaşayış bunlarsız keçinmir, qağa.

4060 Orduya qaynayıb-qarışmaq gərək,
Onlara tay olmaq, yaraşmaq gərək.

4061 Necə yanaşmalı, aç, göstər bunu,
Öyrənim ülfətin, eşqin yolunu.

## ƏLCAVAB

4062 Ögdülmüş söylədi: – İstəkli qardaş,
Gərəkli dəbləri tez öyrənək kaş.

4063 Sənə hər mətləbi öyrətməliyəm,
Qoşunla ülfəti şərh etməliyəm.

4064 Kimini yoldaş bil, kimini təndaş,
Bu cür başa gəlib yaşayış, qardaş.

4065 Evinə dost gətir, sədaqət apar,
Səni doğma bilsin saraydakılar.

4066 Səni dost bilməsə saray adamı,
Yemək-içməyin də olmaz dad-tamı.

4067 Ədl ilə sarayı çiçəkləndirən,
Xidmətçi nə demiş, fikir ver, öyrən:

4068 Səni doğma bilsə saraydakılar,
Bəy də mehribanın, həyanın olar.

4069 Qədir, hörmət-izzət, şövkət istəsən,
Ordudan yardım al, ülfət istə sən.



4070 Bəylər dost bilsə də səni hər zaman,
Gərək ordu ilə yaxınlaşasan.

4071 Sarayda əsasən üçcə tayfa var,
İşdə, yaşayışda onlardı meyar.

4072 Biri – ulılardır. Bu hikməti qan,
Uluya xidmətlə xoşbəxt olarsan.

4073 Yüksək uluları əzizləməklə,
Onlar da ucaldar səni ürəklə.

4074 Alim bu barədə nə deyibdi, nə,
Alim kəlamına olma biganə.

4075 Ululuq kişiyə böyükdən yetər,
Uluya xidmətlə qalxar südəmər.

4076 Ulular sözünü tutmağınla sən,
Kamala çatarsan, kama yetərsən.

4077 Ulular – xoşbəxtdir. Bağında bar dər,
Yaxşı xidmət etsən, ağ günlər gələr.

4078 Orda tay-tuşların, curların da var,
Məhəbbət göstərsən, düşmən dost olar.

4079 Çoxu arkadaşın, təndaşın sənin.
Mehr saç, olarlar qardaşın sənin.

4080 Orda səndən kiçik həmdəmlər də var,
Kimsə şan balı tək, kimsə zəhrimar.

4081 Xidmət edənlərə ürək-dirək ver,
Ayağı altında titrəməsin yer.

4082 Dolama, onlara dost ol, hayan ol,
Basma başlarından, adam sayan ol.

4083 Nə qədər çox olsa qohum-qardaşın,
Səni vəsf edərlər, ucalar başın.

4084 Hər yadı özünə düşmən bilmə sən,
Düşməni çox olan küsər bəxtindən.

4085 Düşmən az da olsa düşməndir yenə,
Düşməndən fayda var – kim deyər sənə?

4086 Düşməndən min bəla, məşəqqət görən,
Hüşyar nələr demiş, diqqət yetir sən.

4087 Bircə düşmənin də ziyanı mindir,
Min-min dostun ola, azlığı mandır.

4088 Düşməni adama nə fayda verər,
Verərsə adama axmaq deyərlər.

4089 Necə şad edirsə təndaşın səni,
Sən də o cür davran, görsün mehrini.

4090 Təndaşın, yoldaşın çalış çox olsun,
Ta ki, deməyəsən dar gündə: əfsus.

4091 Nakəsdən özünə dost tutma heç vaxt,
Yolundan azdırar səni bədəxlaq.

4092 Özünə şan-şərəf, ad-san istəsən,
Qoşulma əclafa, pisə, nakəsə.

4093 Hər kəs öz curuyla gəzər, yaşar da,
Bitkilər, heyvanlar, qanadlılar da.

4094 Yaxşını, yamanı görən bir şair,
Eşit, nələr deyir, nələr söyləyir:

4095 Gördüm qız sığırçın, oğlan sığırçın...
Rəngləri qapqara... görəsən nəçin?

4096 Fərqlidir su quşu, qaraquş, ağquş,
Bir-birindən uzaq, başqa cür olmuş.

4097 Hər uçar tanıyır öz oxşarını,
Adamsan, sən də tap təndaşlarını.

4098 Yaxınlıq etməyin çeşidləri var,
İki cür tapışır dost arayanlar.

4099 Tanrım gətirir ortaya comərd,
Tanrı rizasına bağlayır ülfət.

4100 Öz xeyrindən ötrü dost tutan da var,
Olarmı bərqərar bu saxta meyar?

4101 Tanrının eşqilə dost tutsan əgər,
Qaşqabaq sallama, mehrini göstər.

4102 Sakın, bu dünyada güdmə mənfəət,
Yalnız o dünyada görərsən mədəd.

4103 Yalnız öz xeyrini güdən arkadaş,
Sana dost olamaz, ondan uzaqlaş.

4104 Dostun ziyanını, xeyrini görən,
Kişi nələr demiş, fikir ver, öyrən.

4105 Sına öz dostunu xeyirdə, şərdə,
O, möhkəm dayansa, möhkəm ol sən də.



4106 Dostun ürəyini bilmək istəsən,
Bir az alın turşut, bir az qəzəblən.

4107 Öyrən işıqlımı varlığı, beyni,
Nədir sevmədiyi, nədir sevdiyi.

4108 Düşmən adını çək, dost adını çək,
Halı dəyişməsə, sadiqdir demək.

4109 Uzaqlaş, yanaşma qeybət əhlinə,
Yandırar, fitnəsi od qoyar sənə.

4110 Qiybətdən törəyir fisqü fəsadlar,
Qiybətçi başını kəs açıq-aşkar.

4111 Sakın, yaxın düşmə kor tamahkara,
Sənə düşmən olar, söykər divara.

4112 Tamahkar alçaqdır, girər qılığa,
Sənə qardaş deyər, ya əkə-ağa.

4113 Səndən – uzaq gəzər, yoxsa tamahı,
Nə qənd dili olar, nə saxta ahı.

4114 Tamahsız dostlara arxalan, inan.
Qayğısız yaşayın əziz, mehriban.

4115 Dönər vəfalılar qol-qanadına,
Yaxşı – yaman gündə çatar dadına.

4116 Eşq ilə süfrə aç, duz-çörək yedir,
Görərsən dostların dünya qədərdir.

4117 Süfrə, açıq çöhrə – bu iki sərvət,
Yaxşı – yaman gündə iş görər əlbət.

4118 Təlimçi kəlamı əzbərim olmuş,
Bu sözə əməl et, ey xilqəti xoş:

4119 Cəzb etsin dostları duz-çörək süfrən,
Var olsun bal dilin, günəşli çöhrən.

4120 Xalqı məftun edir bu iki qılıq,
Bundan yaxşısını veribmi Xalıq?

4121 İki cür düşmən var, iki cür yağı,
Çalış, tələsinin olma dustağı.

4122 Düşməndən zəhərli yağılar da var,
Ömürlük yağıdır, kafərdir onlar.

4123 Yenə bir yağı var, gözünə mil çək,
Ondan qisasını alasan gərək.

4124 Cəng apar, meydan aç kafərə qarşı,
Can qoy, alovlandır torpağı-daşı.

4125 Pul üstə, mal üstə gedirsə, döyüş,
Götürsün faydanı qoy düşmən ölmüş.

4126 Pul verib düşməni dost etmək olar,
Düşmən saxlamağın nə mənası var?

4127 Cəsur ol, düşməni dostuna döndər,
Sağ-salamat yaşa, sakit, səfərbər.

4128 Yağıdan fayda yox, elm-idrak götür,
Xeyirsiz işləri özgəyə ötür.

4129 Çalış, düşmənin yox, dostun çoxala,
Düşməni olana üz verər bəla.

4130 Yaxşı adamları özünə dost tut,
Nakəsi, namərdi rədd elə, unut.

4131 Əhdə çatmaq üçün iki cür dost var,
Biri Allah sevər, sadiq, vəfadar.

4132 Biri qayğı çəkən, xalq hünərvəri,
Ey mərdlər sərvəri, sev bu kəsləri.

4133 Onlardır yaşadan insaniyyəti,
Qəlbə şölə salır kişi surəti.

4134 Bu cür insanlarla ülfət bağla sən,
Qüdrət alacaqsan ər qeyrətindən.

4135 Xilqəti qapqara, ətəkləri yaş,
Nacinsdən, nakəsdən tamam uzaqlaş.

4136 Uzaqlaş qaradan, əsli pak adam,
Ağda ləkə qalır daim qaradan.

4137 Necə təlim verib həyat alimi,
Bilici qavrasa yüksələr elmi.

4138 Qarışma yamana, ey yaxşı kişi,
Ovlayar səni də pislik vərdişi.

4139 Bənd olma nakəsə, ey adı uca,
Adın ləkələnər ömrün boyunca.

4140 Qaynayıb-qarışma yaramazlara,
Yaxana sarmaşar o üzüqara.

4141 Ülvi kişilərə rast gəlmişəm mən,
Yanaşıb nakəsə, düşüb nəzərdən.



4142 Yaxşılar görmüşəm, yaman dost üçün,
Yandırıb canını, tükənib gücü.

4143 Saraydır öndəki o bəylər evi,
İçində rəngbərəng adamlar növü.

4144 Orda xəbislər də, cılızlar da var,
Harda paxıl olsa, bir cəncəl çıxar.

4145 Sənə həsəd qılar bomboş adamlar,
Salar səni oda, özünü yırtar.

4146 Günəş varlığını görməz xəbislər,
Sənin hər yaxşını yamanlar, pislər.

4147 Sarayda vuruşur zülmət ilə nur,
Biri qalib gəlir, biri məhv olur.

4148 Sən, könlüm günəşi, həmişə parla,
Heç kəsə darılma, yaşa vüqarla.

4149 Xəbislik – mərəzdir, çətin sağalır,
İnsanı günbəgün taqətdən salır.

4150 Yaxşı da, yaman da hökmüdür haqqın,
İstəsə yandırar, kül olar azğın.

4151 Paxıllar dünyada nə qazanır, nə?
Bir gün düçar olur bəlaya, dərdə.

4152 Daim yaxşılıq et, tapdıqca macal,
Ucal mərdliyinlə, həmişə ucal.

4153 Səni şad eləsin şadlıq tapanlar,
Dərd-qəm çəkənlərə qəmxar ol, qəmxar.

4154 Onda adın çıxar, səni sevərlər,
Can atar dostunu görməyə ellər.

4155 Düşmənin azalsın, dostun çoxalsın,
Varlığın ülfətdən güc-qüvvət alsın.

4156 Boş bilmə düşməni bircə olsa da,
Onu sal tələyə, onu ver bada.

4157 Düşməni dizinin altına qoyan,
İgid nələr demiş, diqqət ver bir an:

4158 Heç vaxt qafil olma, qalx ayağa, get,
Cəsur ol, düşməni darmadağın et.

4159 Xırda düşməni də yekə, zorba bil,
Dəmirdən qalxan tut, çək gözünə mil.

4160 Daşı dost yükünü, sındırma dostu,
Qurtar düşsə dara dərhal, əlüstü.
4161 Canına, malına qəsd edən düşmən,
Dost cildi geyibsə, sök cildini sən.
4162 İçini, çölünü bilən düşmənin,
İstəsə canını alar da sənin.
4163 Düşmən dost cildinə girərsə əgər,
Malına, canına qəsd edə bilər.
4164 Özünü, dostunu qoruduğuntək,
Aşnanı-dostu da qorumaq gərək.
4165 Dost tutmaq asandır, dost olmaq çətin,
Düşmən olmaq asan, öc almaq çətin.
4166 Düşmənin vardırsa canını gözlə,
Qurtula bilməzsən quruca sözlə.
4167 İki növ adamdan həzər qıl, ey pir,
Biri qiybət əhli, biri tamahgir.
4168 Qiybətçil, tamahkar, daim minsifət,
Səni yıxacaqlar, verdinsə fürsət.
4169 Şərab düşgünündən özünü gözlə,
O, vəfa qılmayıb hələ heç kəsə.
4170 Öz xeyrini güdən dostdan uzaqlaş,
Bir gün düşmən olur sənə bu oğraş.
4171 Həmişə yaxınlıq, ülfət istəsən,
Bəslə dostlarını gözün üstə sən.
4172 Umsan aşıb-daşan bəxtiyar həyat,
Mərd ol, həsəd qılma heç kəsə, heç vaxt.
4173 Qızıl saç, düşmənə tələ qur, tələ,
Qul et, saqqalını tez keçir ələ.
4174 İstəsən bir adam səndən gen olsun,
Vermə, nə istəsə, cəhənnəm olsun.
4175 Uzun ömür istəsən, səxavət göstər,
Süfrəndə dostların çörək yesinlər.
4176 Sevilmək istəsən nitqin bal olsun,
Könlündən dilinə düz bir yol olsun.
4177 Qədir-qiymət umsan, sev insanları,
Alçaltma, uca tut daim onları.



4178 Sanma ki, zənginlik yaranır asan,
Hamını razı sal, bəhrə taparsan.
4179 İstəsən öysünlər səni mükəmməl,
Çöhrən açıq olsun, rəftarın gözəl.
4180 Göstər kişilərə kişi sifəti,
Kişilik yaradır insaniyyəti.
4181 Özünü düşünmək qəhrini çəksən,
Kişi xilqətini kəşf edəcəksən.
4182 Sözünü mənalı söyləyən arif,
Fikir ver, bu beyti nə gözəl deyib:
4183 Sənin dilin-könlün, bir də rəftarın,
Bildirir nə imiş üzün-astarın.
4184 Yaxşısa rəftarın, dilinlə könlün,
Demək, əslin, zatın pak imiş, gülüm.
4185 Alçaqdan, nakəsdən həzər qıl, həzər,
Üzünün suyunu töküb də gedər.
4186 Nakəsə əl verməz fərasətli ər,
Gör nə gözəl demiş, bağından gül dər:
4187 Qoşulma alçağa, saf, mülayim ol,
Alçaqlar törədir fəsadı, oğul.
4188 Yanaşma cahilə, yesən də qəm, dərd,
Yaxınlıq haqqını pozur cəhalət.
4189 Açma hər yetənə könül sirrini,
Dağ edər, toz boyda kəm-kəsirini.
4190 Həmişə məhəbbət, ülfət istəsən,
Şiş sox tamahına, boğ nəfsini sən.
4191 Dil aç və düz danış, söz soruşsalar,
Yersiz nitqin səni nəzərdən salar.
4192 İstəsən həmişə üzün ağ olsun,
Felin düz, dilin də bal, qaymaq olsun.
4193 Sözünü, özünü uca istəsən,
Ram et tamahını, qıyma dosta sən.
4194 Yalanı, böhtanı qılınc gibi kəs,
Düz olsan, üzünün suyu tökülməz.
4195 Harda baş qaldırsa dövlət, səadət,
Ülfət tap onunla, ən təmiz ülfət.

4196 Mərd ilə, cəsurla öcəşmə hədər,
Çörəyin, suyun da zəqquma dönər.

4197 Heç kəsin ardınca danışma əbəs,
Böhtan yıxar səni, bağın bar verməz.

4198 Söz bir qasırğadır, söz – acı rüzgar,
Bir az incə davran, halın təng olar.

4199 Özündən böyüyə qeysərlik etmə,
Dilini cəncələ öyrətmə, getmə!

4200 Qoru böyüklərin ləyaqətini,
Qorusan, taparsan səadətini.

4201 Tay-tuşdan ayrılma, qayna-qarış sən,
Murad al görüşdən, alış-verişdən.

4202 Səni əzizləsə, sən də əzizlə,
Səni gözdən salsa, dargözü pislə.

4203 Nə cür davransalar o cür ol, oğul,
Sənə şirin dosta sən də şirin ol.

4204 Yaxşıya yaxşı ol, yamana yaman,
Nakəs, alçaq səndən görməsin aman.

4205 Qaydanı-qanunu bilən bir kişi,
Necə təsvir edir görün gərdişi:

4206 Ayrılma, orduya qayna-qarış sən,
Qüdrət al, cürət al hər nəfərindən.

4207 Mən dedim hər şeyi, eşitdin sən də,
Yer ver sözlərimə öz ürəyində.

4208 Sənə siz desələr, sən də söylə: siz,
Bundan da uca tut, bundan da əziz.

4209 O sənə çor desə, çor söylə sən də,
Əks-səda qopsun qaya sinəndən.

## QARA KÜTLƏ İLƏ SÖHBƏT BƏHSİ

4210 Özğurmuş söylədi: – Bu səs, bu avaz,
Yatdı ürəyimə, ey əhvalı saz.

4211 Yenə bir sözüm var, ey üzü nurlu,
Cavab ver ona da, nitqin uğurlu...



4212 Mən bu gün baş çəkib kəndə-şəhərə,
Qaynayıb-qarışam gərək ellərə.

4213 Onlarla ülfəti nə cür qurmalı,
Necə oturmalı, necə durmalı.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

4214 Ögdülmüş söylədi: – Bu iş, bu əməl,
Xeyli gərəklidir, ey xülqü gözəl.

4215 Məndən ən zəruri mətləbi sordun,
Dinlə, bəlli olsun, səngisin odun.

## ÖGDÜLMÜŞ OZĞURMUŞA QARA CAMAATA QAYNAYIB-QARIŞMAĞI ÖYRƏDİR

4216 Qara camaatın rəftarı, feli,
– Xülqünə, zatına yaraşır xeyli.

4217 Düz və sadə olur onlar, şübhə yox,
Qaydanı, tərtibi anlamazlar çox.

4218 Tay olma onlara, ancaq anla ki,
Onlarsız iş keçməz, ay mənim bəyim.

4219 Qara camaatdan götürmə qara,
Qoyma ləkə düşə zatı paklara.

4220 Onlar başsız olur, başsız və çaşqın,
İşləri, gücləri nizamsız axın.

4221 Əsas qayğıları qarın otarmaq,
Yeməkdi, içməkdi dərdləri ancaq.

4222 Eşit nələr demiş, hər sözü gövhər,
Adamlar fərqini yaxşı bilən ər:

4223 Çoxları yaşayır tamam nizamsız,
Yeməkdir, içməkdir qayğısı yalnız.

4224 Nə qədər gödənbaz dönüb ifliçə,
Yatır yer altında, cəhənnəmdəcə.

4225 Avam, qarnı doysa, azadlıq istər,
Zəncirdə saxlansın gərək bu əntər.

4226 Qaynayıb-qarış da sən bu canlara,
Yemək ver, içmək ver daim onlara.

4227 Bir az yumşaq davran, nə istəsə ver,
Verməsən, almazsan, xeyirdi alver.

4228 Düşün, çox danışma, dilini saxla,
Sözün daşdan keçər az danışmaqla.

4229 Dinlə, nələr demiş mahir, hünərvər,
Özünü, sözünü möhkəm tutan ər:

4230 Hər sözü dilindən çıxarma əbəs,
Cümlən şimşək olsun, qılınc gibi kəs.

4231 Göz qoy, az danışar zəkavətlilər,
Özünü danlar ki, çox dedim, yetər.

## ƏLƏVİLƏR İLƏ MÜAMİLƏ

232 Təkcə bəyləri yox, əsgərləri yox,
Gərək tanıyasan hamını az-çox.

4233 Ölkədə peyğəmbər övladları var,
Onları dost tutan səadət tapar.

4234 Möhkəm sev onları, canın, başın bil,
Özgə yox, onları can sirdaşın bil.

4235 Peyğəmbər qardaşı, hamıya qəmxar,
Ali xanədana mənsubdur onlar.

4236 Bəlkə tikanlıdır dildə sözləri,
Qızılgül gibidir ancaq özləri.

## ALİMLƏR İLƏ ÜLFƏT

4237 Böyük alimləri tanımaq gərək,
Onlar yol göstərir xalqa mayaktək.

4238 Sən alim sözünü uca tut, uca,
Öyrən nə söyləsə ömrün boyunca.

4239 Gərəkli, gərəksiz cahanda nə var,
Seçir, haq yolunu göstərir onlar.

4240 Xidmət et alimə, öyrən elmini,
Ondan əsirgəmə şirin dilini.

4241 Ondan həqiqəti öyrənir hamı,
Dinin özəyidir alim kəlamı.



4242 Alim olmasaydı aləmdə əgər,
Bu qədər nemətlər bitərdi məgər?

4243 Xalqa məşəl tutur alimin elmi,
İşıqlı görürsən gecə aləmi.

4244 Alimə təzim qıl, yol aç, çörək ver,
Şirin sözlərin də ona gərəkdir.

4245 Onların vücudu zəhərə bənzər,
Sən acı danışma, nəvaziş göstər.

4246 Dilin yağ-bal olsun, duz-çörək yedir,
Qədir-qiymət qoymaq qoy bilsin nədir.

4247 Alim xilqətini pisləmə heç vaxt,
Elmini mənimsə, başını ucalt.

4248 Havandır, suyundur alimin elmi,
Haqq yolu göstərən alim deyilmi?

4249 Təkə bir sürünü ardınca çəkər,
O təkəyə bənzər müdrik alimlər.

4250 Yol vermə alimə toxunsun qada,
Üzü ağ olarsan iki dünyada.

4251 Ölkədə bambaşqa tayfalar da var,
Elmi, sənətilə türlüdür onlar.

## TƏBİBLƏR İLƏ ÜLFƏT

4252 Loğman ləyaqətli müdrik təbiblər,
Xəstəlik önündə supərdir, supər.

4253 Həkimsiz, təbibsiz keçinmək olmaz,
Şəfa qaynaqları az tapılır, az.

4254 Heç varmı düşməyən bir gün yatağa?
Həkimdir qaldıran onu ayağa.

4255 Xəstəlik ölümə ən yaxın yoldaş,
Ölüm başımıza lapdan düşən daş.

4256 Əzizlə, yaxın tut həkimləri sən,
Gərəkli mərdlərə əhsən, min əhsən.

## ƏFSUNÇULAR İLƏ ÜLFƏT

4257 Əfsunçu bəlkə də şəfa dənizi –
Yeldən, əcinnədən qoruyar bizi.

4258 Yeldən, cindən gələn xəstəlikləri,
Əfsunçu sağaldır əzəldən bəri.

4259 İstəsən kam alıb bəhrələnəsən,
Gərək dost tutasan əfsunçunu sən.

4260 Əfsunçu sözünə inanmır təbib,
Əfsunçu təbibdən zərbələr yeyib.

4261 Dərdlərə məlhəmdir həkim dərmanı,
Əfsunçu qovlayır cini, şeytanı.

## YUXU YOZUMÇULARI İLƏ ÜLFƏT

4262 Bir də bu aləmdə yuxu elmi var,
Yozumçu düşünər, yuxunu yozar.

4263 Bəli, yuxu görür yatarkən insan,
Gərək düz yozasan, yozumçu olsan.

4264 Boxtə, yaxşılığa çəkən bir yozum,
Səni dilşad edər, ey mənim quzum.

4265 Yuxu yamandırsa, yaxşılıq et sən –
Gərək yoxsullara ənam verəsən.

4266 Tanrı bəndəsinə daim mehriban –
Yozum çalarları ondan ərməğan.

4267 Yaxşı yuxu görsə şad olar insan,
Yamansa... Tanrıya sığınmalısan.

4268 Yetimə, yoxsula əl tutsan əgər,
Tanrı hər bəlanı dəf edə bilər.

4269 Yuxunu həmişə yaxşılığa yoz,
İncə yuxular gör, röya görən dost.

4270 Savadlı, mehriban yozumçu yoldaş,
Bir deyil, beş deyil, çox olaydı kaş.

4271 Əzizlə onları, əziz arkadaş,
İstəsən qardaş bil, istəsən sirdaş.



## ULDUZÇULAR İLƏ ÜLFƏT

4272 Başqa bir tayfa da ulduzçulardır,
Onların çox incə yolları vardır.

4273 Ay, gün, il hesabı onlara meyar,
Hesab bizə sadiq, bizə vəfadar.

4274 Hesabın qapısı açılar haçan,
Həndəsə elmini öyrənən zaman.

4275 Öyrən vurma, bölmə, kəsr elmini sən,
Gərək hər sahəni kamil biləsən.

4276 Təzifi, tənsibi, kök almağı da,
Mənimsəmək gərək, böylədir qayda.

4277 Gör yeddi qat fələk nəymiş, mənimsə,
Cəm nədir, təfriq[1] nə, səthi ölçmə nə?

4278 Cəbrü müqabili mükəmməl öyrən,
Aç, aç Uqlidisin[2] qapısını sən.

4279 Dünya işlərini, axirəti də,
Alimlər hesabla öyrənər, dədə.

4280 Hesab pozularsa, ey yaxşı insan,
Axirət işi də pozular, inan,

4281 Düşünüb yaxşı bir iş görək desən,
Yey vaxtı, nəs vaxtı gərək biləsən.

4282 Uğurlu, uğursuz ay da, gün də var,
Uğurlu vaxtı seç, ey ayıq – hüşyar.

4283 Savadlı, qocaman, ağsaçlı insan,
Eşit nələr demiş, bir xəzinə san.

4284 Kim ki, arxalanır elmə, biliyə,
Hansı addım atsa çatar diləyə.

4285 Elm – daşı kəsən ildırım, almaz,
Elm kölgələnsə, əl işə yatmaz.

4286 Dinlə ulduzçunu, dərhal inanma,
Yalnız Tanrı verir nuru adama.

4287 Ulduzçu alimə mehr ilə yanaş,
Vurma başına daş, lütf elə, qardaş.

1. Riyaziyyat.
2. Evklid.

## ŞAİRLƏR İLƏ ÜLFƏT

4288 Şairlər kimdi bəs? Mərdi öyənlər,
Namərdi söyənlər, lənət deyənlər.

4289 Qılıncdan itidir dili şairin,
Teldən də incədir yolu şairin.

4290 Hər növ nazik sözü bu dünyada sən,
Şairin dilindən eşidəcəksən.

4291 Gövhəri, incini, yaqutu bizə,
Şairlərdi verən, girib dənizə.

4292 Öysələr onların mədhi yayılar,
Söysələr, söyülən bədnam sayılar.

4293 Əzizlə, yaxşı tut şairi, qardaş,
Şairin dilinə düşməyəsən kaş.

4294 Mədh umsan, şairi əzizlə, ucalt,
Onunçün bağ-bağat, xoş həyat yarat.

4295 Nə keçsə könlündən ver, öp əlindən,
Özünü satın al şair dilindən.

## KƏNDÇİLƏR İLƏ ÜLFƏT

4296 Dehqanlar dünyada gərəkli tayfa,
Gərəkli, ürəkli, çörəkli tayfa!

4297 Təklənmə, onlara qayna-qarış sən,
Tapdığın çörəyi yavan yeməzsən.

4298 Sənə xeyir verər daim kəndçilər,
Yeməkdən, içməkdən həlavət yetər.

4299 Möhtacdır onlara aləmdə kim var,
Acan, qımıldanan, nəfəs alanlar.

4300 Şübhəsiz, gərəkdir kəndçilər sənə,
Yoxsa kimdən yetər bar-bəhər sənə?

4301 Qardaş, qayna-qarış, kəndçidən kam al,
Boğazın yaş olar, çörəyin halal.

4302 Eşit, nələr demiş ehtiyat əhli,
Halallıq aşiqi, pak həyat əhli.

4303 Halallıq yolunu tutan bir idrak,
Muzdunu pak edər, boğazını pak.



4304 Hər yeyən tikəni atma ağzına,
Halal bir qismət ver pak boğazına.

4305 Gədа yox, bəy olmaq istəsən əgər,
Uzaq ol zinadan, həzər qıl, həzər.

4306 Qədir-qiymət umsan, ey xülqü gözəl,
Fitnədən, fəsaddan əl çək, haqqa gəl.

4307 Mayanı zay edən fisqü-fücurdu,
Fisq əhli nakəsə, nacinsə surdu.

4308 Qoru fisq əhlindən səadətini,
Yandırıb kül edər ləyaqətini.

4309 Elmə meydan verən, pak xilqətli ər,
Dinlə, nələr demiş, əzbər bil əzbər.

4310 Fisqü fücur ilə ülfətdən sakın,
Qiymətdən düşərsən, zay olar haqqın.

4311 Fisqü-fücur əhli taparmı dövlət?
Tapsa qonaq gibi tez gedər əlbət.

4312 Kəndçini ucaldır mərdlik səxavət,
Tanrı vergisidir ondakı qüdrət.

4313 Kəndçidir bərəkət, nemət mədəni,
Gəzənin ruzusu, uçanın dəni.

4314 Ayrılma kəndçidən, can de, can eşit,
Üzün açıq olsun, rəftarın rəşid.

## SÖVDƏGƏRLƏR İLƏ ÜLFƏT

4315 Sövdəgər aləmdə bambaşqa tayfa,
Ona biganələr taparmı fayda?

4316 Tanrıya tapşırıb iqtidarını,
Ararlar yaşamaq üsullarını.

4317 Onlara biganə taparmı çörək?
Al-ver, gediş-gəliş, gör-götür gərək.

4318 Sövdəgər qövmündə hər nə desən var,
Ən gözəl nemətlər, ən yaxşı mallar.

4319 Gəzərlər aləmi şərqdən qərbəcən,
Tapıb gətirərlər hər nə istəsən.

4320 Tutiya, təbərrik, bahalı mallar,
Yalnız onlardadır, aləmdir onlar.

4321 Sövdəgər olmasa, nə cür geyərsən,
Qara keş gönünü öz əyninə sən?

4322 Çindən, Hind-Çindən gəlməsə karvan,
Bahalı malları hardan alarsan?

4323 Sövdəgər olmasa, incini, ləli,
Sapa nə cür düzər bir ustad əli?

4324 Bu cür söhbətlərin görünmür sonu,
Bir daşdan yaranar, vəsf etsən onu.

4325 Bağı bağbana ver, zəri zərgərə,
Qorxma, aç qapını sövdəgərlərə.

4326 Sən bu tayfa ilə qayna-qarış ki,
Ad-sanın, şöhrətin tutsun aləmi.

4327 Yaxşını, yamanı diyarbədiyar,
Car çəkən, tanıdan onlardı, onlar.

4328 Sənə azmı-çoxmu töhfə qılsalar,
Əvəz ver, şad olub razı qalsınlar.

4329 İncədir onların təbiətləri,
Çox aydın seçirlər zərəri, xeyri.

4330 Müdrük, dünyagörmüş, pirani kişi,
Nasıl təsvir edir görün gərdişi:

4331 Adını aləmdə yaymaq istəsən,
Əzizlə, uca tut müsafiri sən.

4332 Adın yayılsınmı obaya-elə?
Onda sövdəgəri bəhrəmənd elə.

4333 Yaxşı ad çıxarmaq, şöhrət istəsən,
Əziz tut müsafir karvanını sən.

4334 Sövdəgərlər ilə bu cür baş-başa,
Əl-ələ veribən bəxtiyar yaşa.

## ÇARVADARLAR İLƏ ÜLFƏT

4335 Bütün heyvanlara başçı çarvadar,
Hey gəzər, qarşıda yorucu yollar.



4336 Nə yeri, nə bağı, nə mal-mülkü var,
Yalnız xeyir verər ellərə onlar.

4337 Ayğırlar, köhlənlər, mayalar, nərlər,
Əlləri altında daim səfərbər.

4338 Onların nemətі süzmə, qurut, yağ,
Qımızdır, ağüzdür, qaymaqdır ancaq.

4339 Yeyimdir, geyimdir, minikdir atlar,
Əziz tut, şad olsun qonaq çarvadar.

4340 Çörək ver, əskilməz peşkəşi onun –
Süd, qatıq, bulama, çuval-çuval yun.

4341 Nə fitnə bilərlər, nə hiylə, nə şər,
Əl tut, əsirgəmə nə istəsələr.

4342 Genişdir onların könül meydanı,
Bilməz, gözləməzlər qanun-qaydanı.

4343 Rast gəlsən, onları duymağa çalış,
Tərtibsiz, qaydasız həyata alış.

4344 Dildə dost desən, de... dost bilmə ancaq,
Cahildə olarmı zəka, qanacaq?

4345 Xalqına qaynayıb, qarışan arif,
Çıxıb min sınaqdan, görün nə deyib:

4346 Çox da yaxın tutma savadsızları,
Korlayar işləri, pozar qatarı.

4347 Təlimçi necə də söyləyib qəşəng,
İşi iş bilənə tapşırmaq gərək.

4348 Yanaşma nadana, özünü saxla,
Özünü saxlayan güvənir ağıla.

4349 Nadandan, cahildən həzər, əlhəzər,
Qanında həmişə alçaqlıq gəzər.

4350 Çarvadarlar ilə ülfət yap... amma,
Sözlərim yolunda olsun rəhnümə.

4351 Sənə dəqiq dedim hər şeyi bir-bir –
Əlbir yaşamağın tərzi necədir.

## SƏNƏTKARLAR İLƏ ÜLFƏT

4352 Hünərmənd – sənətkar bir başqa zümrə,
Dolanmaq naminə dözər də cəbrə.

4353 Bunlar da gərəkli mərdlərdir, ey mərd,
Bəhrəmənd olarsan, ülfət qıl, ülfət.

4354 Dəmirçi, çəkməçi, boyaqçı, zərgər,
Rəssamlar, oxçular hünər göstərər.

4355 Onlardır yaradan gözəllikləri,
Xeyri, bərəkəti, sərfəti zəri.

4356 Həyatda onların çoxdur bənzəri,
Mümkünmü sanamaq iş görənləri?

4357 Qoşul, sev onları, ixtilat yarat.
Şad elə, mehrinlə qaynasın həyat.

4358 İşini görsələr, iş haqqını ver,
Çağır, yedir, içir, gül bağını ver.

4359 Nakəs tanımasın səni adamlar,
Adına qonmasın bir toz, bir qubar.

4360 Xalqına mehriban, könlü pak, uca,
Qoca nələr demiş, çiyni dağ qoca:

4361 Səadət istəmə, yaxşı ad istə,
Səadət yaranır yaxşı ad üstə.

4362 İnsan ölüb gedir, adındır qalan,
Yaxşı ad özü də balandır, balan.

4363 Adın batmaqdansa özün batıb get,
Adı ləkələnsə, yaşarmı igid?

4364 Əlində beş günlük mayadır həyat,
Yaman lənətlənir, qalır yaxşı ad.

## YOXSULLAR İLƏ DAVRANIŞ

4365 Çağır, yedir, içir kasıbları sən,
Daim açıq olsun ürəyin, süfrən.

4366 Bütün köməksizlər duaçın olar,
Dua yaxşı şeydir, ey xalqa qəmxar.

4367 Onlardan var-dövlət, əvəz istəmə,
Əvəz Tanrıdandır sənin üstünə.

4368 Kimə işin düşsə xidmətində dur,
Ülfət bağlamalı zümrələr budur.



4369 Qaçma, işi düşsə, çat imdadına,
O da zaman gələr, yetər dadına.

4370 Həyatda hamının könlünü görsən,
Hər iki dünyanı tapa bilərsən.

## HANSI XATINLA EVLƏNMƏLİ

4371 Evlənmək istəsən dörd olsun gözün,
Ən gözəl xatını özün seç, özün.

4372 İsmətli, zokalı mələk seç, mələk,
Əsli də, nəsli də pak olsun gərək.

4373 Düşün, əl dəyməmiş ev qızını al,
Yad nəfəs görməmiş bir sahibcəmal.

3474 Qılıqlı, mehriban, gözü-könlü tox,
Yalnız səni sevsin, özgəsini yox.

4375 Çalış ki, özündən ulu olmasın,
Kişi arvadının qulu olmasın.

4376 Dinlə, nələr demiş sınanmış dədə,
Sınanmış dədələr çoxdu ölkədə:

4377 Özündən bir azca kəmtərini al,
Düz olsun, qız olsun. Dad versin vüsal.

4378 Ondan kamal istə, camal istəmə,
Qızınsın həmişə sənin istinə.

4379 Üzünü ağ edən, sənə münasib,
Qızılgülə dönsün, üstündə əsib...

4380 İnan, vacib deyil üz gözəlliyi,
Təki şölə versin öz gözəlliyi.

4381 Ey gözəl istəyən, gözəl istəmə,
Saralar ağ üzün... ağa pis demə.

4382 Evlənmək eşqinə düşən üzüağ,
Dörd çeşid xatından uzaq ol, uzaq.

4383 Kimi zəngin xatın, bəy xatın istər,
Kimi günəş xatın, ay xatın istər.

4384 Əsli-nəsli olsun – soraqlar biri,
Zatı ali gərək, soyu zər, iri.

4419 Nə qədər igidin solub bənizi,
Qadın ucbatından bükülüb dizi.

4420 Qadın ucbatından dağ boyda kişi,
Bəzən deşik gəzib girməyə, deşik.

4421 Şərəfli-şöhrətli nə qədər əri,
Qara yerə soxub qadın əlləri.

4422 Qadın cinayəti, pozğunu, azğın...
Tanrı bizi ondan özü saxlasın.

## ƏL ALTINDAKI KİMSƏLƏRİ YAXŞI SAXLAMALI

4423 Qulu, qaravaşı, nökəri şəksiz,
Yedirin, içirin, geydirin təmiz.

4424 Qüvvəsinə görə işlədin ancaq,
Bilin Tanrı bunu unutmayacaq.

4425 Qüvvəsindən artıq işlətsən əgər,
İnan, Tanrı sənə düşmən kəsilər.

4426 Onların hamısı Tanrı quludur,
Qula zülm edəni cəhənnəm udur.

4427 Sən böyük, onlarsa kiçikdir, lələ,
Gərək rəftar etsin böyük kiçiklə.

4428 Kiçik tut özünü, böyük olsan da,
Təvazö yaraşır böyüyə müdam.

4429 Dinlə, gör nə demiş zəkavətli ər,
Yaz bunu qəlbinə, ey sinədəftər.

4430 Xalqa çörək verən ər olsan əgər,
Dilinlə, qəlbinlə təvazö göstər.

4431 Unutma özünü, olsan da azman,
Ağ bəxt özü gəlib, düz yoldan azma.

4432 Səxavət, nəzakət ucaldar səni,
Daim pakizə tut ev-eşiyini.

4433 Evində bol elə yemək-içməyi,
Unutma, Tanrıdır verən hər şeyi.

4434 Gəlirin-çıxarın həmahəng olsun,
Bir yandan boşalan, bir yandan dolsun.

4435 Alımda, verimdə sərrast, dürüst ol,
Alış-veriş vaxtı qapanmasın yol.

4436 Məbada ovcun daş, əlin bərk ola,
Yalnız səxavətlə udarsan, bala!

4437 Sevənin işinə qarışma zinhar,
Səni sevməyənlər gülər, gəc baxar.

4438 Səni ucuz tutsa qohum-qardaşın,
Ağrıyar ürəyin, ağrıyar başın.

4439 Yaxşı adamlardan əl üzmə, haşa,
Kişi ol, kişilər içində yaşa.

4440 Kəndə gəlsən, əl tut aca, səfilə,
Ağ üzün solmasın təəssüf ilə.

4441 Böyük yol üstündə ev tikmə, sakın,
Ayağı altında qalarsan xalxın.

4442 Daşqın çay üstündə binələnmə heç,
Qaladan uzaqlaş, bürcdən də vaz keç.

4443 Bu üç qonşuluqdan sənə səmər yox,
Ziyanı bağrına min ox sancar, ox.

4444 Ev almaq istəsən, tanı qonşunu,
Yer almaq istəsən, soruş suyunu.

4445 Bədxahı, nacinsi yandır od gibi,
Felin düzgün olsun yorğa at gibi.

4446 Boy adı aldınmı, şükr elə, yetər,
Baş alıb getməsin sevinc, ya kədər.

4447 Unutma Tanrını, bir də ölümü,
Açıq tut gözünü, bir də könlünü.

4448 Sözünü düşün de, can verme qəmə,
Bomboş gün keçirib təəssüflənmə.

4449 Hədsiz lovğalanma, nifrətlənərsən,
Dargöz, paxıl olma, lənətlənərsən.

4450 İncə təbiəti, insaniyyəti,
Ün salan nə demiş, öyrən bu beyti:

4451 Yaxşı ad istəsən, qulaq as, dinlə,
Heyran qoy aləmi səxavətinlə.

4452 Qul etmək istəsən azad adamı,
Yenə səxavətdir işin əncamı.

4453 İstəsən göylərə ucalsın başın,
Elm, ürfan olsun gərək sirdaşın.

4454 İstəsən aləmə ün salsın adın,
Əzizlə qonağı, yaxını, yadı.

4455 Sakit, fərağətli ömür istəsən,
Ey xilqəti gözəl, qafil olma sən.

4456 Tanrıya ibadət məramınsa, bil:
Həvəsin, tamahın çək gözünə mil.

4457 İnsanlıq qatına qalxmaq istəsən,
Cilovla, zəncirlə, boğ nəfsini sən.

4458 Dinlə, nələr demiş düşünən insan,
Əməl et bu sözə, ey xilqəti saf.

4459 Səni çulğamasın nəfsin daşqını,
Ayağı altına salar başını.

4460 Həfs yaman olar, yaxşılıq görsə,
Sındırar boynunu, can vermə nəfsə.

4461 Ögdülmüş sözünü tamam eylədi,
– Avamın rəftarı böylədir – dedi.

4462 Mən dedim hər şeyi, eşitdin özün,
Düşünsən, bəlkə də qalmaz bir sözün.

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ SUALI

4463 Ozğurmuş söylədi: – Ey xülqü gözəl,
Eşitdim, hər şeyi dedin mükəmməl.

4464 Səndən soruşmalı bir söz var yenə,
Onu açıqlayıb mənə – versənə!

4465 Qaynayıb-qarışsam adamlar ilə,
Gərək meydan verim daim get-gələ.

4466 Məni süfrəsinə çağıranları,
Gərək mən də bir gün çağıram barı.

4467 Ziyafəti nə cür qəbul etməli,
Nə cür çağırmalı, nə cür getməli?

4468 Bunu birər-birər dəqiqləşdirək,
Hər şeydən xəbərdar olmağım gərək.



## ÖGDÜLMÜŞ SÜFRƏYƏ DƏVƏT, QONAQ GETMƏ QAYDALARINI ÖYRƏDİR

4469 – Gərəkli işdir bu – Ögdülmüş dedi –
Dinlə, ey qarındaş, sən bu söhbəti.

4470 Dəvət edilənlər növ-növ, rəngbərəng,
Aşlar, xörəklər də buna həmahəng.

4471 Ziyafət aşı var, sünnət bəzmi var,
İlkəsdi günündə başqa bir çalar.

4472 Kimi çağırırsan? Qarındaşları,
Böyüyü, kiçiyi, tay-tuşu, yarı.

4473 Ölüyə xatirə, matəm aşı var,
Nişan, adaxlanma, həmdəm aşı var.

4474 Hansı ziyafətə varıb getməli,
Bəlkə getməməli, ayırd etməli.

4475 Tay-tuş, yar, vəfadar məclislərinə,
Get ki, göz qoyasan bəzmin təhrinə.

4476 Bollu yemək-içmək, çatarmı xörək –
Məzbana hər şeyi öyrətmək gərək.

4477 Yaxınlar, qonşular, aşnalar, dostlar,
Səni çağırsalar, var ey bəxtiyar.

4478 Bil ki, çağırırlar Tanrı adına,
Qanad qoş onların qol-qanadına.

4479 Sənə həsr edilmiş ziyafət olsa,
Sevindir onları, çəkinmə əsla.

4480 Könül ziyafəti əziz, mübarək,
Getməsən inciyər, gedəsən gərək.

4481 Yarı ac, yarı tox qalmaq da asan,
Təki qonaqlıqda ağrımayasan.

4482 Bir cəncəl çıxarsa zatıqırıq məst,
Yediyin, içdiyin canına sinməz.

4483 Sakın, qarnın üçün hər yerə getmə,
Özünü qədirsiz-qiymətsiz etmə.

4484 Nəfsə şiş soxmağı bacaran insan,
Nə demiş: bu sözü bir xəzinə san.

4485 Nəfsinin qulu yox, ağası ol sən,
Alçalma, ey uca, ey ülvi mədən.

4486 Dağ boyda kişilər görmüşəm ki, mən,
Nəfsinə qul olub düşmüş nəzərdən.

4487 Görmüşəm nə qədər kübar, bəy, ağa,
Nəfsi ucbatından batıb palçığa.

4488 Nəfsinin köləsi baylar görmüşəm,
Axırda lüt qalıb, zaylar görmüşəm.

4489 Ey ülvi, müzəffər, qul olma nəfsə,
Nəfsinin köləsi düşər məhbəsə.

4490 Hər hansı məclisdə yeyərkən xörək,
Ədəbi, ərkanı güdəsən gərək.

4491 Qaydanı bilməyən fərasətsiz ər,
Qayda gözləyəndən utanmaz məgər?

4492 Yeməyə başlasın böyüklər əvvəl,
Başla bundan sonra, sən də uzat əl.

4493 Çirmə sağ qolunu, haqq adını çək,
Tanrını yad edən zənginləşəcək.

4494 Özgə önündəki dürməyi alma,
Nə varsa qarşında ye, fikrə dalma.

4495 Məclisdə işlətmə süngü, ya bıçaq,
Yüngülü, nadanı əzizləmir vaxt.

4496 Azca yeməlisən tox olsan belə,
Adam yeyib-içir yar-yoldaş ilə.

4497 Çeynə, ud tikəni, ud yavaş-yavaş,
Ağzınla püfləmə, istidirsə aş.

4498 Yeməyi uzaqdan özünə sarı,
Dartma, pozulmasın süfrə gülzarı.

4499 Ədəbsiz adamlar pozar qaydanı,
Ədəbsiz adamda qanacaq hanı?

4500 Tərtibi, ədəbi gözləyən kişi,
Necə təsvir edib görün gərdişi.

4501 Dünyada hər şeyin öz qaydası var,
Qayda gözləyənin üzü ağ olar.

4502 Qayda gözləməyən bədxilqət kəsin,
İnanma bir işi irəli getsin.



4503 Qolunu çirməyib iştahla yesən,
Süfrə sahibini sevindirərsən.

4504 Biri zəhmət çəkib süfrə açırsa,
Onun zəhmətini zay etmə əsla.

4505 Gör nə gözəl deyib ayıq bir insan,
Göy qurşağı gibi mənası əlvan:

4506 Mərd ürək bir zərif şüşəyə bənzər,
Ehtiyatlı davran, sınıb tökülər.

4507 Qəlbi ki, sındırdın həlavət gedər,
Kəsilər yaxınlıq, üzülər səmər.

4508 Al ələ qəlbini yaxınlıq umsan,
Çətin yanaşarsan, qəlbi sınıbsa.

4509 Çox yemə, ruzunu qədərincə ye,
Ariflər deyəni təkrar sən də de:

4510 Çox yemək insanı ağırlaşdırar,
Həzmi çətinləşər, verər dərd, azar.

4511 Dərd boğazdan girir, ram et nəfsini,
Az yemək, az içmək öldürməz səni.

4512 Dərd-azar insanı taqətdən salar,
Yetməz imdadına nalə, ahu-zar.

4513 Həkimlər, loğmanlar yaxşı deyib ki,
Az yemək özüdür ən dürüst həkim.

4514 Xəstəlik ölümün xəbərçisidir,
Mərəzin sədası ölüm səsidir.

4515 Xəstəlik afətdir, son yeri məzar,
Orda həlavətdən bir nişanmı var?

4516 Adam dedikləri iblis, ya mələk,
İstini, soyuğu fərq etsin gərək.

4517 Yeməsin, məzacı götürməyirsə,
Rahatlıq gətirmir ruzu hər kəsə.

4518 İsti aş yemisən, soyuq şərbət iç,
Bəzən isti çay iç, soyuqdan vaz keç.

4519 Coşğun dəliqanlı bahar zamanı,
Soyuq sular içsə durular qanı.

4520 Yaşı qırxı ötən gərək əslində,
İsti sular içsin payız fəslində.

4521 Altmış, altmış beş, yetmiş yaşlılar,
İsti çay içərsə, qışdan qorunar.

4522 Soyuqluğa qarşı isti nemətlər,
Ən yaxşı çarəmiz deyilmi məgər?

4523 Şaxta həddi aşıb gətirsə ziyan,
İsti, quru nemət tutar qolundan.

4524 Soyuqlar düşəndə istidir çarə,
İsti güc gələndə keç sərinlərə.

4525 Xətrin nə istəyir, isti, soyuqmu?
Tap orta meyarı, ılıq ovduğu.

4526 Bu yolla nizamla öz məzacını,
Rahat dolanmağın tap əlacını.

4527 Loğman nə söyləmiş, eşit bu sözü,
Anla mənasını, ay canım-gözüm:

4528 Nəfs nə deməkdir, möcüzədir bu –
Ağ, qara, sarı, al rənglər toplusu.

4529 Bunlar bir-birinə düşmən kəsilmiş,
Düşmənlər toqquşsa düzələrmi iş?

4530 Məzacın nə istər, dərk etməlisən,
Başqa yeməkləri tərk etməlisən.

4531 De nəylə fərqlənir heyvandan insan,
Nəfsin tələbilə dolanmalısan.

4532 Eşit, nələr demiş ağsaçlı qoca,
Anla, yadda saxla ömrün boyunca:

4533 Qırx yaşı ötsə də öz məzacını,
Bilməyən taparmı can əlacını?

4534 Elmi qavramayan, sınaq görməyən,
Nadana necə sən insan deyəsən?

4535 Yol-yoruq bilməyən, saymayan elmi,
Məgər cütayaqlı heyvan deyilmi?

4536 Baxta ki, gün görüb, dövranlar sürüb,
Nadanın məskəni sürüdür, sürü.

4537 Loğmanın ən məşhur bir kəlamı var:
Adam az yeyərsə, salamat yaşar.

4538 Yaşamaq istəsən azar-bezarsız,
Dərmanın "Az" adlı nüsxədir yalnız.



4539 Dolanmaq istəsən bir azca asan,
Dilini dişinlə saxlamalısan.

## ÖGDÜLMÜŞ OZĞURMUŞA QONAQLIĞA DƏVƏT QAYDALARINI ÖYRƏDİR

4540 Dəvət edirsənsə adamları sən
Bu dəvətə layiq iş görməlisən.

4541 Yemək, içmək gərək təmiz, tər-təmiz,
Yer, süfrə, piyalə, paltar pakizə.

4542 Nemətlər müxtəlif, xörəklər rəng-rəng,
Görəndə iştahın açılsın gərək.

4543 Dəvətsiz gələnlər saymaz nöqsanı,
Dəvətli çox bilər lap az nöqsanı.

4544 Yeməklər, içkilər dadlı, pakizə –
Böyük ilham verən gərək məclisə.

4545 İstər uzaq olsun, istərsə yaxın,
Çağır ki, dostların xətri qalmasın.

4546 Gələnlər gələcək. Gəlməyənlər də,
Sayıblar! – deyəcək xeyirdə, şərdə.

4547 Məclisdə boğazı islanmayanlar,
Bəlkə qəbrə qədər qeyzini saxlar.

4548 Göz qoy, yemək-içmək hamıya çatsın,
Gecikən özü də bir nemət dadsın.

4549 Adamlar yesinlər, sən piyalə tut,
İçsələr bir daha doldur, hazır et.

4550 Yemək süfrəsində içki bol gərək,
Həmahəng işlənir yeməklə içmək.

4551 Yemək süfrəsində içki olmasa,
Zəhərə, zəqquma dönməzmi masa?

4552 Ayran, iskəncəbi, reyhan şərbəti,
Gülab ver, nuş edib ansın cənnəti.

4553 Sənin hər piyalən dirilik suyu,
Dirilik suyu ver həyatın boyu.

4554 Bütün böyüklərə çatacaqmı aş?
Kiçiklər doyunca yeyib, içsin kaş.

4555 Çalış, yemək-içmək hamıya çatsın,
Söyüb getməsinlər, aclar da dadsın.

4556 Şirni süfrəsi aç, gətir yer-yemiş,
Yaş, quru meyvələr, qoz-fındıq, kişmiş.

4557 Bacarsan hamıya ipək parça ver,
Sevir diş haqqını, hər qonaq sevir.

4558 Gördün ki, düzəlib, kökdü kefləri,
Gedəni qaytarma yolundan geri.

4559 Qonaqlığa gələn dörd cür tayfa var,
Sayım bircə-bircə, tanınsın onlar.

4560 Kimisi gəlir də, yeyib-içir də,
Xəsisin ardınca ölçüb-biçir də.

4561 Cavabən heç kəsi çağırmır ancaq,
Başını bürüyüb tək yeyən qonaq.

4562 Adam var can atır içə badəni,
Cavabən evinə çağırır səni.

4563 Adam var, bərklikdə bəlkə, daş-dəmir –
Nə qonaq çağırır, nə qonaq gəlir.

4564 Diri yox, ölü bil böyləsini sən,
Görüşmə, qoşulma, əl vermə əslən.

4565 Adam var, rədd edir çörəyi, duzu,
Ancaq duz-çörəyə çağırır səni.

4566 Mən sənə göstərdim ən dürüst yolu,
Alimlər vəsf edən feli, düz yolu.

4567 Fərqi yox, qonaq ol, ya qonaq çağır,
Az ye, tamahının qollarını qır.

4568 Unutma: çox yeyən dərdmənd olar,
İtirər əzmini, rəngi saralar.

4569 Özünü dərk edən mətin, mötəbər,
Ər dilindən çıxıb bu yaxşı sözlər.

4570 Dərd boğazdan girər, canda yerləşər,
Qocaldıb öldürər o şər oğlu, şər.

4571 Cilovla nəfsini, azarsız yaşa,
Sağlam ol, həyatla verib baş-başa.

4572 İstər qonaq çağır, istər qonaq get,
Təki çox yeməyi biryolluq tərgit.



4573 Budur mən söylədim, sən də eşitdin,
Sözü uzatmayaq mətləbə yetdin.

4574 Qaynayıb-qarışmaq ən ülvi duyğu –
Budur yaşamağın yolu-yoruğu.

4575 Düşün, dərin düşün dediyim sözü,
Ey mənim könlümün günü-gündüzü.

## OZĞURMUŞ ÖGDÜLMÜŞƏ BU DÜNYADAN ÜZ DÖNDƏRİB O DÜNYAYA BAĞLANMAĞI BİLDİRİR

4576 Ozğurmuş söylədi: – Bu sözlərin sən,
Eşit cavabını, ey dolu mədən.

4577 İnan, kim öyrənsə bu kəlamını,
Götürər dünyadan arzu-kamını.

4578 Fəqət yaşamağın çox sevən kişi,
Öncə bilməlidir, bir neçə işi.

4579 Adam ki, hey yığır bunca dövlət-var,
Ömürsüzsə, bunun nə mənası var?

4580 Əgər bu dünyaya qalmışsa heyran,
Haçan ibadətə vaxt tapar insan?

4581 Fikir ver, yanıma gəlmisən bu gün,
Vaxtımız qaldımı ibadət üçün?

4582 Bir fərdə verirsə bu qədər zərər,
Məni bu aləmə bağlama hədər.

4583 Mən özüm üz qoysam kəndə, şəhərə,
İşim də, sözüm də çatar ellərə.

4584 Həyata qaynayıb-qarışanda biz,
İbadət qapısı qapanır şəksiz.

4585 Qocalıb, qarıyıb dönmüşdüm külə,
Dirildim Tanrıya ibadətimlə.

4586 Səcdəsiz, Tanrısız nə cür dolanım,
Mənə yaraşarmı, ey mehribanım?

4587 Bəlkə eşitmisən bunu bir zaman,
Nə demiş zəkası ümman bir insan:

4588 Qocalıq işini cavan ikən gör,
Qocanın qalırmı dizlərində gir?

4589 Səcdəyə, taətə gənc ikən tələs,
Bunlar qocalıqda bəlkə də əbəs.

4590 Nə qədər ki, gəncsən xeyir ver, xeyir,
Qocaldın atəşin, odun da gedir.

4591 Nə qədər xoş olar – gənclik çağında,
Bütün gözəlliklər bitsin bağında.

4592 Necə gülünc olar – taqətsiz kişi,
İstəsə yerisin gənclik yerişi.

4593 Yaşamaq üçündür, aləmdə hər şey,
Yaşam tükəndimi, sönür qüvvə, hey.

4594 Yır-yığış etdinmi, sönür həyatın,
Soruş kimə qalır, çalğın, bayatın.

4595 Tutalım, öyrəndim şaha xidməti,
Öyrəndim, necədir xalqın xilqəti.

4596 Öləndə bunlardan kimə nə fayda,
Üç arşın bez olur payın axırda.

4597 Özünü alova, buza atmağın,
Bumu nəticəsi, ey çaşqın, azğın?

4598 Səni böyütdümü dünyanın malı?
Daşdan keçən sözün, o cah-cəlalın?

4599 Cahanda bu iki qismətdən savay,
Ey kaş, ölməzliyi pay alaydın, pay.

4600 Ölüm hər qisməti əlimdən alır.
Nəyimə gərəkdir dünya, a zalım?

4601 Axı səadətin öz nişanı var.
Qaydadır, ağ günlər üzü ağardar.

4602 Bəxtsizlik insanı vaxtsız qurudur,
Qocaldır şövqünü, əzmini udur.

4603 Necə dürüst demiş gör böyük alim,
Bunu saxla yadda, ey əhli-təlim.

4604 Nədir bilirmisən ər səadəti –
Atır yamanlığı, tutur qeyrəti.

4605 Qocalıq çağında, nəfsi dalınca,
Gedənlər bədbəxtdir, yaşayır bica.



4606 Dəmirdən bir şəhər, poladdan saray[1],
Tiksən də torpaqdır alacağın pay.

4607 Hanı it oğlu it, görünmür niyə?
Minib qaraquşu qalxardı göyə[2].

4608 – Tanrı mənəm! – deyə fəxr edən hanı?
Uddu dəniz gibi lovğa qarğanı[3].

4609 Hanı qamarlayan xəzinələri,
İndi bilinmir heç qəbrinin yeri[4].

4610 Hanı gündoğandan günbatanacan,
At belində uçan, aləmi qucan[5].

4611 Hanı qurşağacan dönüb ilana,
Suyu yara-yara girən ümmana[6].

4612 Hanı uluslara, ellərə sərvər,
Əsiriydi quşlar, divlər, pərilər[7].

4613 Hanı ölmüşlərə can verən kişi?
Nəfəsi ilk bahar, həyat günəşi?[8]

4614 Nanı bu dünyaya yol göstərən ər,
Sayılan, seçilən rəhbər peyğəmbər[9].

4615 Ey xülqi pakizə, növ-növ möcüzə,
Məgər deməmidi əlvida bizə?

4616 Böylədir aləmin qayda-qanunu,
İstər sayma bunu, istər say bunu.

4617 Doydumu mədəsi kül rəngli yerin?
Hələ tələb edir: qurbanlar verin.

4618 Açın bu torpağın lay-lay qatını,
Gör kimlər bəzəyib onun altını.

4619 Ariflər, alimlər bəylər necoldu,
Sığmadı aləmə, döndü heç oldu.

---

1. Şəddada işarə
2. Nəmruda işarə
3. Firona işarə
4. Haruna işarə
5. İsgəndər Zülqərneyin.
6. Həzrət Musa
7. Süleyman peyğəmbər
8. İsa peyğəmbər
9. Həzrət Məhəmməd

4620 Burda bəyi quldan, şahı yoxsuldan,
Fərq etmək çətindir, bir saymaq asan.

4621 Dərd-azar bilməyən min-min qəhrəman,
Hecə sakit yatır qımıldanmadan.

4622 Bu cür nər kişilər yerdə yatırkən,
Diri qalarmıyıq ya mən, ya da sən?

4623 Böyük haqq yoluna çıxmışsa bir mərd,
Xırda, cır işlərə heç olarmı bənd.

4624 Cılız həvəslərdən uzaqlaşmışam,
Dayağım Tanrımdır, varıb get paşam.

4625 Bizi acgözlükdür qul edən ən çox,
Atdım acgözlüyü, toxdu gözüm, tox.

4626 Vəfasız dünyanı tərk edən, gedən,
Kişi nələr demiş, eşit dilindən!

4627 Tapdım diləyimi özüm həyatda,
Hanı hərisliyim? – Təpiyim altda.

4628 Diləkdən, arzudan əl çəkdim tamam,
Başqa bir aləmin sorağındayam.

4629 Bu dünya bənzəyir əkin yerinə,
Səpsən hansı dəni o, bitər yenə.

4630 Yaxşılıq törəyər yaxşı toxumdan,
Yeməyin, geyimin yaranar ondan.

4631 Yaman toxum əksən dönər yamana,
O biri dünyada minər boynuna.

4632 Bu gün arzuları basmasam dama,
Sabah yetərəmmi arzuya-kama?

4633 Səni tərk etməmiş, sən onu tərk et,
O, səndən doymamış, sən ondan doy... get.

4634 Sən ondan doymamış o səndən doyar,
Onu tək qoymamış, səni tək qoyar.

4635 Nəyinə gərəkdir uyduğun həyat,
O, səni atırsa, onu çoxdan at.

4636 Tərk et, bu dünyanı, ey üzülən can,
Yalnız o dünyada dinclik taparsan.

4637 Bundan yaxşısını istərəm desən,
Hər iki dünyanı itirmə birdən.



4638 İstə sahibini iki aləmin,
Axirət dünyadan fərqlidir yəqin.

4639 Sənindir dünyaya təməl qoyanlar,
Onu xəlq eləyən ən ulu memar.

4640 Qorxma insanlardan arzuları boğ,
Dayağın – Allahdır, yalnız ondan qorx.

4641 Ən ulu qüdrəti atıb bir yana,
Rəvamı xidmətim acgöz insana.

4642 Xidmət də dünyada növ-növ, cürbəcür,
Biri boş... o biri qəbul olunur.

4643 Qəbul edilməyən xidmət nəhsdi, nəhs,
Vaxtı, ömrü-günü, hər şeyi əbəs.

4644 Qəbul edilirsə, xidmət nuru, nur,
Başında səadət çələngi olur.

4645 Acmısan, toxmusan? Fərqi azdır, az,
Qatlaş hər zəhmətə, yubanmaq olmaz.

4646 Qəbul edilməyən xidmətdən əl çək,
Bil ki, ömür-günün hədər gedəcək.

4647 Nədir xidmətinin barı, bəhrəsi,
Nədir xidmətinin sənə töhvəsi?

4648 Xidmətin öz yolu ədəb-ərkanı,
Gör ondan nə demiş İla ərkini:

4649 Çətindir bəylərə xidmət vərdişi,
Dağları yıxsan da görünmür işin.

4650 Xidməti yarıtsan can əldən gedir,
Yarıda bilməsən, ömür-gün bitir.

4651 Ey xidmət fədası, bu işdən əl çək,
İnan ki, bu yolda başın gedəcək.

4652 Güman edərsən ki, bəy alqış deyər,
Lapdan qəzəb saçar, söyər, əd tökər.

4653 Onun xidmətini anlamaq çətin,
Ondan umduğunu görməzsən yəqin.

4654 Bu dünya qərarsız kölgəyə bənzər,
Çovğunu, küləyi başından əsər.

4655 Bu dünya – ilğımdır. Getmə, toxta, dur,
Uzaqdan görünür, yaxında yoxdur.

4656 Dövlət növbət ilə yetişər sənə,
Amma vəfa qılmaz, tez gedər yenə.
4657 İndi gərək deyil bu dünya mənə,
Dəysin növbəti də öz təpəsinə.
4658 Bəsimdi qulunu yad etsə, Tanrım –
Sevincim, güvəncim, ulu memarım.
4659 Sevənim yoxmudur? O sevsə yetər,
Başqa cür düşünən iblisdən betər.
4660 Pənahım, umudum, ərmanım, əhdim,
Yalnız ulu Tanrım, ulu məbədim!
4661 Ruzum – arpa, cadı, geyimim – dəri,
Bunlar yetər mənə, canım-cigərim!
4662 Eşit nələr deyər, nələr söyləyər,
Kahada yaşayan mehriban bir ər.
4663 Bir qoyun dərisi, bir ovuc kəpək,
Bunlar yetər mənə son günümədək.
4664 Şəkərdən dadlıdır bu cad, bu çörək,
Boz dəri gözümdə ipəkdən qəşəng.
4665 Fərqi yox, yeməkdir arpa, ya buğda,
Susasan, dad verər bir içim su da.
4666 Cada, bozzamaca yavandır demə,
Məzacın pozular, mal kimi yemə.
4667 Getmə dad ardınca, əzabdı dad-tam,
Dibsiz bir quyuya düşərsən müdam.
4668 Ağız ləzzətidir növ-növ nemətlər,
Qaçma dad ardınca, heyvansan məgər?
4669 İpək də, cındır da geyinmək olar,
Sən qalx o dünyaya hazırlaş, ey yar.
4670 Səni tox saxlayar bir öynə yemək,
İki il bəsimdir geydiyim gömlək.
4671 Bir geyim, bir qarın yemək üçün mən,
Gedim özgəsinə qul olum nədən?
4672 Uca göydən tutmuş nəm torpağacan,
Harda olur-olsun dərd çəkir insan.
4673 Bütün dərdlilərdən xəbərdar həssas,
Özü dərd çəkməyən Tanrıdı yalnız.



4674 Elə buna görə əhdim-muradım,
Tanrıdır, hər şeyi ona bağladım.
4675 Tanrının varlığı mənə bəllidir,
Məbədim könlümə ilk təsəllidir.
4676 Yuxusuz qalmışam, hardadır Tanrım?
Özüm də bilmirəm, harda axtarım.
4677 Yuxusuz qalmışam, gəzirəm onu,
Hər yerdə hökmü var, özü bəs hanı?
4678 Axtaran uyumaz... axtarın, tapın,
Dönməyin inaddan, qayalar çapın.
4679 Tapmadım deyibən uyumaq olmaz,
Qolun külüng olsun, iradən almaz.
4680 Axtar dincəlmədən, yatma məbada,
Yatıb tıs vuranlar çatmaz murada.
4681 Mətin durmalısan çətində, bərkdə,
Kim çatar əhdinə yorğan-döşəkdə.
4682 Öncə məni sevdi, sonra mən onu,
Tapdım bu eşq ilə haqqın yolunu.
4683 Öncə o soruşdu, sonra mən onu,
Öyrəndim əzəldən var olduğunu.
4684 O ulu qüdrəti sevməyim nə cür?
Nə qədər baxıram, sonsuz görünür.
4685 Məni xilas edir min-min bəladan,
Təkəmmi, üstümdə durursan Yəzdan.
4686 Ən əvvəl o məni seçdi, aradı,
Mən də ona verdim əhdi, muradı.
4687 Tanrım, ulu Tanrım məni yaratdı,
Onun sayəsində qalxıb boy atdım.
4688 Bütün bəlalardan məni ən əvvəl,
Qurtaranı seçdim, xalqdan üzdüm əl.
4689 Ona sığınıram yalnız qalanda,
Bircə adı bəsdir mənə cahanda.
4690 Bircə odur mənim arxam, dayağım,
Öyüncüm, güvəncim, sığınacağım.
4691 Çatıb Tanrısına pak olan bir ər,
Dinlə, nələr demiş, aləmə nələr:

4692 Nə varsa könlümdə, açaram sənə,
Uçaram üstünə, uçaram yenə.

4693 Hər yerdən əl üzsəm, ey mənim arxam,
Qaçaram yanına, qanad ver mənə.

4694 Bu dünya bədəli o dünyadı, bil,
Qismətin budursa, o qismət deyil.

4695 Bu dünya varından əl üzməyincə,
Sən görə bilməzsən dörd işi məncə.

4696 Atıb bu dünyanı o dünyanı tut,
Axirət ordadır, son məkanı tut.

4697 Ötəri dünyadan üz döndərmə sən,
Əbədi dünyaya çatarmısan sən?

4698 Bu dünya xətərli... şərbəti – zəhər,
Yemək-içmək istə, tamam təzə-tər.

4699 Vaz keç min istəkdən, arzu-diləkdən,
Ən gözəl yerin bil axirəti sən.

4700 Bəli, ey Ögdülmüş, budur həqiqət,
Dedim bildiyimi, bitməzmi söhbət?

4701 Vəfasız aləmi tərk etməyincə,
Qucaq açmayacaq axirət, məncə.

4702 Üz döndərməyincə boş adamlardan,
Qəbul etməyəcək səcdəni Yəzdan.

4703 Arzunun boynunu sındırmalısan,
Yoxsa haqq yoluna düşməyəcək can.

4704 Dünyanı könüldən çıxarmaq gərək,
Boş qalmış o yeri Tanrı tutsun tək.

4705 Ötəri dünyadan ötüb get, fəqət,
Ötəri dünyadan umma fərağət.

4706 Nəfsinin gözünə şiş soxa bilsən,
Yəqin ki, düşərsən haqq yoluna sən.

4707 Səhərin, axşamın keçməsin əbəs,
Ötən gün ötdümü, bir daha gəlməz.

4708 Döyərsən dizinə əmr ətsə hədər,
Bir də bu aləmə gələrsən məgər?

4709 Dinlə, nələr demiş əziz, mehriban,
Biliyi dərya tək dərin bir insan:



4710 Bu kənddən o kəndə köçən bir kişi,
Köçü tez göndərsə yubanmaz işi.

4711 Yükünü göndərsə özü köçməmiş,
Gözü nurlu olar, idrakı geniş.

4712 Fərqi yox, köçünü göndərmə, göndər,
Özün köçməlisən, ey qafil bəşər.

4713 Fərqi yox, ya bəy ol, ya da qul, kölə,
Bir gün ölüm səni alacaq ələ.

4714 İstər min il yaşa, istər on səkkiz,
Yalnız ad qoyuruq bu aləmdə biz.

4715 İstər ac, yoxsul ol, istər mülkədar,
Sökür həyatını həftələr, aylar.

4716 Şöhrət ucaltsa da səni göylərə,
Bir gün batan başın girəcək yerə.

4717 Bekar, boş keçirsə kişi həyatı,
Gedib oda girən heyvandı zatı.

4718 Özün sağ-salamat, ömür-gün hədər,
Qardaş, bu cür həyat, həyatdır məgər?

4719 Əsla mənim üçün qayğılanma sən,
Gözdən qan-yaş töküb ağulanma sən.

4720 Sənə kələk gəlir, uyma kələyə,
Bu dünya tələdir, düşmə tələyə.

4721 Sənə gələn dövlət bir gün gedəcək,
Tutmasın gözünü saxta bər-bəzək.

4722 Ölüm lapdan çıxır qara pusqudan,
Yatma, qafil olma, azmasın güman.

4723 Ölüm açıb gedib min-min qafili,
Dağıdıb nə qədər dost qərənfili.

4724 Eşit, nələr demiş ayıq bir kişi,
Ölümdən qafilin yamandır işi.

4725 Ölüm caynağına keçmiş adamlar,
Yadıma düşəndə ağlaram zar-zar.

4726 Hanı mən-mən deyib hökm eləyənlər?
Dadına yetdimi barı bir nəfər?

4727 Gözə görünmədən ötür ömür-gün,
Ötən gün bir daha qayıtmır, düşün.

4728 İnanma dövlətə, fərağətə sən,
Vəfa göstəribmi kiməsə əslən?

4729 Özünü dünyadan böyük bilənlər,
Beşcə qarış yerdə yatmayır məgər?

4730 Ölüm zindan etdi yüz aynabəndi,
Min-min evi, qəsri, şəhəri, kəndi.

4731 Yatır yer altında gül gibi canlar,
Bizim bu gəlişə göz qapayanlar.

4732 Göz yetir onlara, fikir ver bir an,
Ayırd edərsənmi gör bəyi quldan?

4733 Harayla sərvəti, şöhrəti, şanı –
Ölümə dov gələn bir qüvvət hanı?

4734 Kim vurub ölümün döşündən geri,
Məhv etdi nə qədər peyğəmbərləri.

4735 Bu qansız, imansız, cəfaçı, alçaq,
Dünyaya inanan axmaqdır ancaq.

4736 Məhv olur qara gün, ağ günümüz də,
Yaman da, yaxşı da, əyri də, düz də.

4737 Zənginə, yoxsula məhəl qoymadan,
Toxluğu, aclığı çalır ortadan.

4738 Dinclik də, zillət də ötəri şimşək...
Bəs kimə gərəkdir bunca küy-kələk?

4739 Dinlə, nələr demiş biliyi umman,
Xətti, hərəkəti dürüst bir insan.

4740 Azca şöhrət tapan, azca varlanan,
Öylə zənn edir ki, azmandır, azman.

4741 Nə qədər qüdrətli cahangirlərin,
Köksünü qopardıb ölümün şiri.

4742 Məqsədim bunları sənə deməkdi,
Yaxşı ki, qəlbimdə qalmadı əhdim.

4743 Bunları bilənlər çox şeyə qadir –
Vəfasız dünyadan əl çəkib gedir.

4744 İtirdim gəncliyi, çoxaldı yaşım,
Getdi şəvə rəngi, ağardı başım.

4745 Ölüm qəmindəyəm, baş əsir gora,
Halım nasıl olar ölümdən sonra.

4746 Qayğılar gətirib məni riqqətə,
Nə cür şah yanına gedim xidmətə?

4747 Əcəl köhlənində hazırsa yəhər,
Yəhərdən yapışsın gərək bu əllər.

4748 Məndən Elbaşıya bir fayda dəyməz,
Qoy xeyir, mənfəət güdməsin əbəs.

4749 O dünyası üçün dilərsə məni,
Hazıram öpməyə qədəmlərini.

4750 Özün bilirsən ki, bizi Tanrımız,
İkicə iş üçün yaradıb yalnız.

4751 Ya cənnət əhliyik, ya cəhənnəmlik,
Ya əziz-girami, ya murdar kəmik.

4752 Başımız üstündə dayanan ulu,
Bizə nişan verir hər iki yolu.

4753 Bizə nə lazımdır – qulun qul halı,
Tanrı diqqətinə layiq olmalı.

4754 Tanrı qüdrətinə layiq olsa qul,
Hər növ yaxşılığa aça bilər yol.

4755 Sonra ibadətə bərk girişməli,
Həyat qapısını qoy açsın əli.

4756 Mənim bildiklərim bunlardır ancaq,
Hər şeyi söylədim, ey əziz qonaq.

4757 Məndən bir söz umdun, dedim, yüzünü,
Sözün əlasını, sözün düzünü.

4758 Sənə bu dünyanın, axirətin də,
Göstərdim yolunu, ey naşı bəndə.

4759 Fələkət, səadət qoşa möcüzə,
Fələk hər arzunu çıxarır üzə.

4760 Yalnız dua etmək gəlir əlimdən,
Sizə başqa xeyri necə verim mən?

4761 Elbaşı tapşırsın məni Tanrıma,
Onu qərq edərəm dualarıma.

4762 Hər nə söylədimsə get, çatdır ona,
Bəlkə çıraq tutdu arzularına.

4763 Əməl etməsəniz sözlərimə siz,
Sonra dizinizə döyəcəksiniz.

4764 Dərya bir kişidən qalma məsəl var,
Bu sözü tutanın üzü ağ olar!

4765 Sənə yuxu gibi gələn bu sözlər,
Olar o dünyada dilində əzbər.

4766 Tərpən, qafil olma, get, sözümü tut,
Tutmasan, başına od yağacaq, od.

4767 Yerimə üzr istə Elbaşıdan sən,
Dərdin əlacını tapana əhsən.

4768 Gəlməyin, getməyin – zəhmət, məşəqqət,
Tanrım özü versin sənə səadət.

4769 Məni uzaq bilmə, özününküyəm,
Məndən gələ bilməz sənə ələm, qəm.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

4770 Ögdülmüş söylədi: – Haqqın yolunu,
Mənə sən göstərdin, kəşf etdim onu.

4771 Kəsdim öz sözümü, səni dinlədim,
Hər gözəl fikrinə afərin dedim.

4772 Budur haqqaniyyət, sən düz deyirsən,
Qalan əyri yollar düşdü gözümdən.

4773 Sənin sözün çindir, mənimki oyun,
Yalnız çin kəlama əyirəm boyun.

4774 Mən gedəri oldum, sən salamat qal,
Ey iki dünyalı, sən ey ağzı fal.

4775 Tanrım özü versin iqtidar sənə,
Qəm yemə, yar olsun dualar sənə.

4776 Tanrıdan həmişə soraq gətir ki,
Məni hüşyar edib açsın qəlbimi.

4777 Sağ ol, mən də gedim evimə sarı,
Minim köhlənimi, qalxım yuxarı.

4778 Mindi ağ atlm, evinə gəldi,
Daldı xəyallara, bir az dincəldi.

4779 Yeyərkən, içərkən döndümü geri,
Beynində duruldu eşitdikləri.

4780 Günəş ağ üzünə qara bağladı,
Qaranlıq aləmi bərk qucaqladı.



4781 Şəvə saçlarını tökəndə üzə,
Rum qızı yaratdı yeni möcüzə.

4782 Zənci camalı tək aləm qaraldı,
Uçanlar, qaçanlar yürüşdən qaldı.

4783 Başlandı Xaliqlə razı-niyazı,
Ucaltdı ruhunu xüftən namazı.

4784 Yuxusu az çəkdi, oyandı nədən,
Gördü Mars ulduzu enib zirvədən.

4785 Aşağı sallayıb başını Ülkər,
Əqrəb qalxıb bir az, ağarıb göylər.

4786 Uzandı, uyğusu gəlmədi heyhat,
Yol çəkən gözləri olmadı rahat.

4787 Bir də xəyalların keçdi cənginə,
Göylər boyandımı kafur rənginə?

4788 Bürüdü aləmi dan qaranlığı,
Lapdan şölə çəkdi bir mərcan dağı.

4789 İpək saçaqları zümrüddən, zərdən,
Günəş bayrağını qaldırdı yerdən.

4790 Tərpəndi Ögdülmüş, qalxıb yuyundu,
Qıldığı namazı göylərə sundu.

4791 Günəş kainata mərcan səpəndə,
Saraya üz qoydu fikirli bəndə.

4792 Eşitdi Elbaşı, verdi icazə,
Görüşüb durdular yenə göz-gözə.

4793 Əyləşdi, Elbaşı yer göstərincə,
Nəzakət yolçusu o ruhu incə.

4794 – Ey xilqəti gözəl, danış görək bir,
Əhvalın necədir, kefin necədir?

4795 Söylə, harda qaldı muradın, işin,
Nə dedi qardaşın, o can günəşin?

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

4796 Ögdülmüş qovdumu dumanı, çəni,
Söylədi başından gəlib-keçəni.

4797 Hər nə demişdisə qardaşı ona,
Bir-bir Elbaşının qoydu ovcuna.

4798 Ağladı Elbaşı, yarıldı bağrı,
Gərdi varlığını dərin bir ağrı.

4799 Söylədi: – Düz deyir qardaşın sənin,
Bu yerdə haqqı yox umub-küsənin.

4800 Ona əbəs yerə zor gəlirik biz,
Boğur qəlbimizi öz əllərimiz.

4801 Dünya gəldi-gedər, dünya – boş, hədər,
Bizim ömrümüz də məchul bir səfər...

4802 Yaxşı ki, öndədir əbədi dünya,
Məşəqqət bu tayda, dinclik o tayda.

4803 Yalnız orda çatır insan nemətə,
Təmiz, yaxşı dosta, hüsnə, cənnətə.

4804 Qardaşın qafil yox, ayıqdır, ayıq,
Əbəs çağırırıq, o gəlməz artıq.

4805 Heç olduq, tamaha əsir düşdük biz,
Hədərdi ömrümüz, işdəklərimiz.

4806 Ürəyi, mənliyi ölməyən insan,
Eşit, gör nə deyir, fikir ver bir an:

4807 Nəfs düşməníndir, tapsa girəvə,
Sənə endirəcək iki növ zərbə.

4808 Nəfs dirildimi, qəlb ölüb gedir,
Qəlb ki, öldü-getdi, səcdə heç nədir.

4809 Nəfsə əsir düşüb bizim qəlbimiz,
Nəfs – boynu yoğun, ürək – bir kəniz.

4810 Ululuq, böyüklük, işrət günləri,
Sərvət də, şöhrət də gəldi-gedəri.

4811 Ömrün dincliyi az, məşəqqəti çox,
Qarğışın, söyüşün, dərdin həddi yox.

4812 Sınaqdan min dəfə salamat çıxan,
Arif nə söyləmiş, bu fikrə inan:

4813 Böyüksən... məğrurluq zəncirini qır,
Böyüklük əslində baş ağrısıdır.

4814 Harda şadlıq varsa orda bəla var,
Dinclik olan yerdə zillət bərqərar.



## ELBAŞININ ÖGDÜLMÜŞƏ SUALI

4815 Ey bizim Ögdülmüş – dedi Elbaşı –
Əhdim görmək idi əziz qardaşı.

4816 Aşıb-daşmazdımı o zaman könül,
Məgər olmazdımı ürəyim bülbül?

4817 Dirəndi, bu yana gəlmək istəmir,
Qohum-qardaş üzü görmək istəmir.

4818 Hər nə söyləyirsə tamam doğrudur,
Əbəsdi zor gəlmək, faydasızdı zor.

4819 Getdin, zəhmət çəkdin, bir xeyli zəhmət,
Dilin də, beynin də yoruldu əlbət.

4820 Gözləyək fürsətin, vaxtın yolunu,
Görək bu işlərin nə olur sonu.

4821 Hələ qaranlıqdır işlər, qaranlıq,
Görək haçan doğur zülmətdə işıq.

4822 Çoxdan gərilmişdir zamanın yayı,
Görək nə göstərir oxdan savayı.

4823 Bütün işlərini Tanrıya tapşır,
Pərvərdigar özü bilən yaxşıdır.

4824 Görə bilmədiyin çətin bir işi,
Gözlə, kənara qoy, ey müdrik kişi.

4825 Düşərsən izinə, vaz atıb qaçar,
Əl çəksən, qayıdar, sənə yol açar.

4826 Gözləyək, bir müddət sınayaq onu,
Görək bu gərdişin nə olur sonu.

4827 Bizi çağıracaq bəlkə köməyə,
Özü düzəldəcək tərzini bəlkə.

4828 Son sözü Elbaşı söylədi asta,
Ögdülmüş otaqdan çıxdı ahəstə.

4829 Gün günə calandı, gecə səhərə,
Elbaşı qərq oldu düşüncələrə.

## ELBAŞI GÜNDOĞDU OZĞURMUŞU ÜÇÜNCÜ DƏFƏ ÇAĞIRIR

4830 – Bizə bir iş gərək – dedi Elbaşı,
Ögdülmüş dinlədi şah arkadaşı.

4831 Çağırdım, gəlmədi bura qardaşın,
Arzumun, əhdimin kəsildi başı.

4832 İndi ürəyimdə başqadır murad,
Sən mənə nicat ver, qurtuluş, nicat.

4833 Barı heç olmasa görüm üzünü,
Eşidim beş kəlmə acı sözünü.

4834 Ya o gəlsin bura, ya gedim ora,
Bəlkə görüş ola dərdimə çara.

4835 Gəlsə hüzuruma, bir öyüd versə,
Qayıdıb getsə də, girmərəm bəhsə.

4836 Təki təmizlənim, pak olum bir az,
Ona bu görüşün ziyanı olmaz.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

4837 Ögdülmüş söylədi: – Çindi bu sözlər,
Ey əhdi mötəbər, özü mötəbər.

4838 Mən onu bir daha çağırmalıyam,
Gözündə qalmasın təki arzu-kam.

4839 Gedərəm, mətləbi açaram ona,
Onu gətirərəm şah hüzuruna.

4840 Bir də məktub yazın, zəhmət olmasın,
Şahın şah xəttinə həsrət qalmasın.

4841 – Məktub nəyə lazım? – sordu Elbaşı –
Getməyin məktubdan min dəfə yaxşı.

4842 Sənə inanırsa, nə lazım kağız,
Sən – inam məbədi, vəfa tacımız.

4843 Eşit, nələr demiş gör yağma boyi, –
Hər işin dirəyi, yurdun köməyi.

4844 Elçi mötəbərsə, inam yerisə,
Ondan məktub ummaz dünyada kimsə.



4845 Sözü dilinlə de, dilindən eşit,
Kağız əbəs işdir, ey bizim rəşid.

4846 Məgər Ozğurmuşun yanına getmək,
Onu dəvət etmək çətinmi gerçək?

4847 Mənim məktubum da, fərmanım da sən,
Dilimdən nə desən, dilinə əhsən.

4848 Qoy gəlsin, görüşək, qayıtsın yenə,
Azadlıq vermişəm hürrəm deyənə.

4849 Asta, usta tərpən, ulfəti qırma,
Qoy könüllü gəlsin, zorla çağırma.

4850 Mən özüm gedərəm, gəlməsə bəri,
Görərəm üzünü, dönərəm geri.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

4851 Ögdülmüş söylədi: – Ey tacidarım,
Dilək canda qalmaz, yar olsa Tanrım.

4852 Sənin hər mətləbin ucadır, uca,
Mən özüm gedərəm onun dalınca.

4853 Elbaşı həmişə bəxtiyar olsun,
Tanrım daim ona havadar olsun.

4854 Ögdülmüş atlandı, qayıtdı geri,
Seçdi, nə olacaq gegəcəkləri.

4855 Günəş, qızıl günəş saraldı-soldu,
Göy üzü nə qədər təmiz, saf oldu.

4856 Günəş cəmalına çəkdi zəfəran,
Sonra mey rənginə büründü cahan.

4857 Üfüqlər – kiminsə qara qaşları,
Həbəşin oxşarı, həbəşin yarı.

4858 Ögdülmüş yuyundu, təharət aldı,
Namaz bitən kimi uyğuya daldı.

4859 Sarıgömlək bülbül cəh-cəh vuranda,
Oyandı Ögdülmüş, qalxdı bir anda.

4860 Sökülən dan yeri... şəfəqlənən gün...
Məgər macalmı var uyumaq üçün?

4861 Qara gömləyini yırtır asiman,
Göstərir boyunu nur saçan oğlan.

4862 Baxanda aləmə gülümsər nigar,
Quyu dibləri də işıqlandılar.

4863 Yuyundu, darandı... niyyət tutaraq,
Qıldı namazını sakit, üzüağ.

4864 Bir gənc yardım etdi, tapdı atını,
– Qardaşım! – deyibən çapdı atını.

4865 Qardaşı evinə yaxınlaşanda,
Yəhərdən quş gibi endi bir anda.

4866 Kiçik dar qapını taqqıldadınca,
Göründü qarşıda pirani qoca.

4867 – Qardaşım, nə lazım yenidən səfər,
Neçin uzadırsan işi bu qədər?

4868 Neçin incidirsən özünü bunca,
İnan ki, zəhmətin bicadi, bica.

4869 Buyur, gəl içəri, sözünü söylə,
Neçin bir də gəldin, düzünü söylə.

4870 Girdilər içəri, verib baş-başa,
Qaşqabaq göstərdi qardaş-qardaşa.

4871 – Mənim zahid qağam, çatma qaşını,
Eşit sözlərimi, qaldır başını.

4872 Şaha boyan etdim dediklərini,
Atəşin dağladı can-ciyərini.

4873 Sənin sözlərini dinlədi bir-bir,
Ah çəkib inlədi o əhli-tədbir.

4874 – İxtiyar sahibi özüdür – dedi,
Düşündü, təzə bir dilək dilədi.

4875 Məni sözcü gibi bura göndərdi,
Onun, ey bahadır, özgədi dərdi.

4876 Aləmdə hər işin öz fürsəti var,
Qaçırma fürsəti, ey şövkətli yar!

4877 Eşit, nələr demiş... bütün cahanı,
Əqlilə mat qoyan zəka ümmanı:

4878 Keçirmə vaxtını heç bir işin sən,
Keçirsən, məqsəddən uzaq düşərsən.



4879 Dünyada hər kəsin öz oxşarı var,
Öz tayını tapan bəxtiyar yaşar.

4880 Söndü ilk diləyi, birinci əhdi,
Səni ziyarətə can atır indi.

4881 Üzünü birce yol görmək istəyir,
Ya sən gəl hüzura, ya da mən! – deyir.

4882 Ey bağrı yaralı, əziz qardaşım,
Bunun yox ziyanı... ağrımaz başın.

4883 Bilirsən, Elbaşı yaxşı sultandır,
Yoxsula mehriban, aca həyandır.

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ CAVABI

4884 Ozğurmuş söylədi: – Sənin sözlərin,
Səmadan yüksəkdir, dəryadan dərin.

4885 Müsəlman qardaşı müsəlman qardaş,
Görməsə, sevməsə quru daşdı, daş.

4886 Mümkünmü tutmamaq haqqın yolunu,
Ziyarət qılaram bu gün mən onu.

4887 Onun hüzuruna varmadım dünən,
Çünki öz xeyrini bəklərdi məndən.

4888 İndi ki, tutmuşdur Allah yolunu,
Gedərəm, öpərəm, qucaram onu.

4889 Görməsin məşəqqət, çəkməsin dərd-qəm,
Gəlməsin Elbaşı, özüm gedərəm.

4890 Elbaşı xalq içrə xalqın bəyidir,
Ona hörmət gərək, el dirəyidir.

4891 Yurdu xilas etsin ahdan, amandan,
Seçilsin, ayrılsın yaxşı-yamandan.

4892 Savadlı, səbatlı, qanadlı bir ər,
Nə demiş – qızıldan qiymətli sözlər:

4893 Bəyin fərmanını daim, ələlbət,
Uca, əziz tutsun gərək rəiyyət.

4894 Bəyə hörmət gərək, böylədir qayda,
Alınıb-satılan hindu olsa da.

4895 Gedirəm, bəyimə hörmət qoymağa,
Ziyarət qılmağa, həmdəm olmağa.

4896 Qayıdın, fikrimi çatdırın ona,
– Gəlir! – müjdəsini qoyun ovcuna.

4897 Sən get, mən gələcəm başqa bir anda –
Qaranlıq düşəndə, şər qarışanda.

4898 Qırar qeybətimi gündüz görənlər,
Ona alov-atəş, mənə söz dəyər.

4899 Yatma, bəklə məni öz evindəcə,
Mən sizə gələcəm, düşəndə gecə.

4900 Öncə baş çəkəcəm sənin evinə,
Özün biləcəksən qəsdim nədir, nə.

4901 Ögdülmüş şadlandı: Bu işin gözəl,
Xeyli münasibdir, xeyli mükəmməl.

4902 Gedirəm, Elbaşı xəbərdar olsun,
Ona müjdə verim, bəxtiyar olsun.

4903 Sən də şad xəbərin üstünə gəl çıx,
Sevinci olmasın ala-yarımçıq.

4904 İkisi bir yerə qoydular sözü,
Qonaq – yaz gündüzü, günəşin gözü.

4905 Söylədi: – Can qardaş, sındırma məni,
Gözüm yolundadır, pozma vədəni.

4906 Səni gözləyəcəm gecə düşəndə,
Qaralan kainat kömürləşəndə.

4907 Hazırlıq görəcəm, bizə gəl öncə,
Parlaq camalını gün gizlədincə.

4908 Mindi köhlənini, sindi yəhərə,
İcazə istədi, çatanda qəsrə.

4909 Elbaşı – yaz gülü, bahar səhəri –
Açdı çöhrəsini eşitdikləri.

4910 Dedi: – Sevimli dost, əziz arkadaş,
Bu şirin sözlərin çin olaydı kaş.

4911 İnan, dağa döndü sinəmdə ürək,
Harda görüşməli, haçan gələcək?



## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

4912 Ögdülmüş söylədi: – Düşəndə gecə,
Görüş baş verəcək bizim evdəcə.

4913 Mənim hüzuruma gələcək özü,
Haçan buyursanız, o görər sizi.

4914 – Məşəqqət çəkmisən, ey gövhər kanı,
Tanrı özü versin mükafatını.

4915 O, mənim könlümü dilşad etdi çox,
Mənim ondan savay bir diləkçəm yox.

4916 Sən get evdə gözlə, gəlsə, de mənə,
Adam göndərəcəm sənin evinə.

4917 Götür qardaşını, bizə gəl ancaq,
Gərək nur üzünü, ziyarət qılaq.

4918 Alim nə söyləmiş gör buna bənzər,
Qızıla tutulsun gərək bu sözlər.

4919 Daim yaxşılığa can atır adam,
Diləklər, ümidlər ən böyük ilham.

4920 Tapsa muradını, gülür, şad olur,
Qayğıdan qurtulur, qəmdən qurtulur.

4921 Ayrıldı Ögdülmüş, evinə gəldi,
Açdı yatağını, azca dincəldi.

4922 Günəş qürub edib üz yaşıranda,
Qara duman tutdu ərzi bir anda.

4923 Bürüdü aləmi qatı bir zülmət,
Göylər cin üzü tək qaşqabaqlı, sərt.

4924 Kəsildi hay-haray, susdu hər nə var –
Uçanlar, qaçanlar, qımıldananlar.

## OZĞURMUŞUN ÖGDÜLMÜŞ EVİNƏ GƏLİŞİ

4925 Qalxdı, asta gəldi Ozğurmuş qoca,
Şad oldu, qardaşı qarşılayınca.

4926 Evdəcə görüşüb salamlaşdılar,
Əl verib az qala qanad açdılar.

4927 Süfrədə düz-çörək, reyhan şərbəti,
Elbaşı qəsrinə adam da getdi.

4928 Dərhal cavab gəldi: – Bəkləyərəm sizi,
Gəlin, qəbul edin dəvətimizi.

## GÜNDOĞDU OZĞURMUŞ İLƏ GÖRÜŞÜR

4929 Mərmər imarətə gəldilər qoşa,
Şah açdı qoynunu iki qardaşa.

4930 – Salam! Xoş gəldiniz!
– Əleykəssalam,
Sözlərə od verdi hörmət, ehtiram.

4931 Əl verdi Elbaşı, nasıl sevindi,
Onundur elə bil dünyalar indi.

4932 – Buyur!
Yer göstərdi, əyləşdi zahid,
İzzət, mehribanlıq... can de, can eşid.

4933 – Ozğurmuş, sağ ol ki, zəhmət çəkmisən,
Piyada gəlmisən bu məkana sən.

## OZĞURMUŞUN ELBAŞIYA CAVABI

4934 – Mən ki, səni gördüm, ey əziz insan,
Bütün məşəqqətlər çıxdı yadımdan.

4935 Könüllü gəlmişəm hüzuruna mən,
Bəxtəvər deyilmi əhdinə yetən?

4936 Qəlbinin hökmüylə külüng çalan kəs,
Dağları yıxsa da yoruldum deməz.

4937 Zəkası aləmə ün salan igid,
Alilər yavğusu[1] nə söylər, eşit.

4938 Qandakı arzunun dəniz gücü var,
Hökm etsən, uzağı yaxınlaşdırar.

4939 Arzu cürət verir adamlara da,
Çatdırır insanı əhdə, murada.

1. Xaqandan iki pillə aşağı vəzifə sahibi.



4940 Könülsüz iş görmək kim deyir asan,
Ən yaxın məqsəddən uzaqlaşarsan.

4941 Ayaqla gəzənə qismət – məşəqqət,
Eşqilə gəzənə – nemət, səadət.

4942 Mən sənin yanına eşq ilə gəldim,
Bəlkə əyilmişdi, dikəldi qəddim.

4943 Sevən bir varlığın başqa hökmü var –
Ən uzaq mənzili yaxınlaşdırar.

4944 Elbaşı söylədi: – Hər şeydən əvvəl,
Sorğuma cavab ver aydın, mükəmməl.

4945 Bilirsən, salamın fəziləti var,
İlkin salam verən mehrə yol açar.

4946 Məni gördünsə də, salam vermədin,
Fəzilət barını neçin dərmədin?

## OZĞURMUŞUN ELBAŞIYA CAVABI

4947 – Nə üçün birinci vermədim salam –
Dayan, izah edim, ey şirinkəlam!

4948 Çünki salam vermək sağlıq yoludur,
Onun şərafəti xeyli uludur.

4949 Salam verən alır sağlığa imkan,
Sələmətliyinə əmin olur can.

4950 Böylə bir məsəl var, tuş gəlir buna,
Eşit də, inan da haqq olduğuna.

4951 Salam verən dilər özgəyə sağlıq,
Salam alan tapar damağı çağlıq.

4952 Salam ver ki, qorun fitnədən, şərdən,
Salam al ki, yaşa sağ-salamat sən.

4953 İlkin salam verər böyük-kiçiyə –
Açılan qızılgül körpə qönçəyə.

4954 Bu yolla kiçiklər şərdən qorunar,
Xeyrə ümid bəslər, yaşar bəxtiyar.

4955 Məndən Elbaşıya şər yetə bilməz,
Kiçiyəm, kiçikdən bir ziyan gəlməz.

4956 Ancaq Elbaşının poladdır dizi,
İstəsə qəzəbi qəhr edər bizi.

4957 Elat verməz bəyə birinci salam,
Səbəbi aydındır, ey şirinkəlam.

4958 Sən məni ilk dəfə işə, xidmətə,
Xidmətə çağırdın bu imarətə.

4959 Mən sözə baxmadım şahiddir ki, el,
Bu alçaq dünyaya bağlamıram bel.

4960 Sən məni çağırdın ziyarət üçün,
İnandım, yanına gəlmişəm bu gün.

4961 Düzü bu vaxtacan səndən qorxurdum,
Mənə salam verdin, arxayın oldum.

4962 Qorxurdum səcdəmə qoyasan nöqtə –
Məni çağırasan yenə xidmətə.

4963 İnandım sönməyib könlündə işıq –
Səndən çatar mənə yalnız yaxşılıq.

## ELBAŞININ OZĞURMUŞA CAVABI

4964 Elbaşı söylədi: – Sözündən dönən,
Bəyə bu dünyada bəy deməræm mən.

4965 Sözündən dönən bəy ucada qalmaz,
Ulu mövqeyindən bəhrəmənd olmaz.

4966 Dili zəqqum-zəhər, yalançı bəylər,
Xalqı dolandıra bilərmi məgər?

4967 Nə cür dolandırar obanı-eli,
O bəy ki, od saçır fitnəsi-feli?

4968 Sözündən dönən bəy namərd, kəmfürsət,
Ondan qaçaq düşər nemət, səadət.

4969 Yalançı kəzzablar nacins, xəbisdir,
Vədindən dönənlər ondan da pisdir.

4970 Sözü düz insanlar sərvətdi, sərvət,
Tanrım özü versin onlara qüdrət.

4971 Sözü bötöv gərək bəylər dünyada,
Sözündən dönənlər tez gedər bada.



4972 Sözünü udanlar arvaddır, arvad,
Sözü də bərbaddır, özü də bərbad.

4973 Ozğurmuş söylədi: – Bizim Elbaşı,
Halal ad qazanıb yaxşıdan yaxşı.

4974 Tanrım özü sənin qeydinə qalsın –
Yurdun çiçəklənsin, xalqın ucalsın.

4975 Bəylər xalq içində xas deməkdi, xas,
Özü xas olmasa sözü xas olmaz.

4976 Arif gör nə demiş: – Adildirsə bəy,
Xalqı yüksələcək, zənginləşəcək.

4977 Başından tufanlar, çovğunlar keçən,
Ağsaçlı sənətkar nə demiş, öyrən.

4978 Ey gidi dünyanı dördəlli tutan,
Gələn səndə qalmaz, felindən utan.

4979 Bacarsan, dünyada qoy yaxşı ad-san,
Sənə vəfa qılmaz səadət, inan.

4980 Əlin uzunsa da bəd yola getmə,
Yalnız yaxşılıq et, yamanlıq etmə.

4981 Bəlkə üz döndərə bəylik vüqarın,
Fəqət əldən çıxmaz yaxşılıqların.

4982 Yaxşı ad-san qazan, el yükü daşı,
Yaxşılıq zümrüdə döndərir daşı.

4983 Bir əsim küləkdir ömrün günləri,
Vəfasız səadət gəldi-gedəri...

## ELBAŞININ OZĞURMUŞA CAVABI

4984 Ey dərya kamallı! – dedi Elbaşı –
Yol göstər, tilsim qır, aç qapanmışı.

4985 Səni yaxın bildim, dost-doğma bildim,
Əhdimi söylədim, eşin kəsildim.

4986 Mənə öyüd ver ki, bağdan bar dərim,
Yalnız yaxşılığa yatsın əllərim.

4987 Çoxunun tamahı, nəfsi şiddətli,
Azdır sədaqətli, ey səxavətli!

4988 Əhdinə çatsa da bəylər bir anda,
Dayaq tapa bilən azdır cahanda.

4989 Yeyib-içib gəzən dərgahda çoxdur,
Amma bəhrə verən bir kimsə yoxdur.

4990 Bu mətləbə uyar bir cüt misra var,
Öyrən, məndən sənə qalsın yadigar.

4991 Adamlar bürüyüb düzü-dünyanı,
Bəs fayda gətirən bir kişi hanı?

4992 Bircə ər işini görməyən minlər,
Min-min iş görəndən utanar məgər?

4993 Bəli, ey Ozğurmuş, bu dünyda sən,
Tanrıdan nə qədər əhsən görmüsən!

4994 Ucaldıb, tanıdıb öz işin səni,
Tanrım özü versin hər mətləbini.

4995 Allah ənamından pay ver mənə də,
Nəfsim ölü olsun, könlüm asudə.

## OZĞURMUŞUN ELBAŞIYA CAVABI

4996 Ozğurmuş söylədi: – A bəyim, az-çox,
Üzümü görürsən, içərmi yox.

4997 Görsən içərimi, ey ləl mədəni,
Bəlkə də söyərsən, qovarsan məni.

4998 Zahidlik boynumda yükdür, ağır yük,
İbadət bəlası ondan da böyük.

4999 Nəfsin qapısını qıfıllamışam,
Nə ləzzət umuram, nə başqa dad-tam.

5000 Mənim dükanımda alış-veriş yox,
Onu el gözünə bəzədim az-çox.

5001 Tanımaq istəsən ürəyimə gir,
Məğzim üzümdə yox, içərimdədir.

5002 Üzdə qovun-qarpız qəşəng olsa da,
Yeyənlər möhtacdır ləzzətə, dada.

5003 Tutalım xoş ətri, bər-bəzəyi var,
Dad-tam olmasa, onun nəyi var?



5004 Arıt gör nə demiş: – Bəzəmə çölü.
İçərin boşdursa ölüsən, ölü.

5005 Yalnız mahiyyətə fikir ver, fikir,
Məğz batindədir, boş şeydi zahir.

## ELBAŞININ OZĞURMUŞA CAVABI

5006 Elbaşı söylədi: – Ey varlığı nur,
İçərin də gözəl, üzün də xoşdur.

5007 Sən atıb dünyanı yüngülləşmisən,
Mənsə dağ altında gör nə gündəyəm.

5008 Dünyanın işləri başımı qatdı,
Məgər ibadətə əlimmi çatdı?

5009 Mənə öyüd ver ki, dardan qurtulum.
Çatım səadətə, bir az pak olum.

## OZĞURMUŞUN ELBAŞIYA CAVABI

5010 – Bəyim, sən həmişə gələsən kara,
Çatasan ən böyük yaxşılıqlara.

5011 Bəndələr içində mən kimisi az,
Məndən yaramazı bəlkə tapılmaz.

5012 Məndən yaramazı özüməm yalnız,
Böylə yazılmışdır alın yazımız.

5013 Mənim sözlərimdən sənə nə fayda?
Bəlkə nağıl fayda, əfsanə fayda.

5014 Ancaq öz ağamdan ümid üzmürəm,
Başqa sığınacaq, pənah gəzmirəm.

5015 Bilib günahını üzr istəyən ər,
Görün Tanrısına necə dil tökər:

5016 Günahkar, cəfakeş, yazıq bəndənəm,
Min taqsır içində çırpınan mənəm.

5017 Yoxdur səndən savay sığınacağım,
Özün keç suçumdan, dağım-dayağım.

5018 Elbaşı söylədi: – Ey ulu hüşyar,
Felin, fəzilətin hamıya aşkar!

5019 Özünü dünyanın ən yaramazı,
Saysan da el səndən razıdı, razı.

5020 Dili düz, könlü düz, ey pak müəllim,
Mənə bir öyüd ver, mən də düzəlim.

5021 Ey feli mükəmməl, fikri inci, dürr,
Səndən umacağım yalnız öyüddür.

5022 Tanrı verib sənə hər fəziləti,
Mənə də yol göstər, bir işıq yetir.

5023 Bir nicat ulduzu umub küsənə!
Tanrım o dünyanı bəxş edər sənə.

## OZĞURMUŞ, ELBAŞI GÜNDOĞDUYA ÖYÜD VERİR

5024 – Yerləri, göyləri xəlq edən Bayat,
Bütün diləklərə versin qol-qanad.

5025 Bu qartımış fələk, bu köhnə qurnaz,
Qocaldar hamını, özü qocalmaz.

5026 Sənin tək nə qədər bəyi, ay bala,
Sevmiş, əzizləmiş, salmış da yola.

5027 Ona bel bağlama, görməzsən səfa,
O hələ heç kəsə qılmayıb vəfa.

5028 Mənim öyüdlərim verərmi səmər?
Dövranın öyüdü bəs deyil məgər?

5029 Hanı bizdən öncə gəlib-gedənlər,
O boyda qüdrətdən qaldımı əsər?

5030-5031 Gəlir də, gedir də bəylik növbəti,
Sən də hazırlıq gör, yubanma qəti.

5032 Öylə bir iş gör ki, batmasın ad-san,
Toki o dünyada dinclik tapasan.

5033 Bir iş görməyənlər yanar, yaxılar,
İş gör, tacın olsun qoy yaxşılıqlar.

5034 Gör nədir alimin hikmətli sözü,
İncidən, yaqutdan qiymətli sözü:

5035 Ölümü görənlər qalarmı diri?
Hazırlaş ölümə, ey hünərvərim!



5036 Ölümü dərk elə, ey müvəqqəti,
Həyat ötəridir, ölüm-əbədi.

5037 Arzu-kam ardınca sürünən axmaq,
Ölümlə çarpışman nahaqdır, nahaq.

5038 Ötən günlərini xəyala gətir,
Vur-tut bir gecəlik röya gibidir.

5039 Hər xeyir addımın, hər yaxşılığın,
Adına yazılır inan ki, haqqın.

5040 Ağla, ömrün-günün keçibsə hədər,
"Vay!" deyib dizinə döyməyin yetər.

5041 Ömrün qaynar çağı sovuşdu artıq,
Qayıtmaz bir daha dəliqanlılıq.

5042 Yetər, ömrü verdin nəfsə hədiyyə,
Hazırlaş ölümə, tələs səcdəyə.

5043 Atan səndən öncə burda var idi,
Hökmü daşdan keçən hökmdar idi.

5044 Xəzinə, əzəmət, ordu sahibi,
Bir ömür yaşadı bəxtiyar gibi.

5045 Apardı axırda əcəl onu da,
Bircə baş daşı var ömrün sonunda.

5046 Ata öyüdünü bir xəzinə san,
Əgər unutmasan, qanadlanarsan.

5047 Eşit bu məsəli, ey gözüm-canım,
Müdrik kəlamlardır ləlim-mərcanım.

5048 Ata vəsiyəti nə söylər: – Oğul,
Yatma, qalx, həmişə ayıq-sayıq ol!

5049 Çatacaq sənə də ölüm növbəti,
Çalış, ad-san qazan, ey müvəqqəti.

5050 Atanın, ananın ölümü fələn,
Sənə vəsiyyətdir, düşünə bilsən.

5051 Atana-anana qılmadı şəfqət,
Sənə verəcəkmi Əzrayıl fürsət?

5052 Atana-anana verdi min cəfa,
Sənə qılacaqmı bu rüzgar vəfa?

5053 Xalqa nicat versin əməlin, felin,
Bir gül sənin olsun, gülüstan elin.

5054 Hazırlaş ölümə, hədər ömür-gün,
Gec-tez edər səni dünyadan sürgün.

5055 Çobansan, sürünü bəladan qurtar,
Bax... almış dövrəni ac canavarlar.

5056 Sən ki, daşıyırsan bunca el yükü,
Ayıq ol, hifz elə bu böyüklüyü.

5057 Yurdunda ac qalsa yazıq bir kişi,
Səndən sorulacaq onun gərdişi.

5058 Şam kimi yanmağın bəlkə də asan,
Heyhat, yoxdu xeyri, şölə saçmasan.

5059 Ömrün hədər keçib, yaşın ötübsə,
Hay verə bilərmi sənə bir kimsə.

5060 Demirəm kiminsə dadına çatma,
Yad üçün özünü alova atma!

5061 Bəylik əzəməti, şöhrət də, şan da,
Ölüm gələn kimi itir bir anda.

5062 Adil ol, düz yürüt siyasətini,
Qoru bəy mülkünü, bəy dövlətini.

5063 Elm-ürfan yolçusu nə demiş, öyrən,
Adil ol, keçərsən yüz manеədən.

5064 Bərkitmək istəsən səltənətini,
Bəysən, vermə əldən ədalətini.

5065 Qazanmaq istəsən axirəti də,
Düzlük şüar olsun hər məqsədində.

5066 Ey "mən bəyəm!" deyən lovğalanma çox,
Dövlət vəfasızdır, ona umud yox.

5067 İnanma dünyanın səadətinə,
Vəfasız gərdişin dəyanətinə.

5068 Bu qəsrin-sarayın, ey şən bahadır,
Səni yola salan mehmanxanadır.

5069 Səndən əvvəlkilər qonaq qaldılar,
Uyğuya daldılar, yaman daldılar.

5070 İndi bu səltənət qismətdir sənə,
Özündən güc alıb kama yetsənə.

5071 Tikmə saray-qəsr bu gün, bu yerdə,
Məhv olur abad da, xarabələr də.



5072 İndidən bilinir yatacağın yer,
Ad qazan, o yerə bir taxt hökmü ver!

5073 "Mənimdir bu saray!" söyləmə, sakın,
Abad bərbad ilə yaxındır, yaxın.

5074 Dinlə, nələr deyir bu şanlı saray:
– Məgər səninəmmi, ey son ucu zay!

5075 "Mənimdir bu qəsr, mənim!" deyirsən,
Harası sənindir, ey gələn-gedən?

5076 Səndən sonrakılar sənə "çıx!" deyir,
– Qalacaq hər işin yarımçıq – deyir.

5077 Bu dünya zindandır, ey dünya bəyi,
Ələmdir, qüssədir divar bəzəyi.

5078 Bu zülmət zindandan istəmə şadlıq,
Yalnız cənnətdədir şadlıq, azadlıq.

5079 Ötəri sevinclər sevincmi məgər?
Ötəri rahatlıq gəldimi, gedər.

5080 Dövlət öz yerində tutarmı qərar,
Nə qədər yığmısan, bir gün dağılar.

5081 O dünya əbədi, bu dünya tabut,
Bu dünyanı atıb o dünyanı tut.

5082 Əbədi səadət, əbədi nemət,
Səndən nə gözləyir – zəhmət, məşəqqət.

5083 Göz yetir Tanrının səxavətinə,
Yol açdı nə qədər fəzilətinə.

5084 Sənə nələr verdi -- min-min dilək, dil,
Hökmünlə dolanan bir oba, bir el.

5085 Sənin tək nə qədər qulunu Tanrı,
Sənə möhtac etdi, gördün onları.

5086 Tanrıya şükr elə. Yoxdur başqa yol,
Tanrı bəndəsinə hay ver, hayan ol.

5087 Allah yaratdı ki, adil olasan,
Yalnız ədalətdir gətirən ad-san.

5088 Qul olma nəfsinə, güvən zəkana,
Yalnız zəka verər qurtuluş sana.

5089 Sevdirsin xalqına şəfqətin səni,
Böyük də, kiçik də görsün ədlini.

5090 Dinlə bu kəlamı, ey bilik kanı,
Bilikdir gətirən üz ağlığını.
5091 Yaxşı adlanarsan, yaxşılıq etsən,
Ulu sayılarsan el içində sən.
5092 Alt-üst etməlisən kəsafətləri,
Xalqdan azca öndə, azca irəli.
5093 Bəylər bayraqdardı, bəylər səfərbər,
Bəylərin ardınca gedir kişilər.
5094 El-oba əyilsə, bəylər düzəldər,
Bəs bəylər əyilsə, kimlər düzəldər?
5095 Sən qoruya bilsən öz saflığını,
Xalqın da hifz edər xalq varlığını.
5096 Gərəksiz iş də var, gərəkli iş də,
Sən qoy ürəyini ürəkli işdə.
5097 Qoşulma alçağa, fəsaddan çəkin –
Səni rüsvay edər bu iki çirkin.
5098 Fitnəni, fəsadı istəmirsənsə,
Görmə yaramaz iş, qoy deyim kəsə.
5099 Mey içmə, bənd olma eyşü-işrətə –
Səni qərq eləyər mey fəlakətə.
5100 Elm məsləhətçin, zəka yoldaşın,
Olsa... səmər verər hər axtarışın.
5101 Unutma özünü, yolun düz olsun,
Könlün saf, işıqlı, dilin düz olsun.
5102 Öyünmə "Əsgərim, ordum!" deyərək,
Ağac bar verəndə baş əysin gərək.
5103 Nə qədər mərdlərin başını əkdi,
Ölüm nəm torpağı üstünə çəkdi.
5104 Elm-ürfan adamı gör nə söyləmiş:
"Mənəm!" deyənləri sevmir bu gərdiş.
5105 Ordunla, hökmünlə lovğalanma çox,
Varın, dövlətin də bir vəfası yox.
5106 Dünənki pəhləvan bugün bir cücü,
Soruş, bir çibinə çatırmı gücü?
5107 Qəzəbin coşanda bir az əqlə dol,
Cilovla hirsini, təmkinli, lal ol.



5108 Tələsik iş görmə... əkdiyin solar,
Yalnız ibadətə tələsmək olar.
5109 Tələs ənam alsa bir yaxşı bəndə,
Tələsmə döyməyə cəza verəndə.
5110 Qaynama, kükrəmə, yüngül olma sən,
Səbrin cilovunu vermə əlindən.
5111 Xalqa ərmağan ver, ey səxa kanı,
Xəsis, dargöz bəyin batar ad-sanı.
5112 Məkrdən, hiylədən özünü saxla,
Məkr alov vurur qəlbə, ağıla.
5113 Bəxş elə hamıya şirin sözləri,
Alnın günəş olsun, üzün dan yeri.
5114 Dili düz, könlü düz, əqidəsi düz,
Düz adam – ləyaqət, qeyrət ölçümüz!
5115 Adi insanların yaxşılığından,
Xeyir görür vur-tut bir-iki adam.
5116 Bəyin yaxşılığı başqadır ancaq –
Bütün xalq üçündür şənlik, kef-damaq.
5117 Bəyin işdəkləri yaman olarsa,
Yamanlıq güclənər, el batar yasa.
5118 Çəkin yamanlıqdan, həzər, əlhəzər,
Batar adın-sanın, ey gəldi-gedər.
5119 Yamanlıq zəqqumdur, yemə zəqqumu,
Məgər həyat bumu, yaşamaq bumu?
5120 Əzizlə, yaxın tut zəka əhlini,
Artır qüvvətini, gəlhagəlini.
5121 Vəfalı, müqəddəs, ər kişiləri,
Canın-ciyərin bil əzəldən bəri.
5122 Vəfasız, cəfakeş, məkkardı dünya,
Uyma, atar səni zülmət quyuya.
5123 Bəzən cilvələnib alar könlünü,
Sonra arvad kimi kəsilər günü.
5124 Ölümlə çarpışmaq fikrindən əl çək,
At qəmi-qüssəni, ey xalqa kömək!
5125 Zərifsən, məst etməz bəyliyin səni,
Qəflət yuxusundan qaldır cismini.

5126 İstə o dünyanı, bu dünyanı yox,
Fərağət, dinclik də ordadır az-çox.

5127 Sonsuz bir sevinci, səadəti sən,
Yalnız o dünyada tapa bilərsən.

5128 Ordadır rahatlıq, min bir nemət də,
Qazan, əbədilik yaşa cənnətdə.

5129 Elmi-ürfanıyla tanınan kişi,
Necə təsvir edir görün gərdişi:

5130 Tanrı ata qılsa, əhdə yetərsən,
Rəhmət də taparsan, rahatlıq da sən.

5131 "Mənəm! Mənəm!" desən acgöz olarsan,
Acgözlük torundan qurtularmısan?

5132 Elbaşı, el – xəstə, loğmanı da sən,
Xəstənə qurtuluş verəcəkmisən?

5133 Bəzisi itirib güc-qüvvətini,
Çəkir yoxsulluğun məşəqqətini.

5134 Kimsə ac-yalavac, kimsə lüt-üryan,
Bəzisi sıxılır qəmdən-qayğıdan.

5135 Onların əlacı səndədi yalnız,
Şəfa ver onlara, ey loğmanımız.

5136 Verməsən onlara bir dava-dərman,
Dirilik düşməni, afət olarsan.

5137 Səndən hesab istər o dünyada haqq,
Borcu bu dünyada verirlər ancaq.

5138 Həyat – gəldi-gedər, bəyliksə qalan,
Sənə gərək olan yaxşı bir ad-san.

5139 Dünya – əkin yeri, əkinçi də sən,
Hər nəyi əkmisən, onu biçərsən.

5140 Yaxşılıq toxumu ək burda ancaq,
Qismətin əbədi dinclik olacaq.

5141 Ədəbi-ərkanı bilən başçı bəy,
Dinlə, nələr demiş, güldən ətir çək.

5142 Ey yurdun başçısı, ey xalqa rəhbər,
Bəhrə-bar istəsən təvazö göstər.

5143 Elmə havadar ol, elmə bayraqdar,
Elm hər işində qolundan tutar.



5144 Elmin bəhrəsidir mükəmməl işlər,
Var-dövlət qaynağı, ən gözəl işlər.

5145 Sən özün köçməmiş, ey mərdlik əri,
Yarat bu dünyadan köçməyənləri.

5146 Doğulan ölsə də, xalq, həyat qalır,
Yaxşıdan, yamandan bircə ad qalır.

5147 Yamana can vermə, yamanı yandır,
Hər şey gəldi-gedər, ad-san qalandır.

5148 Ayıq yürüş gərək, ayıq hərəkət,
Qafili məhv edir, zillət, məşəqqət.

5149 Bəyliyi yaşadır ayıqlıq, ad-san,
Hələ o dünyanı qazanmalısan.

5150 Hər iki dünyada ağlayır qafil,
Əlindən çıxacaq bəylik, bunu bil.

5151 Qan tökmə, artırma özünə düşmən,
Bu iki afətin cavabdehisən.

5152 Haram oynatmasın yerindən səni,
Cəhənnəm yandırır haram əhlini.

5153 Bütün insanlara dost, mehriban ol,
Qanadsıza qanad, cansıza can ol.

5154 Mey içmə, can vermə fitnəyə, felə,
Yıxarsan evini öz əllərinlə.

5155 Gəlir də, gedir də dünyadan insan,
Yalnız əməlinlə yadda qalarsan.

5156 Son vədə çatdımı, nəfəs qaralır,
Yamandan, yaxşıdan bircə ad qalır.

5157 Dünya oxşar səni, ovudar səni,
Əgər qafil olsan, uyudar səni.

5158 Qafillik zindandır, gücün varsa, çıx,
Bütün işlərini qoyar yarımçıq.

5159 Qəflət olmasaydı, mərdlər səcdəyə,
Qapanıb dönərdi bəlkə mələyə.

5160 Alim bu eşq ilə gör nələr demiş,
Oxuyub əzbərlə, ey bağrı geniş:

5161 Qəflətdir sevincə, işrətə uymaq,
Narahat aləmdə rahat uyumaq.

5162 Qəflət yuxusuna getmək yamandır,
Yarəb, saxla bizi bundan, amandır.

5163 Gözün iti olsun, qulağın həssas,
Mehrinə dünyada bir kimsə çatmaz.

5164 Dinlə, sorğu yapar Allah səninlə,
Tanrının sorğusu qurulan tələ.

5165 Dinlə, nələr deyir müdrik bir ərən,
Bəlkə qurtulasan tordan, tələdən.

5166 "Mənəm! Mənəm!" deyən məğrur yekəbaş,
Allah sorğusuna cəld ol, hazırlaş!

5167 Yaxandan yapışıb silkələr səni,
Sorar bircə-bircə işdəklərini.

5168 Hədər yeyib-içən biar, bihesab,
Hazırlaş hesaba, çıxış yolu tap!

5169 Allah hər mətləbi tərpədən zaman,
Bircə qaçış yolu tapacaqmısan?

5170 Qamçı da səndədir, qılınc da, şəksiz,
Əzaba layiqlər diz çökəcək, diz.

5171 Yamanlar açmasa yamanlığını,
Sən də əsirgəmə qamçı dağını.

5172 Elbaşı yamansa, el batar yasa,
Çıxar haqq yolundan ram olunmasa.

5173 Yaxşıya yaxşı ol, həssasa həssas,
Xalqa bütünlüklə pis demək olmaz.

5174 Vaxta lap az qalib... uyma işrətə,
Nə yüngül şadlığa, nə fərağətə.

5175 Qoru göz nuruntək haqq-ədaləti,
Düz ol, sarsılmasın bəy səltənəti.

5176 Özün tut özünü sorğu-suala,
Əbəs işlər görmə, cəsur ol, bala.

5177 Eşit, nələr deyir haçandan bəri,
Eldə şöhrət tapan el hünərvəri:

5178 A bəy, sən xalqına ədlini göstər,
Gücün gəldikcə get, zülmə sinə gər.

5179 Yol versən qüsura, üzr istə candan,
Tövbə qıl dilinlə, çəkin yamandan.



5180 Yığma xəzinəyə qızıl-gümüşü,
Payla, səxa göstər, tik sökülmüşü.

5181 Sən ölsən, sərvətin, varın qalacaq,
Oğul-qız əlində bərbad olacaq.

5182 Xərclə dövlətini öz sağlığında,
Qurtul haqq-hesabdan od qabağında.

5183 Kişilər içində aqil, mötəbər,
El bəyi nə demiş, əzbər bil, əzbər.

5184 Ey sərvət düşgünü, oyuna uyma,
Gəl, özündən sonra xəzinə qoyma!

5185 Haqq-hesab günündə dəyişir rüzgar,
Kaş sənin yaxandan yapışmasınlar.

5186 Zəngin sayılırsan xalq arasında,
Nicat tap, sərvətdən sənə nə fayda?

5187 Vəfasız aləmə könül bağlama,
Min cəfa gətirir hər mülk, hər bina.

5188 Sən xalq arasında ön cərgədəsən,
Yedir bu dünyanı o dünyana sən.

5189 Əcəlin çatmamış, ey üzüqara,
Payla var-yoxunu, ver yoxsullara.

5190 Əzrayıl gəldimi, qurtuluş çətin,
Dada yetəcəkmi varın-dövlətin.

5191 Elm-sənət öyrən, az ye, az danış,
Yalnız ibadətin əlindən yapış.

5192 Öyrən nə gündədir yoxsul, dul, yetim,
Əzizlə onları, imdada yetib.

5193 Qov, yaxın buraxma qeybətçiləri,
Qoyma alçaq kəçə səndən irəli.

5194 Fitnə-fəsad əhli zülmkar-zibil,
Onları həmişə öz düşmənin bil.

5195 Acgözə, dargözə əl vermə, sakın,
Onlar mənliyini talayır xalqın.

5196 Yaxşı ol, əsirgər yaxşıları Haqq,
Cəhənnəm odundan uzaq ol, uzaq.

5197 Kaş qoya kölgədə tikanı reyhan,
Bugünkü dünyanı sabahkı dünyan.

5198 Dinlə, eşitdiyin alim sözüdür,
Bu işləri görən Haqqın özüdür.

5199 Bu dünya, o dünya, həyat, axirət,
Ziddir bir-birinə bu iki qismət.

5200 Qaynayıb-qarışmaz bu dünya vədin,
Tamahkarla fəqir, acgözlə mömin.

5201 Din əhli dünyadan həzər qılırkən,
Dördəlli yapışır ondan acgödən.

5202 Dünya yağış gibi, tufan gibidir,
Nərəsi, hay-küyü tez gəlib-gedir.

5203 Sərvəti, nemətі qamarlayan kəs,
Heç vaxt axıracan nuş edə bilməz.

5204 "Zənginəm!" söyləsən, üryan qalarsan,
"İzzətliyəm!" desən zəlil olarsan.

5205 Dünyanın toxluğu aclıqdı, ey mərd,
Dincliyi, sevinci – zillət, məşəqqət.

5206 Əhdin, arzuların qorxuludur çox,
Sən bacar, nəfsinin gözünə şiş sox!

5207 Nəfsin, tamahındır ən böyük düşmən,
Ona üz göstərsən, əldən gedərsən.

5208 Sən vəfa göstərsən, o qılar cəfa.
Sən cəfa göstər ki, o qılsın vəfa.

5209 Nəfsini tapdasan, dinclik tapar can,
Savadın bəy olar, biliyin də xan.

5210 Dünya düşmənindir, nəfsin düşmənin,
Bu iki tələdən qurtulmaq çətin.

5211 İnanma həyata, ümidini kəs,
O ala gözlüyə bənd olma əbəs.

5212 Böyüklük, cah-cəlal gəldi-gedəri,
Qığılcım gibidir dövlətin mehri.

5213 Alim nələr demiş bu barədə gör,
Güldəstə sözlərdən sən bir çələng hör.

5214 Sən öz bəyliyinlə lovğalanma çox,
Ona bel bağlama, onda vəfa yox.

5215 Bu mənfur dünyadan əlin çəksənə,
Tanrı o dünyanı verəcək sənə.



5216 Bəyim, üç kişidən kamillik istə,
Üç kişi saxlayar xalqı göz üstə.

5217 Biri qazıdır ki, xalqa ilk kömək,
Təfəkkür xadimi pak, zirəng gərək.

5218 Biri xəlifədir. Olsa vəfadar,
El səadət tapar, yaşar bəxtiyar.

5219 Üçüncü dayağın vəzirdi, vəzir,
Xalq ondan ədalət, düzlük gözləyir.

5220 Bu üçlük qorusa ləyaqətini,
Məmləkət qazanar səadətini.

5221 Onda kamal tapar, el zənginləşər,
Sənin də payına dualar düşər.

5222 Xalq çökər, bu üçlük yaramaz olsa,
Bəhrə-bar yetişməz yurda-ulusa.

5223 Eşit bu kəlamı, mənim ay üzlüm,
Qolundan yapışar hər müdrik sözüm.

5224 Bəyi ram eləyən vəzirdi yalnız,
Ondandı əzmimiz, abadlığımız.

5225 Cilovu tərsinə hərləsə vəzir,
Ölkə əsir düşər bəlaya, əsir.

5226 Açıq bir süfrəyə bənzəyir dünya,
Hər kəs yeyir, içir... gedir yuxuya.

5227 Bizdən əvvəlkilər səfər etdilər,
Yedilər, içdilər, varıb getdilər.

5228 Gör necə yatıblar nə söz, nə səs-ün,
Bizi çağırırlar, gedəriz bir gün.

5229 Yenə bir nəsil var bətnimizdəcə,
O da yeyər, içər, dünyadan köçər.

5230 Süfrə nemətləri bugün bizimdir,
Yeyim də, geyim də Tanrıdan gəlir.

5231 Bizi haraylayır ölüb gedənlər,
Hələ beynimizi təpikləyənlər...

5232 Vurur, qovur biri, çağırır biri,
Varmıdır rahatlıq, asayiş yeri?

5233 Ey elmi mükəmməl, xilqəti gözəl,
Vaxtına az qalıb, qafil olma gəl.

5234 Harama girişmə, nəfsini saxla,
Haram ləkə salır qəlbə, ağıla.

5235 Qorxusuz, ürküsüz bir ömr istəsən,
Yalnız halallıqdan qismət istə sən.

5236 Çörəyi, duzu da, sözü də, halal,
Kişi nələr demiş, öyrən, ibrət al:

5237 Halal ye, günaha batma, ey quzum,
O dünyada ruzun halalın olsun.

5238 Yeyimi, geyimi halal, pak olan,
Günahsız yaşayır başdan-binadan.

5239 Pak olub yaşasan daim üzüağ,
Varın dərya gibi aşıb-daşacaq.

5240 Xalqın xeyrini güd, öz xeyrini yox,
Qoy sənin azını qucaqlasın çox.

5241 Bütün işlərində igid, mücahid,
Böyük şəhər bəyi nə demiş, eşit.

5242 Bəy xalqa səadət gətirsin gərək,
Versin yeyim-geyim, halal duz-çörək.

5243 Dibi inci dolu dənizdi bəylər,
Dənizə girəni incilər əylər.

5244 Qızıl-gümüş kanı dağ gibidir bəy,
Dağ çapan zər tapıb zənginləşəcək.

5245 Cəsur, səxavətli, əliaçıq bəy,
Xalqa çörək verən qüdrətdi gerçək.

5246 Günəş gibi parla, ey xalqa baba,
Yeyim-geyim görsün səndən el-oba.

5247 Əmanət qoyubdur boynuna Tanrı,
Hesab sorulacaq, gözlə meyarı.

5248 Özgənin gözüylə bax özünə, bəy,
Daim yığmadasan qızıl, bər-bəzək.

5249 Dənizin gövhəri bəs etmir sənə,
İncilər yığırsan, yığırsan yenə.

5250 Qızılı, gümüşü yerin altından,
Yığıb xəzinənə çəkirsən müdam.

5251 Dağlar töhfəsini – ləli, mərcanı,
Cəmləyə bilməsən, sıxılar canın.



5252 Sədəfi, almazı, kəhrəbanı da,
Yığıb saxlayırsan daim yanında.

5253 Qurtula bilmir heç, səndən bir yazıq –
Nə uçan, nə qaçan, nə üzən balıq.

5254 İpəyi, atlazı, qumaşı, zəri,
Karvanlar gətirir nə vaxtdan bəri.

5255 Ən zərif parçalar, Rum matahları,
Gəlsə də heç gözün doyurmu barı?

5256 Axura bağlanan atlar nə qədər –
Ərəbat, çapağan, ağ köhlən, kəhər.

5257 Minlərcə maya, nər, növ-növ dəvələr,
Qatlayıb dizini tikan gəvələr.

5258 Dağda qoyun-quzun, qatırın min-min,
Çəkir keşiyini xidmətçilərin.

5259 Uca zirvələrdən boz çölə qədər,
Buğalar, öküzlər, inəklər, nələr...

5260 Qayaya dırmaşan saqqallı təkə,
Nə boyda sürünü ardınca çəkər.

5261 Maral, cüyür, ceyran, qırqovul, turac,
Sənə bəs edirmi, ey gözləri ac!

5262 Qulan, dağ keçisi, qaşqaldaq, qaban,
Tutub gətirirlər sənə dörd yandan.

5263 Donuz, ayı, arslan, tülkü, canavar...
Səndən qurtulamaz bir ov, bir şikar.

5264 Durna, çöl ördəyi, qaraquş, ağquş,
Çayquşu, gölquşu qismətin olmuş.

5265 Uçarda, qaçarda şikarın rəng-rəng,
Qırğı, dağ ceyranı, qızılquş, bozgog.

5266 Laçını, qaplanı, pələngi, şiri,
Ram edib gətirir sənin mərdlərin.

5267 Atasız gibidir yalqız qalanlar,
Anasız gibidir tənha olanlar.

5268 Sənə bəs etməyir bu boyda dünya,
Hamının atası, oğlusan guya.

5269 Əyninə, qarnına bütün dünyanı,
Yığsan da ölümdən qurtuluş hanı?

5270 Aləmi yığsan da, nə faydası var,
Ölüm damarını candan qoparar.

5271 Hayana baxırsan acgöz, tamahkar,
Acgözün nə zaman gözü tox olar?

5272 Dinlə, nələr demiş gözütox insan,
Gözütox kişini şahlıq tacı san.

5273 Acgözlər tutsa da bütün aləmi,
Zəngin yox, dolanır bir səfil kimi.

5274 Acgözlər nə gədər varlı olsa da,
Bir yoxsul kimidir dolu dünyada.

5275 Nə xeyri acgözlər zənginləşsə də,
Gözütoxlar gərək bunu şərh edə.

5276 Acgözə bəs deyil dolu dünyalar,
Gözütox pulsuz da bəxtiyar yaşar.

5277 Topraq dolmayınca iki gözünə,
Acgöz ac dolanar, gəlməz özünə.

5278 Mənim bildiklərim bunlardır, a bəy,
Hər nə düşündümsə söylədim gerçək.

5279 Söylədim, səs verdin mənə özün də,
Düşünsən, açılar könlün, gözün də.

5280 Düşünsən dediyin yaxşı sözləri,
Sənə yük olmasa doyor səməri.

5281 Eşit nələr demiş zəka yolçusu,
Sənə öyüd gərək, mənə hava, su.

5282 Dinləyib-duyana öyüd ver, öyüd,
İçərində qul yox, şir, aslan böyüt.

5283 Öyüd qanmayana sözdən nə fayda,
Canı cəhənnəmə, qoy yansın odda.

5284 Dinlədi, ağladı Elbaşı zar-zar,
Dedi: – Ey möhtəşəm, ey ayıq hüşyar!

5285 İndi dərd-əzabdır bəyliyim mənə,
Naz-nemət içində sən dincəlsənə.

5286 Gözüm açıldı ki, çoxdan yatmışam,
Mən özüm özümü oda atmışam.

5287 Azmışdım yolumu, ey ləl mədəni,
Sən haqqın yoluna qaytardın məni.



5288 Mənə dua qıl ki, düz yola gəlim,
Yaxşı sifətləri məmimsəyəlim.

## OZĞURMUŞUN ELBAŞIYA CAVABI

5289 Ozğurmuş söylədi: – Ulu kimsənə,
Tanrı qüdrət versin, çat istəyinə.

5290 Kamal üstün gəlsin, ram et nəfsini,
Nəfsinə basılmış görməyək səni.

5291 Cism-can tələbi səni məhv edir,
Ulu varlığını çeynəyir, didir.

5292 Dünya dedikləri bu kaftar qarı,
Uddu sənin təki min-min sərdarı.

5293 Nə qədər mərdlərin axrına çıxdı,
Bir də görəcəksən, səni də yıxdı.

5294 Onlar öz yerini tərk etmiş sana,
Vaxt ötür... ölümə hazırlaşsana!

5295 Əcəli unutmaq yatmaq deməkdir,
Heç kəsin növbəsi ötməyəcəkdir.

5296 Unutma özünü, bəyim, bərk dayan,
Özünü unutsan kimliyini an.

5297 Bu iki amili hər kim unutsa,
Haqdan uzaqlaşıb batacaq yasa.

5298 Dinlə, nələr deyir müdrik, mötəbər,
Nəfsini həbs etmiş qüdrətli bir ər:

5299 Qaş-göz arası tək yaxındır ölüm,
Üzünün suyudur, unutma, gülüm.

5300 Cismin "Mən! Mən!" desə, dağ bas alnına,
Qulundur, yerini tanıt sən ona.

5301 Ölüm amansızdır, durub pusquda,
Səni suda görsə, tullayar oda.

5302 Yoxsa qarşımızda başqa əngəllər,
Ölümün gözünə dik baxmaq yetər.

5303 Əlimdə nə qədər iş var, döyüş var,
Məgər ölüm vaxtı iş görmək olar?

5304 Öldünmü bəs edər yalnız bir dilək –
Qara yer altında çürüyüb-itmək.

5305 Yazıqdır bunları bilən bir kişi,
Nə cür rahat olub yesin bişmişi?

5306 Elmin sayəsində hümməti yüksək,
Alim nə söyləmiş dinlə oğul tək:

5307 Hümmətini uca, könlünü şax tut,
Unut bu dünyanı, biryolluq unut.

5308 Bu dünya bir zindan, içi ox-ilan,
At bunu, o biri dünyaya bağlan.

5309 Sənin əvvəl-axır yapıncın ancaq,
Qara yer altıdır, anla ey qoçaq.

5310 Bu dünya – bir zindan, qaranlıq quyu,
Zillət, məşəqqətdir həyatın boyu.

5311 Könlün də, ağlın da çıxıbsa əldən,
Zindanda nə cür sən keçinəcəksən?

5312 Burda sürünməyə dəyərmi az-çox?
Ülvi məkan istə, bu torpağı yox.

5313 Bu tozdan, çirkabdan ayrıl, uca dur,
Bir məkan istə ki, işıqlı, büllur.

5314 Ey mənim günəşim, min il yaşasan,
Yenə yapışacaq ölüm yaxandan.

5315 Ömür uzandıqca baş ağrısı da,
Azalmır, çoxalır, böylədir qayda.

5316 Min il yaşasan da, bəs deməz ürək,
Yenə arzuların tükənməyəcək.

5317 Dinlə, nələr deyir min bir bəlanı,
Diz altına qoyan el qəhrəmanı:

5318 Min il yaşasan da, ey yazıq insan,
Yenə bu dünyadan doymayacaqsan.

5319 İnsan hər diləyi dopdolu istər,
Dilək tükəndimi, ömür də bitər.

5320 Söz desən, dərk edən bir ürək gərək,
Sözü heyran-heyran dinləmək gərək.

5321 Söz nə zaman verər səmər, bar-bəhər –
O gün ki, dinləyib əməl edələr.



5322 Xeyli söz söylədim, eşitdin tamam,
Sözümə əməl et, ey müdrik adam!

5323 Sözüm azalmadı, bəlkə çox oldu,
Ağzımda az qala dilim qurudu.

5324 Sənə qüdrət versin, güc versin Tanrı,
Sənəcən dünyaya yaxşılıqları.

5325 Göylər özü versin hər mətləbini,
Dua-səna qılsan, unutma məni.

5326 Sözünü bitirib qalxdı ayağa,
– Bir az dincəl! – dedi Elbaşı ağa.

5327 Gətirdi süfrəyə bal, şərbət, təam,
– Bir azca nuş elə, ey gözəl adam.

5328 "Bismillah!" deyibən qol çirməyərək,
Kəsdi qoca zahid bir qismət çörək.

5329 Az yedi, Tanrıya şükürlər dedi,
Atını istədi, at yem üstədi.

5330 Ayağa qalxdılar zahid, hökmdar,
Böyük məhəbbətlə sağollaşdılar.

5331 Bir cüt qardaş gibi verib baş-başa,
Otaqdan çıxdılar bərabər, qoşa.

5332 Bir müddət əl-ələ dayandılar da,
Ayrılıb dost üçün boylandılar da.

5333 Zahid dağa sarı çapdı köhləni,
Qardaşı əyilib öpdü əlini.

5334 Bu sevgi, nəvaziş könlünə yatdı,
– Qardaş, qayıt geri...
qardaş qayıtdı.

5335 Gəldi öz evinə qayğılı, qəmgin,
Könlü bomboş idi səmalar təkin.

5336 Yatdımı... yox, onu aparmadı huş,
Şərqdən günəş doğdu, dünya – bir ağquş.

5337 Kainat qərq oldu kafur rənginə,
Uydu al günəşin öz ahənginə.

5338 Mələk cəmalıtək parladı dünya,
Saçdığı ağappaq kafurdu guya.

5339 Qalxdı, yatağını saldı sahmana,
Yuyundu. Qaldırdı əl asimana.

5340 Geydi libasını, atlandı yenə,
Qalxdı yüksəkiyə – bəylik qəsrinə.

5341 Sarayın qoynunu gəzdi mükəddər,
Çağırdı Elbaşı, xoş-beş etdilər.

5342 Öncə Ozğurmuşu sordu Elbaşı,
Dincəldimi yaxşı, getdimi yaxşı?

5343 Ögdülmüş, ey məmim gözümün odu,
Yeməyim, içməyim daha zay oldu.

5344 Nə cür dolanmalı bugündən belə,
Nə üzlə çıxmalı obaya-elə?

5345 Elbaşı olmağın nə mənası var?
Sanki belim sınıb, könlüm tarimar...

5346 Dolana bilərmi ordusuz ölkə,
Bəy bütün işləri tək görə bəlkə.

5347 Əsgər tutmaq üçün qızıl, zər gərək,
Hamı bəy başında səfərbər gərək.

5348 Dinlə, nələr deyib ordu başçısı,
Onu dilləndirib əsgər qayğısı.

5349 Baxa bilərmi bəy düşmən üzünə,
Olmasa mərd odu, dolu xəzinə.

5350 Bu iki qüdrətlə bəylik edir bəy,
Tacı şölə saçır qızıl günəş tək.

5351 Böyük sərvət gərək əsgər yığmağa,
Qüdrət, cürət gərək əsgər yığmağa.

5352 Mənim bir əynim var, bir də boğazım,
Dağlar boyda yükü çəkmək nə lazım?

## ÖGDÜLMÜŞ, ELBAŞI GÜNDOĞDUYA EL-OBANI DOLANDIRMAQ, ADİL SİYASƏT YÜRÜTMƏK YOLLARINI AÇIQLAYIR

5353 Ögdülmüş söylədi: – Görsün Elbaşı,
Bütün işlərini qoy yaxşı-yaxşı.



5354 Gərəksiz söz demə, ey əqli dərya,
Xoş getməz göylərə, ulu Tanrıya.

5355 Bəyliyi zor ilə almamısan ki,
Səni sevib-seçib Tanrı qüdrəti.

5356 Min dəfə şükr elə ulu Yəzdana –
Səni bəy seçənə, əziz tutana.

5357 Sözün düz, özün pak... tapın Xudaya,
Adil başçılıq et elə-obaya.

5358 Başında ağlın var, əlində elmin,
Ram elə, nəfsinə hakim ol, hakim.

5359 Nəfsinə dağ basıb nəsihət verən,
Ərən nələr demiş eşit dilindən:

5360 Əyri yox, düz olsun deyə cismü-can,
Nəfsinin boynunu sındırmalısan.

5361 Sərt ol, talar səni nəfs ilə həvəs,
Bu iki oğrunu daim doğra, kəs.

5362 Sən neçin acizsən, ey ulu sərdar,
Yaxşılıq etməyə hər növ gücün var.

5363 Nə üçün bu qədər qayğılanırsan,
Necin ömrü-günü zoqqum sanırsan?

5364 Dolu xəzinən də, mərd ordun da var,
Hər işi görməyə idrakın çatar.

5365 Hər şeyə yol açır dolu xəzinə,
Payla daş-qaşları əsgərlərinə.

5366 Dinlə, nələr demiş cəngavər batır:
Qızıl saç, düşməni gözündən batır!

5367 İstəsən gedəsən daim irəli,
Sevindir mərdləri, şad et əsgəri.

5368 Düşmənin boynunu qırmaq istəsən,
Saxla öz ordunu gözün üstə sən.

5369 Artır, azalmasın silahlananlar,
Sənə canını da verərlər onlar.

5370 Ordun məhv eləsin kafir düşməni,
Sən paksan, tək qoymaz Yaradan səni.

5371 Silahlı ordunla əz düşməni sən,
Ölsə də əl çəkməz kafirliyindən.

5372 Yax, yandır evini, bütxanəsini,
Məscid tik, tez görək minarəsini.

5373 Oğlunu qul eylə, qızını kəniz,
Çap, gətir... tez dolsun boş xəzinəmiz.

5374 Qoru şəriəti, müsəlmanlığı,
Yaxşı ad-san qazan, çatdasın yağı.

5375 Sataşma, dayaq ol müsəlmanlara,
Tanrı güzəşt edib özü onlara.

5376 Müsəlman qardaşdır müsəlmana, bil,
Onlara toxunmaq insafdan deyil.

5377 Xalq üçün həmişə ədalət ara,
Çatar duaları pərvərdigara.

5378 Sənə son sevinci kim verər? Xuda!
Qazan bu dünyanı, o dünyanı da.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ CAVABI

5379 Elbaşı söylədi: – Qəşəng deyirsən,
Göstərdiyin yolla gedəcəyəm mən.

5380 Mənə yardımçı ol, gedək yan-yana,
Bəylik işlərini salaq sahmana.

5381 Xalqa çörək vermək, əyin-baş vermək,
İç işi, dışı da sazlamaq gərək.

5382 Şad elə, ənam ver xeyirxahlara,
Bədxahı qəzəbin qoy çəksin dara.

5383 Təzə ev, təzə yurd, təzə bağ-bağat,
Xalqa gün-güzəran, səadət yarat.

5384 Yurda nicat versin intizam, qayda,
Çalış, yararlı et yaramazı da.

5385 Bu arzular coşur könüldə müdam,
Gözümü yummağa macal tapmaram.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

5386 Ögdülmüş söylədi: – Ey adı yüksək,
Soyuma, sən özün hər işə baş çək.



5387 Neçin görməyəsən görməli işi,
Tələs, çox gözləmir ömür günəsi.

5388 Bugünkü işini sabaha qoyma,
İş üstə iş gələr, işdən soyuma.

5389 Ölkə çiçəklənsə, şad olar insan,
Xalqın da, özün də rahatlanarsan.

5390 Yaxşıya arxa ol, yamanı yandır,
Yamanı ölkədən tez qov, amandır.

5391 Dürüst ol, mötədil rəftarı gözlə,
Əyrilər düz gibi çıxmasın üzə.

5392 Könlü də, dili də, xülqü də əla,
Alim nələr demiş, yadında saxla:

5393 Qaynayıb-qarışma yamana, mərd ol,
Əyrilik qara yol, doğruluq ağ yol.

5394 Doğruya zaval yox qiyamət günü,
Ərşə dirənəcək yamanın ünü.

5395 Ordu yaratmalı... başqa çarə yox,
Bəylər ordusuyla fəxr edir ən çox.

5396 Əsgərə ərmağan, ənam saçmalı,
Hər aca, möhtaca qapı açmalı.

5397 Ümiddir saxlayan xidmətçiləri,
Ümidi üzülsə dönməzmi geri?

5398 Elbaşı! Xidmətçi cürbəcür olur,
Biri abır-həya, biri muzd umur.

5399 Abır gözləyənlər xoş sözə uyur,
Oxşa, tökülməsin üzünün suyu.

5400 Mal-pul istəyənə ver istəyini,
Sənə fəda qılar mərd ürəyini.

5401 Mənzil, təzə Elbaş, at istəyən var,
Üz suyum üzümdə qalsın deyən var.

5402 Mergənə gümüş ver, pəhləvana zər,
Tutsan, sənin olsun kəndlər, şəhərlər.

5403 Əl uzat, əziz tut zəkalıları,
Yaraşsın əyninə təzə paltarı.

5404 Əl verme zorakı, yırtıcı olsa,
Çıxsa azadlığa, başından basar.

5405 Ucaltma dəyyusu, lovğanı, kütü,
Böyləsi başına bəladır bütün.

5406 Bahadırlar başı nə demiş, dinlə,
Alçaq vara çatsa, baş əyməz sənə.

5407 Yol vermə, yamanlar zənginləşsələr,
Kəndirini eşər, gözünü deşər.

5408 Yaxşıya, hayan ol... başsız qalanlar,
Çıxar haqq yolundan, yolsuzu yanlar.

5409 Ər möhtac olanda sökülər donu,
Yaxşılar içində görməzsən onu.

5410 Yaxşıya yaxşı de, yamanı pislə,
Yaxşı əla olur quruca sözlə.

5411 Özünə yaxın tut sədaqətini,
Özündən kənar et dar xislətini.

5412 Ayır faydasızdan faydalı mərdi,
Biri quruca daş, biri gövhərdi.

5413 Səni sevənlər var, sevməyənlər var,
Sevəni sən də sev, yad bağrını yar.

5414 Sənin sevincindən sevinməyən kəs,
Dost deyil, onunla əlaqəni kəs!

5415 Fərqləndir ülvini zatıqırıqdan,
Batsın, əmanətə xəyanət qılan.

5416 Bir işi tapşırma iki nəfərə,
Baxar iş görmədən betər bəfərə.

5417 İşi, iş bilənə tapşırsan əgər,
İş görər, görməsə kədər, qəm yeyər.

5418 Sənə xeyir verən adamları tut,
Xeyir verməyəni rədd elə, unut.

5419 Özgə gəlirinə göz dikmə heç vaxt,
Qazan özün üçün, xalq üçün ancaq.

5420 Səni düşündürsün el mənfəəti,
Başqa könüllərə göz qoyma qəti.

5421 Xeyir gətirənə sən də xeyir ver,
Uzaqlaş, xeyirsiz tapmasın xeyir.

5422 Bar verən mərdləri daim əziz tut,
İş tapşır, boşalsın qoy dolan bulud.



5423 Görməli işlərin bunlardır, a bəy,
Görsən məmləkətin çiçəklənəcək.

5424 İş görsən, səadət, ad-san taparsan,
Səni çox yaşadar inan, o ad-san.

5425 Xalq zəngin olarsa, xəzinən dolar,
Taxtın da, bəxtin də qalxıb ucalar.

5426 Mehri, ülfətilə sözü tuş gələn,
İnsan nələr demiş, diqqət ver, öyrən:

5427 Hansı məmləkətin yaxşısa bəyi,
Əskilməz günəşi, duzu, çörəyi.

5428 Ölkənin sərvəti – bəyin sərvəti,
Eynidir qüdrəti, şanı-şöhrəti.

5429 Oğrudan, əyridən təmizlə yurdu,
Karvanlar görsünlər dinclik sükutu.

5430 Sil-süpür ölkədən fitnəni, məkri,
Qaçağı, qulduru, zor gələnləri.

5431 Yamana yamanlıq etməmək olmaz,
Əclafın, alçağın alnına dağ bas.

5432 Yamanlar zəncirdə, zindanda gərək,
Düzəlib ta insan oluncayadək.

5433 Bu yerdə adamlar cürbəcür, növ-növ,
Fərqləndir onları yaxından görüb.

5434 Əzizlə, uca tut alimləri sən,
Səadət gətirən alimə əhsən.

5435 Alim qarşısında səcdə qıl, əyil,
Şəriət yolu tut, haqqın dostu bil.

5436 Kəsmə haqlarını, yeyim-geyim ver,
Təki, ey bayraqdar, qəm yeməsinlər.

5437 Könül xoşluğuyla öyrədib elmi,
Zəkalar yetirmək hünər deyilmi?

5438 Arxan, dayağın bil möhtəsibləri,
Qolu güclü gərək, yumruğu iri.

5439 Məscidə soxulan, dükana girən,
Fasiqə, başsıza dərs versin hökmən.

5440 Sənə tapınanlar bir ayrı dostə,
Onlara könül ver, dəyanət istə.

5441 Onlar yük daşımaz... sərf edib əmək,
Onların yükünü daşımaq gərək.
5442 Bunlardan savayı qara kütlə var,
Ədalət gözləyir sahibdən onlar.
5443 Dolandır onları haqla, hörmətlə,
Üç yerə bölünür bu qara kütlə.
5444 Birinci – zənginlər, qüvvətlilərdir,
Sərvətli, şöhrətli, cürətlilərdir.
5445 İkincilər kimdir – orta təbəqə,
Onlar iş görəməz zənginlər qədər.
5446 Üçüncülər kimdir – yalavac, möhtac,
Arabir onların qapısını aç.
5447 Bəy yükü yükləmə ortabablara,
Sarsılsa, büdrəsə düşəcək dara.
5448 Ortabab yükünü yükləmə aca,
Üzülər, can verər yük altındaca.
5449 Dirçəlsə yoxsul, ac ortabab olar,
Ortabab qalxınca bəyə bab olar.
5450 Ortabab bəy olsun, yoxsul ortabab,
Sən də səadəti el varında tap.
5451 Firavan yaşasın, çiçəklənsin el,
Elin alqışını var-dövlətin bil.
5452 Dinlə, nələr demiş üç ordu xanı,
Ötmə vəfa yoxdur, qoru ad-sanı.
5453 Yaxşı ad əhlini çox sevib Yəzdan,
Ad-san düşməyəcək dildən-ağızdan.
5454 Ölən qoyubdursa yaxşı xatirə,
Dirilir, qovuşur ikinci ömrə.
5455 Torpağın üstündə, yerin altında,
Özün yaxşı olsan, yaşar adın da.
5456 Cism, can öləri, ad-san əbədi,
Var ol, ey həyatın canlı məbədi.
5457 Səndə rəiyyətin üç cür haqqı var,
Ödə bu haqları, olma zülmkar.
5458 Birinci budur ki, gümüşü yoxla,
Gümüş əla olsun, əyarı əla.



5459 Xalq içrə ədalət yar olsun sənə –
Qoyma zülm etsinlər özgələrinə.
5460 Üçüncü tələbim səndən budur, bu –
Qaçaqdan, quldurdan təmizlə yurdu.
5461 Rəiyyət haqqını ödərsən onda,
Başçısan, başını qoy el yolunda.
5462 Sənin rəiyyətdən üç tələbin var,
Haqqın tələbidir, haqlı tələbkar.
5463 Biri: yarlıqlara etsinlər hörmət,
Yetirsin yerinə onu rəiyyət.
5464 İkinci budur ki, azalmasın var,
Xəzinə haqqını unutmasınlar.
5465 Üçüncü budur ki, düşməyək gözdən,
Dosta dost olsunlar, düşmənə düşmən.
5466 O vaxt ödəyərsən sən öz borcunu,
Onlar da müqəddəs, əziz borcunu,
5467 Bəy də, rəiyyət də getdiyi yolu,
Gərək düz getsinlər, ey adı ulu.
5468 Xalq onda yandırar bəy çırağını,
Aləmə car çəkər yaxşılığını.
5469 Sənin səadətin bundadır, a bəy,
Hər iki dünyada üzün ağ gərək.
5470 Xalqa elm öyrədən alimlərin var –
Kamala, idraka məşəldir onlar.
5471 Qolları qüvvətli möhtəsiblərin,
Üzsün boğazını fitnənin, şərin.
5472 Sövdəgər götürsün əmanətini,
Versin nəsihətçi nəsihətini.
5473 Kəndçi əkib-biçsin, bəhrə götürsün,
İlxıçı ilxını çölə ötürsün.
5474 Sənə xidmət edən yırtıcı ordu,
Qoy yatıb dağıtsın quzğunu, qurdu.
5475 Ənam ver, ehsan ver, pul ver onlara –
Səni gecə-gündüz qoruyanlara.
5476 Ərmağan döyüşə sövq etsin şiri –
Cürətli, caynaqlı, məğrur əsgəri.

5477 Dostlara qələbə, düşmənə ölüm!
Sarılsın silaha çəmənim, çölüm.

5478 Açılsın, saçılsın bütün işlərin,
Özün ol bayrağı keşməkeşlərin.

5479 Hər iki dünyada qazanıb ad-san,
Haqqı şad eləyən, ey ulu insan!

5480 Daim düz olmusan, dürüst ol yenə,
Düzlükdür çatdıran səni əhdinə.

5481 Düz ol, sevəcəkdir Yaradan səni,
Düz ol, vermə əldən ədalətini.

5482 Bu haqda nə deyir pirani, dinlə,
Salsın hər kəlməsi könlünə şölə:

5483 Düzdür ki, dayanır yer-göy ayaqda,
Min bir nemət bitir azca torpaqda.

5484 Düşmə hər sifətə... Düz ol... düz olsan,
Hər iki dünyada qazanacaqsan.

5485 Budur, bəyan etdim bildiklərimi,
İçim, çölüm aydın sənə gün kimi.

5486 Dilimdən saçıldı yalnız dürüst, düz –
Hər iki dünyada xeyir verən söz.

5487 Dərindən düşünsən, sözümə baxsan,
Hər iki aləmi qazanacaqsan.

5488 Dünyada hər nə var – gəldi-gedəri,
Yalnız ad-san qalır həmişə diri.

5489 Eşit, nələr deyib təlim verənlər –
Ömrün mənasını adda görənlər.

5490 Adım-sanım qalsın, ölsəm də özüm,
Məzar – zülmət gecəm, adım – gündüzüm.

5491 Bacar yaxşılıq et, ey gözəl insan,
Ad qazan, adınla yaşayacaqsan.

5492 Elbaşı dinlədi bu kəlamları,
Könlü işıqlandı, artdı vüqarı.

5493 Öydü Ögdülmüşü: – Afərin, əhsən!
Qiymətli sözlərdi, idrak əhlisən.

5494 Tanrı qüvvət versin, qalxım gedim mən –
Sənin hər sözünə əməl edim mən.



5495 Səni Tanrım mənə özü göndərib,
Ümidim könlümə bir aləm verib.

5496 Mənə yardımçı ol bugündən belə,
Ey əziz, mehriban, ey hüsnü şölə.

5497 Sənə varlığımla inanıram mən,
Sözünü gizlətmə öz həmdəmindən.

5498 Mən qızıl günəşə qərq oldum bu gün,
Xeyir-bərəkətdir səndə gördüyüm.

5499 Diliylə ürəyi bir olan kişi,
Necə təsvir edir görün gərdişi:

5500 Könlün kimi tutsa, onu güzgü bil,
Gördüyün özünsən, özgəsi deyil.

5501 Əziz, mehriban dost – bir ayrı güzgü,
Baxsan görəcəksən özünü düzgün.

5502 Yaxınsa can cana, könül könülə,
İnam qovuşdurar bülbülü gülə.

5503 Hər kimə inansan, sözü ondan sor,
Düz sözdən nur alır, şəfa tapır kor.

5504 Ögdülmüş şad oldu eşitdiyindən,
İşığa qərq olub qımışdı şən-şən.

5505 Qurtuldu varlığı düyündən, dağdan,
– Xudahafiz! – deyib çıxdı otaqdan.

5506 Atıb rahatlığı o gündən bəri,
Elbaşı qərq etdi nura elləri.

5507 Yamanı dağladı, yaxşını tutdu,
Ənam, ehsan verdi, imdada çatdı.

5508 Nəqşələr çəkdi ki, el təzələnsin,
Günlər işıq versin, illər bəzənsin.

5509 Bürüdü ölkəni el səadəti,
Sel gibi çağladı varı, dövləti.

5510 Dostu Ögdülmüşü çəkdi yanına,
Bəy bütün işləri tapşırdı ona.

5511 Qoyub diz altına dərdi, ələmi,
Ögdülmüş yetişdi bir oğul gibi.

5512 Özgənin gözüylə özünə baxdı,
Boş keçən günləri könlünü yaxdı.

5513 – Hər cür ləkələrdən pak olmalı, pak –
Qəlbə hökm elədi nurlanan idrak.
5514 Məgər ar deyilmi qəflətdə qaldım,
Atdım dör-döyüşü, uyğuya daldım.
5515 Məni tərk elədi qüdrət, dirilik,
Gözüm gözlük umdu, əlim də çəlik.

## ÖGDÜLMÜŞ ÖTƏN HƏYATINA ACIYIB TÖVBƏ ETDİYİNİ BİLDİRİR

5516 Ögdülmüş ah çəkdi: – Getdi ömür-gün,
Ay batdı, bəs hanı şöləsi ömrün?
5517 Adi heyvan gibi keçirdim ömrü,
Necə ki, çöllərdə ot yeyər sürü.
5518 Keçirdim vaxtımı bihudə, əbəs,
Qafilin min günü bir çöpə dəyməz.
5519 Hanı cavanlığım, pəhləvanlığım,
Təpəmdən çıxarır tüstümü yanğın.
5520 Əcəl yaxınlaşır, həyat tükənir,
Varmıdır ölümə bir çarə, tədbir.
5521 İndi mən nəyəm ki, – qocalmış laçın,
Düşdü kül rənginə saqqalım, saçım.
5522 Hanı otuz iki ləlim, gövhərim –
Töküldü ağzımdan ağ incilərim.
5523 Gözlərim görərdi bir günlük yolu,
İndi seçə bilmir qızdan oğulu.
5524 Qulağım az qala darı dələrdi,
İma-işarəylə gəzirəm indi.
5525 Quzğun kəkilitək qaraydı saçım,
İndi ağ quş gibi ağarıb başım.
5526 Ölüm yaxınlaşır... suçlarım rəng-rəng,
Qalxıb üzr istəyəm Tanrıdan gərək.
5527 Yaramaz işlərdən əl çəkib tamam,
Ləkədən qurtulub pak olmalıyam.
5528 Əsla çaşmamalı, sarsılmamalı,
Çaşanın zay olur dövləti, malı.



5529 Yaramaz işlərim qəm gətirir, qəm,
Yaxın dostlar ilə gənəşməliyəm.
5530 Məsəl var, gen olur məsləhətli dən,
Dikbaşlar sən qoyur öz bəxtinə, sən.
5531 Xəstəsən, həkimə get nüsxə yazdır,
Gənəşmək – davamız, dərmanımızdır.
5532 Yaxın kişilərlə gənəş, yardım al,
Yalqız döyüşçüdən, get bir ordu al.
5533 Gənəşən götürər səmər, bar-bəhər,
Döyər dizlərinə gənəşməyənlər.
5534 Gedim qardaşımla məsləhətləşim,
Düşərmi sahmana sabahkı işim?
5535 Görməli işləri düşünək bir az,
Görək yararlıdır, yoxsa yaramaz.
5536 Bəzən öz işindən baş açmayan kəs,
Sərsa başqasından heç nə itirməz.
5537 Elm ilə gənəşək birləşən zaman,
İnsan nicat tapıb olur kamiran.
5538 Gənəşəkçi alim nə deyir, dinlə:
Çatarsan əhdinə gənəşməyinlə.
5539 Sözə, məsləhətə məhəl qoymayan,
Sənə dost olamaz, uzaqlaş ondan.
5540 Ən müşkül arzuna, istəyinə sən,
Yalnız götür-qoyla çata bilərsən.
5541 Dan üzü oyanıb oldu səfərbər,
Elbaşı qəsrinə at sürdü səhər.
5542 İcazə istədi girsin otağa,
Elbaşı hörmətlə qalxdı ayağa.
5543 – A bəy, ürəyimdə qalmasın bu qəm,
Gedib qardaşıma baş çəkməliyəm.
5544 İcazə versəniz, varıb gedərəm,
Ziyarət edərəm, göstərin kərəm.
5545 – Get, qardaş əzizdir, onu şad eylə,
Məndən salamlar de, günaydın söylə.
5546 Sirrinə aşina olursa Xuda,
Məni unutmasın dualarında.

5547 Xudavəndi kərim, adil, mehriban –
Bağışlar səhvimi, keçər suçumdan.

5548 – Əlbəttə!
Ögdülmüş qalxdı ayağa,
Ürəyi köksündə döndü bir dağa.

5549 Günəş, yaqut günəş endi aşağı,
Saralan üfüqlər zəfəran bağı.

5550 Çökdü yavaş-yavaş qaranlıq yerə,
Zülmət gəlib girdi yatan gözlərə.

5551 Ögdülmüş, evində dinclik sükutu,
Öncə namaz qıldı, sonra uyudu.

5552 Bir az rahatlandı yorğan-döşəkdə,
Fikirlər beynini eşələməkdə.

5553 Gözü yumulmadı, beyni od kimi,
Dolandı xəyalı bütün aləmi.

5554 Qaraquş – Müştəri Şərqdən çıxmada,
Üfüqü qərq edir atəşə, oda.

5555 Gör necə parlayır Yıldırıq – Sirus,
Hələ Ayğır ilə Arantiz ulduz.

5556 Ucalır yuxarı Sukiç-Qırqovul,
İsrafil surunu çalır, qalx, oğul.

5557 Qaldırdı başını, boylandı Şərqə,
Gördü qızıl günəş qalxmış üfüqə.

5558 Günəş mərcan səpir maviliklərə,
Yandırır səmanı alovlu kürə.

5559 Aləm qəh-qəh çəkən gözəl qız oldu,
Sevinclər çoxaldı, qəmlər azaldı.

5560 Dəstəmaz alınca namaz qıldı o,
Sürdü köhlənini dağlara doğru.

5561 Evə çatan kimi döydü qapını,
Qardaşı qapadı haqq kitabını.

5562 Ögdülmüş, Ozğurmuş qanad açdılar,
Şad olub, əl verib salamlaşdılar.

5563 Hal-əhval tutdular, evə girdilər,
Yenə qardaş mehri, ülfət gördülər.



5564 – Söylə, neçin gəldin, ey ömrü gündüz,
Heç bircə ay deyil görüşdüyümüz!

5565 Üzün heyva gibi, kefin aşağı,
Harda itirmisən nuru, işığı?

5566 Dillən, danış görək axı nə olmuş,
Əhvalın nə üçün böylə pozulmuş?

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

5567 Ögdülmüş söylədi: – Fələk ox atdı,
Oxu bu yaralı bağrıma batdı.

5568 Fələyin üzümə gülməsi mümkün,
Bəlkə yatan bəxtim oyana bir gün.

5569 Qafillik etmişdi bağrı qan məni,
Silkəyib oyatdı bu dövran məni.

5570 Özümə göz qoydum, gördüm azmışam,
Qəflətdə özümə məzar qazmışam.

5571 İnləyir ən ağır yük altında can,
Nə cür ayrılmalı min-min günahdan?

5572 Keçirdim ömrümü qəsrə xidmətdə,
Hanı payım mənim bəs ibadətdə?

5573 Dünya öz yerində, can əldən gedir,
Dünyanın sonu yox, ömür-gün bitir.

5574 Gəlmişdim, dolanam, yaşayam guya,
İndi nəyə gərək bu gidi dünya?

5575 Gəldi bu günüm də sovuşdu hədər,
Yaşamaq mümkünmü sabaha qədər?

5576 Qurumuş ot kimi töküldü saçım,
Saqqalım – gümüşü rəng alan laçın.

5577 Gərək o dünyaya hazırlıq görəm,
Verəm öz borcumu, qalmaya bir qəm.

5578 Buna oxşar, uyar bir məsəl də var,
Əməl et bu sözə, ey ömrü gülzar!

5579 Ömür hədər keçdi, dad çəkirəm, dad,
Bəs qalan günlərim... Odamı bərbad?

5580 Gündüzüm boş keçdi, bəs gecəm necə?
Mümkünmü keçirim öz ürəyimcə?

5581 Yemişəm-içmişəm bir heyvan kimi,
Acmaq, susamaqdır bircə dərd-qəmim.

5582 Cismü-can istəyir hər cürə nemət,
Onu boğam gərək, yetişdi növbət.

5583 Yetər yeyib yatdı, qalxsın ayağa,
Əlvida söyləsin ipək yatağa.

5584 Özünə nə qədər düşmən qazandı,
Bəs dost qazanmağın vaxtı haçandı?

5585 Əlim də, dilim də uzundan uzun...
Gərək üzr istəyəm çoxundan, quzum.

5586 Kiminsə gözündə bir qıl var, dedim,
Ancaq öz gözümdə tiri görmədim.

5587 Hardan qaçaq düşən bir alçağam mən,
Günahlar selində batıb baş-bədən.

5588 Bu gün tövbə edib dönürəm yoldan,
Qəbul et üzrümü, ey ulu Yəzdan.

5589 Dərya bilikli ər nə demiş, dinlə,
Düşsün öyüdündən qəlbinə şölə:

5590 Hazır, səfərbər ol gəlməmiş əsgər,
Gəldimi, təəssüf verməyəcək əl.

5591 Ölüm yapışmamış yaxandan hələ,
Tövbə qıl, könlünü təmiz, pak elə.

5592 Gənclik çağlarına sal ibadəti,
Qocalıq aparır gücü-qüvvəti.

5593 Möhkəm ol, ayıq ol əcəl gəlməmiş,
Gəldimi, ayıqlıq mənasız bir iş.

5594 Yanına gəldim ki, bir məsləhət ver,
Ayağım altında titrəməsin yer.

5595 Axı mehribanım, qarındaşımsan,
Göstər haqq yolunu, ey əziz insan.



## OZĞURMUŞ ÖGDÜLMÜŞƏ SUAL VERİR

5596 Ozğurmuş söylədi: – Əziz qardaşım,
Dinlə sözlərimi, ucalar başın.

5597 Yaxşı bir niyyətlə gəlmisən bura,
Tanrı kömək versin, qərq ol da nura.

5598 Burda bircə işlə soyumaz ürək,
Növ-növ, çeşid-çeşid əməllər gərək.

5599 Qoy deyim birini, arxasınca get,
Ən yararlı işi kəşf et, əməl et.

5600 Mən dağ başındayam, sən də sarayda,
Hər şeydən üstündür bizim bu qayda.

5601 Sənin xeyrin dəyir orda bu yurda,
Qarğış qazanarsan, qalsan kənarda.

5602 Elbaşı ellərin əlindən tutur –
Sənin işin budur, xidmətin budur.

5603 Ölkə çiçəklənir, el həvəslənir,
Adına nə qədər dua səslənir.

5604 Kişilər başıdır xeyir verənlər,
Xeyrixah nə demiş, öyrən, bil əzbər:

5605 Adamlar içində kim sayılır baş –
Kim ki, xeyir verir ellərə, qardaş!

5606 Xeyir verməyənlər, xeyir verənlər,
Biri zəqqum-zəhər, biri bar-bəhər.

5607 Niyyət gözəl olsa, iş də iş olar,
İnsan qartal gibi yüksəlmiş olar.

5608 Niyyətin yaxşısa, var olacaqsan,
Uca əməllərə, yar olacasan.

5609 Sənin saraydakı işin, əməlin,
Bəxti, səadəti, fəxridir elin.

5610 Sən qovdun ölkədən fitnəni, şəri,
Düzəldi siyasət, nizam işləri.

5611 Atıb bu işləri çıxsan saraydan,
Yaxan qurtularmı de ahu-vaydan?

5612 İnan bərbad olar siyasət, nizam,
Daş üstə daş qalmaz, işdə intizam.

5613 Gəlib bir yaramaz tutar yerini,
Dağlayar xalqının ciyərlərini.

5614 Çəkər yaman yola yaramazları,
Beyni cılızları, dələduzları.

5615 Başının üstündə göy-pərvərdigar,
Haqqın haqq sorğusu, sənin adın var.

5616 İmkan verməməli yaman işlərə,
İnsan gözlərini yuman işlərə.

5617 Dinlə, nələr deyib ölümsüz adam, –
Dili, feli doğru, könlü düz adam:

5618 Qaynayıb-qarışma yamanlığa sən,
Yaman siyasəti ləğv etməlisən.

5619 Yaxşı hünər qazan, yaxşı da ad-san –
Hər iki dünyanı satın alarsan.

5620 Tanrı neçin verib bu əzmi sənə –
Yaxşılıq dağını fəth eləsənə?

5621 Neçin yaxşılıqdan əl çəkməlisən?
Yamanın gözünə mil çəkməlisən?

5622 Atıb öz xeyrini, elin xeyrini,
Üstünmü tutursan dağlar seyrini?

5623 Qalsın qulağında sırğa bir sözüm:
Özün tap yerini həyatda, özün.

5624 Mən eşqə, arzuya könül vermədim,
Mal-dövlət, səadət, sərvət görmədim.

5625 Xalqıma qayanıb-qarışmadım mən,
Bəylər sarayında çalışmadım mən.

5626 Daim üz çevirdim dünya malından,
Soraq da tutmadım el əhvalından.

5627 Atsam ibadəti, getsəm saraya,
Yaxa verərəmmi məgər ah-vaya?

5628 Ömründə zər-zinət görməmiş adam,
Neynər qızıl tapsa... ağzına qadam!

5629 Qulaq as, qoşulub Çin karvanına,
Gəzər bir sövdəgər nə demiş bana:

5630 Lapdan vara çatsa yoxsul bir kişi,
İnan ki, itirər düzgün yerişi.



5631 Yoxsul zənginləşib çatsa sərvətə,
Azar öz yolunu, düşər zillətə.

5632 Görməmiş görərsə var-dövlət, hümmət,
Əlinin altında batar məmləkət.

5633 Qul keçsə başına yurdun, ulusun,
Əli uzun olar, dili də uzun.

5634 Sən bu gün çatsan da vara-dövlətə,
İşrətə, şəhvətə qoymusan nöqtə.

5635 Nəfsini mərdliklə cilovlamısan,
Bəyin də qəlbini tez ovlamısan.

5636 Bunlar haqqın sənə fəzilətidir,
Sənin üz ağlığın haqq şəfqətidir.

## DÜZƏ-DÜZ OLMAQ, İNSANİYYƏTƏ – İNSANİYYƏT GÖSTƏRMƏK HAQQIN MƏSLƏHƏTİDİR

5637 Kişilik göstərsə, kişilik göstər,
Düzə düz olmalı, ər önündə – ər.

5638 Sən atdın sarayı hücrəyə gəldin,
Məgər düşündünmü heç niyə gəldin?

5639 Vəfalı kişilər bəzən öyünür,
Sanır ki, köksündə dünya döyünür.

5640 Seç, adil nizamı, düz siyasəti –
Budur insanlığın ilk əlaməti.

5641 Pisə-pis, yaxşıya yaxşı olmalı,
Bir verə on verib ləzzət almalı.

5642 Zatı pak olanlar pislikdən qaçaq,
Daim qapı açar, səxavət saçar.

5643 Haramdan törəyən halallıq bilməz –
Xalqa bəla olar, mərdlərə qəfəs.

5644 Yeyim-geyim verir, nemət saçır bəy,
Bəyin xidmətində durmağın gərək!

5645 Bəydir bu gün sənə var-dövlət verən,
Fəzilət, zəkavət, səadət verən.

5646 Məgər unutmusan bu yaxşılığı,
Mərdə mərdlik göstər, ey qüdrət dağı.

5647 Doğru söz nə qədər acı olsa da,
Nuş elə, gətirər ağzını dada.

5648 Mən acı söz dedim, əziz qardaşım,
Darıxma, darılma, duy, düşün-daşın.

5649 Sənə söz toxunsa, qəzəblənmə çox,
Doğru söz-acı söz daşdan keçən ox.

5650 Müdrik bir kəlama uyğundur sözüm,
Dinlə bu kəlamı, günüm-gündüzüm.

5651 Doğru söz bibərdi, acılar səni,
Qorxma əvvəl-axır qovar qüssəni.

5652 Doğru söz nə qədər olsa da acı,
Gözünün odudur, başının tacı.

5653 Atan vəfat etdi, sən bir çocuqkən,
Nə sənət öyrəndin, nə hünər, nə fənd.

5654 Qanadı altına aldı bəy səni,
Onun sayəsində tapdın bəxtini.

5655 Sənə qapı açdı, bəxş etdi ruzu,
Köhlən, qul-qaravaş, torpaq, əkin, su.

5656 Bəyin sayəsində şöhrətli oldun,
Çörəkli, ürəkli, nemətli oldun.

5657 Sənə yaraşarmı indi darılmaq –
Bəydən üz döndərib düşməni olmaq?

5658 Səndən gözləyirkən dostanə kömək,
Onu yalqız qoysan incimərzmi bəy?

5659 O, sənə nə qədər yaxşılıq etdi,
Sənin dost cavabın qaçmaqla bitdi?

5660 Beş kişi içində adın-sanın var,
Qoy vəfalı deyib alqışlasınlar.

5661 Sən insan olmağı hünər tacı san,
Dinlə, nələr demiş hünərli insan.

5662 İnsanın bəxtidir insaniyyəti,
Bu ülvi sərvətdən əl çəkmə qəti.

5663 Əldən vermisənsə insanlığını,
Sən nəsən – bir cəmdək, bir ət yığını.

5664 Uğrunda can qoydu Elbaşı, əhsən,
Hay ver yaxşılığa yaxşılıqla sən.



5665 Kimdir xalq içində ən yaxşı adam –
Kim ki, el barınır yaxşılığından.

5666 Yazıq bir uşaqdın... O, səni aldı,
Səni ucaltdıqca özü ucaldı.

5667 Canını, qanını fəda qıl ona,
Yatma, ömrünü ver bəy qulluğuna.

5668 Hay ver yaxşılığa yaxşılığınla,
Görsün qüdrətini qoy ərşi-əlan.

5669 Dinlə, nələr deyir hər sözü gövhər,
İnsanlıq örnəyi göstərən bir ər:

5670 Sənə çörək verən mərdə badə sun –
Yediyin, içdiyin halalın olsun.

5671 Duz-çörək haqqını unutmayanlar,
Duz-çörək verənə can fəda qılar.

5672 İndi ki, çatmısan öz istəyinə,
Sənə ruh verənin yet köməyinə.

5673 Əyninə zərxara, ipək geymisən,
Gözü qamaşan var kindən, həsəddən.

5674 İndi sən bəyinə bəxş elə ad-san,
Düşməni baş əysin, yansın acıqdan.

5675 Çatmasan nemətə, əhdə yetmisən,
Maşallah, üçyaşar buğa gibisən.

5676 Bu gücü sərf elə bəy xidmətinə,
Dua-sənə düşsün qoy qismətinə.

5677 Köhlən, ərəbi at, arğumak mindin,
Var-dövlət yığmısan, dünya sənindi.

5678 İndi get işə sal əzəmətini,
Bəy də qanadlansın, alsın əhdini.

5679 Bir az rahatlanıb çıxsın taxtına,
Düşməni baş əysin günəş baxtına.

5680 Əl verdi, dil verdi, göz verdi sənə,
Sən də onun üçün kara gəlsənə!

5681 Açsın duaları bəxtinə ağ yol,
Bir az da dövlətli, əzəmətli ol!

5682 Yaxşılıq rəmzidir əsil kililər,
Adı ölməz qalar, düşməni ölər.

5683 Ariflər bu sözü yaxşı demişlər:
İdraka yol açar əsil kişilər.

5684 Kişini tanıdır kişi xilqəti,
Xilqəti necəsə odur surəti.

5685 Qılığı şahiddir kim olduğuna,
Feli ayna tutur həmişə ona.

5686 Elbaşı felini dəyişsə əgər,
Ona göstəriş ver, düz yolu göstər.

5687 Bəydir bayraqdarı hər yaxşılığın,
Özünü kənarda tutmaqdan sakın!

5688 İndi ki, gəlmisən gənəşmək üçün,
Qəlbimdə nə varsa açıram bugün.

5689 Hər şey aydın olar görsən cövhəri,
Özün bilənləri, mən deyənləri.

5690 Ögdülmüş şad oldu: – Əziz qardaşım,
Kişilər başısan, ucaldı başım.

5691 Gözəl sözlər dedin, açıldı dügün,
Heç bilsən nə qədər xoşbəxtəm bu gün.

5692 Qalxdı qarşımdakı qaranlıq pərdə,
Canım da qurbandır sən gibi mərdə.

5693 Qalmadı könlümdə bir dilək-arzu,
Mənə dayaq olsun Tanrının özü.

5694 Səni də, məni də Allah saxlasın,
Felim dürüst olsun, xilqətim aydın.

5695 Dua-səna ilə yardım ver mənə,
Gənəşdin, əməl et öyüdlərimə.

5696 Bitirdi sözünü, qalxdı ayağa,
Mindi köhlənini – əlvida, qağa.

5697 Çatdı mənzilinə, halı, keyfi saz,
Süfrədən ayrıldı, dincəldi bir az.

5698 Göy çatdı qaşını, gizlətdi günü,
Gizlətdi bayaqkı nur gündüzünü.

5699 Zülmət saçlarını yaydı dörd yana,
Qərq oldu gecənin qaranlığına.

5700 Yorğan-döşək açıb dincəldi bir az,
Şirin yuxulardan ürək usanmaz.



5701 Oyandı, başqa bir aləmə girdi,
Gülən bir qız gibi göy diş göstərdi.

5702 Günəş baş qaldırdı, saçdı ağ nabat,
Ağ quşa bənzədi sonsuz kainat.

5703 Eşq ilə səsləndi səhər namazı,
Halal bir yeməkdən dad aldı ağzı.

5704 Mindi köhlənini, qəsrə yönəldi,
Elbaşı əyləşən otağa gəldi.

5705 Özğurmuşu sordu Elbaşı ondan,
Sağmı, salamatmı o müdrik insan.

5706 Məni yad edirmi dualarında,
Dua səslənəndə əfv edir Xuda.

5707 İnsan dua ilə səadət tapır,
Açılır cənnətə bir qızıl qapı.

5708 Dualar yol açsa göyün qəlbinə,
Yaman batıb gedər yerin dibinə.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

5709 Ögdülmüş söylədi: – Əminəm, əmin,
Dürüst sözlər dedin, elmə güvəndin.

5710 Anır dualarla qardaşım bizi,
Haqdan soraqlayır hər ikimizi.

5711 Unutmuş özünü mükəddər qoca,
Qalmış yarı canı yanımızdaca.

5712 Günaha batan biz, dua qılan o,
Qəflətdə qalmışız. Qəflət lədur, lo!

5713 Kosmir bəyə dair dualarını,
Bağrında hiss edir bizim ağrını.

5714 Ondan mehribanı cahanda varmı,
Atıb öz dərdini bizə yanmırmı?

5715 Elbaşı, varmı heç bizim tək qafil,
Tamam hədər keçdi günlər elə bil.

5716 Nemətlər içində itib də batdıq,
Cismi oyaq qoyub özümüz yatdıq.

5717 Qurd, ilan yeyəcək cism ilə canı,
Ölümdən dünyada qurtuluş hanı?
5718 Dinlə, idrak əhli nə söyləmiş, nə –
Çıraqdır gözünə, əzbərləsənə:
5719 Sən kimsən aləmdə – ötəri mehman,
Qurdun, ilanındır əvvəl-axır can.
5720 Xoş bir yuxu gibi ömür-gün ötər,
Şahiddir sözümə sovuşan günlər.
5721 Elbaşı soruşdu halı, əhvalı,
Nə cür oturmalı, nə cür durmalı.
5722 Mənim səndən savay mehribanım yox,
Sənə inanıram özümdən də çox.
5723 İşim çöldə qalıb, özüm evdəyəm,
Qafillik içində çoxmu çəkim qəm?
5724 Qulağımsan, eşit, gözlərimsən, gör,
Dərdə bir çarə qıl, gözləmir ömür.
5725 Məndən kömək umsan, verərəm kömək,
Ömrə mənə verən iş görək gərək.
5726 Öyrənək, əsgərlər davransın necə,
Nasıl yol açmalı qəmdən sevincə.
5727 Nasıl cilovlayaq zülmkarları,
Şər batsın, alimlər qalxsın yuxarı.
5728 Çiçəklənsin ölkə, zənginləşsin el,
– Şükür, ey Yaradan, şükür! – desin dil.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

5729 Ögdülmüş söylədi: – Ey mərdlərə baş,
Tanrım qüdrət versin, zirvələrdən aş.
5730 Tanrım qüdrət versin... baş vur dərinə,
Çatasan ən gözəl diləklərinə.
5731 Qovuş səadətə, bəxtiyar yaşa,
Ağrı mənə gəlsin, sənə yox, haşa!
5732 Canım sənə fəda, ey ulu başçı,
Sənsən təxtimizin tacı, gültacı.



5733 Səndən bir diləkçəm, umacağım var:
Azca səbrli ol, verirkən qərar.
5734 Kimi yaxın tutsa, bilirsən ki bəy,
Qırır qeybətini paxıl adamlar.
5735 Yəqin ki, tökərsən qaş-qabağını,
Girsə aramıza xəbis, fitnəkar.
5736 Dinlə, gör nə söylər bahadır bir ər,
Müdrik nəsihətlər qalır yadigar.
5737 Adam ətə bənzər, iylənməsin ət,
Gərək qoruyasan, ey zövqü bahar.
5738 Aqil hökmdar da bəzən sarsılar,
Saxtakar saxtanı car çəkəndə, car.
5739 Bəy qalır təəccüb, heyrət içində,
Qeybətçi geybəti edirkən şüar.
5740 Cism, can bir quldur, könlümüzsə bəy,
Könül bəzən yanar, bəzən soyuyar.
5741 Dördü də düşməndir biri-birinə,
Bir insan könlünün dörd əhvalı var.
5742 Biri ahəstədir, biri tələsən,
Biri gülmək istər, biri qan ağlar.
5743 Şadlıq istəyənə rast gələr kədər,
Kədər rədd olanda, sevinc oyanar.
5744 Xəcalət çəkərəm, əziz Elbaşı,
Sən bahar istərkən, yağsa boran, qar.
5745 Məndən inciyərsən, girsə ortaya,
Zəhər damızdırsa ağzı zəhrimar.
5746 Diləkçəm budur ki, özümdən soruş,
Məni gözdən salma, coşsa gözü dar.
5747 Hər şeyin dibinə, məğzinə var sən,
Yalnız dəqiqlikdən ədalət doğar.
5748 Fitnəkar alçağı, əlbəttə dinlə,
Ancaq mahiyyəti aşkar et, aşkar.
5749 Arif gör nə demiş: yalanı dinlə,
Fəqət ürəyində yer vermə zinhar.
5750 Safdır, müqəddəsdir atalar sözü,
Dinlə, gör nə demiş müdrik atalar:

5751 Gərəkli sözləri saxla yadında,
Gərəksiz sözlərdən yaxanı qurtar.

5752 Doğrunu yalandan ayırd edə bil,
Doğru sənin olsun, yalan tarimar.

5753 Əyri əhval pozur, qaraldır qanı,
Yalnız düzləri tut, ey mərd hökmdar!

## ELBAŞININ ÖGDÜLMÜŞƏ CAVABI

5754 Elbaşı söylədi: – Ey adı yüksək,
Çatmısan əhdinə istədiyin tək.

5755 Sənə Tanrım verib insaniyyəti,
Dilin düz, felin pak, özün əbədi.

5756 El ziyan görübmü sənin işindən?
Halallıq əmmisən ana döşündən.

5757 Sənə çamur atan nakəsləri mən,
Sayaram aləmdə ən yava düşmən.

5758 Fitnəkar felinə uyarammı heç?
Ton-ton danışsalar, sayaram bir heç.

5759 Ola bilərmi ki, el başçısı mən,
Fərq edə bilməyim yaxşını pisdən?

5760 Yaxşını yamandan ayırmayanlar,
Adlana bilərmi məgər hökmdar?

5761 Sınanmış kişini bir də sınayan,
Məgər sayılmazmı cahil, ya nadan?

5762 Qanunlar verənə bəy deyərmisən,
Ayıra bilməsə düzü əyridən?

5763 Bütün müşkülləri həll edən insan,
Sən töhfə gəlmisən mənə Tanrıdan.

5764 Duz-çörək haqqını çoxdan vermisən,
Sədaqət əhlisən, vəfana əhsən.

5765 Məndən sənə layiq bir cavab gərək,
Yaşa, bəhrəmənd ol, ey şəni yüksək!

5766 Eşit nə söyləmiş adamlar xası,
Düzlükdən yaranmış onun avazı.



5767 De kimdir aləmdə adamlara baş,
O kəs ki, yaranıb insana qardaş.

5768 İnsana cavabdır insaniyyətin,
Adın buna görə verilmiş yəqin.

5769 Ögdülmüş söylədi: – Bizim Elbaşı,
Çatsın səadətə ellə yanaşı.

5770 Haqq sənə bəxş etsin iki aləmi,
Gülsün arzuların axar su kimi.

5771 Səpsin qədəminə fələk güldəstə,
Dövran dövr eləsin muradın üstə.

5772 Ey dili, feli düz, gözü-könlü şad,
Daim sağ-salamat, bəxtiyar yaşa!

5773 Hər nə vermişəmsə halaldır sənə –
Sərvət yeyim-geyim, hörmət, kaşanə.

5774 Xidmət kəmərini bərk bağlamışam,
Tanrım işıq versin, ey çıraq, ey şam.

5775 Ögdülmüş söylədi: – Xoşbəxt Elbaşı,
Səni unutmadı Tanrım, nə yaxşı.

5776 Tanrım özü verdi sənə səadət,
Yaraşır adına mərdlik, ləyaqət.

5777 Bəylik-hökmranlıq etmək istəsən,
Dörd böyük qaynaqdan qüvvət istə sən.

5778 Birinci budur ki, dilin düz olsun,
İkinci – səadət gətirsin qanun.

5779 Üçüncü – açılsın səxavət əlin,
Mehrü şəfqətindən güc alsın əlin.

5780 Dördüncü – qəhrəman, mərd olmalısan,
Düşmənin boynunu sındırmalısan.

5781 Bu dörd mühüm işi bacarmasa bəy,
Xalqın arasına rəxnə düşəcək.

5782 Bunlardır bəyliyin özəyi, məğzi,
Özəyi olmasa dayanar nəbzi.

5783 Sən çıxma yolundan, haqq yolundasan,
Bu yolla yürümüş ən ulu karvan.

5784 Bu yoldan sapanlar, tapmaz səadət,
Dağıdar bəyliyi qəflət, fəlakət.

5785 Elbaşı, əzizlə sən üç tayfanı,
Deyim bircə-bircə, onları tanı.
5786 Birinci – igidlər, atıcılardır,
Onlar ön cəbhədə mergən adlanır.
5787 İkinci – alimlər, el başçıları,
Onlardır ölkənin barı, baharı.
5788 Üçüncü – Sərkatib adlanan sayar,
Gəliri, çıxarı dürüst hesablar.
5789 Sən ayır bunları başqalarından,
Əzizlə, ənam ver, ehsan ver müdam.
5790 Onda yurd boy atar, el zənginləşər,
Nizam-intizam da yoluna düşər.
5791 Ad-sanın, hörmətin artar dəmbədəm,
Üzünü görməyə can atar aləm.
5792 Eşit, gör nə deyib bir xalq ozanı:
Adam ölsə belə ölməz ad-sanı.
5793 Şan-şərəf deyilmi getsən də özün,
Qala bu dünyada söhbətin-sözün.
5794 Qoymuşsa aləmdə yaxşı bir ad-san,
Yerdə yatsa belə yaşayır insan.
5795 Ölməzlik istəmə, ölməz ad istə,
Həyatın fövqündə bir həyat istə.
5796 Yaxşı ad-san hara, sürünmək hara,
Biri ərşə gedir, biri məzara.
5797 Sən daim dirisən yaxşılıq etsən,
Dirisən, yaxşılıq ardınca getsən.
5798 Ölməyir, yaşayır feli yaxşılar,
Feli yamanların məgər naxşı var?
5799 Ölmür yaxşı xilqət min il ötsə də,
Ömür-gün bitsə də, həyat itsə də.
5800 Qalan yaxşılıqlar, ömür-gün, xülya,
Gör vəfa qılıbmı kiməsə dünya?
5801 Bu gidi dünyanın olma heyranı,
Vaxtın qədrini bil, gözün qurbanı.
5802 Dünyanın işləri oyun gibidir,
Tutsan ayağını, baş əldən gedir.



5803 Qatılma oyuna, ayıl, ey xumar,
Qatılsan oyuna yolun bağlanar.
5804 Gör nə dürüst deyib kitab yazarı,
Ən gözəl əşarı unutma barı!"
5805 Dünyanın işləri oyundur, oyun,
Sakın, udar səni bu qara çovğun.
5806 Mərd ol, bəndəlik et, haqq əmrini tut,
Nə göy fərmanını, nə yeri unut.
5807 Budur, açıq dedim bildiklərimi,
Çölüm, içim bəlli sənə gün kimi.
5808 Çatarsan əhdinə, sözümü tutsan,
Mənə inanmasan məhv olacaqsan.

## ELBAŞININ ÖGDÜLMÜŞƏ CAVABI

5809 Elbanı söylədi: – Ey mənə həmdəm,
Tanrıdan bu işə yardım diləröm.
5810 Tanrı qüdrətlidir, rəhm edər quzum,
Hər nə qaranlıqsa işıq sal özün,
5811 Nəzər sal hər işə, axar-baxar ol,
Gözdən, əldən iti, özün hüşyar ol!
5812 Mənə usburd olma, özün gör işi,
Yardımçın olaram, görsən zor işi.
5813 Bitirdi sözünü, susdu hökmran,
Ögdülmüş ahəstə çıxdı otaqdan.
5814 Mindi köhlənini, evə qayıtdı,
"Dincəlin" deyibən soyundu yatdı.
5815 Dan üzü yenə də oyandı erkən,
Saraya üz qoydu, altında köhlən.
5816 Qətiyyət göstərdli o gündən bəri,
Saldı öz yoluna bütün işləri.
5817 Çiçəkləndi ölkə, nəfəs dərdi el,
Coşdu Elbaşının sevinci sel-sel.
5818 Şəninə min dua, alqış ucaldı,
Adı ürəklərdə əbədi qaldı.

5819 Nə qədər gözəldir qanunlar, qağa,
Bəylik qanun üstə qalxır ayağa.

5820 Bəylik bu cür olsa başçı, bayraqdar,
El yaşar firavan, azad, bəxtiyar.

5821 İtaət göstərsə düz xilqətli el,
Günəşi həmişə bəylik üstə bil.

5822 Bəyə bəylik verən haqqın hökmüdür,
Bəyi yaxşı olsa el də gün görür.

5823 Bəy də yaman olar, el yaman olsa,
Yurd batar, aranı yamanlıq alsa.

5824 Bəy də haqqa gələr, haqqa gəlsə el,
Dirçələr məmləkət, ölər fitnə-fel.

5825 Keçdi bu minvalla həftələr, aylar,
Ölkə abad oldu, xalq da bəxtiyar.

5826 Toz-duman əridi, soyuqluq getdi,
Bulanan duruldu, əkilən bitdi.

5827 Elbaşı qaldırdı əl asimana,
Min-min şükür dedi ulu Yəzdana.

## OZĞURMUŞ XƏSTƏLƏNİR, ÖGDÜLMÜŞÜ ÇAĞIRIR

5828 Yananda göylərin qızıl çırağı,
Ögdülmüş istədi açsın yatağı.

5829 Darvaza döyüldü, səs qopdu bərkdən,
Hökərə səsləndi: Gör kimdir gələn?

5830 – Kimsə bir kişidir, sözüm var – deyir,
Sizi icazəylə görmək istəyir.

5831 – Get, gör nə istəyir? Kimdir, nəçidir?
Nədir umacağı desin, görək bir.

5832 Oğlan bir də çıxdı, soruşdu təkrar:
– Hayandan gəlmisən, nə məqsədin var?

5833 Ozğurmuş göndərib, kömək istərəm,
Onun qardaşını görmək istərəm.

5834 – Buyur, gəl!
Müsafir içəri girdi.
Hər nə deyilmişdi dilə gətirdi.



5835 Ögdülmüş hörmətlə qalxdı ayağa,
– Salam! – Yer göstərdi gələn qonağa.

5836 Bizi dost bilirsən, rəyinə əhsən,
Əhdin, arzun nədir, hardan gəlirsən?

5837 Ozğurmuş göndərdi yanına məni,
Görüşmək istəyir, çağırır səni.

5838 Xarabdır əhvalı, ağır xəstədir,
Baş çək... göz açanda səni istədi.

5839 Bərabər gedərik, hər şey edərik.
Məndən sir gizləmə, ey dərdə şərik.

5840 – Yamandır əhvalı, tutub başını,
Ölüm hədələyir qarındaşını.

5841 Mən əvvəlcə gedim, sən ardımca gəl,
Bu da təsəllidir, ey feli gözəl.

5842 Getdi... elə bil ki, uçan xəyaldı,
Ögdülmüş əlləri qoynunda qaldı.

5843 Ələmlə, kədərlə doldu gözləri,
Qayğılar içində qayıtdı geri.

5844 Yatağa girsə də yata bilmədi,
Çökdü gözlərinə gecə zülməti.

5845 Dağıldı xəyalı, yuxusu qaçdı,
Gözünü qəm yumdu, dərd-ələm açdı.

5846 Sapsarı dan yeri qızaran zaman,
Əyləşdi yerində dalğın, nigaran.

5847 Gülşəndən gələndə bülbülün səsi,
Coşdu sevənlərin eşqi, həvəsi.

5848 Yəhər incitdimi köhlən belini,
Baş çəkdi xəstəyə, öpdü əlini.

5849 Soyunub atdığı geyimi üstə,
Başında papağı yatırdı xəstə.

5850 Axdı Ögdülmüşün isti göz yaşı,
– Axı nolub sənə, əziz qardaşım?

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ CAVABI

5851 – Qardaş, yol gedirəm, ölümə sarı,
Ölüm elçi seçir dərdi, azarı.

5852 Dedim! Son nəfəsdə görüm üzünü,
Sənə zəhmət verdim günün bu günü.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

5853 – Mənim canım-gözüm, qapılma hissə,
Dərd də, xəstəlik də yoldaşdır bizə.

5854 – Dərd, azar nədir ki? Kəfarətimiz,
Dərd çəkib yuyuruq günahları biz.

5855 Qəm yemə, sən eşit alim sözünü,
Elmdir söyləyən sözün düzünü.

5856 Dərd sənə verilib kəfarət üçün.
Bütün saçlarını yuyur dağ-düyün.

5857 İnan, baş yastığa yetdiyi zaman,
İnsan təmizlənir günahlarından.

5858 Hər kəs azmı-çoxmu batır günaha,
Günahsız kişilər seyrəkdir daha.

5859 Xəstəlik gedəcək, sağalacaqsan,
Bütün günahlardan pak olacaqsan.

5860 Harda ölüm fikri gəldi başına?
Könlünü şax saxla, boş-boş danışma!

## OZĞURMUŞUN ÖGDÜLMÜŞƏ CAVABI

5861 – Ölüm pəncəsi var bu gün yaxamda,
Rəbbim özü dedi mənə yuxumda.

5862 Yuxuda hər şeyi əyan etdilər,
Ölüm vaxtını da bəyan etdilər.

5863 Yaxşını, yamanı nəqş edən Tanrı,
Nə xub əsirgəmir bizdən əsrarı.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

5864 Ögdülmüş söylədi: – Ey feli doğru,
Fikrinin məğzi yox, gözünün nuru.



5865 Hər mərəz gələndə getsəydi bəndə,
Adam qalmazdı ki, bu yer üzündə.

5866 Baxma ki, işimiz dərddi, azardı,
Məgər hər mərəzin sonu məzardı?

5867 Adam yuxu görür bəzən yatanda,
Gərək düz yozasan yuxunu onda.

## ÖGDÜLMÜŞ OZĞURMUŞA YUXU YOZUMUNU BİLDİRİR

5868 Yuxu yozumunu gərək biləsən,
Elmdir, bu elmi bilənə əhsən!

5869 Cürbəcür yozulur bir yuxu bəzən,
Ayırd etməlisən, ey fikri rövşən.

5870 Yuxunu hər kəsdən sormazlar məncə,
Soruş elm əhlindən soruşma gecə.

5871 Gecənin, gündüzün öz yuxusu var,
Tamam başqa-başqa olur, yozumlar.

5872 Yuxu yozumunun elmi özgədir,
Fəhmi olanındır ən yaxşı təbir.

5873 Yuxunu yozma sən öz bildiyin tək,
Sakın, hər yetənə açmamaq gərək.

5874 Əsil yuxudurmu məgər hər yuxu?
Çoxdur yozumları, xəyaldır çoxu.

5875 Yuxunu yozarkən, arxalan elmə,
Tutuşdur, mənə ver, yoz kəlmə-kəlmə.

5876 Yozuma can atır yuxu görənlər,
Yoza bilməyənlər taparmı səmər?

5877 Dərya kamallılar nə demiş, dinlə,
Bacar, o incini tez gətir ələ:

5878 Yuxu yozum istər, onu yaxşı yoz,
Məğzini mənimsə, artıq nə var, poz.

5879 Yozma yamanlığa, ziyan görərsən,
Yaxşı mənə ara hər qismində sən.

5880 Yemək də, içmək də olur yuxuda,
Yuxudan nə fayda dadsızsa qida?

5881 Mövsüm ilə bağlı yuxular da var,
Baharda insanın iştahı artar.

5882 Yazda yuxu görən dəliqanlısa,
Yuxuda dünyası al qırmızısa,

5883 Demək, bədənində artıqdır qanı,
Gərək qan aldırsın bu dəliqanlı.

5884 Yay fəsli bağları bir xəzan görsə,
Sarı gül, zəfəran, ərğavan görsə.

5885 Olmasın səfrası, sarılığı çin,
Tərəngbin adlanan gülşirə içsin.

5886 Güz fəsli yuxuda orta yaşlı gənc,
Görsə dağ ya quyu, yaxud qara rəng,

5887 Şəhd içsin. beynini təmizləsin qoy,
Yoxsa cünun olar məhəbbətdən o.

5888 Qışda yuxu görən qoca, ya qarı,
Görsə qar, qasırğa, buz salxımları,

5889 Dərman, isti xörək qoy olsun yemi,
Yoxsa qüvvətlənər onun bəlğəmi.

5890 Qarışıq, dolaşıq yuxular da var,
Yozumu çətindir, əlləşmə naçar.

5891 Hər nə düşünürsə yuxuda görsə,
Onun yozumu yox, girməsin bəhsə.

5892 Şeytan azdırması yuxular da var,
Aqil oyandımı qalxıb yuyunar.

5893 Yalnız yuxusunda mərd işlər görən,
Adamdan mükəmməl yozum umma sən.

5894 Məqamın məqamdan fərqini bilmək,
Hər qismi yozmağa fərasət gərək.

5895 Görün nələr demiş el ağsaqqalı:
Hər kim yuxu görsə yozan tapmalı!

5896 Yuxunu yozma sən öz bildiyin tək,
Nə cür yozsan o cür gerçəkləşəcək.

5897 Yuxuda ağlamaq gülməkdi fələn,
Həyatda ağlayar yuxuda gülən.



5898 Yuxunun yozumu vahid, tək deyil,
Bunu yadda saxla, ey oqli kamil.

5899 Gədanın yuxusu, bəyin yuxusu,
Eyni cür yozulmaz, ey mənim quzum!

5900 Yuxuda çal-çağır, rəqs, oyun görsən,
Şübhələn artmazmı həyatda qüssən?

5901 Yuxuda ağlayan, ələm, qəm çəkən,
Coşğun sevinc tapır həyatda hökmən.

5902 Yozumlar da var ki, nur üstündən nur,
Faydası sənin yox, özgənin olur.

5903 Adamına baxır yuxu yozumu,
Yaxşıya doğru tut daim üzünü.

5904 Öylə yuxu var ki, bəy edər səni,
Yaxud taxtdan salar, zay edər səni.

5905 Bunların həpsini bilməli, qardaş,
Sonra aç yuxunu, yoz yavaş-yavaş.

5906 Gördüyün yuxunu açıb desənə,
Mən onu həll edib söylərəm sənə.

## OZĞURMUŞ ÖGDÜLMÜŞƏ YUXUSUNU DANIŞIR

5907 Ozğurmuş söylədi: – Mən deyim bir-bir,
Sən də qulaq asıb könlündə yer ver.

5908 Bir pilləkən gördüm – zordu olduqca,
Dik qoyulmuş idi, həm gen, həm uca.

5909 Saydım pillələri, qalxdım yuxarı,
Getdim axıracan eyvana sarı.

5910 Sonuncu pillədə gördüyüm qəssab,
Su uzatdı. İçdim. Su vermək savab.

5911 İçdim, havalanıb qol-qanad açdım,
Özüm də bilmirəm, ərşəmi uçdum!

## ÖGDÜLMÜŞ OZĞURMUŞUN YUXUSUNU NECƏ LAZIMSA ÖYLƏCƏ YOZUR

5912 Ögdülmüş söylədi: – Dinlə qadası,
Bu yaxşı yuxunun çoxdur faydası.

5913 Yozumda rədd eylə namünasibi,
Şərhin dürüst olsun öz könlün gibi.

5914 Xeyli dəyərlidir yuxuda uçmaq,
Əzəmət qazanmaq, qol-qanad açmaq.

5915 Demək bol olacaq varın-dövlətin,
Şöhrətin, hörmətin, abrın, ismətin.

5916 Bəxtin pillə-pillə yüksələcəkdir,
Adının üstünə ad gələcəkdir.

5917 Mənim bu fikrimə yaxşı dəlil var,
Dinlə, nə söyləmiş yuxu yozanlar:

5918 Yuxuda nərdivan yüksəlişdir... qalx,
Hörmətin rəmzidir pillə sanamaq.

5919 Pillə-pillə qalxan çatır hörmətə,
Bəxtə, səadətə, vara-dövlətə.

5920 Alıb su içmisən bəxtin əlindən,
Dirilik bulağı tanınısan əslən.

5921 Göylərə yüksəlib qalxdın yuxarı,
Demək hər əhdini verəcək Tanrı.

## OZĞURMUŞ HƏMƏN YUXUNUN BAŞQA YOZUMUNU VERİR

5922 Ozğurmuş dil açdı, bağrında bir ox:
– Yuxunun yozumu o cür deyil, yox!

5923 Yatıb bu yuxunu görsəydin özün,
Başqa cür olardı yozumun, sözün.

5924 Sənin istədiyin bu dünyadı, bil,
Bu dönya əlbəttə, o dünya deyil.

5925 Mənsə bu dünyadan qaçıb gedirəm,
Çəkdiyim bəladan qaçıb gedirəm.

5926 Sən dürüst yozmadın yuxumu, quzum,
Eşit gördüyümü mən özüm yozum.

5927 Uca bir pilləkən, nərdivan gördüm,
O, həyat deməkdir, ay ömrüm-günüm.

5928 Qalxdım nərdivanı son pilləyədək,
Demək, bitdi ömür, əlvida, demək.



5929 Sonuncu pillədə su verdi qəssab,
Suyu aldım içdim, bitdi haqq-hesab.

5930 Neçə atalını atasız qoyan,
Qəssab başkəsəndir, qəssab – gözoyan.

5931 Nə qədər abadı bərbad qılmış o,
Almış canımızı, şivən salmış o.

5932 Qabdan içdim suyu son damlayadək,
Dirilik suyudur, dedin, mübarək.

5933 Suyun yarısını içmiş olsaydım,
Bu cür düşünməyin olardı aydın.

5934 Ömrümün yarısı qalardı demək,
Mənsə içdim suyu son damlayadək.

5935 Deməli, əlvida, tükəndi ömrüm,
Bütün həyatımı yaşadım, gördüm.

5936 Bizə idrak əhli nə demiş, dinlə,
Alimdir danışan, qardaş, səninlə!

5937 İçsə yarısını yuxuda suyun,
Onun həyatını bitməmiş sayın.

5938 Suyu tamam içsə, demək iş bitib,
Qazın məzarını, dincəlsin qərib.

5939 Köçəri bir quşuq, can möhləti az,
Yuvadan uçdumu, bir də qayıtmaz.

5940 Ey mənim gözümün ağı-qarası,
Ərşə qalxmağımın budur mənası.

5941 Tanrı əyan etdi mənə bunları,
Gərək hazırlaşam, görəm məzarı.

5942 Yuxumun yozumu böylədir ancaq,
Sənin təbirinsə yamaqdır, yamaq.

5943 Təsəlli verirsən, mənə təsəlli,
Mənə ölüm bəlli, o dünya bəlli.

5944 Göz qoy, ey gözümün qarası, ağı:
Ölüm məzar-məzar qazır torpağı.

5945 Ölüm söküb-tökür haçandan bəri,
Yüz-yüz qəsrləri, imarətləri.

5946 Nə qədər sultanlar, xanlar, xaqanlar,
Ölüm caynağında olmuş tarimar.

5947 Dağıtdı nə qədər can olmuşları,
Qolu zorluları, məğrur başları.
5948 Min-min yeyib-içən, nəfəs alan var,
Yalnız ölüm üçün yaranmış onlar.
5949 Başqa bir qəflətdir məni yandıran,
Son gündə tövbəni unudur insan.
5950 Ölüm qaçılmazdır – bilsə də qafil,
Qəflət yuxusundan oyanan deyil.
5951 Ölüm haqq işidir, yox ona çara,
Günün necə keçər ölümdən sonra.
5952 Budur bircə arzum ulu Yəzdana:
İkinci ömrümü salsın sahmana.
5953 Nəsibim – qənaət, məşəqqət, zəhmət,
Gecəm gündüz gibi nurlandı fəqət.
5954 Var-dövlət yığmadım, sərvət görmədim,
Bomboş arzulara könül vermədim.
5955 Son günü düşündüm ilk gündən bəri,
Dedim: yüngülləşsin ömrün yükləri.
5956 Hikmət elm işığı, nəsihət verən,
Alim nə söyləmiş, qulaq as, öyrən:
5957 Yüngül et yükünü, düzəlt özünü,
Yolun çox incədir, düşün son günü.
5958 Çəkdiyin zilləti yadından çıxar,
Əcəldən incimə, işini qurtar.
5959 Mehriban qardaşım, yol üstəyəm mən,
Bilirəm ardımca sən gələcəksən.
5960 Bir ağız söz deyim, sözümü dinlə,
Unutma onları, mən ölsəm belə.
5961 Səndən ayrılmadım sağlığımda mən,
Sözüm ayrılmasın ölsəm də səndən.
5962 Özünü qəflətə, eyşə öyrətmə,
Yaramaz işlərin ardınca getmə.



## OZĞURMUŞ ÖGDÜLMÜGƏ ÖYÜD VERİR

5963 Buraxma əlindən düzlük yolunu,
Murad – düzlükdədir, unutma bunu.
5964 Bütün canlılara dost, mehriban ol,
Haqqa ibadətdir ən işıqlı yol.
5965 Aldığın az olsun, verdiyin ünvan.
Qəzəbli çağında təmkinlə davran.
5966 Unutma özünü, ömür tez ötür,
Unutma ölümü, get, tədarük gör.
5967 Bənd olma dünyaya... sevda yamandır.
Sən gəldi-gedərsən, dünya qalandır.
5968 Duy haqqın hökmünü, yük vursa daşı,
Xalqa səadət ver, ey başı daşlı.
5969 Dürüst ol, əməl et verdiyin sözə,
Yalançı şax baxa bilərmi üzə?
5970 Gülər üz, isti söz, mehriban rəftar,
Səni bu dünyada edər bəxtiyar.
5971 Süfrə aç, çörək ver, göstər səxavət,
Özgənin eybini faş etmə, gizlət.
5972 Cilovla nəfsini, boğ qəzəbini,
Əqlin əyri yoldan qaytarsın səni.
5973 Güdmə öz xeyrini, el xeyrini güd,
Yükü özün daşı, xalqı şən böyüt.
5974 Payla, ərmağan et var-dövlətini,
Xalqdan əsirgəmə səxavətini.
5975 Dinlə, gör nə demiş sayılan kişi,
Zəkası, idrakı bir ümman kişi:
5976 Kişilər başıdır xeyir verənlər,
Xoş üz göstərənlər, xoş üz görənlər.
5977 Kişini tanıdır iki fəzilət:
Biri mehribanlıq, biri səxavət.
5978 Görün zəka əhli nələr söyləmiş:
Zəkadan yaranır hər xeyirli iş.
5979 Kimdir bu dünyada səxavətli ər –
Canını xalq üçün fəda edənlər.

5980 Qızıl-gümüş saçmaq səxavət deyil,
Canın fədasıdır ən böyük dəlil.

5981 Varını bəxş elə xalqa su gibi,
Xalq səni istəsin öz oğlu gibi.

5982 İki şey gətirir dünyaya zinət!
Biri həya, ismət, biri var-dövlət.

5983 İsmətli, dövlətli yaşasan da sən,
Əcəlin çatanda ah çəkəcəksən.

5984 El xidmət göstərsə, bəy qanadlanar,
Üzəngi möhkəmsə atlı atlanar.

5985 Elin xidmətindən kam alan insan,
Çatırsan dövlətə... heyhat, qocasan.

5986 Özün köçərisən, ad-sanın qalan,
Bir gün gəlib çıxar divan-can alan.

5987 Saxlamaz köçəri nə ev, nə ordu,
Yolda bina qurmaz, özgədir yurdu.

5988 Qardaşım, özünü səfərdə bil sən,
Şadlanma, nə çıxar sevinməyindən?

5989 Dünya gəldi-gedər, can-uçan bir ox,
Bircə axır günü dürüst bilən yox.

5990 Ölüm başın üstə həmişə hazır,
Vaxt gəlir, qarmağı boğazındadır.

5991 Bu dünya – təamdır, ey yer adamı,
Kim yemiş sonacan həmən təamı?

5992 Nəfsini boğa bil, ey əhli-təmkin,
Lal eylə dilini, qiybətdən çəkin.

5993 Arif gör nə demiş, ver sözə diqqət,
Diqqət kəsilənlər çəkməz məşəqqət.

5994 Arzular bəsləmək şirin olsa da,
Ağzına verdiyi zəqqumdu sonda.

5995 Ucalan alçalar, yüksələn enər,
Yoxuşda eniş var, şəkərdə zəhər.

5996 Dünya gəl-gəl deyən bir qıza bənzər,
Ayıq ol, güldürər, sonra öldürər.

5997 Nə qədər abadı bərbad etmiş o,
Şadlış bəylərini naşad etmiş o.

5998 Əl verir, gül verir, bal verir sənə,
Uyma, bal altında zəhri görsənə.

5999 Dünən verdiyini sabah alacaq,
Hər nə cəm edibsə, dağıdır alçaq.

6000 Kimi güldürübsə ağladar zar-zar,
Gülşənlər yerində gözəllik qoyar.

6001 Feli cövrü-cəfa, xilqəti alçaq,
Nuru kəm, tüstüsü, dumanı dağ-dağ.

6002 Bəzənər, özünü göstərən dilbər,
Gəl desən, torpağa ayaq dirəyər.

6003 Şəkəri altında zəqqum, zəhrimar,
Vəfasız, cəfaçı, məkrli məkkar.

6004 Dinlə, nələr demiş idrak adamı,
Ey dövlət çırağı, ağ günlər şamı!

6005 Ötəri aləmə könül vermə, dur,
Dünya cəfaçıdır, ey ruhu məğrur!

6006 Dinlə, gör nə demiş sayılan kişi –
Biliyi, zəkası bir ümman kişi!

6007 Uyub vəfasına büdrəmə, ey pir,
Səadət ardınca fəlakət gəlir.

6008 Dövlət də, dünya da kölgəyə bənzər,
Dəyişir yerini tez-tez o əntər.

6009 Dinin dəyərlidir, dünya dəyərsiz,
Dini müqəddəs tut, ey elmi dəniz!

6010 Sevinmə, bu şənlik tələdir, tələ,
Yalnız haqqa tapın, ibadət eylə.

6011 Səni məst etməsin var-dövlət, qardaş,
Ayılsan dolacaq gözlərinə yaş.

6012 Nələr söyləməkdə Elbəyi, dinlə,
Zəkadır konuşan dinlə, səninlə!

6013 Hər kimi məst etsə sərvət, var-dövlət,
Qara yer altında ayılar əlbət.

6014 Sərvətdən məst olub, kim zayıllasa,
Çəkər əzabını yer altında da.
6015 Dövlət xumarlığı, var xumarlığı,
Şərab məstliyindən betərdi sakın!
6016 İçkidən məst olan yatar, ayılar,
Ayağa qalxdısa adam sayılar.
6017 Sərvət xumarından ümidini kəs,
Ölüm-silkəməsə ayıla bilməz.
6018 Bəysən bəy işi gör, qulsan qul işi,
Öz işinlə uğraş, ey yaxşı kişi.
6019 Səadət illəri çox çəkməz, inan,
Şan-şöhrət illəri çox çəkməz, inan.
6020 Min il yaşasan da bir gün ölürsən,
Torpağa qarışır, daşa dönürsən.
6021 Bu müdrik kəlama qəlbində yer ver,
Sənətkar nə deyir, sənət nə deyir:
6022 Dirilik suyundan tutsan piyalə,
Min bir səadətdən kam alsan belə.
6023 Gətirsən də ələ göy gümbəzini,
Bir gün yer qucacaq gül bənizini.
6024 Qardaş, nə gizlədim, açıq deyim qoy,
Yan-yana yaşayır matəm ilə toy.
6025 Sevdik bu dünyaya gələndən bəri,
Əlvan nemətləri, gül üzlüləri.
6026 Ey arzu, ey murad, yer-göy, əlvida,
Qapadı qapını vəfasız dünya.
6027 Haqdan ayrı salır bu dünya bizi,
Görə bilmiriz heç haqq işimizi.
6028 Min bir bəla görən idrak əhli var –
Qorxudan tərk edir aləmi onlar.
6029 Kahada yaşayır həyatı boyu,
Ruzusu – ot-ələf, qar, yağış suyu.
6030 Dağa, biyabana üz qoyanlar var –
Haqqın pənahına sığınır aclar.



6031 Yapraqla yaşınan, cındır geyənlər,
Qazır, yer şumlayar, axıdır qan-tər.
6032 Adam var-əl çəkir işdən, həvəsdən,
Nə yeyir, nə içir, nə yatır qəsdən.
6033 Mən bu cür görürəm mərdi, hüşyarı –
Qəflət yuxusundan oyanmışları.
6034 İndi təmkin göstər, dözümlü ol sən,
Dünya səninkidir, başçı özünsən.
6035 Zəka saç, nəfsinin boynunu sındır,
Zəka nişanəsi mərd olmağındır.
6036 Hissinə, nəfsinə əsir olanlar,
Daim məşəqqətə, zillətə düçar!
6037 Budur, mən ölürəm... sənə əlvida,
Səni də dünyada bəklər bu qayda.
6038 Yamana qaynayıb-qarışma əsla,
Hər iki aləmdə dilin qısalar.
6039 Əcəli çatmamış hazırlıq görən,
Kişi nələr demiş, sal yada, öyrən!
6040 Yamana aludə, ey əhli qürur,
Yamanın yediyi zəhrimar olur.
6041 Ey qollu-qanadlı həyat adamı,
Ölüm əldən alır ömrün dadını.
6042 "Mənəm-mənəm!" deyən, "məni sev!" deyən,
Hazırlaş ölümə, can gedir əldən.
6043 Ey dünya köləsi, acgöz, acgödən,
Ölümdən qurtula biləcəkmisən?
6044 Gedirəm, iki dərd könlümü sıxır:
Haqqa ibadətim əlimdən çıxır.
6045 Ağamın adı da mənimlə gedir –
Bu ölüm bağrımı çeynəyir, didir.
6046 Yumulsa gözlərin bu gün, ya sabah,
Sizin duanızdır son pənahım, ah!
6047 Dua qıl, unutma, qardaş, məni sən,
Şübhəsiz ardımca sən gələcəksən.

6048 Görürsən, necədir, mənim əhvalım,
Sənə ibrət olsun bugünkü halım.

6049 Ölürəm dərd ilə məşəqqət ilə,
Sənin müsibətin öndədir hələ.

6050 Bircə Allah bilir başqa bir yerdə,
Haçan görüşərik səninlə bir də.

6051 Dinlə, nələr demiş ölən bir kişi,
Ağlayıb başına döymək son işi!

6052 Bu çıraq gözlərim sönür get-gedə,
Əcəl əldən alır həlavəti də.

6053 İkicə yol qalır, mən ölən zaman,
Hansım seçərəm bu iki yoldan?

6054 Mehriban qardaşım, ölsəm, ağlama,
Dağlama bağrımı bir də, dağlama.

6055 Sındırma özünü, susmasın ağıl,
Yalnız təmkin göstər, yalnız dua qıl.

6056 Yaş töküb sıtqamaq əsla gərəkməz,
Döz tanrı hökmünə, kəs səsini, kəs.

6057 İndi qayıt evə, könlünü sıxma,
Ələmlə, kədərlə yollara çıxma.

6058 Gərəkli nə varsa, söylədim sənə,
Unutma sözümü, qoyma tez sönə.

6059 Məndən Elbaşıya salamlar yetir,
Sonuncu salamım, son diləyimdir.

## ÖGDÜLMÜŞÜN OZĞURMUŞA CAVABI

6060 Ögdülmüş söylədi: – Ey əziz bəndə,
Necə atıb gedim səni bu gündə?

6061 Ağır dərd içində çırpınan insan,
Rəvamı bu halda yalqız qalasan?

6062 Ozğurmuş söylədi: – Qəmdən uzaq ol,
Sən mənim dərdimi çəkmə, ay oğul.

6063 Ağamı yad etmək kafidir mənə,
Tanrım qanadını gərər üstümə.



6064 Kimi əziz tutsa, ucaltsa Yəzdan,
Əyilməz işləri, olmaz peşiman.

6065 Vaxtında mükəmməl iş görən kişi,
Necə təsvir edir görün gərdişi:

6066 Tanrı kimə versə yardım, inayət,
Hər iki aləmdə tapar səadət.

6067 Gəlib kimə çatsa Tanrının fəzli,
Hər iki dünyada ağ günü bəlli.

6068 Unutsa, tərk etsə Xuda hər kimi,
Gəbərir it gibi, canavar gibi.

6069 Məndən arxayın ol, varıb get, qardaş,
Gözündə görməyim bircə damla yaş.

6070 Qalxdı, Ozğurmuşu qucdu Ögdülmüş,
Axıtdı göz yaşı anası ölmüş.

6071 Qardaşı üz qoydu evinə sarı,
At çapdı, üzündə yaş damcıları.

6072 Evində başına dar oldu dünya,
Qaraldı kainat, qırıldı dünya.

6073 Dərd, ələm içində çırpınan insan,
Nə cür oturasan, nə cür durasan?

6074 İnsan fərəh tapır, çatsa murada,
Dərddən ağlayanda can gedir bada.

6075 Tapsa sevdiyini, şad olsa, gülsə,
Ayrılıq gələndə oyanar qüssə.

6076 Ötən xatirələr qucar boynunu,
Hicranın atəşi ağladar onu.

6077 Dünyada hicrandan əzablı nə var,
Dənizdən dərindir, ayrılıq, qubar.

6078 Sağlar ayrı düşər, bir də görüşər,
Arayıb-axtarıb birləşər bəşər.

6079 Ən yaman ayrılıq ölüm-itimdir,
Ölüm çərəsini tapan de kimdir?

6080 Bütün ayrılıqlar qısa, ya uzun,
Ölüm ayrılığı özgədir, quzum.

6081 Fikrimin dəlili bu beyti oxu:
Yamandır əbədi ayrılıq oxu.

6082 Dibsizdir ölümün verdiyi hicran,
Daimi zülmətdir açdığı yarğan.

6083 Sağ ikən yoldaşdır vüsal, ayrılıq,
Öldünmü vüsaldan danışmaq artıq.

6084 Yedimi, içdimi Ögdülmüş bir az,
Bir az yüngülləşdi qılınca namaz.

6085 Günəş yavaş-yavaş endi qüruba,
Qaraldı asiman, yatdı el-oba.

6086 Yatağa girsə də yata bilmədi,
Kədər oyaq qaldı... o dincəlmədi.

6087 Həyətə çıxdı ki, səngisin kədər,
Həbəş üzü kmi qaraydı göylər.

6088 Yenə evə döndü, girdi yatağa,
Və yatdı, bir daha qalxdı ayağa.

6089 Üzünü gizlətdi Rum gözəli Ay,
Aləm zəncisifət... buludlar lay-lay.

6090 Sübhün başlanğıcı, gecənin axrı,
Sürəyya ulduzu qalxıb yuxarı.

6091 Daldı uzaqlara, ənginliklərə,
Hanı bu zülmətdə bir nurlu zərrə?

6092 Azca mürgülədi, bir də oyandı,
Yaşılı göylərin ətəyi qandı.

6093 Gör necə yüksəlib şərqdən Müştəri,
Alıb dövrəsini alov dilləri.

6094 Yeddi qardaş ulduz – Yatıkan odur,
Yıldırıq ya Sirus, Ayğır saçır nur.

6095 Yerə baş əymədə Erəntiz – Cevza,
Günəş kimə bənzər – ən gözəl qıza.

6096 Yuyundu, darandı. Dilində nida,
Qovuşdu göylərə namaz qılanda.

6097 Altun rəngi alıb ağardı səma,
Alova bənzədi, parladı dünya.

6098 Əynində əvvəlki köhnə paltarı,
Ögdülmüş at sürdü saraya sarı.

6099 Çağırdı Elbaşı... təzim edərək,
Dayandı önündə pərişan, kövrək.

6100 Elbaşı gördü ki, qaralıb almaz,
Məyusdur Ögdülmüş, saralıb bir az.

6101 Necədir əhvalın, ey qərarlı mərd?
Qəmgin görünürsən, nədir bu halət?

6102 Bu gün əyib səni kədər şöləsi,
Nədir alnındakı qəm nişanəsi?

6103 Zəfəran sarısı çöküb çöhrənə,
Öz rəngini verib ya dünya sənə?

6104 Səndən ki səadət üz döndərməyib,
Dünya, tale sənə nələr verməyib?

6105 Fələk sənin üçün dövr eləməkdə,
Hələ Ayla Günəş, su da, külək də.

6106 Mən sənə qaş-qabaq göstərməmişəm,
Gülər sifətimi görmüsən hər dəm.

6107 Sənə kim göndərdi bu qəmi, dərdi,
Kimlər ürəyini qana döndərdi?

6108 Ey mənim əzizim, feli bərqərar,
Nədir varlığını üzən qayğılar?

6109 Sən çəksən dərd, ələm, möhnət, məşəqqət,
Mən necə taparam sevinc, səadət?

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

6110 Ögdülmüş söylədi, pisdir əhvalı,
Çünki qardaşının yamandır halı.

6111 – Getdim evlərinə. Ağır xəstədir,
Xəzana uğramış bir güldəstədir.

6112 Vaysındı Elbaşı, axdı göz yaşı,
– Təəssüf... odlandı bağrımın başı.

6113 Tanrı bağışlasın, əfv etsin onu,
İgidə yaraşmır torpağın qoynu.

6114 Necədir əhvalı? Nə cür qıymısan,
Evində tək qala xəstə bir insan?

6115 Kim baxır, kim verir xörək, ya çörək?
Xəstəyə pərəstar bir adam gərək.

6116 Yanında keşikçi qalmadın neçin,
Həyanı, hamisi olmadın neçin?

6117 Ögdülmüş söylədi: – Ey elmi dərya,
Dedim bu sözləri o zavallıya.

6118 Baxmadı sözümə. Qaytardı geri,
Gücüm çatmadı ki, olum supəri.

6119 Elbaşı anladı, dərk etdi dərdi,
Təziyə bildirdi, təsəlli verdi.

6120 Ögdülmüş, mətin ol, haqqa dua qıl,
Bütün müşküllərə açardır ağıl.

6121 Bizə kömək olsun böyük Yaradan,
Keçsin Ozğurmuşun günahlarından.

6122 Göylərin əlindən sevinc qapasan,
Oddan, cəhənnəmdən aman tapasan.

6123 Qapını qapıyıb yolu kəsmisən,
Xəstəni atmağa çox tələsmisən.

6124 Sənə böylə rəftar yaraşar məgər,
Bu cür addım atmaz zəkavətlilər.

6125 Səni kim qorxutdu, kim göstərdi zor,
Neçin yalqız qoydun xəstəni, ey nur?

6126 Tanrının hökmü bil sən bu cəzanı,
Göylər rəva gördü ona qəzanı.

6127 Neçin ağlayırsan, göz yaşını kəs,
Allaha xoş getməz, odlanma əbəs.

6128 Ucalan alçalır, doğulan ölür,
Yürüyən toxtayır... böylədir ömür.

6129 Səbr et, ibrət olsun sənə ölənlər,
Səbr et, qəndə dönsün yediyin zəhər.

6130 Gərək qaçmasınlar öyüddən onlar –
Öləni görənlər, diri qalanlar.



6131 Ölən nələr söylər! – Məndən ibrət al,
Tutacaq səni də sabah bu zaval.

6132 Buna uyğun gələn bir beyti oxu,
Müdrik kəlamlardan bir çələng toxu.

## ŞER

6133 Ölmüş səndən əvvəl adamlar min-min,
Sənin də böylədir axır qismətin.

6134 Mən qafil yaşadım, öldürdüm vaxtı,
Sən də zay olarsan, ey başım taxtı.

6135 Elbaşı dostundan bir daha sordu,
Nə cür Ozğurmuşu bu həyat yordu?

6136 Ögdülmüş danışdı gördüklərini,
Vəsiyyət vaxtını, ölüm yerini.

6137 Göstərdi gil qabı, əsasını da,
– Bunlar xatirədir ondan dünyada.

6138 Budur qardaşımdan mənə yadigar,
Əsada, gil qabda əl izləri var.

6139 Götürsə birini Elbaşı əgər,
Yəqin ki, mərhumun ruhu dincələr.

6140 – Ver! – dedi Elbaşı, aldı əsanı,
Mənə bəxt gətirsin ulduzlar sanı.

6141 Xatirə gil qabı sən özün götür,
Baxanda qağanın cəmalını gör.

6142 Ögdülmüş gil qabı götürdü, baxdı,
Həsrət gözlərindən göz yaşı axdı.

6143 Elbaşı söylədi: fikirləşək biz,
İbrətdir, örnəkdir gördüklərimiz.

6144 O, böylə yaşadı gidi dünyada,
Apara bilmədi bir əsanı da.

6145 İşə zəkavətlə yanaşan kişi,
Necə təsvir edir görün gərdişi!

6146 Sərvəti, dövləti başdan aşsa da,
Onu nə cür tutsan, öyləcə keçir.

6147 Dünyanın eybi çox, fəziləti bir,
Onu nə cür tutsan öylecə keçir.

6148 Öldünmü, sərvətin nə mənası var,
Onu yeyənlərdir yalnız bəxtiyar.

6149 Yediyi ağ arpa, geydiyi cındır,
Sərvətdən, nemətdən qaçdı o fağır.

6150 Yaşadı, dövlətə, vara uymadı,
Yeyib-içənlərə çöp də qoymadı.

6151 Ən ağır yükləri çiynindən atdı,
Zəhmətdən, möhnətdən tamam azaddı.

6152 Vaxtında iş gördü, qurtuldu qəmdən,
Bizsə baş açmırıq hələ sitəmdən.

6153 Elbaşı söylədi: – Zirək ol, zirək,
Bir az yüngülləşək, tələs, iş görək.

6154 Qalxıb addımladı saraya sarı,
Çəkildi evinə qəm tacidarı.

6155 Ögdülmüş neçə gün təziyə qıldı,
Qəm ötdü, çöhrəsi azca açıldı.

6156 Unutdu tədriclə dərdi, ələmi,
Yenə yedi, içdi, yondu qələmi.

6157 Xalqa başçı olan, elmə söykənən,
Kişi nələr demiş, fəhm qıl, öyrən!

## ŞER

6158 Əsir eyləsə də dərd, ələm səni,
Ağlayan güləcək, əmin ol, əmin.

6159 Dünyanın əzəli bir qaydası var:
Yamanın yerini yaxşılar tutar.

6160 Ögdülmüş çiynindən atdı dərd-qəmi,
Açıldı önündə xidmət aləmi.

6161 İşinə yollandı hər gün dan üzü,
Parlatdı ömrünü xidmət güzgüsü.

6162 Bir səhər Elbaşı çağırdı onu,
Soruşdu ölkənin, elin ruhunu.



6163 De görək necədir xalqın əhvalı,
İllər necə keçir, günlərin halı?

6164 Eşidən qulağım, görən gözümsən,
Qapı açmalısan hər müşkülə sən.

6165 Sənə üz verdi qəm, toxundu bəla,
Soyudun gündəlik işdən az qala.

## ÖGDÜLMÜŞÜN ELBAŞIYA CAVABI

6166 Ögdülmüş söylədi: – Artıb dualar,
Xalqın əhvalında bir yüngüllük var.

6167 Görmüsən, nə qədər alim, bilimdan,
Tapa bilməmişdir ruzu, güzəran.

6168 Sanki heç dünyaya gəlməmiş onlar,
Qara yer altında nakam yatanlar.

6169 Qəddini düzəltmək istəyənləri,
Torpak udub, yeyir haçandan bəri.

6170 Abad imarəti, ordunu, qəsri,
Tərk edib olmuşlar yerin əsiri.

6171 Yatırlar... səsləri, nəfəsləri yox,
Daha aşıb-daşan həvəsləri yox.

6172 Daşlara çırpılıb çaldıqları saz,
Yeməyə, geyməyə əlləri çatmaz.

6173 Təəssüf içində, qəmgin, mükəddər,
Dönüb torpak olmuş qaynar dilək lər.

6174 Tanrı bu günləri bəxş edib bizə,
Girlənmək yaraşar yalnız acizə.

6175 Tanrı qüdrət versin bu gündən bizə,
Sürək gəmimizi nurlu sahilə.

6176 Ögdülmüş qərq etdi onu alqışa,
– Alim bəy, xoşbəxt ol, yüz illər yaşa!

6177 Aləm dönər daşa, quruyar sənsiz.
Əslini, nəslini günəş görək biz.

6178 Tanrı qapı açsın hər bir arzuna,
Dönəsən nəslinin dan ulduzuna!

6179 Nə qədər mətləbin, kamın, əhdin var,
Dönüb bahar olsun, bahar, lalәzar.

6180 Sevinc, şadlıq içrə uzun ömür sür,
Bəxtinə səadət qoy bassın möhür.

6181 Sənin tək kişilər seyrəlib, heyhat,
Qara yerdə yatır min-min ulu zat.

6182 Tanrı böylə qurub dünya işini,
Çox da əzizləmir igid kişini.

6183 Ölmüş demək olmaz bu cür ərlərə,
Xeyirxah, qəhrəman, mərd rəhbərlərə.

6184 Sənin ölməyinlə, qalmağın eyni,
Çünki fəth etmisən xalq ürəyini.

6185 Günbəgün çoxalsın səni sevənlər,
Səni sevməyənlər olsun dərbədər.

6186 Yer öpdü, kəsildi sözün axarı,
At mindi, üz qoydu evinə sarı.

6187 Süfrədə duz-çörək... babat bir qida,
Dincəldi bir qədər öz otağında.

6188 Yenə sübh oyanıb başladı işə,
Məsləhət, nəzarət – gündəlik peşə.

6189 Könlünü, dilini pak saxlayan ər,
Oğruya, əyriyə yol verər məgər?

6190 Aləm çiçəkləndi, artdı dualar,
El-oba yaşadı azad, bəxtiyar.

6191 Mərdlər ölüb getdi, qaldı adları,
Ad-sandır yaşadan ölən zatları.

6192 Dünyaya bəzəkdir bu cür adamlar,
Huridir, mələkdir bu cür adamlar.

6193 İnsafmı onlara adam deyək biz?
Bəs onda bizlər kim, bizlər nəçiyiz?

6194 Bizə adam demək mümkünsə əgər,
Çatar səadətə, ağ günə, inan.

6195 Onların məğzini dərk edən insan,
Çatar səadətə, ağ günə, inan.



6196 Bilənlər bilir ki, ömür bir andır,
İnsan gəldi-gedər, dünya qalandır.

6197 Günlər əlindədir. Vermə fürsəti,
Haqqa ibadəti unutma qəti.

6198 Öyüd, ibrət dərsi deyilmi məgər,
Səndən əvvəlkilər ölüb getdilər.

6199 Qaldı qəsr, ordu, qaldı saraylar...
Bundan ibrət alan bir insanmı var?

6200 Nə cür qalaları, istehkamları,
Dağıtdı, şumladı ölüm axarı.

6201 Bağlar, gülüstanlar, kəndlər, şəhərlər,
Ölüm caynağına viran, dərbədər.

6202 Sənə nələr qalır, ordu, bağ, saray...
Nəsihət deyilmi bu miras, bu pay?

6203 Ordular sahibi cahangir hanı?
Qara yer altıdır axır məkanı.

6204 Hanı "dardı yerim!" deyən Elbaşı,
Zor gəldi, qan tökdü... hanı baş daşı?

6205 Hanı hökm edən məmləkətlərə?
İndi möhtac olub beş qarış yerə.

6206 Müsəlman qanını tökənlər hanı?
Məzar torpağıdır yeri, yorğanı.

6207 Hanı özgəsini incidən canlar,
İndi əzir onu daşlar, tikanlar.

6208 "Dünya mənim!" deyə vuruşanları,
Dünya saxladımı qoynunda barı?

6209 İpəyi, məxməri bəyənməyən ər,
Səni beşcə çörək bezə bükdülər.

6210 Hanı aləmləri qamarlayanlar,
Budur son qisməti – kiçik bir məzar!

6211 Bəli, böylədir dünyanın halı,
Bir sükut bəkləyir hər qeylü-qalı.

6212 Dincliyi – məşəqqət, sevinci – qayğı,
Qədri – qədirsizlik, şadlığı – qorxu.

6213 Çiyninə dağı da qoysalar, apar,
Məşəqqət gətirir dinclik sonralar.

6214 Ey dözüm qalası, səbrin övladı,
Dinlə, nələr deyir təlim ustadı:

## ŞER

6215 Ey nemət sahibi, nuş et şükr elə.
Ey zəhmət sahibi, əyil, səbr elə.

6216 Səbr etsən, zəhmətin dönər nemətə,
Şükr etsən, açarsan yol səadətə.

6217 Ey alim, bugünkü dövrə nəzər sal,
Gör necə zay oldu iş-əməl, amal.

6218 Alimlər, ariflər salındı gözdən,
Natiqlər lal oldu, lallar – gəvəzə.

6219 Artdı yaramazlar, azaldı mərdlər,
Ağız açmadılar, üz bürüdülər.

6220 Orucsuz, namazsız, allahsız gəda,
Zülmünü qaldırdı ala buluda.

6221 İçki içməyənlər xəsis sayıldı,
Fitnə-fəsad əhli-mərdlik övladı.

6222 Oruc-namaz əhli, müqəddəs adam,
Munafiq adlandı, ay mənim ağam.

6223 Haram basıb yedi halal əhlini,
Natəmiz təmizi, dinsizlik dini.

6224 Yalnız adı qalıb halalın adı,
Haram məmləkəti çapdı, taladı.

6225 Görünmür harama haram deyənlər,
Gedib, ərşə çıxıb halal yeyənlər.

6226 Bəs haçan dağılar bu qatı zülmət,
Salsın şöləsini, qopsun qiyamət.

6227 Könüllər pas atdı haram yeməkdən,
Hardan tapacaqsan halal çörək sən?

6228 Söz var – dağ bülluru, könül, göz nuru,
Bu şeri əzbərlə, ey fikri doğru:



## ŞER

6229 Könlüm paxır tutdu haram yeməkdən,
Min verst uzaq düşdüm elm öyrənməkdən.

6230 Zövqə əsir düşdüm, hissə uğradım,
Haqqa tapınmağa macal qalmadı.

6231 Dünya da, insan da özgələşdilər,
Dil ayrı. qəlb ayrı... uzaq düşdülər.

6232 Yalnız cəfa qıldı, köç etdi vəfa,
Sadiq adamları bir də kim tapa?

6233 Hanı bir kişi ki, arxalanasan,
Vəfalı biləsən. sadiq sanasan.

6234 Yaxın uzaqlaşdı, doğma yad oldu,
Söndü bəbəklərin sədaqət odu.

6235 Kiçikdə ədəb yox, böyükdə bilik.
Qabalıq şığıdı, itdi zəriflik.

6236 Rüşvət basdı-yedi eşqi, vicdanı,
Haqq üçün çalışan doğruçu hanı?

6237 Əmanət, nəsihət, vəfa, etibar...
Neçin yoxa çıxdı bu anlayışlar?

6238 Mürtədi, münkiri edib birtəhər,
Əmri məruf qılan igidi göstər.

6239 Sövdəgər ləğv etdi əmanətini,
Hünərmənd naşıya nəsihətini.

6240 Alim məsləhəti, qadın isməti,
Sanki atıb getdi bəşəriyyəti.

6241 Düzün şah taxtını tutdu əyrilik,
Bir Tanrı adamı tapa bilmirik.

6242 Qabaq camaat çox, məscidlər azdı,
İndi əksinə bil sən bu təzadı.

6243 Götür-qoy xoşlayan təcrübəli ər,
Dinlə, nələr demiş, ey bizə sərvər...

## ŞER

6245 Hanı bircə nəfər düzlük meyarı,
Bir Allah adamı, haqq tərəfdarı?

6246 Dünya alt-üst olub dağıldı tamam,
Hanı heyrətlənən bircə saf adam?
6247 Kafir təmin edib səadətini,
İslam bir-birinin yeyir ətini,
6248 Talan-tarac yıxır lüt müsəlmanı,
Halalı haramdan ayıran hanı?
6249 İncəlib üzülür Quranın səsi,
Fitnə-fəsad olub yurdun yiyəsi.
6250 Ürək daşa dönüb, dil zəqqum tozu,
Düzlükdən nişanə yalnız "düz" sözü.
6251 Oğul atasına atalıq edir,
Oğul bəy taxtında, ata kölədir.
6252 Sevinc qaçaq düşüb, acgözlük köpək,
Baş girləyən nə çox... yaşayan tək-tək.
6253 Acdır yetim-yesir, biganələr tox,
Aləm dağılanda, heyrətlənən yox.
6254 Qəlbi, əli-açıq, fazil bir kişi,
Necə təsvir edib görün gordişi:

## ŞER

6255 Nə aləm ayaqda, nə qanun-qayda,
Şər meydan sulayır, xeyir bucaqda.
6256 Məmləkət, el-oba qan ağlayır, qan,
İl ildən bəd gəlir, ay aydan yaman.
6257 Ata hörmətini atıb oğul-qız,
Qocalıqdan qorxur qocalarımız.
6258 Qanunlar, qaydalar saraldı, soldu,
Qarışdı qaraya, ağ da zay oldu.
6259 Bunlar qiyamətin nişanəsidir,
O böyük, şanlı gün tez gələsidir.
6260 Mədəd! Tanrı özü göstərsin əvsun –
Fitnədən, bəladan bizi qorusun.
6261 Dörd yüz altmış iki – bu şanlı ildə,
Yazdım bu kitabı, qələmim əldə.



6262 Bütün qüvvəsini sərf etdi kamal,
Sən də, mehriban dost, oxuyub kam al.
6263 Türlu-türlu olur, yollar yoruğlar,
Buyur, seç sənindir ixtiyar, qərar.
6264 Həm dünya yolu var, həm də din yolu.
Yolun avand olsun, işin uğurlu.
6265 Göstər kişi əzmi, ər qətiyyəti,
Ya bu dünyanı seç, ya axirəti.
6266 Üçüncü yol yoxdur, yadında saxla,
Bəndəlik istəsən, Tanrıya bağlan!
6267 İlahi, bu sözü mən başladım, mən,
Nədir arzum-əhdim, yaxşı bilirsən.
6268 Nə ad-san istədim, nə şan, nə şöhrət,
Yaxına, yada da umdum mənfəət.
6269 Bəsimdir, oxucum yad etsə məni,
Ansa dua ilə söz söyləyəni.
6270 Umudum da budur, istəyim də bu,
Məni dua ilə ansın oxucu.
6271 Dilim söz söylədi, əlimsə yazdı,
Dilin də, əlin də nəfəsi yazdı.
6272 Yazdığım kitabdır məndən yadigar,
Sonə kitab adlı ərmağanım var.
6273 Ey əziz oxucum, məni unutma,
Döşənsəm torpağa, çat imdadıma.
6274 Sən qəmsiz, əbədi, sən qüdrətlisən,
Şadlandır qulunu, əzminə əhsən!
6275 Əfv et suçlarımı özünsən ağam,
Ruhumu güldürsən, elə bil sağam.
6276 Ağamsan, qulunam. Qul adı quldur,
Fəzilət əhlisən, hökmüm uludur.
6277 Qulunam, ağamsan, ey məğrur qafur,
Məni əzizlə ki, günahım çoxdur.
6278 Şərqdən Qərbə qədər gəz başdan-başa.
Bütün möminləri əzizlə, əxşa.

6279 Acizəm, acizdən acizlik gələr,
Fəzilət əhlisən, ey ər oğlu ər!

6280 Reyhan ətri saçar gülşəndə reyhan,
Kim umar rayihə qara tikandan?

6281 Ey mənim umudum, pənahım, arxam,
Sənsiz nəyəm axı – susuz bir arxam.

6282 Günahkar qulunam, hər işim cəfa,
Vəfalı ağamsan, göstər də vəfa.

6283 Ağam, cəfakardan nə gələr? Cəfa,
Yalnız vəfalılar göstərir vəfa.

6284 Bütün möminləri oxşa, əzizlə,
Onların içindən məni də səslə.

6285 Yüz min salamımı peyğəmbərə sun,
Bizə yol göstərsin, tacımız olsun!

6286 Məndən dörd tərəfə salamlar söylə,
Ey mənim Allahım, ey hüsnü şölə!

## GƏNCLİYƏ ACIMA, QOCALIĞA DAİR

6287 Keçdi cavanlığım səyyar bulud tək,
Ömür-gün bəlkə də bir əsim külək.

6288 İzsiz igidliyim, ah çəkirəm mən,
Saxlaya bilmədim, uçdun əlimdən.

6289 Qayıt, gəl, ovcumda saxlaram səni,
İpəklə bəzərəm hər qədəmini.

6290 Hardasan, ey mənim muradım-əhdim,
Səni çox aradım, tapa bilmədim.

6291 Həyatımın məğzi, ömrümün canı,
Necə şirinsənmiş, əvəzin hanı?

6292 Gəncliyim, dincliyim, qanadım-qolum,
İtirdimmi səni, qurbanın olum!

6293 Ömür əldən çıxdı, hədər getdi can,
İndi bir fayda yox qocalığımdan.

6294 Sənə acıyıram, mərd igidliyim,
Getdin... səndə qaldı nəyim – hər şeyim.



6295 Ərğəvan kimiydi od yanaqlarım,
İndi zəfərandır rəngim-çalarım.

6296 Kafurmu çiləndi şəvə saçlara,
Bədrli ay hara, batan ay hara?

6297 Gülləri sayrışan bahardım, bahar,
Gəldi xəzan fəsli, söndü, laləzar.

6298 Ox kimi düppədüz, çinardı qəddim,
Yay kimi əyildim, nə tez əyildim.

6299 Ömür gəldi-keçdi hədər, uğursuz,
İndi qan-yaş tökür gözlərim, əfsus.

6300 Çıxdı, əldən çıxdı dəliqanlılıq,
Qocayam, gözlərim tor görür artıq.

6301 Yedim də, içdim də ac heyvan kimi,
Getdim eşq ardınca toz-duman kimi.

6302 Şikarda bənd oldum bir quş tutmağa,
Heyhat, öz köhlənim uçdu uzağa.

6303 Can kimi bəslədim dostu, yoldaşı,
Düşməni ürkütdüm fəqət mən naşı.

6304 Söymüşəm, döymüşəm, çəkmişəm dara,
Əbəs zülm etmişəm günahsızlara.

6305 Düşmən qarşısında gərib sinəmi,
Dönüb dayanmışam sal qaya kimi.

6306 Yatıb oyanmışam içənlər sayaq,
Azmışam, əfv elə, demişəm, ey Haqq!

6307 Dolaşıb aləmi hey səhər-axşam,
Haqqa ibadəti yadırğamışam.

6308 Ulayıb qudurmuş canavar kimi,
Dişimlə tutmuşam hər istəyimi.

6309 Çoxunu qeyzimlə söküb-didmişəm,
Alıb pullarını, əsir etmişəm.

6310 – Nəçin böylə yandın? – soruşsa Allah,
Məgər bir bəhanə taparammı, ah!

6311 Səfehdən, dəlidən fərqlənirəmmi?
Əlimdən vermişəm vaxt dürdanəmi.

6312 Məşəqqət də getdi, işrət də getdi,
Əfsuslar içində qalmışam indi.

6313 Fərz edək ki, mənəm ən böyük adam –
Xosrovam, Qeysərəm, Şəddadam, Adam.

6314 Nuh kimi keçirib öz gəncliyimi,
Tutmuşam aləmi İsgəndər kimi.

6315 İldırım qılınclı Heydər olmuşam,
Rüstəmtək aləmə səda salmışam.

6316 İsayam, əlimlə göy ələk-vələk,
Nizamlar verirəm, Nuşirəvantək.

6317 Harunam, nur saçır xəzinələrim,
Əshabi Rəstək dəmir şəhərim.

6318 Nə xeyri? Bunların hamsının sonu,
Nədir? Beş çərək ağ, bir məzar qoynu.

6319 Ərzə çıplaq gəldim, çıplaq gedirəm,
Bəs neçin isitdi məni bu aləm.

6320 Həyat vəfasızmış, ötdü yel kimi,
Mən ona bənd oldum bir qafil kimi.

6321 Məgər cavan ikən, imdada çatdım?
Gör hansı torpağa mən toxum atdım!

6322 Məsəl var, nə əksən, onu biçərsən,
Özümü döymüşəm, kimisə döysəm.

6323 Sovuşdu cavanlıq, gəldi qocalıq,
Tövbənin zamanı yetişib artıq.

6324 Yatma, ibadət qıl, suçlusan, ağla.
Oyan, səmaları bir də qucaqla.

6325 Qurd, ilan, qurbağa yemi olacaq,
Bədəni bəslədim neçin mən axmaq?

6326 Oyan, Haqqa tapın, ey uyğulu can,
Ağla, ağlamasan, əbədi yoxsan.

6327 Qocalıq yanımda, gəncliyim uzaq,
Barı indən belə haqq yolu tapaq.

6328 Qurd fələk çoxunu toruna saldı,
Neçin bu dünyaya bənd olub qaldım?



6329 Atma bir kənara məni, ey Rəbbim,
Ayılt, varlığımı pak elə, bilim.

6330 Sənsən, bircə sənsən əfv edən ağam,
Mənə mərhəmət qıl, axı yazığam.

## ZƏMANƏNİN POZULMASI, DOSTLARIN VERDİYİ CƏFA

6331 Gərək dünya boyu səyahət yapaq,
Vəfalı bircə mərd qalıbsa, tapaq.

6332 Tapaq, hardan tapaq ləyaqətlini?
Sonacan axtaraq sədaqətlini.

6333 Tapdım hər arzumu, tapmadım insan,
Üzünə doyunca baxaram, tapsam.

6334 Tamarzı qalmışıq, qəhətdir vəfa,
Dünya başdan-başa cəfakeş, cəfa,

6335 Gözümə sürtərəm, tapsam vəfalı,
Alaram çiynimə o gülcəmalı.

6336 Vəfalı tapmasam, yoqin ağlaram,
Ceyranla, cüyürlə ülfət bağlaram.

6337 Bəsimdir, əynimə bir dəri geysəm,
Suyum – yağış suyu, ot-ələf yesəm.

6338 Gəzim vəhşi kimi biyabanları,
O kəm insanları görməyim barı.

6339 Dünyanı tərk etmək – budur son dilək,
Yağışa dumana, toza çevrilək.

6340 Ağam, giriftaram vəfasızlara,
Canımı verərəm bir sadiq yara.

6341 Yalnız adı qaldı, kişinin adı,
Özünü haçandı görən olmadı.

6342 Hanı bir mehriban, candan od dərə,
Nə cür könül verim mehrsizlərə?

6343 Canım-gözüm qədər yaxın bildiyim,
Adam iblis imiş, kim inanar, kim?

6344 Hər kimi dünyada can-ciyər sandım,
Gəda olduğuna bir gün inandım.

6345 İnandım dilinə, təəccüblü iş:
Dil onun ağzında bir parça ətmiş.

6346 Bu yava dünyada dost gəzmək əbəs,
Bəs kimə inanım, kimi sevim bəs?

6347 Kimə verim könül? Pərtəm, yaman, pərt,
Dərdimi deməyə hanı bir həmdərd?

6348 Qohumdan-qardaşdan görmədim ülfət,
Doğmalar yad oldu, yadlar daha sərt.

6349 Bütövlük, sədaqət andı içənlər,
Andıma sadiqlər tapılmaz məgər?

6350 Duz-çörək, haqqını güdən kimdi, kim,
Gümüşə, gövhərə, zərə qərq edim.

6351 Sevincə, kədərə şəriklər hanı?
Verim varlığımı, alsın canımı.

6352 Qohum-qardaş içrə yoxmu bir oğul?
Onu bəy sanaram, özümü bir qul.

6353 Pərtəm bircə kişi tapmadığımdan,
Dərd başımdan basır, qəm ayağımdan.

6354 Gözəl adətləri tərk etsin, atsın,
Bəs onda xalq necə qaynayıb-artsın?

6355 Nələr söyləyirəm, Allah amandır,
Dəliyəm, ağlımmı başımdan çıxır?

6356 Bəlkə beynim şişib, bəlkə cünunam.
Bəlkə dərman içim, çoxmu yorğunam?

6357 Mənmi tərsavandam, yoxsa adamlar?
Bircə adam içrə növ-növ adam var.

6358 Hanı o mərdlər ki, gözdən itdilər,
Vəfa köhlənini qoyub getdilər.

6359 Heyif, xatirədir o əhd, o ilqar,
Onların qoyduğu qayda-qanunlar.

6360 Yaxşılar keçsinlər yuxarı başa,
Geri dönməsinlər alçaqlar, haşa!

6361 Hanı qayda-qanun, gözəl adətlər,
Getdilər, özüylə apardı mərdlər.



6362 Getdilər, sən demə mələkmiş onlar,
Bugünkü adamda adamlıqmı var?

6363 Getdilər... Mən qaldım kimin əlində –
Qeyzin, küdurətin, kinin əlində.

6364 Nə qədər söyləsəm, sözüm tükənməz,
Sus daha, ey könül, dediklərin bəs...

6365 Zamandır, tərk edək şəhəri, kəndi,
Həzər bu dünyadan. Səbrim tükəndi.

6366 İtək bu dünyadan, yox olaq, quzum,
Nə adım bilinsin, nə izim-tozum.

6367 Çibin xislətlilər, it sifətlilər,
İlantək çalanlar məgər əl çəkər?

6368 Nə qədər məşəqqət, dərd çəkmək olar?
Sevinsin alçaqlar, ağlaram zar-zar.

6369 Həzər, bu rəzillər məni əyməsin,
Bir cana bu qədər cəfa dəyməsin.

6370 İlahi, qismət et, üz göstərsinlər,
Dörd ulu kimsənə, əziz peyğəmbər.

## KİTAB SAHİBİ YUSİF ULU HACİB ÖZÜNƏ ÖYÜD VERİR

6371 Elm öyrən, yuxarı başdaca yer seç,
Elmin dağ qalası sarsılarmı heç?

6372 Elmsiz dil, könül qalar piyada,
Dirilik suyudur elm dünyada,

6373 Dəryaca bilsən də, elm öyrən yenə,
Biliklə çatarsan yalnız əhdinə.

6374 Bilikdən uzaqsan "bilirəm" desən,
Alimlər içində nadan kimisən.

6375 Sahili, dibi yox, ümmandır bilik,
Onu damla-damla nuş etməliyik.

6376 Bilik dünyasında başın aylanar,
Çox şeyi bilmirsən, bilməyi bacar.

6377 Özün öz içində böyüklük yarat,
Heyvan yox, adam ol, özün dada çat.

6378 Bilikli həmişə dalğın, pərişan,
Biliksiz, sevinci başından aşan.

6379 Alim zəncirlidir, nadan asudə,
Dözərmi zəncirə savadsız bəndə?

6380 Beyti beytə qoşdum mən sübhə kimi,
Elm üçün çirmədim biləklərimi.

6381 Mənim türkcə sözüm bir vəhşi ceyran,
Oxşadım, ram etdim... oldu mehriban.

6382 Sevdim, əzizlədim, qaçmadı məndən,
Bəs nədən yem versən hürkür də bəzən.

6383 Düşdüm söz dalınca hər gecə-gündüz,
Reyhan ətri verdi, durduq üzbəüz.

6384 Düz söz mənim üçün Tanrı, iman-din,
Düz söz nəfəsidir idrak əhlinin.

6385 Aydın sözlər seçdim işıqlı, böyük,
Oxucu çiyninə qoy düşməsin yük.

6386 Fərq et, düz söz hara, əyri söz hara?
Biri qar kimi ağ, biri qapqara.

6387 Gör neçənci ildə can qıydım sözə,
Dörd yüz altımış iki nur saçdı sizə.

6388 Yazdım bu kitabı on səkkiz aya,
Gül gülə sarıldı, misra misraya.

6389 Mən hekayə qıldım bildiklərimi,
Gül açdı reyhanlı bağçalar kimi.

6390 Nə qədər söyləsən, tükənərmi söz,
Axar bulaq kimi hey gecə-gündüz.

6391 Ey Yusif, kəsib at gərəksiz sözü,
Ziyandır, rədd elə ürəksiz sözü.

6392 Uzatma, çox sözün itər şirəsi,
Bezər bu çoxluqdan Allah bəndəsi.

6393 Vəfasız dünyanın cəfadı feli.
Ondan uzaq qaçar təfəkkür əhli.

6394 Sən isə dünyadan bərk yapışmısan,
Silkələn, yürüş yap, ayrıl da ondan.



6395 Güvənmə dünyaya, arxayın olma,
Yalnız Haqqa tapın, yalnız allaha!

6396 Vəfasız aləmdə qalırmı bəşər,
Gör azdı yolunu nə cür kişilər.

6397 İndi cilvələnir sənin önündə,
Bağlanma dünyaya birсə zərrə də.

6398 Dünyaları tutan bəylər getdilər,
Başqa bir aləmi məskən etdilər.

6399 Gənclik hədər getdi, günlərim izsiz,
Ömür tükənmədə... bəs neylədik biz?

6400 Min il yaşasan da ölümdür sonu,
Yığdığın sərvətdən yüksək bil onu.

6401 Umudum sənədir, ey ulu Tanrı,
Oyat yuxusundan mən günahkarı.

6402 Utanmaz qulunam, böyükdür suçum,
Yalnız səndən gəlir işığın ucu.

6403 Səndən gizlənmişəm, əfv eləsənə,
Bu gün yalvarıram, sığınıb sənə.

6404 Kədərli mənliyim, ey üzülən can,
Kimə güvənmisən də bu vaxtacan?

6405 Dürüst seç yolunu, əyləş bu yaşda,
Hər iki aləmdə yuxarı başda.

6406 Saxlanır qoynunda gülü-gülşəni –
Sevinci talanmış bu dünya məni.

6407 Nəfsini cilovla, dilini saxla,
Qapa qulağını, nə yat, nə yuxla.

6408 Bütün möminlərə, ey Rəbbim, yar ol,
Qucaqla boynunu, əzizlə bol-bol.

6409 Yüz min salam söylə bizdən ustada –
Ulu peyğəmbərə, çaharyara da.

6410 Heratda yaratdım bu kitabı bil,
Tarixi səkkiz yüz qırx üçüncü il.

6411 Yazdı türk dilində bir yazıq bəndə,
Məhərrəm ayında, qoyun ilində.

## KİTABIN İÇİNDƏKİLƏR

Dövlətçilik haqqında, böyük kitabın poetik tərcüməsi haqqında söz *(Kamil Vəli Nərimanoğlu)* ... 3
İlk möhtəşəm abidəmiz *(Xəlil Rza Ulutürk)* ... 9
Mərhəmətli, mehriban Tanrının adı ilə ... 14
Fəsillər sadalığı: ... 20
Mərhəmətli, mehriban Tanrının adı ilə ... 22
Peyğəmbər Əleyhissəlamın fəzilətləri ... 24
Peyğəmbər səhabələrinin, rizvanallahi əleyhim fəzlləri ... 25
Şövkətli, zəfərli, mədədli, həqiqət və din dayağı Tavğaç ulu Buğra Qara xan əba Əli Həsən binni Arslan xan rəhmətullahi əleyhim şəninə ... 26
Yeddi səyyarə və on iki bürc ... 29
İnsanın qədri elmi ilə bilinir ... 30
Dilin fəziləti, faydası və zərəri üstünə ... 31
Kitab yazarı üzr istəyir ... 33
Yaxşılara qatılmaq ... 35
Elm, zəka – idrak fərqlərinin nəflərini bildirir ... 39
Kitaba ad verməyim və qocalığım ... 42
Gündoğdu Elbaşı üstünə söz ... 45
Aydoldu Gündoğdunun xidmətinə gəldiyini bildirir ... 48
Aydoldunun Elbaşı ilə görüşü ... 55
Aydoldu özü dövlət olduğunu bildirir ... 57
Aydoldu Elbaşıya dövlətin sifətlərini göstərir ... 59
Elbaşı Gündoğdu Aydolduya ədl sifətinin necə olduğunu bildirir ... 65
Aydoldunun Elbaşıya sorğusu ... 69
Elbaşının Aydolduya cavabı ... 70
Aydoldunun Elbaşıya sualı ... 71
Elbaşının Aydolduya cavabı ... 71
Aydoldunun Elbaşıya sualı ... 71
Elbaşının Aydolduya cavabı ... 71
Aydoldunun Elbaşıya sualı ... 72
Elbaşının Aydolduya cavabı ... 72
Aydoldunun Elbaşıya sualı ... 73
Elbaşının Aydolduya cavabı ... 74
Danışmaqmı yaxşıdır, yoxsa susmaq ... 77
Elbaşının Aydolduya sualı ... 78
Aydoldunun Elbaşıya cavabı ... 79
Elbaşının Aydolduya sualı ... 79
Aydoldunun Elbaşıya cavabı ... 80
Elbaşının Aydolduya sualı ... 80
Aydoldunun Elbaşıya cavabı ... 80
Elbaşının Aydolduya sualı ... 80
Aydoldunun Elbaşıya cavabı ... 80
Elbaşının Aydolduya sualı ... 81
Aydoldunun Elbaşıya cavabı ... 81
Elbaşının Aydolduya sualı ... 81
Aydoldunun Elbaşıya cavabı ... 81
Bəxtin və dövlətin vəfasızlığı ... 83
Elbaşıya Aydoldunun cavabı ... 85
Aydoldunun Elbaşıya cavabı ... 85
Aydoldu oğlu Ögdülmüşə öyüd verir ... 89
Aydoldunun Ögdülmüşə cavabı ... 92
Ögdülmüşün Aydolduya cavabı ... 92
Aydoldunun Ögdülmüşə cavabı ... 92
Ögdülmüşün Aydolduya cavabı ... 94
Aydoldu Ögdülmüşə öyüd verir ... 96
Aydoldu Elbaşıya öyüdnamə yazıb qoyduğunu bildirir ... 100
Xaqan Elbaşı Ögdülmüşə öyüd verir ... 111
Ögdülmüş Elbaşı xidmətinə girir ... 114
Elbaşının Ögdülmüşə sualı ... 117
Ögdülmüşün Elbaşıya cavabı ... 118
Elbaşının Ögdülmüşə sualı ... 118
Elbaşının Ögdülmüşə sualı ... 125
Ögdülmüşün Elbaşıya cavabı ... 125
Elbaşının Ögdülmüşə sualı ... 127
Ögdülmüşün Elbaşıya cavabı ... 128
Elbaşının Ögdülmüşə sualı ... 130
Ögdülmüşün Elbaşıya cavabı ... 131
Elbaşının Ögdülmüşə sualı ... 131
Ögdülmüşün Elbaşıya cavabı ... 132
Elbaşının Ögdülmüşə cavabı ... 132

Ögdülmüşün Elbaşıya cavabı ... 132
Ögdülmüşün Elbaşıya cavabı ... 133
Bəyliyə layiq bəy necə olmalıdır ... 133
Ögdülmüşün elbaşıya cavabı ... 133
Elbaşının Ögdülmüşə cavabı ... 134
Ögdülmüşün cavabı ... 135
Elbaşının Ögdülmüşə sualı ... 147
Bəy vəziri necə olmalıdır ... 148
Ordu başçısı necə olmalı ... 153
Hacib necə olmalıdır ... 162
Darvazaçı necə olmalıdır ... 167
Elçinin sifətləri ... 171
Katib necə olmalıdır ... 175
Xəzinəçi necə olmalıdır ... 179
Süfrə başçısı necə olmalıdır ... 184
Mey, şərbət başçısı necə olmalıdır ... 187
Xidmətçilərin haqq-sayı ... 191
Ögdülmüşün Elbaşıya cavabı ... 195
Elbaşının Ögdülmüşə sualı ... 199
Ögdülmüşün Elbaşıya cavabı ... 200
Elbaşının Ögdülmüşə sualı ... 201
Ögdülmüşün Elbaşıya cavabı ... 202
Ögdülmüşün Elbaşıya cavabı ... 203
Ögdülmüşün Elbaşıya cavabı ... 204
Elbaşının Ögdülmüşə cavabı ... 205
Elbaşı Gündoğdu məktub yazır ... 205
Elbaşının Ögdülmüşə oyüdü ... 207
Ögdülmüşün Ozğurmuşa cavabı ... 212
Ozğurmuş Ögdülmüş ilə danışır ... 212
Ozğurmuşun Ögdülmüşə cavabı ... 213
Ögdülmüşün Ozğurmuşa cavabı ... 215
Ozğurmuşun Ögdülmüşə cavabı ... 216
Ögdülmüşün Ozğurmuşa cavabı ... 217
Ozğurmuşun Ögdülmüşə cavabı ... 220
Ögdülmüşün Ozğurmuşa cavabı ... 220
Ögdülmüşün Ozğurmuşa cavabı ... 222
Ögdülmüşün Ozğurmuşa cavabı ... 222
Ozğurmuş dünya eyblərindən danışır ... 224
Ögdülmüşün Ozğurmuşa cavabı ... 231



Ozğurmuşun Ögdülmüşə cavabı ... 232
Əlcavab ... 234
Ögdülmüşün Ozğurmuşa cavabı ... 239
Ögdülmüşün şah Elbaşıya cavabı ... 241
Ögdülmüşün Elbaşıya cavabı ... 243
Elbaşının Ozğurmuşa məktubu ... 243
Ögdülmüşün Ozğurmuş ilə ikinci görüşü ... 247
Ozğurmuşun Ögdülmüşə cavabı ... 249
Ögdülmüşün Ozğurmuşa cavabı ... 250
Ögdülmüşün Ozğurmuşa sözü ... 251
Bəylərə xidmət nədən ibarətdir ... 251
Saraydakı ordu ilə söhbət bəhsi ... 258
Əlcavab ... 258
Qara kütlə ilə söhbət bəhsi ... 266
Ögdülmüşün Ozğurmuşa cavabı ... 267
Ögdülmüş Ozğurmuşa qara camaata qaynayıb-qarışmağı öyrədir ... 267
Ələvilər ilə müamilə ... 268
Alimlər ilə ülfət ... 268
Təbiblər ilə ülfət ... 269
Əfsunçular ilə ülfət ... 270
Yuxu yozumçuları ilə ülfət ... 270
Ulduzçular ilə ülfət ... 271
Şairlər ilə ülfət ... 272
Kəndçilər ilə ülfət ... 272
Sövdəgərlər ilə ülfət ... 273
Çarvadarlar ilə ülfət ... 274
Sənətkarlar ilə ülfət ... 275
Yoxsullar ilə davranış ... 276
Hansı xatınla evlənməli ... 277
Oğul-qız tərbiyəsi necə olmalıdır ... 278
Əl altındakı kimsələri yaxşı saxlamalı ... 280
Ozğurmuşun Ögdülmüşə sualı ... 282
Ögdülmüş süfrəyə dəvət, qonaq getmə qaydalarını öyrədir ... 283
Ögdülmüş Ozğurmuşa qonaqlığa dəvət qaydalarını öyrədir ... 287
Ozğurmuş Ögdülmüşə bu dünyadan üz döndərib o dünyaya bağlanmağı bildirir ... 289
Ögdülmüşün Ozğurmuşa cavabı ... 300
Ögdülmüşün Elbaşıya cavabı ... 301

Elbaşının Ögdülmüşə sualı ............ 303
Elbaşı Gündoğdu Ozğurmuşu üçüncü dəfə çağırır ............ 304
Ögdülmüşün Elbaşıya cavabı ............ 304
Ögdülmüşün Elbaşıya cavabı ............ 305
Ozğurmuşun Ögdülmüşə cavabı ............ 307
Ögdülmüşün Elbaşıya cavabı ............ 309
Ozğurmuşun Ögdülmüş evinə gəlişi ............ 309
Gündoğdu Ozğurmuş ilə görüşür ............ 310
Ozğurmuşun Elbaşıya cavabı ............ 310
Ozğurmuşun Elbaşıya cavabı ............ 311
Elbaşının Ozğurmuşa cavabı ............ 312
Elbaşının Ozğurmuşa cavabı ............ 313
Ozğurmuşun Elbaşıya cavabı ............ 314
Elbaşının Ozğurmuşa cavabı ............ 315
Ozğurmuşun Elbaşıya cavabı ............ 315
Ozğurmuş, Elbaşı Gündoğduya öyüd verir ............ 316
Ozğurmuşun Elbaşıya cavabı ............ 331
Ögdülmüş, Elbaşı Gündoğduya el-obanı dolandırmaq, adil siyasət yürütmək yollarını açıqlayır ............ 334
Elbaşının Ögdülmüşə cavabı ............ 336
Ögdülmüşün Elbaşıya cavabı ............ 336
Ögdülmüş ötən həyatına acıyıb tövbə etdiyini bildirir ............ 344
Ögdülmüşün Ozğurmuşa cavabı ............ 347
Ozğurmuş Ögdülmüşə sual verir ............ 349
Düzə-düz olmaq, insaniyyətə – insaniyyət göstərmək haqqın məsləhətidir ............ 351
Ögdülmüşün Elbaşıya cavabı ............ 355
Ögdülmüşün Elbaşıya cavabı ............ 356
Elbaşının Ogdülmüşə cavabı ............ 358
Elbaşının Ogdülmüşə cavabı ............ 361
Ozğurmuş xəstələnir, ögdülmüşü çağırır ............ 362
Ozğurmuşun Ogdülmüşə cavabı ............ 363
Ögdülmüşün Ozğurmuşa cavabı ............ 364
Ozğurmuşun Ogdülmüşə cavabı ............ 364
Ögdülmüşün Ozğurmuşa cavabı ............ 364
Ögdülmüş Ozğurmuşa yuxu yozumunu bildirir ............ 365
Ozğurmuş Ogdülmüşə yuxusunu danışır ............ 367
Ögdülmüş Ozğurmuşun yuxusunu necə lazımsa öylecə yozur.. 367
Ozğurmuş həmən yuxunun başqa yozumunu verir ............ 368



Ozğurmuş Ogdülmügə öyüd verir ............ 371
Ögdülmüşün Ozğurmuşa cavabı ............ 376
Ögdülmüşün Elbaşıya cavabı ............ 379
Şer ............ 381
Şer ............ 382
Ögdülmüşün Elbaşıya cavabı ............ 383
Şer ............ 386
Şer ............ 387
Şer ............ 387
Şer ............ 388
Gəncliyə acıma, qocalığa dair ............ 390
Zəmanənin pozulması, dostların verdiyi cəfa ............ 393
Kitab sahibi Yusif ulu Hacib özünə öyüd verir ............ 395

Ozğurmuş Ögdülmüşə öyüd verir ........................................ 371
Ögdülmüşün Ozğurmuşa cavabı ........................................ 376
Ögdülmüşün Elbaşıya cavabı ........................................ 379
Şer ........................................ 381
Şer ........................................ 382
Ögdülmüşün Elbaşıya cavabı ........................................ 383
Şer ........................................ 386
Şer ........................................ 387
Şer ........................................ 387
Şer ........................................ 388
Gəncliyə acıma, qocalığa dair ........................................ 390
Zəmanənin pozulması, dostların verdiyi cəfa ........................................ 393
Kitab sahibi Yusif ulu Hacib özünə öyüd verir ........................................ 395

Təkrar nəşr.

Yığılmağa verilmiş 23.10.2003. Çapa imzalanmış 10.12.2003.
Nəşrin formatı 60x901/16. Həcmi 25,25.
Sifariş 41.Tirajı 300.

"Şərq-Qərb" ASC çap olunmuşdur.
Bakı, A. Ələsgər küç., 17.